

## Mədət Məmmədov

Mədət Əyyub oğlu Məmmədov Azərbaycan Dövlət Universitetinin (indiki BDU) jurnalistika fakultəsinin tanınmış məzunlarındandır.

O, 1985–1989-cu illərdə Azərbaycan KP MK-nın "Kommunist" (indiki "Azərbaycan") nəşriyyatında mətbuatın yayılması üzrə Baş müfəttiş, 1989–1990-cı illərdə Azərbaycan KP MK-nın "Kommunist" (sonralar "Dirçəliş") ictimai-siyasi jurnalında məsul katibin müavini, 1990–1991-ci illərdə Azərbaycan KP MK-nın "Kənd həyatı" jurnalında Baş redaktorun müavini, 1992–1994-cü illərdə müstəqil "Doğru yol" qəzetinin Baş redaktoru, Mətbuat və İnformasiya Nazirliyində 1994-1996-cı illərdə şöbə rəisi, 1996-2001-ci illərdə KİV Baş İdarəsinin rəisi vəzifələrində, Azərbaycan Respublikasının Ombudsman (İnsan Hüquqları üzrə Müvəkkil) Aparatında İdarə rəisinin müavini və Azərbaycan Dövlət İnformasiya Agentliyində çalışmışdır.

2003-cü ildən "Jurnalistlərin Həmrəyliyi Komitəsi" İctimai Birliyinə rəhbərlik edən Mədət Məmmədov ölkəmizdə jurnalist peşəkarlığının artırılmasında, dördüncü hakimiyyətin cəmiyyətdə öz funksiyasını yüksək səviyyədə gerçəkləşdirməsində müstəsna xidmətlər göstərmişdir.

Mədət Məmmədov nüfuzlu "Qızıl Qələm" və "Həsən bəy Zərdabi" media mükafatlarına layiq görülmüşdür.

MƏDƏT MƏMMƏDOV ● DÖVLƏT VƏ DÖRDÜNCÜ HAKİMİYYƏT

MƏDƏT MƏMMƏDOV

# DÖVLƏT və DÖRDÜNCÜ HAKİMİYYƏT



Mədət Məmmədov

# DÖVLƏT və DÖRDÜNCÜ HAKİMİYYƏT

ADİLOĞLU

BAKI-2021

Ön söz: **Nizami Cəfərov,** *Əməkdar elm xadimi, akademik*

Məslətətçi: **Qulu Məhərrəmli,** *Bakı Dövlət Universiteti jurnalistika fakültəsinin professoru*

Redaktor: **Tahir Rüstəmov,** *Əməkdar jurnalist, "Həsən bəy Zərdabi" və "Ali media" mükafatçısı*

Rəyçilər: **Cahangir Məmmədli,** *Bakı Dövlət Universiteti jurnalistika fakültəsinin kafedra müdiri, professor*

**Cavanşir Feyziyev,**
*Milli Məclisin deputatı, fəlsəfə doktoru*

**Mədət Məmmədov. "Dövlət və dördüncü hakimiyyət".**
"Adiloğlu" nəşriyyatı, Bakı–2021. 264 səh.

*Demokratik cəmiyyət quruculuğunda azad medianın roluna tarixdə olduğu kimi, çağdaş dünyada da ciddi ictimai-siyasi önəm verilir. Söz azadlığının gerçəkləşməsi müstəqillik qazanmış xalqların həyatında daha zəruri amilə çevrilir. Bu baxımdan Azərbaycanda azad jurnalistikanın yaranması siyasi suverenliyin nəticəsi olduğu kimi, ölkəmizin müstəqil mediasının özü də demokratik dövlət quruculuğunda dördüncü hakimiyyət rolu oynayır.*

*Təqdim edilən "Dövlət və dördüncü hakimiyyət" kitabı ehtiva etdiyi bu iki fundamental anlayışın Azərbaycan cəmiyyətində qərarlaşması, dövlət və media münasibətlərinin sivil əsaslar üzərində qurulması prosesini əks etdirən sanballı və dəyərli nəşrdir. Müəllifin Azərbaycanda azad media quruculuğu barədə bu topluda yer almış nəzəri və praktik mülahizələri, ilk növbədə, jurnalistlərə ünvanlansa da, eyni zamanda, jurnalistika ilə sıx bağlı olan digər mütəxəssislər və oxucular üçün də gərəklidir.*

**İSBN 978-9952-37-363-9**

©M.Ə.Məmmədov,2021



*Milli özünüdərkin bərqərar olmasında, vətənpərvərlik hisslərinin aşılanmasında, milli və ümumbəşəri dəyərlərin təbliğində müstəsna rol oynamış Azərbaycan mətbuatı xalqımızın azadlıq və müstəqillik uğrunda mübarizəsinə öz böyük töhfəsini vermişdir.*

**Ümummilli lider Heydər ƏLİYEV**



*Söz və informasiya azadlığı, demokratiyanın inkişafı, hüquqi dövlətin qurulması Azərbaycanda çox vacib olan məsələlərdir. Mən hesab edirəm ki, bu sahədə ölkəmiz çox böyük və uğurlu yol keçmişdir.*

**Azərbaycan Respublikasının Prezidenti**
**İlham ƏLİYEV**

# ÖN SÖZ

## Müstəqil Azərbaycan dövlətinin media quruculuğu salnaməsinin bələdçisi

"Dövlət və dördüncü hakimiyyət", yaxud "Hakimiyyət və media" şəklində qəliblənmiş ictimai-siyasi tandem çağdaş dünyada insan hüquq və azadlıqlarının qədərincə təmin edilməsi baxımından zaman keçdikcə aktuallığını zərrə qədər itirməyən anlayışdır. Dünya birliyində layiqincə təmsil olunmağın əsas göstəricilərindən biri də məhz hər bir ölkədə dövlətlə media arasında münasibətlərin demokratik səviyyəsi sayılır.

Təsadüfi deyil ki, keçmiş sovet məkanında yaranmış müstəqil dövlətlər Avropa Şurasına qəbul edilərkən qoyulan tələblər sırasında həmin ölkələrdə söz azadlığının gerçək vəziyyətinə, dövlət və media münasibətlərinin sivil normalara uyğunluğuna önəmli yer ayrılmışdı. Və bu gün öyünclə xatırlayırıq ki, 2001-ci ildə Azərbaycan beynəlxalq aləmin bu nüfuzlu qurumuna qəbul edilərkən ümumi tələblər sırasında yer almış media azadlığının təmin edilməsi sahəsində gerçəkləşdirilmiş tədbirlər müzakirəsiz qəbul edilmişdi.

"Dövlət və dördüncü hakimiyyət" kimi diqqətçəkən və ictimai-siyasi tutumlu ad seçilmiş bu kitabın çapdan əvvəlki ilk oxucularından biri olaraq, "Ön söz" açıqlamasına yuxarıdakı girişlə başlamağımız heç də təsadüfi deyil. Buna əsas verən amil kitab müəllifi Mədət Məmmədovun ictimai-siyasi həyatın "dövlət və dördüncü hakimiyyət" kimi ciddi və həssas sferasına dərindən bağlılığı, belə bir fundamental mövzuda kitaba müəllif olmaq səlahiyyətini peşəkar və nüfuzlu jurnalist kimi çoxillik fəaliyyəti ilə qazanmasıdır. Əvvəla, Mədət müəllim ölkədə demokratik cəmiyyət quruculuğunun ilk onilliyində dövlətin

mükəmməl media siyasətinin gerçəkləşdirilməsində təcrübəli mütəxəssis və bacarıqlı rəhbər kadr olduğunu sübuta yetirmişdir. Bundan əlavə, o, sonrakı iki onillikdə mətbuatın fəaliyyətinin inzibati tənzimlənməsindən ictimai özünüidarəedilməsinə keçilməsi prosesinin uğurla davam etdirilməsində müstəqil jurnalist qurumu rəhbəri kimi yaxından iştirak etmişdir.

Bu yerdə xatırladaq ki, Azərbaycan dövləti Avropa Şurasına qəbul edilərkən ölkəmizdə media azadlığı ilə bağlı tələbə əməl edilməsini təsdiqləyən arayışın yeganə müzakirəsiz qəbul edilən bölmə kimi qəbul edilməsində o zaman müvafiq sənədləri hazırlamış keçmiş Mətbuat və İnformasiya Nazirliyində bu işə rəhbərlik etmiş Kütləvi İnformasiya Vasitələri Baş İdarəsinin rəisi Mədət Məmmədovun da layiqli xidməti olmuşdur. Onu da qeyd edək ki, ölkəmizdə ümummilli lider Heydər Əliyevin formalaşdırdığı dövlət media siyasətinin ardıcıl icra edilməsində müvafiq icra qurumunun KİV baş idarəsinin rəhbərinin bacarığı, məsuliyyəti və təşəbbüskarlığı o illərdə dərc olunmuş və aktuallığına görə bu kitaba da daxil edilmiş mətbu yazılardan aydın görünür. Mədət Məmmədov son 18 ildə isə Azərbaycan cəmiyyətində söz azadlığının təmin edilməsinin yeni səviyyəyə qaldırılması sahəsində ulu öndərin ən layiqli davamçısı Prezident İlham Əliyevin müəyyən etdiyi tədbirlərin həyata keçirilməsində “Azərbaycan Jurnalistlərinin Həmrəyliyi Komitəsi” İctimai Birliyinin  sədri olaraq fəal iştirak etməkdədir.

Bütün bunlar təqdim olunan kitabı mövzu, ideya və mahiyyət baxımdan qısaca səciyyələndirmək üçün ciddi, tutarlı və rəngarəng bir fon yaradır. Bu nəşr ölkəmizdə dövlət və dördüncü hakimiyyət münasibətlərinin aktuallığını, gerçəkləşmə aspektlərini, ümumi mənzərəsini, uğurlu nəticələrini və qarşıda duran hədəflərini xronoloji baxımdan izləmək üçün yetərli nəzəri, təcrübi və hüquqi bilgiləri əhatə edir.

Kitabın “Demokratik cəmiyyət və söz azadlığı” adlı birinci bölməsində müstəqil Azərbaycanda insan hüquq və azadlıqlarını ali səviyyəyə qaldıran sivil dövlətin əsaslarının yaradılması ilə bağlı ümummilli lider Heydər  Əliyevin gergəkləşdirdiyi tarixi tədbirlər

silsiləsi geniş nəzərdən keçirilir. Eyni zamanda, əvvəlki kommunist jurnalistikasından yeni azad mediaya rahat və qısa müddətdə transformasiyanın təmin edilməsi prosesi ciddi fakt və arqumentlər əsasında araşdırılır. Müəllif yeri gəldikcə ulu öndər Heydər Əliyevin hələ sovet dövründə Azərbaycana birinci rəhbərliyi zamanı kütləvi informasiya vasitələrində aşkarlığın artırılması, cəmiyyət həyatının mətbuatda və teleradioda doğru-düzgün işıqlandırılması üçün yaratdığı üstün şəraitin tarixi önəmindən də söz açır.

Beləliklə, milli jurnalistikamızın böyük hamisi və ölkə jurnalistlərinin ən yaxın dostu olduğunu Azərbaycana bir qərinəlik rəhbərliyi dövründə müstəsna liderlik fəaliyyəti və doğru sözə rəğbət nümunəsi ilə sübut etmiş Prezident Heydər Əliyevin yeni şəraitdə söz azdlığının ardıcıl bərqərar olması üçün gördüyü tarixi işlərin möhtəşəm mənzərəsi kitabda sistemli əksini tapıb. Müstəqil dövlətin media siyasətinin özülünü formalaşdırmış bu tədbirlər sırasında müəllif Azərbaycanda söz və mətbuat azdlığının, tarixən, ilk dəfə ulu öndərin rəhbərliyi ilə hazırlanmış Konstitusiyamızda layiqincə təsbit olunması, Prezident Heydər Əliyevin xüsusi fərmanı ilə KİV üzərində senzuranın ləğvi, ümummilli liderin rəhbərliyi və tövsiyələri ilə hazırlanmış KİV haqqında ilk demokrqatik qanunun qəbul edilməsi kimi fundamental əsasların şərhinə geniş yer ayırır.

Haqlı olaraq, bu nəşrdə Azərbaycanda senzuranın ləğvi jurnalistika və demokratik dəyərlər tariximizin ilk cəsarətli addımı kimi dəyərləndirilir. Müəllif bu hadisəni dünya səviyyəli siyasət və dövlət xadimi olduğunu dönə-dönə təsdiqləmiş Heydər Əliyevin Şərqdə ilk dəfə ölüm hökmünə son qoyması addımına bərabər tutur. Doğrudan da, ölüm hökmünün yasaqlanması insana bir dəfə verilmiş yaşamaq haqqının çoxəsrlik Azərbaycan tarixində ilk dəfə ən yüksək səviyyədə təsbit edilməsi idi. Cəmiyyətdə sərbəst söz demək hüququ üzərində binadan mövcud olmuş dövlət nəzərətinin birdəfəlik aradan qaldırılması isə “həqiqətin dara çəkilməsinə” sivil cəmiyyətə layiq olmayan bir mənəvi cəza kimi son qoyulması demək oldu.

Mədət Məmmədov Azərbaycanda demokratik media quruculuğunun ilk illərinin canlı şahidi və fəal iştirakçısı kimi KİV-in sonrakı daha yüksək inkişafı mərhələsi ilə bağlı ulu öndərin böyük yolunun davamından da eyni həvəs və bələdliklə söhbət açmışdır. Bununla müəllif həmin alternativsiz siyasi xəttin modern davamçısı İlham Əliyevin adı ilə bağlı, milli jurnalistikamızın cəmiyyətin hərtərəfli tərəqqisi dövrünün tələblərinə uyğun inkişafına yönəlik məqsədyönlü tədbirlər silsiləsində hər bir addımın rolunu və önəmini qədərincə incələməyə nail olmuşdur.

Xatırladaq ki, 2003-cü ildə ulu öndər Heydər Əliyevin xeyirduası ilə keçmiş sovet məkanında medianın ilk özünütənzimləmə qurumu olan Azərbaycan Mətbuat Şurası yaradılmışdı. Bu addımın önəmini açıqlayan Mədət Məmmədov canlı efir yayımında ümummilli maraqları təmin edən Teleradio Şurasının ərsəyə gəlməsini, KİV-ə dövlət dəstəyi konsepsiyasının hazırlanıb fəaliyyətə başlamasını da ciddi arqumentlərlə əsaslandırmışdır. Müəllif Azərbaycan dövlətinin bu demokratik addımlarını Prezident İlham Əliyevin postsovet məkanda model media quruculuğunu ilk olaraq gerçəkləşdirməsinin tarixi nailiyyəti kimi təqdim etmişdir.

Kitabın "Media azadlığı və sosial məsuliyyət" adlandırılan II bölümündə təcrübəli media qurucusu və eksperti olaraq, Mədət Məmmədov əvvəlki hissədə irəli sürüb-əsaslandırdığı müddəa və qənaətlərin Azərbaycan mediasının gündəlik fəaliyyətində necə əksini tapmasına ayrı-ayrı dövrlərdə KİV-ə verdiyi açıqlamalarında, həmkarları ilə müsahibə-söhbətlərində söylədiyi mülahizələrlə aydınlıq gətirmişdir. Bu yazıların xronoloji ardıcıllıqla, eyni zamanda, günümüzün tələbləri baxımından topluya daxil edilməsi ölkəmizdə media azadlığının ümummilli səviyyədə zəruri sayılan sosial məsuliyyət anlayışı ilə necə uzlaşmasını yaxından izləməyə imkan yaradır.

Təqdirolunası bir məqam da ondan ibarətdir ki, Mədət Məmmədov istər elmi-nəzəri səciyyəli məqalələrində , istəsə də KİV-ə açıqlama və müsahibələrində Azərbaycan media quruculuğunun normativ-hüquqi

bazasını təşkil edən rəsmi dövlət aktlarına və buna bərabər tutulan sənədlərə ardıcıl olaraq istinad etmişdir. Müəllif həmin materialların ən mühümlərini həmkarlarının və jurnalistika tarixi və nəzəriyyəsi ilə maraqlanan digər oxucuların da geniş istifadə etməsi üçün topluya daxil etmişdir. Bu sənədlər Azərbaycan prezidentləri Heydər Əliyevin və İlham Əliyevin imzaları ilə təsdiq olunmuş media qanunvericiliyi aktlarını, milli jurnalistika tariximizin əlamətdar hadisələri ilə bağlı fərman və sərəncamları, dövlət başçılarının KİV kollektivlərinə təbrik və müraciətlərindən örnəkləri, eləcə də jurnalistlərlə müxtəlif formatlı görüşlərində söylədikləri qiymətli mülahizələri əhatə edir.

Bütövlükdə, Mədət Məmmədovun "Dövlət və dördüncü hakimiyyət" kitabı demokratik cəmiyyətdə azad, müstəqil medianın qoşa qütblərini əks etdirən iki fundamental anlayışın Azərbaycan gerçəkliyində dünya çapında qəbul edilən bir mövqe tutması prosesinə işıq salan ilk dəyərli nəşrlərdən biri sayılmağa layiqdir. İnamla bildiririk ki, bu nəşr nəzəri-praktik dəyəri və ideya-məfkurəvi sanbalı ilə müəllifin Azərbaycanın jurnalistika ictimaiyyətinə layiqli töhfəsidir. İnanırıq ki, "Dövlət və dördüncü hakimiyyət" toplusu ölkəmizdə söz azadlığı prinsiplərinin bundan sonra da dərinləşməsi və yüksəlişi prosesinə yaradıcı stimul verəcəkdir.

**Nizami CƏFƏROV,**
*Əməkdar elm xadimi,*
*akademik*

# I. DEMOKRATİK CƏMİYYƏT VƏ SÖZ AZADLIĞI

## (Məqalələr, şərhlər)

Demokratiyanın, siyasi plüralizmin və vətəndaş cəmiyyətinin əsas atributlarından hesab olunan söz və məlumat azadlığının başlıca daşıyıcıları kütləvi informasiya vasitələridir.

**Ümummilli lider Heydər ƏLİYEV**

# Bir ürək yanırdı

## Ulu öndər Heydər Əliyev haqqında düşüncələr

***Sovet dövründə orta məktəbdə oxuyanda Maksim Qorkinin "Dankonun ürəyi" adlı bir hekayəsini biz hələ aşağı sinifdə öyrənirdik. Həmin hekayədə deyilirdi ki, düşmən təqibindən qaçanda qaranlıq meşədə azıb yolu itirmiş insanları fəlakətdən Danko adlı bir gənc xilas eləyib. O, ürəyini çıxarıb əlində məşəl kimi tutub və qabağa düşüb. Ürəkdən yayılan alovun işığında cəngəllik meşədə yol görünüb və insanlar xilas olublar.***

Elə o vaxtdan məndə belə bir fikir yaranıb ki, ürəkdə od var, işıq var. Kim yüksək inam və fədakarlıqla həyat çırağı olan ürəyini bütün varlığı ilə insanlara həsr edirsə, demək, onun qəlbinin odu-atəşi var, əməlinin işığı var. Bu işığa üz tutanlar daha doğru yolu görər, həyatın qaranlıqlarında məhv olmazlar. Azərbaycan xalqının tarixi taleyində əvəzsiz xidmətləri olan ümummilli lider Heydər Əliyev də, sözün həqiqi mənasında, qəlbində yanan işıqla qaranlıq məqamlarda xalqımıza işıqlı yollar açıb. Əgər öz xalqının taleyindəki xidmətlərinə görə tarixi şəxsiyyətləri sıralamalı olsaydıq, ulu öndərimizin adı birincilər sırasında olardı.

Tarixi təcrübə göstərir ki, imperiyalar çökəndə ayrı-ayrı xalqlar azadlığa can atır. Əsarətdə yaşayan toplumlar yaranmış şəraitdən fay-

dalanıb öz müstəqilliklərinə qovuşmaq istəyirlər. Ancaq çökməkdə olan və keçmiş gücünə güvənən müstəmləkəçi dairələr onların bu istəkləri ilə razılaşmır. Baş qaldıran xalqları boğmaqla, əzməklə onları bir daha köhnə qaydalarla yaşamağa məcbur etmək istəyirlər. Bunun üçün zor da, hiylə də, siyasi intiriqalar da, münaqişələr də… hər nə desən məqbuldur, təki azadlığa can atmaq istəyən qüvvələri məhv etmək mümkün olsun.

Sovet imperiyasının dağılmasının siyasi fitili olmuş Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və onun faciəli nəticələri olan qanlı savaşlar, ölkəmizin 20 faiz ərazisinin 30 il işğal altında qalması, 1 milyon soydaşımızın tarixi torpaqlarımızda qaçqın-köçkünə çevrilməsi də məhz dünyadakı hakim dairələrin qara niyyətlərinin nəticəsi idi. Məlumdur ki, Azərbaycan xalqı XX əsrin əvvəllərində öz azadlığına qovuşmuş və bu yolda müəyyən qədər tarixi-siyasi təcrübə qazanmışdı. Yəni artıq Azərbaycan xalqının yaxın tarixdə qaldırdığı azadlıq bayrağı bir yaddaş fenomeni kimi unudulmamışdı, milli ayıqlıq çırağı kimi yanırdı və milli varlığa bağlı ürəklərdə yaşayırdı. Beləliklə, XX əsrin son onilliyində Azərbaycan xalqı 70 ildən sonra yenidən azadlıq bayrağını ucaltmaq gücündə olduğunu öz iradəsi ilə təsdiq elədi.

Əlbəttə, bunun üçün bizim xalqımızın başını sığallamadılar. Xalqımız 20 Yanvar qətliamından keçdi. 1990-cı ilin yanvarında baş verən həmin qanlı hadisəyə kəskin münasibətini bildirmək üçün ali partiya və sovet rəhbərliyindən kənarlaşdırılmış, hərtərəfli təcrid olunmuş, Moskvada sərt nəzarət altında yaşamaq məcburiyyətində qalmış böyük soydaşımız, dünyanın yaxşı tanıdığı görkəmli siyasi xadim Heydər Əliyev heç nədən, hətta canından belə qorxmayaraq ailə üzvləri ilə birlikdə Azərbaycan nümayəndəliyinə gəlmiş və bədnam Mixail Qorbaçov başda olmaqla, siyasi intiriqantların gözü qarşısında onları ifşa etmiş və xalqımızla birgə olduğunu bəyan etmişdi.

Həmin ilin yayında bu qüdrətli insan bütün maneələri aşaraq, müxtəlif müqavimətləri qıraraq Azərbaycana gələ bilmişdi. Burada

da onu müəyyən dairələrin bədxahlığı və biganəliyi gözləyirdi. Terror, sui-qəsd, gözdənsalma planları da istisna deyildi. Bütün bunlar dünya şöhrətli siyasət və dövlət xadiminin tükənməz əzmini, sarsılmaz iradəsini qıra bilməmişdi. Bu dahi şəxsiyyət Bakıda öz xalqı ilə bir yerdə olub, ölkəsinin düşmən qüvvələrə qarşı mübarizəsində iştirak etməyin mümkün olmadığını gördükdə, Naxçıvana üz tutmuşdu.

O zaman xalq arasında – sadə insanların çevrəsində belə bir söz dolaşırdı: "Azərbaycan batdı, Naxçıvan xilas oldu". İnsanlar onun əzəmət və qüdrətini, ali amalını və tarixi mübarizəsini belə görür, belə qiymətləndirirdilər. Bu, o zaman idi ki, ermənilər bütün cəbhə boyu hücuma keçmiş, demək olar ki, hərbi üstünlük əldə etmiş, mövqelərini möhkəmləndirmişdilər. Nəhayət, siyasi çəkişmələrin həddini aşması, qüvvələri cəmləməyin mümkün olmaması o yerə gətirib çıxarmışdı ki, az qala, Azərbaycan müstəqilliyini yenidən itirməli olmuşdu. Xalq küçələrə çıxıb Heydər Əliyevin Bakıya gəlməsini istədiyini bəyan edir, yalnız onun işığı ilə xilas olmağın mümkünlüyünü açıq-aşkar bəyan edirdi.

Gəncə hadisələri… Vətəndaş müharibəsinə bircə addımlıq məsafənin qaldığı bir zaman… Xalqın təkidli tələbi ilə Heydər Əliyev Azərbaycanı xilas etmək üçün o zaman Bakıya gəlmişdi. Gözlərdə, ürəklərdə ümid işığı yanmışdı. İnsanlar öz iradələrinə, inamlarına güvənərək, qüdrətli siyasi xadimin, böyük siyasətçinin ətrafında toparlanmış, ona dayaq olacaqlarını, hər vaxt onunla birgə olacaqlarını bir and kimi səsləndirmişdilər.

Mənim yaxşı yadımdadır, o günlərdə bütün dünya Azərbaycandakı prosesləri xüsusi maraqla izləyirdi. Və başlıcası, Vətənimizə tamah məqsədilə can atan qüvvələr dövlətçiliyimizi dağıtmağı, Azərbaycanı unitar dövlətdən parçalanmış əyalətlərə çevirməyi əsas məqsəd kimi qarşılarına qoymuşdular. O günlərdə və həftələrdə Dağlıq Qarabağ faktiki işğal olunmuş, ətraf ərazilərdə əsas mövqelər əldən verilmişdi. Şimalda və Cənubda separatçılar baş qaldırmışdı. Vətən xainləri əvvəllər meydanlarda özlərini qəhrəman kimi göstərsələr də, o böhranlı məqamda qaçıb gizlənmişdilər.

Bax, belə bir zamanda hakimiyyətdə olan AXC–Müsavat rəhbərliyinin siyasi qarşıdurmanı aradan qaldırmaq üçün Bakıya dəvət etdiyi– 1993-cü ilin 15 iyununda ölkə parlamentində Ali Sovetin sədri seçilərək Azərbaycanda hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyev bir neçə gün sonra prezident səlahiyyətlərini də icra etməli olmuşdu. Həmin ilin 3 oktyabrında isə Azərbaycanın müstəqilliyinin xilaskarına çevrilmiş ulu öndər Heydər Əliyev Azərbaycan xalqının çox böyük əksəriyyətinin səsi ilə müstəqil dövlətin ilk həqiqi prezidenti seçilmişdi.

O tarixi günlərin həyəcanları mənim və həmyaşıdlarımın yadından heç vaxt çıxmayacaq. Azərbaycan xalqının böyük oğlu səsvermədən 7 gün sonra– oktyabr ayının 10-da müstəqil Azərbaycan Respublikasının ilk həqiqi prezidenti kimi and içdi. Həmişəki kimi o, bütün qəlbinin odu və hərarəti ilə danışırdı. Sanki, sözlər onun ruhundan, varlığından, damarlarından keçən qan kimi süzülüb gəlirdi: "Müstəqil Azərbaycan Respublikasının prezidenti seçilməyimi yüksək qiymətləndirirəm və bu münasibətlə Azərbaycan xalqına, Azərbaycan Respublikasının bütün vətəndaşlarına öz hörmət və ehtiramımı, dərin minnətdarlığımı bildirirəm". Sözlər seçimi, sərrastlığı, dəqiqliyi ilə kamil düşüncədən, incə hissiyyatdan qaynaqlanırdı. Nitqinə elə ifadələrlə başlamışdı ki, ilk sözlərdəncə daxili əminlik, xalqa doğmalıq, insanlara sevgi açıq-aşkar duyulmuşdu.

Söhbət onu kimin seçməyindən deyil, bütövlükdə, Azərbaycan xalqının taleyindən getmişdi. Ulu öndər hörmətini və ehtiramını bax beləcə heç kəsdən əsirgəmirdi, hətta əleyhidarlarından da. Elə həmin məntiqlə də fikrinin davamına keçmişdi. Diqqəti xalqımızın düşdüyü girdaba, faciənin dərinliyinə çəkmişdi. Sanki, bununla da hər kəsi, yəni Azərbaycanı istəyən hər insanı və hamını öz ölkəsinin müstəqilliyini qorumaq uğrunda mübarizəyə səsləmiş, həmrəyliyə çağırmışdı: "Azərbaycan xalqı öz tarixinin ən mürəkkəb, faciəli dövrünü yaşayır. Məhz bu dövrdə mənim üzərimə qoyulan bu vəzifənin məsuliyyətini dərindən dərk edirəm və əmin etmək istəyirəm ki, bütün fəaliyyətimi,

bütün həyatımı bu etibarı doğrultmaq, xalqın ümidlərini doğrultmaq işinə həsr edəcəyəm".

Azərbaycan xalqı, tarixən, içdiyi anda müqəddəs bir borc kimi yanaşıb. Andı pozmaq Vətənə xəyanət qədər bağışlanmaz əməl sayılıb. Tarix göstərdi ki, içdiyi andın keşiyində dura bilməyənlər də var. Ümummilli lider Heydər Əliyev isə müstəsna qüdrət sahibi kimi, Ali Baş Komandan kimi və ən başlıcası, bütün dünyanın gözü qarşısında böyük faciələrə düçar edilmiş Azərbaycan xalqını axıracan qoruyacağına içdiyi anda hamını inandırırdı. Hər kəs onun andını müqəddəs, saf diləklər kimi qəbul edirdi: "Belə bir yüksək və məsuliyyətli vəzifəni öz üzərimə götürərkən, birinci növbədə, Azərbaycan xalqının zəkasına, müdrikliyinə, qüdrətinə güvənirəm, arxalanıram. Azərbaycan xalqının mənə bəslədiyi ümidlər məni bu vəzifəni üzərimə götürməyə məcbur edibdir. Əmin etmək istəyirəm ki, bu ümidləri doğrultmaq üçün əlimdən gələni əsirgəməyəcəyəm". Xalq özünün böyük rəhbərinə inanırdı. Tarix göstərdi ki, bu inam nə qədər böyük əsasa güvənib.

Biz ali məktəbdə oxuyarkən, fəlsəfə fənnində belə bir mövzu öyrənirdik: "Tarixdə şəxsiyyətin rolu". O dövrün tələbinə uyğun olaraq, biz bu mövzunu nəzəri cəhətdən öyrənirdik, amma bu anlayışın psixoloji köklərini, mahiyyətini isə həyatda öyrəndik. Həyat göstərdi ki, Heydər Əliyev kimi qüdrətli bir şəxsiyyət tarix səhnəsinə qayıtmasaydı, Azərbaycan indiki uğurlarına nəinki çata bilməzdi, bəlkə, ərazisini, yenicə qazandığı müstəqilliyini də qoruyub saxlaya bilməzdi.

Həyatımın gedişi, tale mənə ulu öndər Heydər Əliyevin müasiri olmaq, onun müdrik rəhbərliyi altında işləmək xoşbəxtliyi qismət etmişdi. Mətbuat və İnformasiya Nazirliyində KİV baş idarəsinin rəisi işlədiyim dövrdə mənim üçün ulu öndərin çıxışları, mətbuat qarşısında qoyduğu vəzifələr aydın, mükəmməl proqram olub. Mən öz işimi həmişə onun fikir və düşüncələrinin əsasında, qarşımıza qoyduğu vəzifələrin tələbləri səviyyəsində qurmağa çalışmışam. Daha aydın məqsədi, daha yüksək məramı onun göstərdiyi yolla ardıcıl getməyimdə görmüşəm. Ona görə də vaxtilə "Ad günü" adı ilə təsis olunan

aylıq dərgiyə ilk uğur diləyən çıxışımın da əsas məğzi Heydər Əliyevin adı ilə bağlı olub:

“Həyatda qazandığım ən böyük uğurlar hörmətli Prezidentimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ona görə də “Ad günü” qəzetinin fəaliyyətə başlamasına imza atılmasında mənim də iştirakım olduğu üçün özümü xoşbəxt hesab edirəm. Çünki bilirdim ki, bu qəzet nəhəng şəxsiyyətin ad günü ilə bağlıdır. Heydər Əliyev haqqında çox deyilib, çox yazılıb və bunların həmişə olacağına mən öz varlığım kimi inanıram. Amma hey fikirləşirəm ki, ona olan duyğularıma necə rəng verim? Necə ifadə edim ki, ürəyimin yanğısına bir balaca su səpə bilim. İndi zamanların fonunda düşünürəm: bircə təsəllimiz həmişə var olacaq, belə bir tarixi şəxsiyyətin–dövlətçiliyimizin, müstəqilliyimizin, ən başlıcası, millət kimi yer üzündə yaşamağımızın ulu Tanrı tərəfindən elçisi olan bir varlığın müasiri olduq. Budur bizim ən böyük xoşbəxtliyimiz”.

Heydər Əliyev fenomeni tarixlərin–yüz illiklərin, min illiklərin o başına yetişəcək və əbədi yaşayacaq. Biz ruhumuzla, düşüncəmizlə ona doğru həmişə can atacağıq. Çünki onun hüdudsuz mənəvi aləmindən qalan irs bizə təkan verəcək, daim irəliyə aparacaq.

Mən o vaxt düşünürdüm ki, Heydər Əliyev elə bir simadır, elə bir şəxsiyyətdir ki, onun tarixi-siyasi fəaliyyətini işıqlandırası olan mətbuat orqanı xalqımızın mənəvi yüksəlişində xüsusi xidmətlər göstərə bilər. Yəni Heydər Əliyevin dünyaya gəldiyi tarixin və şəraitin, həmin dövrün ab-havası ilə böyümək ən yaxşı həyat məktəbidir və hər bir gəncin Azərbaycan ziyalısı və siyasi xadimi kimi formalaşması üçün olduqca zəruridir. Və bütün bunları öyrənmək vacibdir. Ona görə də mən düşüncələrimdə dərginin proqramına uyğun məsləhətlərimi verməyə çalışmış və bunu düşüncələrimdə də göstərməyə can atmışam.

Burada imkan düşmüşkən, bir məsələni xüsusilə qeyd etmək istərdim. Ulu öndər Heydər Əliyev Azərbaycan mədəniyyətinin, incəsənətinin, ədəbiyyatının böyük hamisi, lider messenatı idi. Təkcə

xeyirxahı deyildi, o, bütün zəkası ilə Azərbaycan fenomeninin inkişafına, təkanlı irəliləyişinə nail olmağa çalışırdı. Ötən əsrin 90-cı illərinin qalmaqalları, gərginlikləri, neft kontraktları ilə bağlı müqavimətlər zamanında Füzuli, Üzeyir Hacıbəyli, Niyazi, Arif Məlikov, Səttar Bəhlulzadə, Məmməd Araz… kimi fikir və düşüncə adamlarının, qüdrətli sənətkarların yubileylərinin keçirilməsinə sərəncamlar verib, onların ev müzeylərini açdırıb. Böyük rəhbər tez-tez ədəbi-bədii yığıncaqlarda çıxışlar edir, xalqımızın mənəvi varlığının qüdrətini dünyaya bəyan edirdi.

Ümummilli lider Heydər Əliyevin Moskvada ölməz Füzulinin 500 illik yubileyinə həsr olunmuş 17 noyabr 1994-cü il tarixli yığıncaqdakı nitqində maraqlı bir məqam var. Ulu öndər çıxışında deyirdi: "Moskvanın, Rusiyanın ən gözəl saraylarından biri Rusiyanın, digər xalqların incəsənət, mədəniyyət xadimlərinin yubileylərinə, həyat və yaradıcılıqlarının əlamətdar ildönümlərinə həsr olunmuş bir çox unudulmaz gecələri xatırlayır. Bu salonda Azərbaycan mədəniyyəti korifeylərinin yubileyləri dəfələrlə bayram edilmişdir. Lakin bugünkü gecə xüsusi əhəmiyyətə malikdir. Bu gün Rusiya paytaxtında Məhəmməd Füzulinin 500 illiyi – müstəqil Azərbaycan dövləti şairinin yubileyi qeyd olunur. Bunun xüsusi mənası var. Elə bunun özü də ona dəlalətdir ki, Azərbaycan və rus xalqlarını, Rusiya və Azərbaycan xalqlarını birləşdirən dostluq telləri möhkəm və pozulmazdır, bu telləri heç nə qıra bilməz. Bu tellər əbədi olacaq və gündən-günə möhkəmlənəcəkdir".

Bəli, ulu öndər böyük ədəbiyyat klassikinin – ustad Füzulinin yubiley tədbirində moskvalılarla, Rusiya ziyalıları ilə bəşəri bir dildə danışırdı. Bu dilin gücü orasındadır ki, insanları birliyə, doğmalığa səsləyir. Xalqımızın dahi oğlu çox ustalıqla yenidən sözünə davam edərək Azərbaycanın – dünyaya Füzuli kimi bir sənətkar bəxş etmiş bir ölkənin və onun xalqının böyük ağrılarını və dərdlərini də yada salırdı: "Bütün Yer kürəsində, o cümlədən də keçmiş Sovet İttifaqının ərazisində baş verən ictimai-siyasi proseslər müxtəlif bölgələrdə, eləcə

də, bizim Qafqazda adamların həyatını, təbii olaraq, çətinləşdirir, haradasa düşmənçilik, qarşıdurma şəraiti yaradılır. Biz burada, Moskvada Füzulinin 500 illiyini qeyd edərkən qəti şəkildə bildiririk ki, bütün bu hallar keçib gedəndir, onlar əsrlər boyu xalqlar arasında toplanmış, yaradılmış nə varsa, hamısını–dostluq, qarşılıqlı hörmət, qarşılıqlı yardım hisslərini sarsıda bilməz. Buna görə də belə düşünürəm ki, biz hamımız bu çətinlikləri əl-ələ verib birlikdə aradan qaldıracağıq, ümumbəşəri dəyərlərə xidmət etmək, ümumbəşəri amallara xidmət etmək üçün birləşəcəyik".

Göründüyü kimi, ulu öndər Heydər Əliyev hər hansı bir nitqində müxtəlif məsələləri eyni bir məcraya yığmağı bacarırdı. Onun gücü də, qüdrəti də məhz belə məqamlarda parlaqlığı ilə görünürdü. Onu müdrik bir lider kimi tanıyan hər kəs böyük öndərin ideyalarından bəhrələnir və əməli fəaliyyətini daha məharətlə qura bilir. Dərin zəka sahibinin Azərbaycanda azad mətbuatın inkişafı üçün gördüyü işlər çoxlarına təəccüblü gəlirdi. Çoxları düşünürdü ki, mətbuata bu qədər qol-qanad verməsi onun siyasi fəaliyyətinə əngəl ola bilər. Ancaq o, bütün bunlardan qorxub-çəkinmirdi. O, xalqla açıq danışmağı bacarırdı, hiss edirdi ki, insanlar keçmiş Sovet stereotipləri ilə idarə oluna bilməzlər. Ona görə də hər hansı bir məsələni, ilk növdəbə, xalqla razılaşdırırdı.

Böyük siyasət qrossmeysteri müstəsna bir uzaqgörənliklə Rusiyadakı milyonlarla azərbaycanlılara qarşı ermənilərin yaratdığı mənfi rəyi dağıtdı. Azərbaycan lideri Rusiya rəhbərliyi ilə əlaqələri elə tənzimlədi ki, soydaşlarımızın dağıdıcı fəlakətlərə səbəb olacaq böyük axınının qarşısı alındı. Azad Azərbaycan mətbuatı, ağıllı jurnalistlər xalq naminə bu misilsiz xidmətlərin dəyərini yaxşı bilirdi. Heydər Əliyev Azərbaycan xalqının lideri kimi xalqı narahat edən, düşündürən problemləri vaxtında aşkarlayır və mətbuatın müzakirəsinə verirdi.

Müstəqil ölkənin Prezidenti kimi Heydər Əliyev yeri gəldikcə, Azərbaycan jurnalistləri ilə görüşlər keçirir, dünyanın nüfuzlu mətbuat və televiziya jurnalistlərinə müsahibələr verir və bütün məqam-

larda azad sözü müdafiə edirdi. Ulu öndər "Jurnalistlərin dostu" adına layiq görüləndə media ictimaiyyətinin bu yüksək qiymətinə mən də ürəkdən sevindim. Əlbəttə, Heydər Əliyev dünyanın bir sıra yüksək dövlət və ictimai qurumlarının nüfuzlu mükafatlarına layiq görülüb. Ancaq mənim nəzərimdə öz ölkəsində "Jurnalistlərin dostu" olmaq və belə bir mükafata layiq görülmək onun bilavasitə azad sözün himayədarı və keşikçisi olmaq missiyasının təsdiqi idi.

O vaxt bu münasibətlə "Xronika" qəzeti əməkdaşının müraciətinə cavab olaraq bildirmişdim: "Heydər Əliyevin Azərbaycan jurnalistikasına misilsiz xidməti, buna görə aldığı "Jurnalistlərin dostu" mükafatı bu günün yox, sabahın, gələcək nəsillərin dəyərləndirməyə çalışacağı bir qiymətdir. Onun dünya siyasətində uzaqgörənliyi millətimizi xoşbəxt gələcəyə aparır. Bu tutduğu yolda möhtərəm prezidentimizə uğurlar arzulayır, onu dəstəkləyirik. İnanırıq ki, bu böyük insan ölkəmizin xilaskarı kimi, hələ uzun müddət öz xalqına xidmət edəcək. Ağır bir dövrdə xalqımızın xilaskarı olaraq böyük dövlət təcrübəsi olan Heydər Əliyevin rəhbərliyə qayıtması nəticəsində ölkəmiz tarixi nailiyyətlər əldə etmişdir. Hər şeydən öncə bütün dünyada Azərbaycan adlı məmləkətin yeri müəyyənləşib. Möhtərəm prezidentimizi doğum günü münasibətilə ürəkdən təbrik edirik, ona yeni-yeni uğurlar arzulayırıq". *("Xronika" qəzeti, 10 may, 2002-ci il).*

Dünya səviyyəli siyasət və dövlət xadimi Heydər Əliyev Azərbaycan dövlətinin əsas ideyası kimi azərbaycançılığın nəzəri əsaslarını mükəmməl şəkildə işlədi və bunu həm nəzəri, həm də praktik baxımdan əsaslandırdı. Bu ideyanı bilavasitə özünün rəhbərliyi və təşkilatçılığı ilə reallaşdırdığı Dünya Azərbaycanlılarının I Qurultayında (9–10 noyabr 2001-ci il, Bakı) dünyaya səpələnmiş bütün Azərbaycanlıların nəzərinə çatdırdı. Heydər Əliyev nə istəyirdi? O istəyirdi ki, bütün dünya Azərbaycanlıları bir ideya ətrafında birləşsinlər. Dünya azərbaycanlılarının lideri kimi ulu öndər dünyanın hər yerindən gəlmiş fikir və düşüncə adamlarının hər birinə Azərbaycanı doğma məkan kimi təqdim etdi. Ulu öndər onlarda belə inam yaratdı ki,

müstəqil Azərbaycan dövləti dünyanın hər yerindəki azərbaycanlı üçün doğma evdi.

Mən o çıxışı çox böyük diqqətlə dinləyirdim. Bu, təkcə çıxış deyildi, həm də Heydər Əliyevin ürəyinin böyük yanğısı idi. Ümummilli lider sonsuz bir inamla deyirdi: "Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı – Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq. Azərbaycan dilinin inkişafı haqqında bizim qəbul etdiyimiz geniş qərar məhz bu məqsədi daşıyır. Biz Azərbaycanın latın əlifbasına keçməsi haqqında qərar qəbul etdik. İndi Azərbaycanda hamı, bütün dövlət orqanları yalnız latın əlifbasından istifadə edir. Bu da bizim milliliyimizi, azərbaycançılığımızı göstərən çox mühüm bir amildir. Biz bundan sonra da Azərbaycan dilinin inkişaf etdirilməsi üçün səylərimizi davam etdirəcəyik".

Kimsəyə sirr deyil ki, siyasi ideologiyanı hansısa dinlə, ayrı-ayrı partiyaların proqramları ilə əlaqələndirənlər, yozanlar az deyil. Amma ulu öndər dünyanın hər yerinə səpələnmiş azərbaycanlıları eyni mənəvi məkanda birləşdirməyin yeganə yolu kimi azərbaycançılığı əsas götürdü. Azərbaycan ərazisi tarixən müxtəlif etnosların birgə yaşayış yeri olub. Orası da tarixin yaddaşından silinmir ki, ayrı-ayrı vaxtlarda bu etnosların arasına nifaq toxumu səpmək istəyənlər də az olmayıb. Ancaq azərbaycançılıq bir ideya kimi bizi bir-birimizə bağlayır və bu güclü, mənəvi bağlılıq əhatəsində yurdumuzu, məmləkətimizi bayrağımızın rənglərində ifadə olunmuş məfkurənin işığında görürük. Ulu öndər əlifba məsələsində böyük uzaqgörənliklə dünya sivilizasiyasına qovuşmağın sabahını görürdü. Böyük Türkiyə ilə mənəvi bağların daha da sıxlaşması, doğmalıq və ünsiyyət üçün əlifbanın əvəzsiz siyasi və mənəvi əhəmiyyəti vardır.

Şübhəsiz, Heydər Əliyev böyük türk oğlu kimi Turanın mənəvi birliyinə də xüsusi əhəmiyyət verirdi. Elə ona görə də Azərbaycan dilinin inkişafı üçün bütün imkan və vasitələrdən istifadə olunmasını

tövsiyə edirdi. Ölməz lider bütün bunların hamısını Dünya Azərbaycanlılarının Qurultayında yüksək tribunadan Azərbaycan dilini sevənlərin hamısına çatdırırdı: "Bilirsiniz, hər bir millətin dili onun üçün çox əzizdir. Bizim üçün Azərbaycan dili – ana dilimiz həddindən artıq əzizdir. Çünki çox illər ana dilimiz, Azərbaycan dili həyatımızda geniş yer ala bilməmişdir. Amma buna baxmayaraq, hər bir azərbaycanlı dilin qorunub saxlamasında az da olsa, çox da olsa öz xidmətini göstərməlidir. Xüsusən, bizim yazıçılarımız, ədəbiyyatçılarımız, şairlərimiz o ağır dövrdə Azərbaycan dilinin yaşamasında böyük xidmətlər göstərmişlər. Mən bu gün böyük iftixar hissi ilə deyə bilərəm ki, Azərbaycan dili XX əsrdə böyük inkişaf yolu keçmişdir. İndi baxın, bizim dilimiz nə qədər zəngindir, nə qədər məlahətlidir, nə qədər şirindir və bütün fikirləri ifadə etməsi üçün nə qədər böyük söz ehtiyatına malikdir".

Ümummilli lider Heydər Əliyevin mənəvi irsinə yaxından bələd olanların yadından çıxmaz: möhtəşəm tədbirlərin birində böyük Nizami ilə bağlı dedi ki, o elə bir tarixi simadır ki, hər on ildən bir yubileyi keçirilsə, yenə azdır. Elə təkcə bu sözün yüksək dəyəri göstərir ki, o, Azərbaycan ədəbiyyatına necə böyük önəm verirdi. Heydər Əliyevin Azərbaycanın bir sıra şair və yazıçıları ilə şəxsi dostluq əlaqələri vardı. O, ən vacib mövzuları, hətta siyasi məsələləri belə vaxtilə – hələ sovet dövründə Mirzə İbrahimov, Süleyman Rəhimov, Rəsul Rza, Niyazi, İmran Qasımov, İsmayıl Şıxlı və digərləri ilə məsləhətləşib həll edirdi. Onlara yüksək fəxri adların verilməsi… qışın qarlı, çovğunlu günlərində Şuşada Vaqifin məqbərəsinin açılışı...

Bütün bunların heç biri unudulan deyil. Müstəqillik dövründə Heydər Əliyev bu ənənəni daha yüksək səviyyədə davam etdirdi. Onun Bəxtiyar Vahabzadə, Məmməd Araz, Anar, Yusif Səmədoğlu, Vaqif Səmədoğlu, Maqsud İbrahimbəyov, Qabil və digərləri ilə görüşləri, sadəcə, könül xoşluğu üçün deyildi. Bu görüşlərin hamısında Azərbaycan xalqının tarixi taleyi ilə bağlı məsələlər müzakirə olunur, vacib, mübahisəli məsələlərin birləşdirici elementləri tapılırdı.

Prezident Heydər Əliyev Azərbaycan ziyalılarının düşüncəsinə milli mənafe baxımından yüksək qiymət verirdi. Dil məsələlərinin müzakirəsində də biz onun Azərbaycan ziyalıları ilə necə səmimi, faydalı bir görüşünün şahidi olduq. Bəli, Heydər Əliyev Azərbaycan dilinə böyük sevgi bəsləyirdi. Çünki bu dili mükəmməl bilirdi. Bütün çalarları ilə ruhuna hopmuş ana dilində danışanda özü də zövq alırdı. Və bunu da dünya azərbaycanlılarının seçilmiş nümayəndələrinə çatdırmaqdan çəkinmirdi: "Biz Azərbaycanda Azərbaycan dilinin hakim olmasını, Azərbaycan dilinin getdikcə inkişaf etməsini təmin edəcəyik. Ancaq eyni zamanda, arzu edirik ki, hansı qitədə, hansı ölkədə yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı o ölkənin dilini də mənimsəsin, o ölkənin adət-ənənələrindən də istifadə etsin, o ölkənin şəraitinə uyğunlaşsın. Amma Azərbaycan dilini yaşatsın və inkişaf etdirsin".

Ulu öndər soydaşlarımızla bir ata duyğusu, bir böyük lider qüdrətilə danışırdı. O, dünyanın ən uzaq küncündən gəlmiş olanları belə özünə doğma bilir və bu doğmalığın kökünün də dildən asılı olduğunu unutmurdu. Ona görə də arzulayırdı ki, hər kəs yaşadığı ölkədə doğma dilini, adət-ənənəsini unutmasın, Azərbaycan xalqının milli-mənəvi sərvətlərini yaşatsın. Dünyanın harasında bir Azərbaycanlı varsa, onun evində Novruz bayramı keçirilsin. Bunları arzulayırdı, bu istəyini xalqımıza sevgi duyğuları ilə bildirirdi. Ona görə ki, Novruzda yurd sevgisi, xalq birliyi duyğu-düşüncələrini görürdü.

Xalqımızın böyük oğlu inanırdı ki: "Xalqları dil qədər, milli-mənəvi ənənələr qədər, dəyərlər qədər birləşdirən başqa bir vasitə yoxdur. Biz bu vasitədən daim istifadə etməliyik. Xüsusən, başqa ölkələrdə yaşayan azərbaycanlılar. Ona görə mən də arzu edirəm ki, hər bir ölkədə Azərbaycan icmasında azərbaycanlılar həmrəy olsunlar, bir-birinə dayaq olsunlar, bir-birinə yardım etsinlər, bir-birinin dərdinə yansınlar və bizim milli adət-ənənələrimizi, milli dəyərlərimizi birlikdə gözləsinlər, milli bayramlarımızı qeyd etsinlər. Təkcə müstəqillik bayramını, Novruz bayramını deyil, bütün başqa bayramları da

qeyd etsinlər. Azərbaycan dilini yeni nəslə, uşaqlara çatdırmaq üçün müəyyən tədris imkanları yaratsınlar. Biz bu barədə kömək edəcəyik ki, bizdən sonra gələn nəsillər, sizin övladlarınız, bizim övladlarımız azərbaycançılığı daha da yüksəklərə qaldırsınlar, Azərbaycan dilini, milli-mənəvi dəyərlərimizi daim yaşatsınlar". Bu böyük insan yaxşı bilirdi ki, Azərbaycanın müstəqilliyi əbədidir və o, bunu hər vaxt qürurla, inamla deyirdi. Onu da deyirdi ki, müstəqilliyin qorunub, saxlanılması onu qazanmaqdan da çətindir.

…Hərdən Bakının ən hündür yerlərinə yolum düşür. Bir tərəfi dənizə söykənmiş Bakımızı uzaq üfüqlərinəcən müşahidə edirəm, uzun-uzadı baxıram. Və gördüklərimin fonunda düşünürəm ki, biz nələri qazanmışıq?.. Bakı bu gün Azərbaycanın qüdrətinin güzgüsüdür. Göydələnlər, rahat yollar, körpülər, yenilənən məktəblər, böyük idman kompleksləri, yaşayış evləri… Bütün bunlar ölkəmizin böyük iqtisadi potensialından əlavə, həm də dünyanın aparıcı şirkətləri ilə bağlanan müqavilələrin bəhrəsidir. Heydər Əliyev dünyamiqyaslı düşüncə adamı kimi böyük biznes şirkətlərinin rəhbərlərini, sahibkarları yatırım gücündə olan insanları inandırdı ki, Azərbaycan xalqı etibarlı tərəfdaşdır. O, dünyaya göstərə bildi ki, Azərbaycan xalqı verdiyi vədə əməl edən, qonağını duz-çörəklə qarşılayan, ona qayğı göstərən qonaqpərvər xalqdır.

İntellektual, zəkalı gənclərin sağlam dövlətçilik ideyaları ilə tərbiyə olunması Heydər Əliyevin arzusu, istəyi və tələbi idi. Bakının mərkəzində dünyanın nadir memarlıq incisi kimi ucalan olunan böyük bir abidə – mərkəz var. Bu, Heydər Əliyev Mərkəzidir. Bu mərkəzdə Heydər Əliyevin zəngin irsi, ayrı-ayrı cildlərə yığılmış fikir və düşüncələri zəngin dövlətçilik dərsləri kimi gənc nəslə öyrədilir. Azərbaycanın gələcəyini quracaq gənclərin Heydər Əliyev ideyaları ilə silahlanması, mənəvi güc qazanması üçün bu mərkəzdə əməli fəaliyyət proqramları da var. İndi belə mərkəzlər Azərbaycanın demək olar ki, hər bir rayonunun mənəvi zənginləşmə məktəbidir.

Azad və qüdrətli Azərbaycan bütün dünya azərbaycanlılarının ümid yeri, inam ocağıdır. Dünyanın ən böyük mədəniyyət və idman

tədbirlərinin təşkilatçıları Azərbaycana can atırlar. Azərbaycanın tarixi yerlərini, əvəzsiz abidələrini, memarlıq incilərini görmək və zənginləşmək indi dünyanın bütün zəkalı insanlarının arzusudur.

Azərbaycan həm də cəlbedici turizm məkanıdır. Böyük İpək yolunun üstündə yerləşən, dünyanın ən uzaq nöqtələrini birləşdirən qovşaq Azərbaycandan keçir.

Sözümün əvvəlində yanan ürəkdən danışmışdım. Düşünürəm ki, ideyalara çevrilmiş ürək işığı heç vaxt sönməz. Biz Heydər Əliyev işığında gələcəyə gedirik. Başımızın üstündə Heydər Əliyevin sonsuz bir istəklə sevdiyi Azərbaycan bayrağı dalğalanır.

# Böyük yolun davamı

## Prezident İlham Əliyev ulu öndərin ən layiqli siyasi varisidir

***Qələmə almaq istədiyim mövzu üzərində düşünərkən xəyal məni xeyli qabağa – müəyyən mənada mövzunun əhatəsindən daha əvvəlki dövrlərə apardı. Ağrılı Azərbaycan dövlətçiliyinin süqut qarşısında qaldığı, bir sözlə, olumla ölümün çarpışdığı tarixi dövrlərə. Səhrada yolu itirib başsız qalan karvana, tufanlı dəryada batan gəmiyə bənzəyən Azərbaycan xalqı yeganə xilas ünvanı kimi ümummilli lider Heydər Əliyevə üz tutmuşdu.***

Müxtəlif istiqamətlərə çəkən və ayrı-ayrı mənafelərin istəyinə uyğun hərəkət edən siyasi qrupların, partiyaların, dəstələrin çəkişmə meydanına çevrilmiş Azərbaycan, demək olar ki, dövlətçiliyini itirmək təhlükəsi qarşısında idi. Xalq ayrı-ayrı siyasi qruplardan, kənar mənafe dairələrindən yüksək və güclü olduğunu göstərdi: Dəmir bir sipərə çevrilərək ölkənin təhlükəsizliyini təmin etmək üçün öz həqiqi lideri Heydər Əliyevin Azərbaycanın siyasi rəhbərliyinə gəlişinə yol açdı. Xalq ona inanırdı, çünki o, tarixin sınağından alnıaçıq çıxmış, xalqın bütün zümrələrini ehtiva edən siyasi düşüncə adamı idi.

Xalq arasında ağır günləri yada salanda, belə bir məsəl işlənir: "Getsin o günlər bir də gəlməsin". Belə bir zamanda ulu öndər hakimiyyətə qayıdışı ilə ölkədə çəkişmələrə son qoydu, dövlətçiliyimizi təhdid edən qüvvələri zərərsizləşdirdi. O, yolundan azmışları düz yola

çağırdı. Düz yolu qəbul edənlərə meydan verdi, imkan yaratdı. Hər kim ki, sağlam düşüncəni qəbul eləmədi, belələrini tarixin siyasi arxivinə göndərdi. Bu, elə bir mərhələ idi ki, Azərbaycanın gələcək inkişafi üçün xarici investorların, ölkəmizə yatırım qoymasına böyük ehtiyac duyulurdu. Ölkənin zəngin karbohidrogen ehtiyatlarının ümumdünya siyasi düzəninə uyğun istifadəyə verilməsi mühüm əhəmiyyət kəsb edirdi. Ona görə də ulu öndər hələ 1994-cü ildə gənc olan və siyasi perspektivi isə aydın görünən İlham Əliyevi neft sektorunda məsul bir vəzifəyə təyin etdi.

Tarixi xronikaya ötəri də olsa baxış göstərir ki, o zaman İlham Əliyev ARDNŞ-in birinci vitse-prezidenti kimi Azərbaycanın üfüqlərini necə aydın görür və mövcud vəziyyəti düzgün dəyərləndirə bilirdi. ABŞ jurnalisti ona sual verəndə ki, “15 – 20 ildən sonra regionu necə görürsünüz, 15 – 20 ildən sonra vəziyyət necə olacaqdır?” – cənab İlham Əliyev, sanki, qarşıdan gələn onillikləri bütün aydınlığı ilə görürmüş kimi demişdi: Ümumiyyətlə, 15 – 20 ildən sonrakı vəziyyət haqqında danışmaq çox çətindir. Çünki hər şeyi əvvəlcədən görmək olmur. Lakin mən istəməzdim ki, 15 – 20 il haqqında danışım. Mən kifayət qədər nikbinəm. Elə bilirəm, ölkəmizin inkişafı daha tez, gələn beş il ərzində təmin olunacaqdır”. Bu, Vətəninin taleyini düşünən, Xalqın taleyini öz həyatında yaşayan insanın düşüncəsi idi. Əks təqdirdə o, gələcək illər haqqında çox sözlər deyə bilərdi. Ən azı, o sözləri deyə bilərdi ki, onu dinləyən hər hansı bir şəxs, eləcə də sual verən jurnalistin özü həmin cavabların müqabilində təzadlı fikirlər yürüdərdi. Ya deyərdi ki, bu şəxs ümumi inkişaf qanunauyğunluqlarını bilmir, ya da söyləyərdi ki, ümumiyyətlə, prosesin necə gedəcəyinin məsuliyyətindən kənardadır.

Amma ulu öndərin ən yaxın silahdaşı kimi İlham Əliyev özünün mənəvi potensialı və siyasi hazırlığı ilə çətin bir suala o qədər həssas, o qədər düşünülmüş cavab vermişdi ki, əlavə nəsə deməyə yer qalmamışdı. Əvvəla, onun dediklərindən anlaşılırdı ki, 15 – 20 il xeyli böyük məsafədir. Bu barədə qabaqcadan konkret rəqəmlərlə hökm vermək olmaz. Elə bunun arxasınca onu da demişdi ki, “Mən kifayət qədər nikbinəm”. Demək, bütün hallarda həyati proseslərin mahiyyəti

və gələcəyi insanın inamından çox asılıdır. Böyük siyasətə doğru gedən İlham Əliyevin nitqindəki "mən nikbinəm" ifadəsi onun Azərbaycanın gələcəyinə olan böyük inamından xəbər verirdi. Bu inamın qaynağı Azərbaycan xalqının müdrikliyi və gücü ilə bağlı idi. Yəni, əslində, dünya miqyaslı siyasət və dövlət xadimi, xalqın öz taleyini etibar etdiyi Prezident Heydər Əliyevin də Azərbaycan xalqına olan inamı onun siyasi varisi kimi yetkinləşən İlham Əliyevə də sirayət etmişdi, mənəvi varislik əmanət kimi onun varlığına ötürülmüşdü.

İlham Əliyev Neft Şirkətinin birinci vitse-prezidenti və o cümlədən, Azərbaycanın siyasi həyatında aparıcı rolu olan Yeni Azərbaycan Partiyası elitasının ən fəal kadrı kimi gördüyü işlərlə ölkənin mənəvi, iqtisadi və siyasi həyatının mərkəzində idi və çiynini bu ağır yükün altına böyük inam və cəsarətlə vermişdi. Ona görə də bu gənc lider öz ölkəsinin problemlərinin çəkisini bütün ağırlığı ilə duyurdu və həlli yollarını aydın görürdü: "Mən hazırda, ümumiyyətlə, iqtisadi baxımdan gedən prosesləri üç mərhələyə bölmək istərdim. Birinci mərhələdə biz xarici neft şirkətləri ilə lazımi müqavilələri imzalayırdıq. Çünki bizimlə iş görmək istəyənlərin sayı həddindən artıq çox idi. Biz ilk nəticələri əldə etdikdən sonra ikinci mərhələ haqqında düşünməyə başladıq. İkinci mərhələdə biz öz neft ehtiyatlarımızın, yanacağımızın nəqli haqqında düşündük və məhsulumuzun nəqli yollarını artıq axtarıb tapmışıq. Üçüncü mərhələ isə bizim yanacağın, neft məhsullarının gətirəcəyi mənfəətdir. Biz bu mənfəətdən, ümumiyyətlə, Azərbaycan infrastrukturunun inkişafı üçün istifadə edəcəyik və gələcəkdə yalnız neft sənayesindən, neftdən asılı olmayacağıq".

Bu sözləri Azərbaycanın tarixi taleyini qabaqcadan və kifayət qədər aydın görən gənc və perspektivli bir siyasətçi – xalqımızın ümummilli lideri Heydər Əliyevin özü qədər inanıb-güvəndiyi, siyasi varisi kimi yetirdiyi oğlu deyirdi. Və biz bu varislikdə Vətənin, millətin taleyi ilə bağlı məsuliyyət məqamlarını da duyuruq. İlham Əliyev həmin illərdə bütün aydınlığı ilə görürmüş ki, Azərbaycanın gələcəyi təkcə neftdən asılı olmamalıdır. Halbuki həmin vaxtlarda

biz gözümüzü təkcə neftə dikmişdik. Tarix göstərdi ki, İlham Əliyev öz uzaqgörənliyi ilə nə qədər haqlı imiş. Sözün həqiqi mənasında, çox böyük həssaslıq və dəqiqliklə aparılan təhlilin nəticəsi idi ki, ulu öndərin tarixi gedişatı aydın görən varisi əldə olunacaq gəlirlərin təyinat istiqamətlərini də göstərirdi.

İndi burada bir həqiqəti etiraf etməliyik. Kim həmin məqamda gələcək proqnoz düşüncələrini bu dəqiqliklə verə bilərdi? Tarix göstərdi ki, biz o yolu tam, bütün reallığı ilə, eləcə də İlham Əliyevin proqnoz verdiyi dəqiqliklə keçdik.

Amerika jurnalistinin sualına İlham Əliyevin xatırlatdığımız cavabında beynəlxalq aləmə ünvanlanmış mesajlar da kifayət qədər güclü idi.

Bu mesajların arxasında Heydər Əliyevin neft strategiyası dayanırdı. Hər halda İlham Əliyev öz cavabında neftin siyasi strategiyada mahiyyətini ifadə edirdi: "Mən elə bilirəm ki, gələcək – üzümüzə gələn beş il bu baxımdan çox vacib olacaqdır. Layihələrimizdən narazı olanlar, qısqanclıqla bizə bu baxımdan müəyyən problemlər törədə bilərlər. Ona görə də bu salonda olanlardan, ümumiyyətlə, bütün dostlardan, tərəfdaşlardan, ABŞ-dakı şirkətlərdən, ABŞ hökumətindən, eləcə də Konqresdən xahiş etmək istəyirəm ki, bu çətin dövrdə bizimlə çiyin-çiyinə çalışsınlar".

Bu cavabdan 26 ildən bir qədər çox keçib. Və indi bizim özümüzün imkanımız var ki, həm ötən mərhələni, həm də 26 il əvvəlin proqnozunun dəqiqlik dərəcəsini təhlil edək. Əlbəttə, biz məmnunluq duyğuları ilə düşünürük və bu bizə imkan verir ki, nəinki Azərbaycanın neft siyasətinə, bütövlüklə, Azərbaycan siyasətinə, eləcə də Cənubi Qafqaz bölgəsi miqyasında dünya siyasətinə necə yüksək hazırlıqlı bir şəxsiyyətin gəlişini təsəvvür edək. O, sözün həqiqi mənasında, həmin illərdə siyasi düşüncəmizə bir strateq kimi gəlirdi.

Şübhəsiz, siyasət elminin bütün incəliklərini yaxşı bilən ulu öndər Heydər Əliyev siyasi varisinin bütün uğurlu gedişlərini ardıcıl olaraq və diqqətlə izləyirdi. O, İlham Əliyevin hər bir uğurunu gör-

dükcə, təkcə öz oğlunun uğuruna sevinmirdi. Müdrik rəhbər həm də xalqın bağrından qopmuş, Vətənə sədaqətlə xidmət edəcək, gələcəkdə öz ölkəsini bütün qaranlıqlardan təhlükəsiz keçirə biləcək, siyasət elminin bütün incəliklərini mənimsəmiş istedadlı bir siyasətçinin uğuruna sevinirdi.

Həyat əbədidir və mübarizələrlə inkişaf edir. Dünya tarixinin hər bir dövrü öz qaranlıqlarından mübarizələrlə işıqlığa çıxıb. Hindistanın böyük lideri Cəvahir-ləl Nehru vaxtilə Dehru-dun həbsxanasından qızı İndira Qandiyə məktublarında Hindistanın tarixini ümumdünya tarixindən ayırmadığını bildirirdi. Yəni hər hansı bir xalq və ölkə, siyasi dövlət dünyadan təcrid olunmuş halda yaşaya bilməz. Bu aydın müddəanın əksinə aparılan siyasətin acı nəticələrini Ermənistanın timsalında yaxşı görürük. İşğalçı Ermənistan 30 ildən sonra Azərbaycanın xarici bədxahlarının, eləcə də özlərinin millətçi liderlərinin avantürist siyasətinin qurbanı oldu. Cənubi Qafqazdakı böyük layihələrin hamısından kənarda qalan Ermənistan nəticədə ehtiyacdan, dərddən, bəladan başqa heç nə qazanmadı.

İlham Əliyev bütün bunları hələ 26 il əvvəl görür, hadisələrin məntiqi ardıcıllığını dəqiq izləyirdi. O, həm ARDNŞ-in birinci vitse-prezident kimi Azərbaycanın iqtisadi siyasətinin neft sektoru ilə uzlaşması üçün böyük səylər göstərir, bu sahədə beynəlxalq əlaqələrin inkişafına çalışır, həm də Yeni Azərbaycan Partiyasının rəhbərlərindən biri kimi hakim siyasi qüvvənin siyasətinin xalqa çatdırılmasında da əvəzsiz xidmətlər göstərirdi.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev öz siyasi varisi, kamil bir siyasətçi kimi yetkinləşmiş İlham Əliyevə olan inam və ümidlərini Azərbaycan xalqına siyasi vəsiyyətində açıqlamışdı. Ulu öndər bütün səmimiyyəti ilə həyatını həsr etdiyi Vətənə və Azərbaycan xalqına düşüncələrini belə çatdırmışdı: “O, yüksək intelektli, praktik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın

layiqli övladlarını öz ətrafında sıx birləşdirərək, Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və istəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Bundan sonra söz artıq Azərbaycan xalqının idi. Xalq özü bilərdi bu siyasi vəsiyyətə necə əməl etmək lazımdır? Bu, xalqı tarixi bəlalardan xilas etmiş, dövləti itirilmək təhlükəsindən qorumuş və əslində, yeni Azərbaycan qurmuş ulu öndərin siyasi vəsiyyətinə və mötəbər zəmanətinə dəyər vermək məsələsi idi. Millətin tarixi taleyində elə hadisələr olur ki, əslində, bu onun tarixi inkişaf yolunu müəyyənləşdirir. Əlbəttə, elə hadisələr də var ki, tarixi qaranlıqlara bürüyür, insanların talelərinə böyük faciələr gətirir, Vətən üçün bəlaya çevrilir. Xalq isə həyat uğrunda mübarizə instinkti ilə başa düşürdü ki, hələ çox da uzaqlaşmamış xaos dövrünə qayıtmaq istəmirsə, ulu öndərin dediklərini qəbul etməli, bu yolla getməlidir.

O dövrdə mən Mətbuat və İnformasiya Nazirliyində baş idarənin rəisi vəzifəsində işləyirdim. Jurnalistlər bir çox qaranlıq məqamları işıqlandırmaq üçün mənə müraciət edirdilər. Yadıma gəlir, mən "Xronika" qəzetinin əməkdaşı Rəhim Mənsimova müsahibə vermişdim. Həmin müsahibə "İlham Əliyev Heydər Əliyev siyasi məktəbinin yetirməsidir" adı ilə "Xronika" qəzetində 2003-cü ilin iyun ayının əvvəllərində dərc olunmuşdu. Verdiyim cavablarda fikrimi açıq demişdim:

"*– Mədət müəllim, yeri gəlmişkən, sizə sonuncu sualımızı belə vermək istərdik ki, yeni yetişən siyasətçilər barədə nə deyərdiniz?*

– Həyat inkişaf edir. Demokratik cəmiyyətdə yeni gənc siyasətçilərin yetişməsi zamanın tələbidir. Bundan qaçmaq olmaz. Azərbaycanın gələcək taleyi bu vacib amillərdən çox asılıdır. Azərbaycan ictimaiyyətində yeni siyasətçilər və siyasi liderlər yetişir. Bu gənc liderlərin içərisində dünya miqyasında tanınan və nüfuz sahibi olan İlham Əliyev daha çox seçilir. Fikrimcə, Heydər Əliyev kimi dünya şöhrətli siyasətçinin məktəbini keçmiş bu gənc siyasi lider, yəqin ki,

gələcəkdə prezident seçkilərində də iştirak edəcəkdir. Gənc İlham Əliyev Heydər Əliyev siyasi məktəbinin yetirməsidir". Biri üçün İlham Əliyevin, digəri üçün başqasının liderliyi qəbul olunur.

Təbiidir ki, siyasi düşüncə və münasibət baxımından cəmiyyətdə gedən proseslərdən kənarda deyilik. Biz çox yaxşı bilirik ki, tam siyasiləşmiş mühitdən tədricən ayrılan Azərbaycan xalqı siyasi rənglərin qarışığını elə tədricən ayırmaqdadır. Suala konkret və birmənalı cavab yalnız o zaman qənaətbəxşdir ki, mövcud vəziyyəti nəzərə alasan. Yəni cəmiyyətdəki plüralizm prosesini də nəzərdən qaçırmaq olmaz. Ona görə də siyasi liderə münasibətdə müxtəlif tərəflərin mövqeyini də inkar etmirik. Onların da hüquqlarını, istəklərini danmır, demokratik mövqedən seçim etmələrini qəbul edirik.

Digər müsahibələrimdə olduğu kimi, burada da opponentlərimi qabaqcadan tərksilah edib, birmənalı şəkildə onların da mövqeyini bildirməsi üçün şərait yaratmışam. Elə ona görə də özümün, demək, həm də cəmiyyətin əsas istinadı olan demokratik prizmadan çıxış etmişəm: "Demokratik bir cəmiyyətdə plüralizm, fikir ayrılığı, müxtəlif rəylər normal qəbul olunmalıdır. Ancaq gələcəkdə Azərbaycanı kim daha çox tanıda bilərsə, potensial imkanı yüksək olan lideri gənc nəsillər indidən ayırd etməlidir. Ona görə də mən mətbuat vasitəsilə demokratik cəmiyyət quran Azərbaycan xalqına, mətbuata, xüsusən də gənc nəslə müraciət edərək bildirirəm ki, biz seçkilərdə seçimimizi düzgün etməliyik. Bugünkü Azərbaycanı biz sabaha, gələcək nəsillərə bütöv, müstəqil aparmaq üçün Heydər Əliyevin siyasi kursunu, siyasətini qəbul və davam etdirməyi mən dövlətçiliyimizin, müstəqilliyimizin qarantı kimi qəbul edirəm. İlham Əliyev də məhz belə bir siyasi məktəbin yetirməsidir və bu kursu o, müvəffəqiyyətlə davam etdirə bilər". *("Xronika" qəzeti, 6 – 12 iyun 2003-cü il).*

Bunu nəyə görə yada saldım? O vaxt mən bu müsahibəmdə fikirlərimi belə açıb cəsarətlə bildirdiyimə görə çoxları mənə irad tutmuşdu. Deyirdilər ki, ulu öndər Heydər Əliyev siyasi meydanda olduğu bir vaxtda bu barədə danışmaq tezdir. Mən ümummilli liderə

ehtiramımı bildirərək onlara cavab vermişdim ki, söhbət gələcək nəsillərin taleyindən gedir. Gələcək nəsil də öz liderini elə bu gündən tanımalıdır, qəbul etməlidir – məqamı gəlsə, onu seçməyə hazır olmalıdır. Tarix göstərdi ki, mən haqlıyam.

Zaman gəldi, Azərbaycan xalqı Heydər Əliyevin siyasi vəsiyyətini də həm mətbuatdan, həm də ekrandan, efirdən oxudu, gördü və eşitdi. Demək, xalq, sözün həqiqi mənasında, hay-küydən, populizmdən kənarda bircə yol görürdü. Bu yol isə İlham Əliyevin Heydər Əliyevdən sonra onun ən layiqli varisi olaraq prezident seçilməsi alternative idi. Çox keçmədi ki, məqam yetişdi, ulu öndərin çağırışını rəhbər tutan Azərbaycan xalqı bəzi siyasi təxribatlara, əngəlləmələrə, cəbhə xəttindəki gənginliklərə baxmayaraq, çox böyük istəklə seçki məntəqələrinə axışdı. Əvvəlki liderə inanan xalq onun yetirməsi olan yeni liderə səs verdi, İlham Əliyevi prezident seçdi.

31 oktyabr 2003-cü il tarixində İlham Heydər oğlu Əliyev andiçmə mərasimindəki nitqində dedi: "Azərbaycan Respublikasının Prezidenti seçilməyimlə mənə göstərilmiş bu böyük etimada görə Azərbaycan seçicilərinə, Azərbaycan vətəndaşlarına, bütün Azərbaycan xalqına öz dərin təşəkkürümü bildirirəm. Mən bu böyük etimadı doğruldacağam, bu vəzifənin öhdəsindən layiqincə gələcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm. Oktyabrın 15-də Azərbaycan xalqı seçki məntəqələrinə gələrək Heydər Əliyev siyasətinə səs veribdir. Sülhə, əmin-amanlığa, tərəqiyyə, inkişafa, quruculuğa, sabitliyə səs veribdir. Bu siyasətə Azərbaycanda alternativ yoxdur".

Yeni Prezident elə ilk bəyanatında klassik dövlətçilik ənənələrinin qorunmasında əvəzsiz xidmətlər göstərmiş Heydər Əliyev yolunun davamçısı olduğunu bildirdi. Bununla həm də dünyaya çatdırırdı ki, bizim siyasətimiz dönməzdir, Azərbaycanın istiqlalı bundan sonra da qorunacaq, müstəqil Azərbaycan dövləti inkişaf etdiriləcəkdir. Əlbəttə, onun nikbin və inamlı danışığı xalqımız üçün böyük təskinlik idi. Axı xalqımız üçün də ümummilli liderdən ayrılmaq çətin idi. Xalq illər boyu onun zəkasının işığında yol gəlmişdi.

Bütün bunları, heç şübhəsiz ki, İlham Əliyev də yaxşı bilirdi. Ona görə də həmin nitqində Heydər Əliyev siyasətinin Azərbaycana nə verdiyini xatırladırdı: "Heydər Əliyevin siyasəti Azərbaycana böyük uğurlar gətiribdir. Bütün sahələrdə Azərbaycan inkişaf edir, uğurlar qazanır. Beynəlxalq aləmdə Azərbaycan yüksəlir, uğurlar qazanır. Azərbaycan beynəlxalq aləmdə özünəlayiq yerini tuta bilibdir, Azərbaycanın nüfuzu artıbdır. İndi Azərbaycanla hesablaşırlar, Azərbaycana hörmət edirlər. Regionda bütün beynəlxalq, irimiqyaslı layihələr Azərbaycanın iştirakı ilə, onun milli maraqlarının nəzərə alınması ilə həyata keçirilir.

Beynəlxalq təşkilatlarda Azərbaycan çox uğurlu fəaliyyət göstərir, onun nüfuzu artır. Avropa Şurası kimi mötəbər beynəlxalq təşkilat Azərbaycanın təkidi ilə Ermənistanı işğalçı dövlət kimi tanıyıbdır. Bu proses davam edəcəkdir. Azərbaycan beynəlxalq aləmdə, dünya miqyasında daha da möhkəm mövqelərə sahib olacaqdır".

Həmin nitqdən sonuncu cümlələrə xüsusi vurğu ilə diqqət yetirirəm. İllər öncə Amerikada jurnalistin sualına verdiyi cavabla andiçmə mərasimindəki nitqindən müəyyən məqamlar xüsusi bir məntiqlə bir-birini tamamlayır. Görünür, şəxsiyyət kamillik mərhələsinə çatırsa, yeni yaş dövrlərinə uyğun olaraq, düşüncələr də əvvəlki sağlam özüllər üzərində bərqərar olur, inkişaf edir. Təsadüfi deyil ki, təntənəli andiçmə ilə xalqın prezident missiyasının icrasına başlayan İlham Əliyev həm sələfinin – ümummilli lider Heydər Əliyevin parlaq obrazına sevgisini, onun siyasətinə sədaqətini bildirmiş, həm də xalq üçün doğma bir insan olacağınu bir daha bəyan etmişdi. O, proqram səciyyəli həmin nitqində Azərbaycanın iqtisadi yüksəlişindən də danışmış, insanların güzəranının yaxşılaşdırılmasından da söhbət açmışdı. Üstəlik, davamlı olaraq məcburi köçkünlərin həyatının yaxşılaşdırılması üçün görülən işlərin yenə uğurla icra olunacağını bildirmiş, sosial həyatın müxtəlif sahələrinin daha yüksək səviyyəyə çatdırılacağını vurğulamışdı.

Ötən 18 il göstərdi ki, bütün bunlar, sadəcə, vəd olaraq qalmadı. Uğurla aparılan siyasətin sevindirici nəticələri gözümüzün qarşısın-

dadır. Bunu yalnız mənəvi korlar görməyə bilər. Axı yuxarıda qeyd etdim ki, İlham Əliyevin nitqinin son məqamları məni xüsusilə düşündürür, qəlbimdən kövrək duyğular keçir. "Prezident İlham Əliyevin andiçmə nitqindən aşağıdakı parçanı yenidən və iftixarla oxuyuram: "Mən Azərbaycanın xoşbəxt gələcəyinə inanıram. Əminəm ki, ölkəmiz bundan sonra da inkişaf edəcək, daha da güclənəcəkdir. Azərbaycanda demokratiya daha da inkişaf edəcək, siyasi plüralizm, söz azadlığı təmin olunacaqdır. Ölkəmiz müasir dövlətə çevriləcəkdir. Bütün bunları etmək üçün Azərbaycanda çox işlər görmək lazımdır. Ancaq bütün bunları həyata keçirmək və Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm. Mən bu gün bu yüksək kürsüdən əziz prezidentimiz cənab Heydər Əliyevə müraciət edərək deyirəm: Əziz prezident, əsərin olan müasir Azərbaycanı gücləndirəcəyik, zənginləşdirəcəyik, hərtərəfli inkişaf etdirəcəyik, sizin yolunuzla yeni qələbələrə doğru gedəcəyik".

Əlbəttə, illər çox sürətlə gedir. Əfsanələr həqiqətə çevrilir. Bir vaxt inanılmaz olanlar tarixi fakt olur. Ulu öndərin ideayalarına uyğun olaraq, Prezident İlham Əliyevin uğurlu siyasəti nəticəsində Çin və Avropa arasında böyük İpək yolu bərpa olunub. "Dəmir İpək yolu" adlandırılan Bakı – Tbilisi – Qars dəmir yolu ilə təkcə yüklər daşınmır, həm də bu yol mənəvi əlaqələr üçün köprüdür – qardaş Türkiyə ilə Azərbaycanın birliyinə daha əsaslı bir təminat yaradır. Vaxtilə ulu öndər Heydər Əliyev bir millət – iki dövlət deyirdi. Zamanların ayrı saldığı, üzün illərlə dəmir sərhədlərlə bir-birindən təcrid olunmuş bir millətin iki dövləti mənəvi olaraq bir-birinə qovuşmaqdadı.

Hansısa beynəlxalq tədbirdə Türkiyənin ünvanına deyilən hədyana Azərbaycan Prezidenti İlham Əliyev böyük cəsarətlə və sərrastlıqla cavab verir. Onun Türkiyənin milli maraqlarını uca tutan çıxışlarında bir həqiqət çox aydın görünür. Yəni, ey dünyanın bədxahları, ey türk

xalqlarının düşmənləri siz unutmayın ki, kökü bir, ənənəsi bir, demək olar ki, dili də bir Türkiyə ilə Azərbaycanı bir-birindən ayıra bilməzsiniz. Türkiyənin ağır dönəmlərində İlham Əliyev Azərbaycan Prezidenti olaraq xalqımızın qardaşlıq məramını cəsarətlə ifadə edir. Bu mövqe Azərbaycanın Türkiyə ilə bir yerdə olduğunu təsdiqləyir.

Bütün bunlar bizə əsas verir ki, deyək: ortaq türk dilinə gedən yolumuz, ortaq Turan mədəniyyətinə birgə qovuşmağımız yalnız arzu olaraq qalmayacaq. Çox arzuolunan mətləblər var ki, bədbin olanlar, bədxahlar onun reallaşacağına inanmırlar. Ancaq biz, sözün həqiqi mənasında, Böyük Turan aləmində birgə olacağımız günləri görəcəyimizə inanırıq. Çünki Azərbaycanın düşünülmüş, məqsədyönlü, gerçək dövlət siyasəti bu yolu bizə göstərir.

Mən burada bir-iki məqama da münasibətimi bildirmək istərdim. Bir halda ki, söhbət böyük yolun davamından və varisliyin təntənəsindən gedir, onda gərək ulu öndərin mətbuat, ədəbiyyat və incəsənət, söz və sənət adamları ilə bağlı ənənələrinin necə qorunmasından və inkişaf etdirilməsindən də danışım. Əvvəlcə mətbuat haqqında. Bu sahə mənə çox doğmadır. Axı uzun müddət mətbuat və informasiya nazirliyində baş idarənin rəisi olaraq KİV-ə rəhbərlik etmişəm.

Mətbuat cəmiyyəti işığı, aşkarlığın mənbəyi olduğu qədər də subulandırma, kölgəsalma yeridir. Bir çoxları mətbuatı asan dolanışıq mənbəyinə çevirmək üçün məqsədli qalmaqallar yaradır. Belələri hətta bir çox hallarda təxribat xarakterli materiallar da çap etdirir. Yalandan, böhtandan da çəkinmirlər. Və bu fonda qərəzli tənqidlər, hətta təhqirlər belə qəzet səhifələrində ayaq açıb yeriyir. Əlbəttə, biz jurnalistlərlə görüşlərdə, müxtəlif mətbuat tədbirlərində jurnalistlərə həqiqətə söykənməyi tövsiyə edir, hadisələrə sağlam düşüncə ilə yanaşmağı məsləhət görürdük. Əlbəttə, məsləhət görürdük, düz yola səsləyirdik.

Bəzən isə kəskin tənqidlərə məmurlar dözümsüzlük göstərirdilər. Müxtəlif münaqişələrə, məhkəmə çəkişmələrinə meydan açılırdı. Bu da, istər-istəməz, qərəzli, böhtan yazan jurnalistlərin üzdəniraq reklamı olurdu. Ancaq Heydər Əliyev üzünü məmurlara tutub bildirirdi

ki, məndən çox tənqid olunan, hətta haqqında qərəzli böhtanlar yazılan yoxdur, nə üçün mən bunlara dözürəm, siz dözmürsünüz? Bu, artıq böyüklük idi. Cəmiyyətdə nizamın qorunması naminə əvəzsiz tolerantlıq nümunəsi idi.

Bax, bu sahədə İlham Əliyev öz dövrünə uyğun olaraq daha inamlı, təsirli addımlar atdı. Mətbuat tariximizin yubileyləri, medianın problemlərinin həllinə həsr olunan tədbirlər… Eləcə də, jurnalistlərə xüsusi qayğı göstərilməsi, mənzillər verilməsi… Bütün bunlar ulu öndər Heydər Əliyevin ideyalarının yeni şəraitdə inkişaf etdirilməsi deməkdir. Prezident İlham Əliyevin davamlı olaraq gerçəkləşdirdiyi belə tədbirlər mətbuata mənəvi dayaq olmağın, maddi kömək olmağın təzahürü və bariz nümunəsidir.

Sevinirəm ki, jurnalistlərin mənzillərlə təmin olunması yolunda başlanmış böyük işlər Prezident İham Əliyev tərəfindən yenə də diqqətdə saxlanılır. Yeni-yeni uğurlu layihələr reallaşır. Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi konsepsiyasının uğurla gerçəkləşdirilməsi, qəzetlərə maddi yardımlar göstərilməsi, jurnalistlərə rəğbət bəslənməsi, onlara fəxri adların verilməsi… Bütün bunların davamı olaraq bu ilin əvvəlində KİVDF-nin bazasında Azərbaycan Medianın İnkişafı Agenliyinin mediamızın sürətli inkişafına, daha böyük uğurlar qazanacağına təminat verir.

Ulu öndər ədəbiyyata böyük maraq göstərir, söz-sənət adamlarını öz mərtəbələrinə uyğun hörmətli tuturdu. Bu ənənəni də möhtərəm Prezidentimiz İlham Əliyev uğurla davam etdirir. Görkəmli şairlərimiz, yazıçılarımız dövlət mükafatlarına layiq görülür, orden və medallarla təltif olunurlar. Onların daha yaxşı yaşayıb-işləmələri üçün ardıcıl tədbirlər görülür.

Ötənləri xatırlayanda bir fakt mənim diqqətimi cəlb elədi. Axı Azərbaycan Şimali Azərbaycandan ibarət deyil. Qonşu İran dövlətinin ərazisində də Azərbaycanın cənub hissəsi var. Oradakı insanlarla bizim hər cəhətdən ortaq dəyərlərimiz əbədidir. Hətta bu tay Azərbaycanın bir çox şairləri Təbrizdə yaşayıb-yaradıblar, o şəhərdə də

əbədiyyətə qovuşublar. 26 yanvar 2005-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Təbrizdə “Şairlər məqbərəsi”ni ziyarət etmişdir. Dövlətimizin başçısı burada dəfn olunmuş ədiblərin xatirəsini ehtiramla anmış, müasir Azərbaycan və fars ədəbiyyatının ən görkəmli nümayəndələrindən biri olan Məhəmmədhüseyn Şəhriyarın məzarı üzərinə gül dəstəsi qoymuşdur. Prezident İlham Əliyev sonda məqbərənin xatirə kitabına ürək sözlərini yazmışdır”.

Bu faktın özü çox şey deyir. Biz təəssüf edirik ki, bir çox mənəvi dəyərlərimizi mənimsəməyə çalışan bədxahlarımız da var. Ermənilər Üzeyir Hacıbəylinin, digər görkəmli incəsənət xadimlərimizin yaradıcılıq örnəklərini mənimsəməyə çalışırlar. Hətta xalq mahnılarımızı, rəqslərimizi belə özününküləşdirmək istəyirlər. Əlbəttə, bu sahədə də dövlət səviyyəsində işlər aparılır. Fars şovinistləri də bu sarıdan Azərbaycana az zərbə vurmurlar. Nizamini fars şairi kimi qələmə vermək istəyən İran siyasətçisini necə başa düşmək olar? Amma Azərbaycan Prezidenti İlham Əliyev Təbrizə yolu düşən kimi söz-sənət dahilərimizin xatirəsini yad etməyi unutmur. Bu faktın özü tarixi bədxahlarımıza tutarlı cavabdır.

Heydər Əliyev Azərbaycan xalqının tarixini olduğu kimi öyrənməyi, qəbul etməyi tövsiyə edirdi. Böyük yolun davamçısı olan İlham Əliyev də bu yolu davam etdirir. Azərbaycan Demokratik Cümhuriyyətinin 90, 100 illik yubileylərinin keçirilməsi, cümhuriyyət liderlərinin ayrı-ayrılıqda yubileylərinin qeyd olunması, onların mənəvi irslərinin öyrənilməsilə bağlı görülən işlər Prezident İlham Əliyevin tarixi sərəncamları ilə gerçəkləşdirilmişdir. Cümhuriyyət dövrü Azərbaycan Parlamentinin sənədləri nəşr olunur, tədqiqatçılar üçün hər cür şərait yaradılır ki, bu misilsiz irsi müstəqil Azərbaycanımızın özülü, sələfi kimi daha yaxşı öyrənək. Azərbaycan və dünya ədəbiyyatının latın qrafikalı əlifba ilə yenidən nəşr olunub təhsil ocaqlarına, kitabxanalara verilməsi, sözün həqiqi mənasında, ciddi bir boşluğu doldurmuş hadisədir.

Prezident İlham Əliyev dünya ədəbiyyatını da diqqətdən kənarda qoymur, bu mənəvi xəzinə də seriyalarla çap olunub yayılır. Uğurlu,

professional tərcümələr üçün vəsait ayrılır. Hökumət yanında ayrıca tərcümə mərkəzi fəaliyyət göstərir. Dil komissiyası daha çevik bir qurum kimi yenidən təşkil olunub. Yer adları xalqımızın tarixi həqiqətlərinə uyğun olaraq öyrənilir, bu yöndə tövsiyələr verilir. Bütün bunların hamısının başında, əlbəttə, Azərbaycan Respublikasının Prezidenti dayanır. Heç şübhəsiz, o da əməli fəaliyyətində ulu öndərin ideyalarını əsas tutur, bu iddeyalardan qaynaqlanır.

Ümummilli lider Heydər Əliyev Novruz bayramına xüsusi önəm verirdi. Belə ki, o, xalqın tarixi taleyində mühüm rolu və yeri olan Novruzu ümumxalq birliyinin mənəvi əsası hesab edirdi. Böyük yolun davamçısı olan İlham Əliyev də Novruz bayramına ailəlikcə qatılmaqla xalqla birlikdə olduğunu nümayiş etdirir. Dövlət başçısı bayram günü təntənə ilə xalqın qarşısına çıxır, sadə adamların içərisinə gəlir, canlı ünsiyyətlə kütləyə rəhbərlik etdiyi dövlətin hesabatını çatdırır.

2005-ci ilin Novruz bayramında, mart ayının 22-də Azərbaycan Prezidenti İlham Əliyevin Novruz bayramı münasibətilə keçirilən ümumxalq şənliyindəki çıxışından giriş hissəni yada salmaq kifayətdir ki, rəhbər və xalq arasında birliyin əsas təminatının səmimiyyət və aşkarlıq olduğuna inanaq: "Əziz həmvətənlər! Əziz bacılar və qardaşlar! Sizin hamınızı Azərbaycan xalqının ən əziz, ən sevimli bayramlarından biri – Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm, hər birinizə cansağlığı, uğurlar arzulayıram. Novruz bayramı Azərbaycan xalqının qəlbində həmişə yaşamışdır. Azərbaycan xalqı bu bayramı əsrlər boyu yaşatmışdır. Ancaq yalnız Azərbaycan xalqı öz dövlət müstəqilliyini bərpa edəndən sonra bu bayram Azərbaycanda dövlət bayramı kimi qeyd olunmağa başladı. Azərbaycanın müstəqilliyi bizim ən böyük sərvətimizdir. Biz hamımız hər gün, hər ay, hər il bu müstəqilliyi saxlamalıyıq, qorumalıyıq, möhkəmləndirməliyik".

Novruz Azərbaycan xalqının etnogenezində rolu olan hər bir etnosun bayramıdır. Ona görə də bu bayramda insanlar arasında ayrı-seçkilik olmaz. Doğmalıq yadlığı üstələdiyi kimi, varlı-kasıb fərqi də olmaz. Hər kəs əlindən gələni eləyər ki, qonum-qonşusu da sevinsin.

Bu ənənəni ulu öndər Heydər Əliyev yaxşı bildiyi üçün dövlət idarələrinə, icra qurumlarına tapşırıq verir, sahibkarlara tövsiyə edirdi ki, imkansız adamlara əl tutsunlar, kömək etsinlər. Bu ənənəni siyasi varis olaraq Prezident İlham Əliyev də sədaqətlə davam etdirir.

Maraqlı Novruz obrazları var – Keçəl, Kosa, kəndirbazlar, gürz qaldıranlar, müdrik Dədələr, təlxəklər... Bütün bunlar insanların doğmalaşmasına, öz keçmişindən ayrılmamasına xidmət edir. Hətta bir çox hallarla onlar Novruz ərkindən istifadə edərək xalqın istək və arzularını da şənliklərdə dövlət başçısına çatdırırlar. Uzun illərdir ki, Dədə Qorqud obrazı da Novruz şənliklərində iştirak edir. Qopuzun varisi saz araya gəlir. Qara zurna insanları el şənliklərində şövqlə iştirak eləməyə səsləyir.

Prezident xalqa təbrikindən sonra bugünkü uğurlarımızın miqyasını təsəvvür etmək üçün yaxın keçmişi də yada salır: "Azərbaycan dövlət müstəqilliyini əldə edəndə çox çətin vəziyyətdə yaşayırdı, böyük təhlükələr var idi. Demək olar ki, Azərbaycanda böhran hökm sürürdü və Azərbaycanın gələcəyi çox böyük təhlükələrlə üzləşə bilərdi. Xalqımızın müdrikliyi, iradəsi onunla nəticələndi ki, xalqımızın lideri Heydər Əliyev hakimiyyətə gəldi və bundan sonra ölkədə vəziyyət tamamilə dəyişdi. 1993-cü ildən 2003-cü ilə qədərki dövr ərzində Azərbaycan inkişaf yolunu keçdi. Biz bu inkişafı bütün istiqamətlərdə görürük, hiss edirik. Ölkədə gedən proseslər, iqtisadi inkişaf, siyasi islahatlar, ölkənin nüfuzunun artması bu gün Azərbaycanı bölgədə çox güclü dövlətə çevirdi".

Dədə Qorquddan məşhur bir məsəl yada düşür: "Oğul atadan görməyincə..." Demək, oğul atadan gördüyünü yaşadırsa, inkişaf etdirirsə, ona əmanət qalmış ideyaları əməli işə çevirirsə cəmiyyət də inkişaf edir, dövlət də güclənir. Biz bu iqtisadi hərəkətin, mənəvi təkamülün real mənzərəsini məhz İlham Əliyevin prezidentliyi dövründə bütün aydınlığı ilə gördük. Dünyanı bürüyən iqtisadi böhran, Şərqdəki müharibələr, Qərbin özündəki seperatçılıq meyilləri, Gürcüstandakı, Ukraynadakı hadisələr Azərbaycandan yan keçdi.

Ümumdünya iqtisadi böhranının nəticəsi olaraq Azərbaycanda da pulun devalvasiyası baş verdi. Ancaq xalqımız bunu fəlakət kimi qarşılamadı. Hətta Azərbaycanda aparılan böyük tikinti işləri dayanmadı. İrimiqyaslı mədəniyyət tədbirləri Azərbaycanın uğurlu siyasət yolu keçdiyini təsdiqlədi.

Prezident İlham Əliyevin bir fikrini də yada salmaq yerinə düşərdi: "Müstəqillik illərində Azərbaycan xalqının mənəvi potensialı daha da zənginləşmiş, milli mədəniyyət və incəsənət azərbaycançılıq məfkurəsi əsasında inkişaf etmişdir". Bu sözlər, əslində, xalqın inamını ifadə edir. Cəmiyyət bu sözlərin nə qədər doğru olduğunu, mənəvi mühitimizin zənginliyini dolğunluğu ilə əks etdirdiyini yaxşı görür.

Nəhayət, qlobal pandemiyanın dəhşətli sınaqları və Qarabağı 30 illik işğaldan azad edən 44 günlük qalibiyyətli Vətən müharibəsinin yaşatdığı ağrı və itkilər xalqın iradəsini və inamını qıra bilmədi. Çünki, Prezident İlham Əliyevin özünün dönə-dönə dediyi kimi: Azərbaycan rəhbəri nəyi, necə və nə vaxt etməyi yaxşı bilir. Bu böyük siyasətin nəticəsi oldu ki, Azərbaycan 2020-ci ilin payızında son iki min ilin ən böyük hərbi-siyasi qələbəsini qazandı.

...Böyük yolun davamı bizdən keçir. Biz zamanın şahidləriyik. Əgər bunu varisliyin təntənəsi adlandırırıqsa, demək, böyük həqiqəti təsdiq edirik.

# Heydər Əliyev və Azərbaycanda demokratik medianın inkişafı

***Azərbaycanda mətbuatın formalaşmasında və inkişafında xalqımızın ümummilli lideri Heydər Əliyevin əvəzsiz xidmətləri olub. Ulu öndər hələ dövlət təhlükəsizlik orqanlarında çalışdığı, xüsusən də Azərbaycan KP Mərkəzi Komitəsinin I katibi işlədiyi illərdə bu sahə ilə sıx təmas yaradaraq, onu iş prinsipinin əsas istiqamətlərindən biri kimi diqqət mərkəzində saxlayıb.***

Bu, təsadüfi deyildi. Çünki dahi şəxsiyyət insanları səfərbər etmək, təşkilatlandırmaq üçün mətbuatın çox güclü təbliğat və təşviqat vasitəsi olduğunu yaxşı bilirdi. Ona görə də fəaliyyətində mövcud sahənin imkanlarından səmərəli yararlanmaqla cəmiyyəti düşündürən, narahat edən bütün problemləri bu və ya digər formada mətbuata çıxarırdı. Ulu öndər özü bu barədə deyirdi: “Sovet hakimiyyəti vaxtında bizdə bir mətbuat – kommunist mətbuatı vardı. Mən həmişə bu mətbuatı bizim nöqsanları araşdırmaq, aşkara çıxarmaq istiqamətinə yönəldirdim. Çünki biz işdəki nöqsanların hamısını aşkara çıxara bilmirdik”.

Bu məqamda onu da etiraf edək ki, Heydər Əliyev partiya rəhbərliyinə gələnə qədər Azərbaycan mətbuatında, belə demək mümkünsə, söz azadlığı anlayışı olmayıb. Həmin dövrdə respublika mətbuatı öz fəaliyyətini ancaq Sov.İKP MK-nın ideoloji tələbləri

əsasında qurub, bir sözlə, tələb edilən qaydalar çərçivəsindən kənara çıxmaq qadağası hökm sürüb.

Lakin ötən əsrin 70-ci illərindən başlayaraq ulu öndərin qətiyyəti və cəsarəti ilə kütləvi-informasiya vasitələri cəmiyyət həyatına dərindən nüfuz etməyə başladı. 1978-ci ildə qəbul olunan Azərbaycan Sovet Sosialist Respublikasının Konstitusiyasında dövlət dilinin Azərbaycan dili kimi təsbit olunması mətbu sahənin inkişafını daha da sürətləndirdi. Bu, ilk növbədə, Azərbaycan dilində qəzet və jurnalların, habelə digər çap məhsullarının sayının və tirajının getdikcə artmasında, televiziya verilişlərinin Azərbaycan dilində yayımının genişlənməsində, mətbu yolla uşaq və yeniyetmələrin, məktəblilərin maariflənməsində özünü qabarıq büruzə verdi. Jurnalist hazırlığı diqqət mərkəzində saxlanıldı, müsabiqə yolu ilə jurnalistika təhsilinin təməli qoyuldu. Eyni zamanda, ulu öndərin şəxsi təşəbbüsü ilə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) jurnalistika fakültəsinin əlaçı tələbələrinin Moskva Dövlət Universitetinə oxumağa göndərilməsinə başlanıldı. Bununla da Azərbaycan milli jurnalistika məktəbinin formalaşmasına, müasir jurnalistikanın inkişafına böyük təsir göstərildi, jurnalistikada peşəkarlıq amilinin önə keçməsinə əlverişli şərait yaradıldı.

Məhz bütün bunların nəticəsi idi ki, respublika mətbuatı ittifaq miqyasında peşəkarlıq, məzmun və mövzu genişliyi baxımından daha çox diqqət çəkirdi. Milli adət-ənənələrimiz, tariximiz, mədəniyyətimiz və dilimizlə bağlı əsl həqiqətlərin ifadəsi olan təhlil yazılara qoyulan qadağalar aradan qaldırıldı. Bütün bunlarla bərabər, jurnalist əməyinin qiymətləndirilməsi də nəzərdən yayınmadı. Azərbaycanda yüzlərlə jurnalist yüksək fəxri adlara layiq görüldü, çoxsaylı mətbuat işçisinə növbədənkənar mənzil və avtomobil verildi.

Beləliklə, Heydər Əliyevin mətbuata daim diqqət və qayğısı nəticəsində bu sahə cəmiyyətin proseslərə baxışını əks etdirən güzgü rolunu oynadı, hətta sovet rejiminin məlum ideoloji buxovları və sərt senzurasının hökm sürməsinə baxmayaraq, özünün əsas missiyasını yerinə yetirərək maarifçi düşüncənin genişlənməsinə, xalqımızın milli-

mədəni inkişafına öz töhfəsini verdi. Ən başlıcası isə müdrik şəxsiyyətin gələcəyə hesablanan mətbuat siyasəti Azərbaycan milli jurnalistika məktəbinin formalaşmasını, müasir jurnalistikanın yeni mərhələyə daxil olmasını şərtləndirdi. Sovet İttifaqının dağıldığı, Azərbaycanın müstəqillik əldə etdiyi ilk illərdə isə mətbuatla bağlı qurulan baza, yaradılan təməl onu keşməkeşli dövründə üzləşdiyi tənəzzülün acı nəticələrindən xilas etdi.

Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi illərdə jurnalistikanın təsir gücünü yüksək qiymətləndirirdi, eyni zamanda, jurnalistlərə səmimi münasibət bəsləyirdi, mətbuatın işıqlandırdığı problemlərə həssaslıqla yanaşırdı. Siyasi, sosial-iqtisadi sahələrin inkişafında KİV-in fəaliyyətini önə çəkməyə xüsusi əhəmiyyət verirdi. Başqa sözlə, iqtisadi və mədəni yüksəlişin əsasını qoymaqla, xalqın milli mənlik şüurunun, özünüdərk hissinin güclənməsinə nail olmaqla yanaşı, mətbuatı intibah və milli özünüdərk tribunasına çevirirdi, qəzet və jurnal səhifələrində cəmiyyətin tanınan simalarının dövr, zaman haqqında düşüncələrinə, qarşılaşılan problemlərin həlli ilə bağlı fikir və təkliflərinin işıqlandırılmasına şərait yaradırdı. Özü də bu imkandan yararlanıb ictimaiyyəti mövcud şəraitlə məlumatlandırırdı.

Heydər Əliyevin ötən əsrin 70-ci illərinin sonunda "Literaturnaya qazeta"ya verdiyi məşhur "Qoy, ədalət zəfər çalsın!" sərlövhəli müsahibə keçmiş İttifaqda ciddi səs-küyə gətirib çıxarmışdı. Bununla dahi şəxsiyyət, əslində, SSRİ məkanında ilk dəfə olaraq cinayətkarlığa və korrupsiyaya qarşı açıq müharibə elan etmişdi.

Əlbəttə, dünyaya qapalı olan bir ölkədə, özü də dövlətin rəhbərlərindən birinin dilindən cəmiyyətdə kök salmış neqativ halların açıq şəkildə təhlil və tənqid olunması o dövr üçün son dərəcə riskli, cəsarətli addım idi. Bəlkə də həmin vaxt SSRİ rəhbərliyində olan şəxslər arasında Heydər Əliyevdən savayı, heç kəs belə qətiyyətli addım ata bilməzdi.

Yeri gəlmişkən, ulu öndər həmin müsahibədə respublika həyatı ilə bağlı narahatlıq doğuran problemlərə, məsələn, hüquq-mühafizə orqanlarındakı nöqsanlara toxunur, həmin çətinliklərin aradan qaldı-

rılması yollarını diqqətə çatdırır, eyni zamanda, vətəndaşların hüquq və azadlıqlarının pozulmasından ciddi narahatlığını ifadə edirdi.

Şübhəsiz ki, Heydər Əliyevin bu cür cəsarətli mövqeyi o dövrdə SSRİ rəhbərliyini qəzəbləndirməyə bilməzdi. Lakin ulu öndərin cəmiyyətdə qazandığı hörmət və nüfuz ona qarşı yönələn hirs-hikkəni səngidirdi.

Ulu öndər çox sonralar həmin vaxt yaşanan gərginliyi xatırlayaraq deyirdi: "Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi olmağıma baxmayaraq, mən həmin müsahibədə sovet hakimiyyətinin, cəmiyyətinin işində olan mənfi halların hamısını açıq göstərmişdim. Xatirimdədir, o vaxt Andropov SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinin sədri, həm də Siyasi Büronun üzvü idi. O, bir neçə gündən sonra mənə telefon etdi. Dedi ki, sənin bu müsahibən böyük bir sensasiya yaradıbdır. Soruşdum ki, nə mənada? Cavab verdi ki, müsbət də var, mənfi də var. Soruşuram ki, nəyi müsbətdir, nəyi mənfidir? Deyir, müsbət odur ki, insanlar bizim cəmiyyətdəki bu yaraları görürlər və sevinirlər ki, kimsə cəsarət edib bunları açıq deyir. Özü də bunu aşağıda yox, ən yüksək vəzifədə çalışan bir adam deyir. Amma bunun əleyhinə olanlar da var. Soruşuram ki, niyə? Bildirir ki, çünki onlar bunun açılmağını istəmirlər. O vaxt bir çox belə yazılar olub".

Yeri gəlmişkən, o illərdə dahi rəhbərin vurğuladığı kimi, onun təşəbbüsü ilə mətbuatda belə yazılar tez-tez dərc edilirdi, xüsusilə mənəviyyat məsələlərinə həsr olunan materiallar geniş rezonans doğururdu. Düzdür, bu cür hallarda keçmiş İttifaq rəhbərliyi tərəfindən Heydər Əliyevə qarşı ciddi təzyiqlər də olurdu. Amma bu təzyiqlər dahi şəxsiyyəti müəyyənləşdirdiyi strateji prinsiplərdən, tutduğu yoldan çəkindirmirdi, daim doğru, dürüst kursuna sadiqliyini nümayiş etdirirdi. Bax, bununla da, dahi öndər gələcək müstəqil Azərbaycanın sağlam sosial-mənəvi mühiti üçün əsaslı zəmin hazırlayırdı.

Təbii ki, o zaman KİV-in qaldırdığı problemlər də Mərkəzi Komitənin və şəxsən Heydər Əliyevin diqqətindən yayınmırdı. Əsasən qəzetlərdə dərc olunan ciddi tənqidi yazıların, demək olar ki, əksəriy-

yəti Mərkəzi Komitənin bürosunda müzakirə edilir və müvafiq qərar çıxarılırdı.

Dahi şəxsiyyət müstəqil Azərbaycana rəhbərlik etdiyi illərdə də mətbuatı diqqət mərkəzində saxladı, ölkədə hökm sürən xaosun, özbaşınalığın aradan qaldırılmasında, dövlətçiliyin möhkəmləndirilməsində mətbuatın fəaliyyətindən səmərəli yararlandı. Bir çox məqamlarda qəzetlərin vasitəsi ilə xalqa müraciət etdi. İyun hadisələri, dövlət çevrilişlərinə cəhd zamanı Heydər Əliyev məhz medianın gücündən istifadə edərək, xalqı ölkənin üzləşdiyi təlatümlərdən, ağır bəlalardan xilas yolunda birləşdirdi.

Ötən əsrin 80-ci illərinin sonu – 90-cı illərinin əvvəllərində ölkədə anarxiya, hərc-mərclik baş alıb getdiyi dövrdə birbaşa Moskvanın ssenarisi əsasında mətbuatda Heydər Əliyev şəxsiyyətinə qarşı kampaniya başlanmışdı. Respublika rəhbərliyinin dəstəyi ilə daxildə də bu "qara piara" qoşulanlar az deyildi. Lakin dahi öndər bu kampaniya materiallarına qərəzli olduğundan, iftira və böhtanla yoğrulduğundan reaksiya vermirdi, səbr, dözüm nümayiş etdirirdi. Həm də xalqın yalanla doğrunu, düzlə əyrini, necə deyərlər, zərgər dəqiqliyi ilə seçdiyini yaxşı bilirdi. Nifrətin, kin-küdurətin haradan qaynaqlandığından xəbərdar idi. Bax, elə buna görə də xalq Heydər Əliyevə hər zaman xilaskar kimi yanaşırdı, onu Azərbaycanı üzləşdiyi vətəndaş müharibəsi təhlükəsindən, respublikanı parçalanmaq, erməni təcavüzündən qoruyacaq lider kimi qəbul edirdi. Ulu öndərə belə bir münasibətin 1993-cü ilin iyununda xalqın təkidi ilə hakimiyyətə qayıdışı zamanı şahidi olduq.

Müstəqilliyin ilk illərində mətbuatda Heydər Əliyevə qarşı yönələn şər- böhtan kampaniyası, əslində, ölkədə baş verən neqativ proseslərlə, eləcə də mətbuatda hökm sürən qeyri-demokratik mühitlə bağlı idi. Başqa sözlə, bu, o zaman respublikada azad mətbuatın hələ formalaşmamasından, KİV-in hakimiyyət və onun "kölgəsindəki" müəyyən qüvvələrin təsir dairəsində olmasından irəli gəlirdi.

Bu məqamda onu da xatırlatmaq yerinə düşər ki, 1992-ci ilin aprelində hərbi senzura tətbiqi adı altında mətbuat üzərində nəzarət daha

da gücləndirilmişdi, bundan bir ay sonra zor gücünə hakimiyyətə yiyələnən AXC–Müsavat cütlüyünün bir illik fəaliyyəti dövründə isə ölkədə söz və mətbuat azadlığı sahəsində vəziyyət daha da pisləşmişdi. Ozamankı ölkə rəhbərinin 15 aprel 1993-cü il tarixli sərəncamı ilə hərbi vəziyyətlə bağlı senzura təkcə hərbi sirlərə deyil, bütün məlumatlara aid edilərək, jurnalistlərin sərbəst informasiya fəaliyyətini daha da sərtləşdirmişdi. Əlbəttə, belə bir şəraitdə KİV nümayəndələrinin sərbəst, obyektiv fikir bildirməsi mümkün deyildi.

1998-ci ildə imzalanan "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" fərman ölkə mətbuatının inkişaf tarixində haqlı olaraq mühüm hadisə kimi qiymətləndirildi. Bu fərman kütləvi informasiya vasitələrinin sərbəst inkişafı, onların cəmiyyətin dinamik şəkildə demokratikləşməsinə təsir edən qüdrətli vasitəyə çevrilməsi yolunda dövlət siyasətinin həyata keçirilməsində mühüm addım sayıldı. Məhz bu sənədlə Mətbuatda və digər Kütləvi İnformasiya Vasitələrində Dövlət Sirlərini Mühafizə edən Baş İdarə ləğv edildi, hərbi senzura yaradılması haqqında 16 aprel 1992-ci il tarixli fərman və bütün informasiya yayımı üzərində nəzarət tətbiq edilməsi ilə bağlı 15 aprel 1993-cü il tarixli sərəncam qüvvədən düşdü. 1999-cu ilin sonunda qəbul olunan "Kütləvi informasiya vasitələri haqqında" yeni qanun isə mətbuatda demokratik prinsiplərin daha da möhkəmləndirilməsinə xidmət etdi. Bu sənəd Azərbaycanda mətbuatın inkişafına mane olan bir sıra bürokratik əngəllərin aradan qaldırılmasına yol açdı. Dövlət qeydiyyatı ləğv olundu və yeni mətbuat orqanlarının təsis olunması proseduru asanlaşdırıldı. Ümummilli liderin mətbuatın inkişafı ilə bağlı tədbirləri davamlı şəkil aldı. Belə ki, 2000-ci ilin martında ulu öndərin sərəncamı ilə "2000-2001-ci illərdə kütləvi informasiya vasitələrinin maddi-texniki şəraitinin yaxşılaşdırılması üzrə tədbirlər Proqamı" təsdiq olundu, Mətbuat və İnformasiya Nazirliyi ləğv edildi, Milli Mətbuat, Teleradio və İnternet Şurası yaradıldı.

Yəqin ki, çoxumuz yaxşı xatırlayırıq: Heydər Əliyevin Azərbaycana rəhbərliyə qayıdışından əvvəl jurnalistlərin ayrı-ayrı məmurlar

tərəfindən döyülməsinə, təhqir edilməsinə hər addımda rast gəlinirdi, vəzifəli şəxslərlə bağlı tənqidi yazı müəllifləri qeyri-qanuni şəkildə cəzalandırılırdı, təmsil olunduqları nəşrlərin fəaliyyətləri isə dayandırılırdı.

Bəli, sovetdən qalma bu cür totalitar ənənələrin müstəqilliyin ilk illərində daha da dərinləşməsi – jurnalistin nazir tərəfindən döyülməsi, yüksək vəzifəli şəxsin televiziyanın canlı efirinə müdaxilə edib təhqiramiz əməllər törətməsi ölkədə hələ də azad mətbuatın olmadığının göstəricisi idi. Heydər Əliyev 1993-cü ildə hakimiyyətə qayıdışından sonra belə bir acınacaqlı vəziyyəti aradan qaldırdı, qısa müddətdə mətbuat və söz azadlığının təmin edilməsi istiqamətində əməli işlər gördü. Bununla da Azərbaycan mətbuatının inkişafında yeni mərhələ başlandı. Azərbaycanda ictimai-siyasi sabitliyin yaradılması, insan hüquqlarının qorunmasının dövlətin siyasətinin prioritet istiqamətinə çevrilməsi, qanunun aliliyinin təmin edilməsi, ölkənin sürətli sosial-iqtisadi inkişafı, ictimai həyatın bütün sahələrinin yeniləşməsi üçün əlavə tədbirlər görülməsini şərtləndirdi. Heydər Əliyev fikir, söz və məlumat azadlığının, plüralizmin daha geniş təmin olunması ilə bağlı deyirdi: "Bizim dövlət siyasətimizin əsas məqsədlərindən biri Azərbaycanın mütərəqqi mətbuat ənənələrinin davam etdirilməsi və müasir beynəlxalq təcrübə ilə zənginləşdirilməsi, KİV-in maddi-texniki vəziyyətinin yaxşılaşdırılması, onların imkanlarından respublikada hüquqi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin formalaşdırılması və inkişafı, demokratik islahatların həyata keçirilməsində səmərəli istifadə edilməsindən ibarətdir".

Dahi şəxsiyyət bu sözləri diqqətə çatdırmaqla, müstəqil ölkənin dövlət quruculuğu prosesində KİV-in inkişafının, söz, fikir və mətbuat azadlığının təmin olunmasının prioritet istiqamət təşkil etdiyini diqqətə çatdırırdı. Sözügedən istiqamətdə həyata keçirilən tədbirlər isə şübhəsiz ki, müsbət nəticələrlə nəzərə çarpırdı. Heydər Əliyevə "Jurnalistlərin dostu" mükafatının təqdim edilməsi mərasimində özü bu barədə bildirirdi: "Azərbaycanın böyük tarixi var. Bu böyük tarixə nəzər salsaq görərik ki, heç vaxt Azərbaycanda söz bu qədər azad olmayıbdır, fikir bu qədər azad olmayıbdır, mətbuat bu qədər azad olmayıbdır".








STV






STV



Heydər Əliyevin mətbuatla əlaqədar belə bir siyasət yürütməsi təsadüf deyildi. Çünki yalnız bu yolla hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunun dərinləşməsini, Azərbaycanın dünya informasiya məkanına inteqrasiyasını gerçəkləşdirmək mümkün idi. Həm də bu xəttin diqqət mərkəzində saxlanılması, başqa sözlə, informasiya cəmiyyətinə keçidin reallaşdırılması şəxsiyyətin, cəmiyyətin və dövlətin informasiyaya olan tələbatının daha dolğun ödənilməsini, KİV-in fəaliyyətinin təkmilləşməsini və müasir dövrün tələblərinə uyğunlaşmasını şərtləndirirdi.

Bütün bunların köklü şəkildə gerçəkləşməsi–ümummilli liderimiz Heydər Əliyevin əsasını qoyduğu düşünülmüş və məqsədyönlü media siyasətinin uğurla həyata keçirilməsi Azərbaycanın demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu yolunda inamla irəliləməsinə əlverişli zəmin yaratdı, Konstitusiyamızda demokratiyanın əsas prinsiplərindən olan söz və fikir azadlığının təsbit olunmasını əsaslandırdı.

Ümummilli lider müstəqil Azərbaycana rəhbərliyi illərində dördüncü hakimiyyət sayılan mətbuatın hüquqi, iqtisadi bazasının yaradılmasını da diqqət mərkəzində saxlayırdı, bu istiqamətdə ardıcıl tədbirlər– KİV-lərin maddi-texniki bazasının möhkəmləndirilməsi, onlara dövlət qayğısının artırılması, söz, məlumat azadlığının qorunması, siyasi plüralizm prinsiplərinə dönmədən əməl edilməsi ilə bağlı addımlar atılmasına mühüm önəm verirdi. Bu baxımdan mətbuata dövlət nəzarəti sistemi-nin-senzuranın aradan qaldırılması, Mətbuat və İnformasiya Nazirliyinin ləğvi o illərdə Azərbaycanın demokratik prinsiplərə sadiqliyindən xəbər verirdi. Beynəlxalq tələblərə cavab verən “Kütləvi informasiya vasitələri haqqında” Qanunun qəbulu KİV-in təsis olunması və idarə edilməsi məsələlərini tənzimləyirdi, qanunvericilikdə nəzərdə tutulan hallardan əlavə digər məhdudlaşdırılma hallarını aradan qaldırırdı. Eyni zamanda, vətəndaşların qanuni yolla informasiya əldə etmək, hazırlamaq, ötürmək və yaymaq hüququna dövlət tərəfindən təminat verilməsini şərtləndirirdi.

“2000–2001-ci illərdə kütləvi informasiya vasitələrinin maddi-texniki şəraitinin yaxşılaşdırılması üçün Tədbirlər Proqramı” təsdiq

olundu. Vətəndaş müraciətlərinə baxılması, informasiyaların mühafizəsi, məlumat azadlığı, radio-televiziya yayımları, İTV və radio haqqında müxtəlif qərar və qanunlar qəbul etməklə KİV-in fəaliyyətinin genişləndirilməsi təmin edildi. 15 mart 2003-cü ildə Jurnalistlərin I Qurultayında jurnalistlərin qeyri-hökumət təşkilatı olan, özü-özünü tənzimləyən Mətbuat Şurası yaradıldı.

Azərbaycanda Mətbuat Şurasının formalaşması ilə media sahəsində pərakəndəlik aradan qaldırıldı, Jurnalistlərin Peşə Kodeksinin yaradılması isə media qurumları arasında problemlərin həllinə müsbət təsir göstərdi.

Bu dövrdə mətbuat üzərində dövlət senzurasının ləğvi barədə fərmanın imzalanması ilə KİV-in inkişafı daha da sürətləndi, eyni zamanda, mətbuatın cəmiyyət həyatında möhkəmlənməsinə əsaslı təsir göstərən mühüm əhəmiyyətə malik dövlət proqramının əsas istiqamətləri müəyyənləşdi. Bundan sonra isə Heydər Əliyevin 2000-ci il 6 mart tarixli fərmanı ilə təsdiqlənən “2000-2001-ci illərdə kütləvi informasiya vasitələrinin maddi-texniki şəraitinin yaxşılaşdırılması üçün tədbirlər proqramı”, “Məlumat azadlığı haqqında”, “Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında”, “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında”, “Ətraf mühitə dair informasiya almaq haqqında” Azərbaycan Respublikasının qanunları qəbul edildi.

Heydər Əliyevin 11 may 2002-ci il tarixli “Kütləvi informasiya vasitələri haqqında” Azərbaycan Respublikası Qanununa əlavələr və dəyişikliklər edilməsi barədə” fərmanı isə inkişaf etmiş ölkələrin mətbuata dair qanunvericilik təcrübəsinə əsaslanılmaqla, yazılı mətbuatın təsis edilməsini və ondan istifadə imkanlarını asanlaşdırır, mətbu nəşrlərin dövlət qeydiyyatı ilə bağlı icazə sistemini sadələşdirirdi.

Ulu öndər KİV-in inkişafı istiqamətində atılan bu addımlarla–söz və mətbuat azadlığı sahəsində məhdudiyyətləri aradan qaldırmaqla ölkəyə yeni bir ab-hava gətirdi, cəmiyyətdə qarşılıqlı anlaşmanı gücləndirdi, səmimiyyəti dərinləşdirdi, insanların öz fikir və mülahizələrini azad, maneəsiz çatdırma imkanlarını genişləndirdi.

Bütün bunlar dahi şəxsiyyətin söz, mətbuat azadlığının inkişafını ləngidən süni maneələrin aradan qaldırılması üçün qanunvericilik bazasının təkmilləşdirilməsi məqsədindən irəli gəlirdi.

Ulu öndər Heydər Əliyev ölkədə söz və mətbuat azadlığının qarantı olduğunu bildirirdi: "Bizim ümumi məqsədimiz mətbuata daha da çox azadlıq vermək, söz azadlığını daha geniş təmin etmək, Azərbaycanda demokratiyanı bütün sahələr üzrə inkişaf etdirməkdən ibarətdir."

Ümummilli liderin müstəqil respublikamıza rəhbərliyi illərində həyata keçirilmiş çoxşaxəli islahatların nəticəsi olaraq bu gün Azərbaycanda söz və mətbuat azadlığı sahəsindəki mövcud vəziyyət qabaqcıl demokratik ölkələrlə müqayisə edilə bilər.

Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrlərdə KİV kollektivləri ilə daim əlaqə saxlayaraq, onların mövcud problemləri, qayğıları ilə maraqlanıb və bu istiqamətdə konkret əməli tədbirlər görüb. Redaksiyaların maddi-texniki bazasının gücləndirilməsi istiqamətində ardıcıl layihələr reallaşdırıb, mətbuatın kəmiyyət və keyfiyyət göstəricilərinin yüksəlməsinə şərait yaradıb. Söz azadlığına və müstəqil jurnalistikanın inkişafına olan əngəllərin, maneələrin aradan qaldırılması, KİV-in tərəqqisi üçün edilən çoxsaylı güzəştlərlə yanaşı, jurnalistlərlə görüşlərin ənənəsini yaradıb, təmaslar zamanı üzləşilən problemlərə operativ münasibət bildirib, çətinliklərin məhz jurnalistikanın xeyrinə həll edilməsinin tərəfdarı olub. Məsələn, ulu öndər bir sıra qəzetlərin "Azərbaycan" nəşriyyatına olan borclarını dondurmaqla və sonradan bu borcları ləğv etməklə iqtisadi böhranın girdabında boğulan mətbu vasitələri xilas edib.

2001-ci ildə kütləvi informasiya vasitələrinin rəhbərləri ilə görüşən Heydər Əliyev deyirdi: "Biz mətbuat haqqında bir neçə ciddi addım atmışıq: söz azadlığının, mətbuat azadlığının təmin olunması, senzuranın aradan qaldırılması, bütün mətbuat orqanlarına sərbəstlik verilməsi. Əgər bu gün hansısa yeni bir şey varsa, biz onu edirik və edəcəyik".

Təbii ki, jurnalistlər tərəfindən də ümummilli liderə onların zəhmətini yüksək dəyərləndirən müdrik şəxsiyyət kimi böyük hörmət

bəslənilib. Bunun nəticəsi idi ki, Heydər Əliyev 2001-ci ildə "Jurnalistlərin dostu" mükafatına, 2003-cü ildə isə Çingiz Mustafayev Fondu tərəfindən "Jurnalistlərin dostu" adına layiq görülüb.

Ümummilli lider jurnalistlərə məsləhətlərini, tövsiyələrini də heç zaman əsirgəməyib, onları milli-mənəvi, etik dəyərlərə riayət etməyə çağırıb. Jurnalistlərin müstəqilliyinə, peşəkarlığına yüksək dəyər verib, onların hadisələri, baş verən prosesləri heç bir qərəzə, təhrifə yol vermədən ictimaiyyətə çatdırlmasının vacibliyini vurğulayıb.

Bütün bunlar Heydər Əliyevin sözə dəyər verən, həssas münasibət bəsləyən, hər kəlmənin, ifadənin yerini, gücünü bilən şəxsiyyət olduğunu bir daha təsdiqləyir.

Böyük rəhbər Azərbaycan dilini çox gözəl bilir, onu xalqımızın ən böyük sərvəti hesab edirdi. Ona görə də dilimizi yaşatmağın, onu inkişaf etdirməyin son dərəcə vacib məsələlərdən biri olduğunu dönədönə xatırladırdı.

Dahi şəxsiyyət çıxışlarında, xalqla təmaslarında, ictimaiyyət nümayəndələri ilə görüşlərində fikirlərində sözün qüdrətinə arxalanırdı, hər hansı bir möhtəşəm layihənin həyata keçirilməsinin zəruriliyini şərh edəndə sözün gücünə əsaslanırdı, kimisə düz yola qaytarmaq istəyəndən haqq sözə güvənirdi.

Ümummilli lider bu keyfiyyəti jurnalistlərdə də görmək istəyirdi – onların Azərbaycan dilinin zənginliyindən bəhrələnməyi, ana dilinin saflığını qoruyub saxlamağı ön plana çəkirdi, hazırlanan materialların dilinin axıcı, anlaşıqlı olmasını, bu yolla mətbuatın oxucu rəğbəti qazanmasını arzulayırdı.

Heydər Əliyev, eyni zamanda, jurnalistləri bu və ya digər hadisələri şərh edərkən nəyə xüsusi diqqət yetirmək lazım olduğunu göstərir, onlara yaxşını pisdən ayırmağı bacarmağı öyrədirdi. O, həm də fitnələrə uymamağı, polemikada nəzakətli, təmkinli olmağı öyrədir, başa salırdı ki, jurnalist özünün bütün iradəsini və dəlillərini səfərbər edərək, opponentləri təkzibedilməz faktlar qarşında qoymağı bacarmalıdır.

Jurnalistlərin ulu öndərə müraciət etmələri, onunla görüşmələri elə də çətin məsələ deyildi. Dahi rəhbər istənilən vaxt və istənilən mövzuda müsahibə verir, jurnalistləri maraqlandıran sualları əhatəli cavablandırırdı. Bu zaman KİV nümayəndələrindən bir şərtə riayət etmələri–informasiyanın hazırlanmasında həqiqətə, obyektivliyə arxalanılması tələb olunurdu. Ümumiyyətlə, Heydər Əliyev ölkənin siyasi, sosial-iqtisadi sahələrinin geniş işıqlandırılmasının, bu zaman nəzərə çarpan nöqsanların, çatışmazlıqların göstərilməsinin, tənqid olunmasının tərəfdarı idi. Çünki belə bir istiqamət ancaq ölkənin inkişafını, tərəqqisini sürətləndirməyə təkan verirdi. Lakin o, jurnalistləri qeyri-obyektiv məlumatlar yaymaqdan çəkindirər, belə xoşagəlməz hərəkətlərin yüksək jurnalist adına yaraşmayan hal olduğunu onların diqqətinə çatdırardı.

Heydər Əliyev jurnalist peşəsini yüksək dəyərləndirirdi: "Bu peşə çox vacib peşədir. Demokratik, hüquqi, dünyəvi dövlətdə, qanunlarla yaşayan dövlətdə jurnalistika çox vacib bir peşədir, mətbuat çox vacib bir sahədir. Bu, mənim fikrimdir və mən bu fikrimi heç vaxt dəyişməyəcəyəm".

Bax, elə bunun nəticəsi idi ki, Heydər Əliyevi bütün səfərlərində öz peşəsinin nüfuzunu qorumağı bacaran, yuxarıda sadalanan müsbət keyfiyyətləri, xüsusiyyətləri özündə cəmləşdirən jurnalistlər müşayiət edirdi. Bu zaman tədbirləri dövlət KİV-i ilə yanaşı, müstəqil, hətta müxalif nəşrlər də işıqlandırırdı.

Bu faktın təsdiqi olaraq bir hadisəni xatırlatmaq istərdik. 1993-cü ilin qanlı-qadalı 4 iyun günlərini yaxşı xatırlayırıq. O dövrün naşı rəhbərlərinin təqsiri üzündən qədim Gəncə dağılıb məhv olmaq üzrə idi. Şəhərin bu ağır günlərində Heydər Əliyevin müdrikliyi, sərkərdə qüdrəti bir daha özünü göstərdi: hadisələrin ən qızğın çağında ulu öndər bir qrup jurnalistin müşayiəti ilə Gəncəyə gəldi. Şiddətli atışmaların getdiyi yerlərə baxdı, vəziyyətlə ətraflı tanış oldu. Hər iki tərəfi diqqətlə dinlədi. Müdrik sözün, aydın zəkanın qüdrəti ilə atışmanın qarşısını aldı. Beləliklə, necə deyərlər, qaşla göz arasında olan vətəndaş müharibəsi təhlükəsinə son qoyuldu.

Heydər Əliyevin istər sovet dönəmində, istərsə də müstəqillik illərində söz, mətbuat azadlığına həssas münasibəti xarici KİV-in də diqqət mərkəzində idi. Məsələn, jurnalist Ayqul Omarova "Tribuna" qəzetində "Azərbaycanda iki hakimiyyət var: Heydər Əliyevin hakimiyyəti və KİV" sərlövhəli məqaləsində yazırdı: "Prezident Heydər Əliyev özü də kimisə qarşılayırsa və yaxud haraya gedirsə, onu həmişə 20–30 nəfərlik jurnalist qrupu müşayiət edir və bu jurnalistlər Prezidentin danışıqlar apardığı salonda olurlar. Müxalifət jurnalistləri də burada iştirak edirlər. Əvvəllər belə şey yox idi, indi isə müxalifət jurnalistlərini hər yerə dəvət edirlər. Yüksək vəzifəli məmurlar növbə ilə həftədə bir dəfə mətbuat konfransları keçirirlər. Bu gün bir nazir, gələn həftə başqa nazir".

Ayqul Omarova daha sonra yazırdı: "Bəli, görünür, biz hamımız həm azərbaycanlı jurnalistlərdən, həm də Heydər Əliyevin KİV-ə və söz azadlığına münasibətindən, həqiqətən, çox şey öyrənməliyik".

Rusiyanın digər bir jurnalisti–Aleksandr Budberq "Moskovski komsomolets" qəzetində "Virtuoz" sərlövhəli məqaləsində deyirdi: "Özlərini siyasətçi hesab edənlər çoxdur. Bəzən görürsən ki, rayon deputatı seçilən biri napoleonluq iddiasına düşür. Əslində isə, hətta prezidentlərin də bir çoxu, baxmayaraq ki, əsl siyasətçiyə çevrilə bilmir, ömürlərinin axırına qədər həmin kürsüdə qalırlar. Amma Heydər Əliyev elə nadir şəxsiyyətlərdəndir ki, onu bir nümunə kimi göstərmək olar. O, Makiavellinin traktatlarının qəhrəmanlarının canlı nümunəsi təsiri bağışlayır... Hakimiyyətə gəlmək istəyən insanlar onun təcrübəsini, xüsusilə KİV-lə işləmək bacarığını araşdıra və öyrənə bilərlər. Amma bunun, çətin ki, təkrarı olsun. Çünki bütün başqa istedadlar kimi, siyasətçi istedadı da anadangəlmədir".

Rusiyalı başqa bir jurnalist Oleq Sıqanov isə "Rossiyskaya qazeta"da "Zamanı qabaqlamış lider" məqaləsində yazırdı: "Heydər Əliyev Azərbaycan üçün lazımi vaxtda elə nadir, zəruri şəxsiyyət, ziyalı sinfinin hakimiyyətin zirvəsinə çatmış elə bir nümayəndəsi oldu ki, o özünün fenomenal siyasi keyfiyyətləri sayəsində nəinki yeni

milli ideyanı – müasir dövrün çağırışlarına adekvat olan yeni Azərbaycan dövlətçiliyi ideyasını formalaşdırmağa, həm də millətin ən geniş siyasi və intellektual qüvvələrini, o cümlədən müxtəlif mövqelərdə dayanan jurnalistləri – bu ideyanı həyata keçirən, Azərbaycanı mütərəqqi inkişaf orbitinə çıxarmağa qabil olan əla idarəçiləri və cəsarətli novatorları, qələm sahiblərini öz ətrafında sıx birləşdirməyə və onları bu məqsədə istiqamətləndirməyə müvəffəq oldu. Əliyev bunu, hətta o vaxtda edə bildi ki, çoxları onun uğur qazanacağına inanmırdı, siyasi qeyri-sabitlik xaosu tarixi üfüqləri, tarixi perspektivləri görünməz etmişdi. Heydər Əliyev bunu bacardı".

# Prezident İlham Əliyev və Azərbaycan dövlətinin media siyasəti

***Azərbaycanda son 17 il ərzində həyata keçirilən sistemli islahatlar, şəffaflıq və vətəndaş məmnunluğu prinsiplərinə əsaslanan sosial innovasiyaların tətbiqi, idarəetmə sahəsində baş verən keyfiyyət dəyişiklikləri, ictimai nəzarət və siyasi dialoq mühitinin genişləndirilməsi dinamik inkişaf edən respublikamızda müasir dövlət quruculuğunun başlıca istiqamətlərini təşkil edib.***

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev***

Ölkəmizdə müstəqil, güclü, fəaliyyətini günümüzün tələbləri səviyyəsində qurmağı bacaran, habelə dövlətçilik ənənələrinə bağlı və xalqımızın milli maraqlarını rəhbər tutan medianın inkişafı da prioritet vəzifələrdən biri kimi daim diqqət mərkəzində saxlanılıb. Bununla belə, KİV respublikamızda reallaşdırılan köklü islahatlardan kənarda qalmayıb, kommunikasiya texnologiyalarının sürətlə inkişaf etdiyi hazırkı dövrdə qlobal informasiya mühitinin müəyyənləşdirdiyi fəaliyyət prinsiplərinə uyğunlaşıb, cəmiyyətin obyektiv və peşəkar şəkildə məlumatlandırılması sahəsində öz səylərini daha da gücləndirib. Modern-

ləşmə, rasionallıq, obyektivlik, kreativlik, qabaqcıl texnologiyaların geniş tətbiqi, aparıcı trendlərin izlənilməsi medianın inkişafını şərtləndirən başlıca amilləri təşkil edib.

Prezident İlham Əliyevin Azərbaycan milli mətbuatının 145 illik yubileyinin keçirilməsi ilə bağlı imzaladığı 30 iyun 2020-ci il tarixli sərəncamında qeyd edildiyi kimi, respublikada aparılan siyasi islahatlar ölkəmizin hərtərəfli inkişaf etməsi, hər bir vətəndaşın bütün azadlıqlarla, o cümlədən söz və mətbuat azadlığı ilə əhatə olunması məqsədi daşıyır. Son 17 ildə KİV-in maddi-texniki bazasının daha da gücləndirilməsi, jurnalist əməyinin qiymətləndirilməsi istiqamətində həyata keçirilən çoxsaylı tədbirlər bunun bariz ifadəsidir:

Dövlətimizin başçısı 2005-ci ildə Azərbaycan milli mətbuatının 130, 2010-cu ildə 135, 2015-ci ildə 140 və 2020-ci ildə isə 145 illik yubileylərinin keçirilməsi ilə bağlı sərəncamlar imzalayıb, yubiley münasibətilə media əməkdaşları təltif edilib, onlara fəxri adlar verilib, KİV-ə maliyyə yardımı göstərilib.

Azərbaycan Prezidenti tərəfindən 2006-cı il fevralın 8-də imzalanan sərəncama əsasən redaksiyaların "Azərbaycan" nəşriyyatına olan 400 min manat məbləğində borcu dövlət büdcəsindən ödənilib.

Bunlarla bərabər, 2008-ci il iyulun 31-də imzalanan sərəncamla söz və məlumat azadlığının, KİV-in müstəqilliyinin təmin edilməsi məqsədilə kompleks tədbirlər nəzərdə tutan mühüm sənəd –"Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası" təsdiqlənib. Sənəddə əks olunan məsələlərin həlli üçün yaradılan Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu ötən müddətdə mətbuatın inkişafına, o cümlədən qəzetlərin ayrı-ayrı layihələrinin maliyyələşdirilməsinə dəstək verib.

Beləliklə, dövlətimizin başçısı İlham Əliyev ulu öndər Heydər Əliyevin əsasını qoyduğu ənənələri uğurla davam etdirməklə, KİV-in maddi-texniki bazasının gücləndirilməsi, jurnalist əməyinin qiymətləndirilməsi istiqamətində atdığı addımlarla ölkəmizdə azad

sözün hamisi, himayədarı olduğunu təsdiqləyib. Media da haqlı olaraq belə bir səmimi münasibətin qarşılığında ölkə Prezidenti cənab İlham Əliyevi dəfələrlə "Jurnalistlərin dostu" elan edib.

Xatırladaq ki, "RUH" Jurnalistləri Müdafiə Komitəsi tərəfindən aparılan rəy sorğusu əsasında Prezident İlham Əliyevin "Jurnalistlərin dostu" seçilməsi ilə bağlı keçirilən mərasimdə "Mən dostluğa sadiq adamam və hesab edirəm ki, dostluğumuz bundan sonra da uğurla davam edəcəkdir",– deyən Prezident İlham Əliyev ölkəmizdə mətbuatın inkişafı istiqamətində mühüm addımların atıldığını vurğulayaraq, demokratik cəmiyyətin qurulması istiqamətində azad mətbuatın rolunun danılmaz olduğunu bildirib: "Azərbaycan jurnalistikası inkişaf edir və cəmiyyətdə çox müsbət rol oynayır. Azərbaycanda bütün azadlıqlar təmin olunur, o cümlədən söz azadlığı və siz jurnalistlər bunu yaxşı bilirsiniz. Azərbaycanda minlərlə mətbuat orqanı var ki, qeydiyyatdan keçib sərbəst fəaliyyət göstərir. Bu gün Azərbaycan jurnalistikası cəmiyyəti narahat edən problemləri üzə çıxarır, çox dəyərli təhlillər aparır və ümumiyyətlə, ölkəmizin inkişafında çox müsbət rol oynayır".

Jurnalistlərin böyük dostu və hamisi olan Prezident İlham Əliyev mətbuat işçilərinin mənzil probleminin gerçəkləşdirilməsi ilə bağlı dünyanın heç bir ölkəsində müşahidə olunmayan sərəncamlar imzalayıb. Bunun nəticəsində 2013-cü il iyulun 22-də jurnalistlər üçün tikilən birinci, 2017-ci il iyulun 20-də isə ikinci binada Milli Mətbuat Günü münasibətilə mənzillərin paylanılması mərasimində iştirak edib və həmçinin üçüncü binanın təməlini qoyub. Jurnalistlərlə görüşü zamanı Prezident deyib: "Mən həmişə çalışmışam və çalışıram ki, jurnalistlərə öz dəstəyimi göstərim. Mənim jurnalistlərlə çoxsaylı görüşlərim, səmimi söhbətlərim bunu göstərir. Xüsusilə jurnalistlər üçün binaların tikilməsi də bu siyasətin bir təzahürüdür".

Azərbaycan dövlətinin azad mətbuatın inkişafında bundan sonra da fəal olacağını vurğulayan dövlətimizin başçısı həmin görüşdə, eyni zamanda, bildirib ki, jurnalistlər üçün bütün şərait yaradılıb. Bu gün Azərbaycan cəmiyyəti təhlükəsizlik, sabitlik şəraitində yaşayır. İndiki

zəmanədə bu, özlüyündə bir nailiyyətdir və biz ölkəmizi bütün mümkün olan risklərdən qoruyuruq.

Etiraf edək ki, dünyanın heç bir ölkəsində mediaya bu səviyyədə diqqət və qayğı göstərilməsinə rast gəlmək mümkün deyil.

Prezident İlham Əliyev 2015-ci il iyulun 21-də milli mətbuatın yaradılmasının 140 illiyi münasibətilə Mətbuat Şurasının İdarə Heyətinin üzvləri ilə görüşündə çıxış edərək, Azərbaycanda artıq azad cəmiyyətin, azad mətbuatın formalaşdığını diqqətə çatdırıb, eyni zamanda, ölkədə yüzlərlə qəzet, jurnal, 50-dən çox televiziya və radio kanalının fəaliyyət göstərdiyini vurğulayıb. Dövlət başçısı nitqində dünyada insanların informasiyaya maraqlı olduqları üçün mətbuata həssaslıqla yanaşıldığını xatırladaraq, jurnalistlərin hər bir ölkədə, o cümlədən Azərbaycanda qərəzsiz, çevik, operativ fəaliyyət göstərmələrinin zəruriliyini də bildirib: “Biz bunu Azərbaycanda görürük. Çünki bu gün Azərbaycan mətbuatı artıq yüksək səviyyəyə qalxıbdır. Mən həm operativlik, həm milli maraqların müdafiə edilməsi sahəsində mətbuatın fəaliyyətini yüksək qiymətləndirirəm”.

Şübhəsiz ki, Azərbaycanda mətbuatın inkişafı, cəmiyyətdə önəmli mövqe tutması dövlət başçısı tərəfindən bu sahəyə xüsusi diqqət yetirilməsinin, habelə jurnalistlərin mövcud problemlərinin həlli istiqamətində davamlı tədbirlər həyata keçirilməsinin məntiqi nəticəsidir. Bu da təsadüfi deyil. Çünki ölkəmizin dünya informasiya məkanına, habelə informasiyalı cəmiyyətə inteqrasiyası cəmiyyətin, eyni zamanda, dövlətin informasiyaya olan tələbatının daha dolğun, hərtərəfli ödənilməsinə, medianın işinin səmərəliliyinə, beynəlxalq standartlara uyğunlaşmasına ciddi ehtiyac yaradır.

Buna görə də ölkə rəhbəri son 17 il ərzində KİV ilə dövlət qurumları arasında səmərəli əməkdaşlığın qurulmasına, medianın iqtisadi müstəqilliyinin və jurnalistlərin peşəkarlığının artırılmasına, vətəndaş cəmiyyəti quruculuğu prosesində onların rolunun gücləndirilməsinə xüsusi önəm verib və bu məqsədlə mühüm tədbirlər həyata keçirib, respublikada medianın sərbəst fəaliyyəti üçün bütün zəruri imkanlar yaradıb.

Mətbuatı özünün dəstəkçisi, dostu adlandıran Azərbaycan Prezidenti yuxarıda adı çəkilən görüşündə deyib: "Bizim mətbuatımız ölkədə gedən müxtəlif proseslərlə bağlı operativ məlumat verir. Onu da qeyd etməliyəm ki, bir çox hallarda ölkədə, misal üçün, hər hansı pozuntular baş verdikdə, qüsurlar olanda, yaxud da, hər hansı bir xoşagəlməz vəziyyət yarananda mən məlumatı, o cümlədən mətbuatdan əldə edirəm. Bu, mənim üçün də çox əhəmiyyətlidir. Çünki yəqin, siz də bilirsiniz ki, Prezidentin hadisələrlə bağlı bilavasitə mətbuata çıxışı yoxdur, vasitəçilər, köməkçilər, administrasiya işçiləri, digər mənbələr var. Ona görə, bəzi hallarda məlumat ya gecikir, ya gəlmir, ya da, o da sirr deyil ki, məlumatı gizlətmək istəyirlər. Ona görə, Azərbaycanda azad mətbuatın mövcudluğu mənim də işimi yüngülləşdirir".

Prezident çıxışının davamında bildirib ki, Prezident Administrasiyasında, digər strukturlarda işləyənlər ölkə rəhbərinin bəzi hallarda məlumatı medianın çıxışlarının köməyi ilə onlardan tez əldə etdiyini və dərhal reaksiya verdiyini yaxşı bilirlər. Bu çıxışlarda qaldırılan məsələlər mütləq yoxlanılmalıdır, əgər həqiqətdirsə, ölçü götürülməlidir: "Ona görə, sizin işiniz mənim üçün də çox dəyərlidir, əhəmiyyətlidir və mən bunu yüksək qiymətləndirirəm. Bu, belə də olmalıdır, çünki ölkədə həllini gözləyən problemlər hələ ki, çoxdur. Bir çox məsələlər öz həllini tapıbdır. Ancaq hələ ki, həm siyasi islahatlarla, iqtisadi inkişafla bağlı görüləsi işlər çoxdur. Hesab edirəm ki, xüsusilə, idarəetmə sistemində islahatlar daha da dərinləşməlidir".

Dövlət başçısı həmin çıxışında ölkədə hələ də məmur özbaşınalığı, habelə korrupsiya, rüşvətxorluq, insanların hüquqlarının pozulması kimi hallara rast gəlindiyini qeyd edərək, bildirib ki, belə neqativ məsələlər media tərəfindən işıqlandırılır və buna dərhal reaksiya verilir, lazımi tədbirlər görülür: "Ona görə, mətbuatın burada nadir rolu var. Mən bunu sizə çox səmimi şəkildə deyirəm və sizdən xahiş edirəm, bu sahədə öz fəaliyyətinizi gələcəkdə də davam etdirəsiniz ki, həm ictimaiyyət, həm o pozuntuları edən məmurlar bilsinlər ki, heç bir yanlış hərəkət reaksiyasız qalmayacaq.

Son vaxtlar Bakının hər hansı bir yerində əgər bir ağac kəsilirsə dərhal qəzetlərdə, internet saytlarında bu barədə məlumat gedir. Dərhal reaksiya verilir və ölçü götürülür. Digər sahələrdə də, həmçinin. Mən dəfələrlə həm iş adamlarına, həm, ümumiyyətlə, vətəndaşlara müraciət etmişəm ki, əgər hər hansı bir ədalətsizlik, qanun pozuntusu, özbaşınalıq baş verirsə, dərhal reaksiya verin. İndi bu reaksiyanı vermək üçün kifayət qədər imkanlar var. Azərbaycanda internet şəbəkəsi geniş yayılıb. Biz indi hər bir yaşayış məntəqəsinə genişzolaqlı internetin çəkilişini təmin etməyə çalışırıq".

Dövlət başçısının vurğuladığı kimi, hazırda Azərbaycanda internetin sürətli inkişafı internet mediasının da fəaliyyətinə böyük təkan verib. Ölkə Prezidentinin rəhbərliyi ilə bu sahənin tərəqqisi, senzuradan, müəyyən məhdudiyyətlərdən azad olması üçün indiyədək bir sıra tədbirlər həyata keçirilib. Prezident İlham Əliyev bu il yanvarın 26-da Rəşad Nəbiyevi nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri təyin olunması ilə əlaqədar videoformatda qəbul edərkən bu barədə ətraflı danışıb. Bildirib ki, ölkə daxilində rabitə sahəsində bütün əsas məsələlər həllini tapıb. Hazırda internet istifadəçilərinin sayı 80 faizi keçib. İnternetdə senzura, məhdudiyyət problemi aradan qaldırılıb.

Lakin internet mediasında yaranan bu əlverişli şəraitdən sui-istifadə halları da tez-tez müşahidə olunur. Bu, daha çox qeyri-obyektiv və qərəzli informasiyaların yayılmasında özünü büruzə verir. Belə vəziyyət isə ictimaiyyətdə mediada başıpozuqluğun hökm sürməsi, informasiyanın müdafiəsiz qalması təsəvvürü yaradır. Bu cür mühit həm də antidövlət və anticəmiyyət qüvvələrin fəaliyyətlərini genişləndirməyə təkan verir.

Halbuki fikir, söz və məlumat azadlığı, sərbəst düşüncə KİV-in və bütövlükdə müasir informasiya cəmiyyətinin söykəndiyi əsas dəyər və məqsəddir. Başqa sözlə, bu, medianın cəmiyyəti məlumatlandırmasında və ictimai fikrin ifadə olunmasında başlıca amildir. Ona görə də qloballaşma və inteqrasiya proseslərinin geniş vüsət aldığı indiki zamanda fikir, söz və məlumat azadlığından hər hansı bir informasiya istehsalçısının və yayımçısının sui-istifadə etməsi yolverilmədir.

Bu mənada Azərbaycan üçün aktual məsələlərdən biri də informasiya təhlükəsizliyinin təmin olunması, informasiya məkanında milli maraqların müdafiəsidir. Burada KİV-in üzərinə böyük vəzifə düşür. Bunun üçün KİV dünya praktikasında toplanmış təcrübəyə əsasən, mövqe və mənsubiyyətindən asılı olmayaraq, milli təhlükəsizlik və maraqlar naminə dövlət siyasətinin işıqlandırılmasında obyektivliyin qorunmasına əməl etməlidir. Əks təqdirdə, KİV təhlükəli qüvvələrin əlində manipulyasiya vasitəsinə çevrilə bilər.

Bu məsələdə hər bir media əməkdaşının peşə etikasına riayət etməsi, qərəzsiz, obyektiv, vicdanlı olması vacib şərtlərdən biridir. Təəssüf ki, hazırda Azərbaycanda bir sıra KİV tərəfindən bu ümdə prinsiplərə əməl edilmir, bilərəkdən yalan, böhtan xarakterli, yaxud qeyri-dəqiq informasiyalar, vəzifəli şəxslərin, ictimai-siyasi xadimlərin heysiyyatına toxunan, onların nüfuzuna xələl gətirən əsassız, sifarişli materiallar yayılır. Bu cür media strukturlarında qərəzsizlik, obyektivlik, vicdanlılıq, hadisələrə obyektiv baxış kimi ümdə jurnalistika prinsiplərinə əməl olunması barədə danışmaq isə sadəcə mümkün deyil. Kütləvi informasiya vasitələrində özünü göstərən belə neqativ tendensiyalar, ilk növbədə, ölkə Konstitusiyasının kobud şəkildə pozulması deməkdir.

Yeri gəlmişkən, burada bir məsələyə də toxunmaq istəyirəm. Azərbaycanın beynəlxalq mövqeləri getdikcə möhkəmlənir. Respublikamızla əməkdaşlıq etmək istəyən ölkələrin sayı dinamik şəkildə artır. Eyni zamanda, beynəlxalq mediada respublikamıza qarşı davamlı olaraq ədalətsiz kampaniya da aparılır. Prezident İlham Əliyev bununla bağlı deyib: “Bu kampaniya ona görə ədalətsizdir ki, ikili standartlar əsasında qurulubdur. Hər bir ölkədə qüsurlar, çatışmayan cəhətlər və sair var. Biz özümüz onları yaxşı bilirik və həll etməyə çalışırıq. Ancaq ümumi regional kontekstdən Azərbaycanı seçib hədəfə çevirmək, əlbəttə ki, ikili standartlar və anti-Azərbaycan siyasətinin əlamətidir. Xüsusilə, önəmli beynəlxalq tədbirlər ərəfəsində bu kampaniya daha da ciddi formalar alır və bizə qarşı əlaqələndirilmiş şəkildə hücumlar təşkil edilir. Biz bunu Avropa Oyunları ərəfə-

sində bir daha gördük və bu, mənim üçün sürpriz deyildi. Əksinə, bu, belə olmasaydı mənim üçün sürpriz ola bilərdi. Bunun müxtəlif səbəbləri var. Siz də bunları yaxşı bilirsiniz. Həm Azərbaycanın müstəqil siyasəti, Azərbaycanın uğurları, Qərbdə islamofobiya meyillərinin gücləndirilməsi. Ümumiyyətlə, hər bir ölkənin yerinin müəyyən edilməsi siyasəti var. Elə bil ki, kimsə burada bu ölkələrin reytinqini, yaxud da, tutduğu yerləri müəyyən etməyə çalışır".

Azərbaycana qarşı şər-böhtan kampaniyasını Qərb mediası bu gün də davam etdirir. Ölkəmizi ləkələməyə, imicinə zərbə vurmağa yönələn yalan məlumatlar, uydurmalar əsasən erməni diasporu, işğalçı Ermənistanının havadarları tərəfindən yayılır. Bunun qarşısının alınması üçün KİV erməni kütləvi informasiya vasitələrində və Ermənistan siyasi-hərbi rəhbərliyinin sosial media hesablarında ünvanımıza yönələn şər və böhtan dolu saxta informasiyalara qarşı mübarizəni daha da gücləndirməli, erməni terrorçuluğu və erməni ekstremizminin nə qədər təhlükəli olduğunu bütün çılpaqlığı ilə beynəlxalq aləmə göstərməlidir. Dövlətimizin başçısı ayrı-ayrı çıxışlarında bu məsələnin zəruriliyinə toxunaraq, sözügedən istiqamətdə fəal iş aparılmasının əhəmiyyətini diqqətə çatdırıb:

– xarici dillərdə internet saytlarının sayı daha da artırılmalıdır;

– Azərbaycanın ən reytinqli internet saytlarının başqa dillərdə variantları yaradılmalıdır;

– xarici media resursları ilə daha sıx əlaqələr qurulmalı, xarici media nümayəndələri Azərbaycana dəvət edilməli, Azərbaycan jurnalistlərinin isə xaricə səfərləri təşkil olunmalıdır.

Prezident İlham Əliyevin rəhbərliyi ilə hazırda bu məsələlərlə bağlı çox ciddi addımlar atılır. Bunun nəticəsində əldə edilən uğurlar isə Azərbaycan həqiqətlərinin bütün dünyaya çatdırılmasını, ölkəmizin mövqeyinin beynəlxalq hüquq tərəfindən birmənalı dəstəkləməsini şərtləndirir.

Yeri gəlmişkən, 44 günlük Vətən müharibəsi dövründə Prezident İlham Əliyev dünyanın aparıcı informasiya agentliklərinə, televiziya kanallarına verdiyi çoxsaylı müsahibələrində suallara dəqiq, məntiqli,

faktlara söykənən cavabları ilə Qarabağ müharibəsi haqqında həqiqətləri dünya ictimaiyyətinə çatdırdı. Bununla da düşmənin və havadarlarının ölkəmiz haqqında yaydığı qərəzli, saxta məlumatları təkzib etdi, onların bütün avantüra, qarayaxma kampaniyalarının, təzyiq cəhdlərinin qarşısını qətiyyətlə aldı, xalqımızın beynəlxalq hüququn norma və prinsipləri, BMT Təhlükəsizlik Şurasının məlum qətnamələri əsasında haqq savaşı apardığını bildirdi.

Bu məsələdə diqqətçəkən məqam həm də o idi ki, Prezident İlham Əliyev Ermənistanın mövqeyini müdafiə edən KİV-in də müraciətinə müsbət yanaşaraq, onların suallarını cavablandırırdı. Bu zaman dövlət başçısı təmkinlə, uzaqgörənliklə, siyasi peşəkarlıqla Azərbaycanın haqlı mövqeyini elə əsaslandırdı ki, ondan sonra erməni lobbisinin maraqlarına xidmət edən jurnalistin əlavə sual verməyə gücü çatmırdı. Azərbaycan Prezidenti bu sualların hər birinə son dərəcə təmkinlə, soyuqqanlılıqla cavab verirdi, məsələnin mahiyyətini səbrlə izah edirdi, zəruri sənədlərə və tarixi faktlara istinadən öz mövqeyinin və dediklərinin doğruluğunu, ədalətə söykəndiyinidiyini sübuta yetirirdi.

Prezident İlham Əliyev ötən il oktyabrın 12-də Türkiyənin "Haber Global" televiziya kanalına müsahibəsində Vətən müharibəsində erməni diaspor təşkilatlarının və onların havadarlarının, habelə dünya erməniliyinin Azərbaycana qarşı mətbuat savaşını daha da gücləndirdiklərini bildirib: "Bunun nəticəsidir ki, bu gün dünya mətbuatında bir çox hallarda təhrif edilmiş məlumatlar yer alır. Ona görə Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq üçün bizim böyük səylər göstərməyimiz gərəkdir. Bu baxımdan Türkiyənin mətbuat nümayəndələrinə xüsusi təşəkkürümü bildirmək istəyirəm. Çünki demək olar, hər gün gecə-gündüz Türkiyənin aparıcı televiziya kanalları, digər mətbu orqanları bu münaqişə ilə bağlı həqiqətləri dünyaya çatdırır".

Dövlətimizin başçısı müsahibəsində daha sonra erməni hiylə və məkrindən danışaraq, onların beynəlxalq aləmdə daim dəstək almalarına öyrəşdiklərini vurğulayıb, bunun səbəbini isə dünya erməniliyi və islamofob dairələrin dünyada kifayət qədər güclü mövqelərə malik

olmaları ilə əlaqələndirib. Ölkə rəhbəri, eyni zamanda, işğalçı dövlətin xarici ölkələrdəki havadarları tərəfindən Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasətinin daim dəstəkləndiyini, respublikamız haqqında məkrli yalanlar yayıldığını, hətta azərbaycanlıların təcavüzkar kimi göstərilməyə çalışıldığını və bunun hazırda da davam etdirildiyini xatırladıb.

Belə bir şəraitdə təbii ki, Azərbaycan mediası sözügedən istiqamətdə öz fəaliyyətini daha da gücləndirdi. Ölkəmizin həm beynəlxalq hüquq, həm də tarixi ədalət baxımından ədalətin tərəfində olduğu, əzəli torpağını işğalçıdan geri almaq məqsədilə Vətən müharibəsi apardığı üçün haqq səsi daha gur eşidildi. Digər tərəfdən, qeyri-ənənəvi mətbuat vasitələrində, internet resurslarında yayımlanan məlumat və şərhlərdə obyektivliyə əsaslanılaraq, bir çox hallarda düşmən tərəfin işğalçı niyyəti onun öz “arqumentləri” ilə alt-üst edildi. Bu isə Ermənistanın informasiya müharibəsində zəifləməsinə, əvvəlki mövqelərini tədricən itirməsinə öz müsbət təsirini göstərdi.

Müharibənin getdiyi günlərdə dövlətimizin başçısının ardıcıl beynəlxalq ictimaiyyət üçün nəzərdə tutulan çıxışları, Azərbaycan Respublikası Prezident Administrasiyası və Müdafiə Nazirliyinin mətbuat xidmətlərinin, hərbi informasiya mərkəzlərinin məlumatları informasiya müharibəsində boşluğun yaranmasının qarşısını aldı. Belə bir vəziyyət isə təbii ki, düşmənin saxta xəbərlərinin (fake news), necə deyərlər, ayaq açıb yeriməsinə imkan vermədi.

Azərbaycanın informasiya cəbhəsində düşünülmüş sistemli, eyni zamanda, fakt və dəlillərə əsaslanan fəaliyyəti Ermənistan hakimiyyətinin uzun illər bu istiqamətdə apardığı qismən uğurlu mübarizənin tam fiaskoya uğraması ilə nəticələndi. Baş nazir Nikol Paşinyan kapitulyasiya müqaviləsini imzaladığı gün bu ölkənin Müdafiə Nazirliyinin sözçüsü xalqı aldatdığını, bunu bilavasitə təmsil olunduğu rəsmi qurumun istəyi ilə reallaşdırdığını bildirdi və vəzifəsindən istefa verdi.

Burada 44 günlük Vətən müharibəsində və sonrakı müddətdə Ermənistanın informasiya təxribatları qarşılığında internet mediamı-

zın bir sıra səhvlərə yol verdiyini, hətta gücsüzlük nümayiş etdirdiyini də etiraf etməliyik. Məhz internet resurslar, elektron, sosial media üzərində tənzimləmənin və nəzarətin zəifliyinə görə bu gün də yerli resursların fəaliyyətində Ermənistanın rəsmi təbliğatının "izləri" aşkar nəzərə çarpır. Bu fikri bir qədər də konkretləşdirib deyə bilərik ki, döyüşlərin gedişində üstünlük Azərbaycan Ordusunun tərəfində olmasına baxmayaraq, erməni media kanalları və resurslarının müxtəlif dillərdə paylaşılan yalan xəbərləri, dezinformasiyaları bir sıra hallarda Azərbaycan mediası tərəfindən də tirajlanırdı.

Erməni internet kanallarının dezinformasiyalar yaymaqda məqsədləri Azərbaycan cəmiyyətində fikir ayrılığı yaratmaq, xalqda ruh düşkünlüyi, orduya, hakimiyyətə inamsızlıq formalaşdırmaq idi.

O zaman erməni tərəfə qarşı informasiya müharibəsi aparan yerli resurslarımızın bu sahədə qeyri-peşəkarlığı, dezinformasiyaya qarşı vaxtında və ən əsası arqumentli əks-təbliğat qura bilməməsi, bir sıra hallarda isə prosesi düzgün dəyərləndirməməsi təəssüf hissi doğururdu. Azərbaycan Prezidentinin Vətən müharibəsinin gedişi ilə bağlı ardıcıl müsahibə-çıxışları olmasaydı, həqiqətən, erməni mediasının bilərəkdən saxta informasiyaları cəmiyyətdə parçalanma hallarına, şüurlarda orduya, hakimiyyətə inamsızlığın yaranmasına gətirib çıxara bilərdi.

Müharibə günlərində elektron resurslarda, sosial platformalarda döyüş bölgələrindən sızmış, zorakılıq görüntüləri olan materialların nizamsız paylaşılması da nəzərə çarpırdı ki, bu da ölkənin beynəlxalq imicinin korlanması üçün ermənilərə bir fürsət yaradırdı, düşmən bundan yararlanıb həmin görüntüləri xarici dairələrə istinad mənbələri kimi təqdim edirdi. Bundan başqa KİV-də bəzən jurnalist və ya aparıcıların qeyri-peşəkarlığı səbəbindən milli, dini və məzhəb ayrı-seçkiliyinin qabardılması, ölkədə etnik və ya regional mənsubiyyətə görə münasibətin mövcud olması kimi qərəzli fikirlərin səsləndirilməsi də işğalçının informasiya mübarizəsində köməyinə çatırdı.

Azərbaycan mediası hazırda reklam bazarının canlandırılmasına zəruri ehtiyac duyur. Çünki bu sahədə vəziyyətin arzu edilən səviyyədə

olmaması texnoloji yeniliklərin tətbiqini, jurnalistlərin sosial şəraitinin yaxşılaşdırılmasını, materialların keyfiyyətlə hazırlanmasını çətinləşdirir.

Etiraf edək ki, mediada peşəkarlıq da aşağı səviyyədədir. Hazırlanan təhlili materiallar, informasiyalar müasir tələblərə cavab vermir. Bu, əsasən jurnalist heyətinin zəif olması ilə bağlıdır. Düzdür, bu məsələyə maliyyə vəziyyəti daha çox təsir göstərsə də, müxbirlərin professional kimi yetişmə imkanlarının aşağı olması da az rol oynamır. Belə bir şəraiti yaxşılaşdırmaq məqsədilə, ilk növbədə, müəyyən qurumlar tərəfindən gənc jurnalistlər üçün beynəlxalq səviyyəli kurslar təşkil edilməsi diqqətdə saxlanılmalıdır. Bundan başqa, jurnalistika fakültələrində tədrisin təşkilində bütün nazirliklər və aparıcı biznes qurumlarının iştirakı təmin olunmalıdır. Bunsuz peşəkarlıq probleminin həlli mümkün deyil.

İnformasiya müharibəsində Azərbaycanın qələbəsi, eyni zamanda, əsasən elektron resurslarda, sosial platformalarda yuxarıda göstərilən nöqsanlara yol verilməsi KİV-də yeni reallıqların meydana gəlməsini şərtləndirdi, elektron informasiya cəmiyyətinə keçidi sürətləndirdi, media subyektlərinin rəqabət mühitinin formalaşmasına, eyni zamanda, jurnalistlərin fəaliyyətinin yenilənməsinə müsbət təsir göstərdi. Belə bir şərait KİV üçün peşəkar mütəxəssislərin hazırlanması, yeni informasiya-kommunikasiya texnologiyalarının və innovasiyaların tətbiqinin stimullaşdırılması, xüsusilə informasiya məkanının təhlükəsizliyinin təmin edilməsi zərurətini meydana gətirdi. Bütün bunlar isə Preziden İlham Əliyev tərəfindən bu il yanvarın 12-də “Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında” fərman imzalanması ilə nəticələndi.

Bu fərmana əsasən, Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun əsasında “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi” publik hüquqi şəxs yaradılması isə ölkədə medianın inkişafının dəstəklənməsi və bu sahədə həyata keçirilən institusional quruculuq prosesinin davam etdirilməsi siyasətinin tərkib hissəsidir.

Nizamnaməyə əsasən agentlik media subyektlərinin fəaliyyətinin

təkmilləşdirilməsi, jurnalistlərin peşəkarlığının və məsuliyyətinin artırılması, onların sosial müdafiəsinin gücləndirilməsi, media sahəsində mütəxəssislər hazırlanması və onların əlavə təhsilinin təşkili, habelə kütləvi informasiya istifadəçilərinin media savadlılığının yüksəldilməsi və digər istiqamətlərdə tədbirlər həyata keçirəcəkdir.

Bununla yanaşı, media sahəsində yeni informasiya-kommunikasiya texnologiyalarının və innovasiyaların tətbiqinin stimullaşdırılması, vətəndaş və cəmiyyət üçün ictimai maraq doğuran layihələrin həyata keçirilməsinin təşkili, həmçinin dövlət orqanları və qurumlarının, yerli özünüidarəetmə orqanlarının, hüquqi və fiziki şəxslərin müvafiq sahə üzrə fəaliyyətinin əlaqələndirilməsinin həyata keçirilməsi Medianın İnkişafı Agentliyinin əsas prioritetlərindəndir.

Eyni zamanda, media subyektlərinə müvafiq sahədə normativ-hüquqi aktların şərhi və izahı ilə bağlı köməklik göstərmək, bu sahədə dövlət dəstəyinin imkan və mexanizmləri barədə məlumat vermək, inkişaf strategiyalarının və məqsədli proqramların hazırlanmasında, həyata keçirilməsində iştirak etmək, media subyektləri ilə cəmiyyət və dövlət arasında münasibətlərin tənzimlənməsi məqsədilə normativ-hüquqi bazanın təkmilləşdirilməsinə dair təkliflər hazırlamaq, medianın fəaliyyətinə mane olan problemlərin həllinə dair təkliflərini dövlət və yerli özünüidarəetmə orqanlarına təqdim etmək də Medianın İnkişafı Agentliyinin daim diqqətində saxlayacağı məsələlərdəndir.

Agentlik sadalanan çoxşaxəli fəaliyyət istiqamətləri ilə yanaşı, media subyektlərinin iqtisadi müstəqilliyinin gücləndirilməsi, maddi-texniki bazalarının möhkəmləndirilməsi, infrastrukturun modernləşdirilməsi, müvafiq sahədə yeni iqtisadi modelin yaradılmasına dəstək göstərilməsi istiqamətində tədbirlərin görülməsini də nəzərdə tutur.

Hazırda dünyada media sərhədlərinin silinməsi, elektron informasiya cəmiyyətinə keçid nəticəsində kütləvi informasiyanın yayılma sürətinin kəskin artması, media məkanının dünyaya açılması yerli media subyektlərini aparıcı xarici media subyektləri ilə vahid informasiya mühitində rəqabət aparmaq reallığı ilə qarşı-qarşıya qoyub. Bu

vəziyyət beynəlxalq praktikanın dərindən öyrənilməsini, dünyanın qabaqcıl media subyektlərinin fəaliyyət prinsiplərinin araşdırılmasını, bu sahədə təcrübə mübadiləsinin aparılmasını tələb edir. Buna görə də xarici media subyektləri, habelə beynəlxalq təşkilatlarla əməkdaşlığın möhkəmləndirilməsi, qarşılıqlı əlaqələrin genişləndirilməsi istiqamətində zəruri addımların atılması planlaşdırılır.

Bundan sonrakı dövrdə agentliyin səlahiyyət dairəsinə müvafiq olaraq istər çap mediası, istər onlayn, istərsə də audiovizual media sahəsində daha əhatəli, müasir dövrün çağırışlarına cavab verən, məzmun və forma baxımından yenilənmiş, daha uzunmüddətli hədəflərin əldə olunmasına yönələn layihələrin işlənib hazırlanması və həyata keçirilməsi nəzərdə tutulur. Bu məqsədlə zəruri məlumatların toplanacağı, ictimai rəyin öyrənilməsi üçün tədbirlər görüləcəyi və müvafiq təhlillərin aparılacağı planlaşdırılır.

Bununla yanaşı, bir yenilik də odur ki, onlayn media subyektlərinin fəaliyyətinə dair məsələlər də Medianın İnkişafı Agentliyinin səlahiyyət dairəsinə daxil edilib, onların informasiya məkanındakı rolu nəzərə alınmaqla fəaliyyətlərinin stimullaşdırılması və rəqabət qabiliyyətlərinin artırılması istiqamətində tədbirlərin görülməsi nəzərdə tutulub.

Göründüyü kimi, Prezident İlham Əliyevin imzası ilə təsdiq olunan "Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında" fərman və bu sənədə uyğun olaraq "Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında" fərman imzalanması milli jurnalistikamızın inkişafında yeni keyfiyyət mərhələsinə meydan açır. Bu yeni dövrdə tətbiq olunacaq yeniliklər Azərbaycan mediasının şəffaflıq və vətəndaş məmnunluğu prinsiplərinə əsaslanan, cəmiyyətin obyektiv və peşəkar şəkildə məlumatlandırılmasına xidmət edən fəaliyyətinin stimullaşdırılmasına şərait yaradacaq, modernləşmə, rasionallıq, qabaqcıl texnologiyaların geniş tətbiqi, aparıcı trendlərin izlənilməsi kimi qlobal informasiya mühitinin müəyyənləşdirdiyi fəaliyyət prinsiplərinin, innovativ yanaşmaların tətbiqinə təkan verəcək.

# Prezident İlham Əliyev və postsovet məkanında müstəqil media quruculuğunun Azərbaycan modeli

***Sovet sisteminin, kommunizm ideologiyasının mediaya baxışı fərqli olub. Leninin təbirincə desək, mətbuata "ən gözəl təbliğat və təşviqat vasitəsi" kimi baxılıb. Demokratik dünya isə mediaya təbliğatdan uzaq, hadisə və faktlar üzrə məlumatlandırma vasitəsi kimi yanaşıb. Sovet sistemi medianı öz siyasətinə tabe etmək, təbliğat və təşviqat vasitəsinə çevirmək üçün güclü mexanizmlər qurub, inzibati idarələr formalaşdırıb, KİV üzərində rəsmi dövlət senzurası mövcud olub.***

Azərbaycan öz müstəqilliyini elan etdikdən, demokratik dünya düzəninə inteqrasiyaya başlayandan sonra bu mexanizmlərdən qurtarmaq, müstəqil, demokratik yönümlü media formalaşdırmaq asan başa gəlməyib. Yeni mexanizmlər qurulmadan, 70 il müddətində hakim olmuş düşüncəni dəyişmədən mövcud strukturları dağıtmaq, tələm-tələsik "yeni sistemə keçməyə" can atmaq fayda deyil, ziyan gətirib. Biz bunun acı nəticələrini 1992–1993-cü illərdə gördük. Möv-

cud mexanizmlərin sürətlə dağıdılması mediaya "azadlıq" deyil, anarxiya gətirdi. O zaman mətbuat ölkədə hərc-mərclik yaradanların əlində alətə çevrildi.

Azərbaycanda azad ruhlu, demokratik yönümlü media quruculuğu ümummilli lider Heydər Əliyevin xalqın tələbi ilə hakimiyyətə qayıdışından, 1993-cü ildən sonra başlayıb. Məhz ulu öndərin hakimiyyəti dövründə müstəqil Azərbaycan dövlətinin azad mediasının dünyanın demokratik media məkanına inteqrasiya etməsi, beynəlxalq media standartlarına uyğunlaşması üçün hüquqi baza yaradıldı. 1995-ci ildə ümummilli lider Heydər Əliyevin iradəsi və tövsiyələri ilə qəbul edilmiş konstitusiyamız, bu baxımdan, əvəzedilməz istinad mənbəyidir. Məhz 1995-ci il Konstitusiyası müstəqil Azərbaycan dövlətinin müstəqil, demokratik, beynəlxalq standartlara cavab verən mediasının ilk hüquqi tənzimlənmə sənədi olub. Sonradan konstitusiyaya uyğun olaraq, növbəti, silsilə addımlar atılıb.

1998-ci ildə Azərbaycanda media üzərindən senzura qaldırılıb. 70 il müddətində senzuranın nəzarəti altında fəaliyyət göstərmiş KİV-ləri senzurasız – müstəqil fəaliyyət sferasına keçirmək, yeni dövrün tələblərinə uyğunlaşdırmaq iradə, təmkin, dərin siyasət tələb edirdi. Ümummilli lider bu iradəni, belə təmkini göstərə bildi. Media senzuralı dövrdən çıxarılaraq senzurasız mərhələyə xüsusi hazırlıqla keçirildiyi üçün ciddi kataklizmlər yaşanmadı, ölkə maraqlarına ziyan gəlmədi.

1999-cu ildə isə media sahəsində Avropa məkanı üçün ən demokratik sayılan "KİV haqqında qanun" qəbul edildi. Məhz ulu öndər Heydər Əliyevin liderliyi ilə postsovet məkanında ilklərdən biri olaraq Azərbaycanda 2001-ci ildə media üzərində dövlət tənzimləmə mexanizmi aradan qaldırıldı. Mətbuat və İnformasiya Nazirliyi ləğv edildi, əvəzində mediaya özünütənzimləmə mexanizmi olan Mətbuat Şurası yaradıldı. Bu, həmən dövr üçün çox riskli sayılan addım idi. İndi də bir sıra ölkələr bu riski yaşamaqdan çəkinirlər. Bu günə qədər bir sıra postsovet ölkələrində hələ də media üzərində dövlət tənzimləyici mexanizmləri qalmaqdadır. Məhz ümummilli lider Heydər

Əliyevin səriştəli yönləndirməsi ilə Azərbaycan mediası dövlət tənzimləməsindən özünütənzimləmə mexanizminə keçə bildi.

Prezident Heydər Əliyev KİV-in hüquqi bazasını formalaşdırmaqla yanaşı, müstəqil medianın iqtisadi-maliyyə dayaqlarının möhkəmləndirilməsi üçün də gərəkli addımlar atdı. Məhz onun göstərişi ilə mətbuat qurumlarının dövlət müəssisələrinə, xüsusən dövlətə bağlı nəşriyyata olan borcları silindi. Beləliklə, dövlətin müstəqil, demokratik quruluşlu, eyni zamanda, milli ruhlu mediaya dəstək göstərməsi mexanizmi və ənənəsi formalaşdı.

Paralel olaraq, ulu öndər Heydər Əliyev media ilə dövlət qurumları arasında sağlam dialoq aparılması ənənəsini yaratdı. O, media təmsilçiləri ilə intensiv şəkildə görüşürdü və məsləhətləşmələrdə qaldırılan problemlərin operativ şəkildə həll edilməsinə göstəriş verirdi. Bütün bunlar təkcə Azərbaycan üçün deyil, “sovet şineli”ndən çıxmış, demokratik, müstəqil quruculuq yolu tutmuş bütün dövlətlər üçün bir örnək oldu. Bu gün nəzər yetirsək, görərik ki, hansı postsovet ölkələr ki, Heydər Əliyevin nümunəsini əsas götürərək demokratik-hüquqi tənzimləmə ilə uyğunlaşdırıblar həmin ölkələrdə inkişaf, sabitlik və firavanlıq var. Hansı ölkələr ki, fərqli yollar seçiblər, onlarda qeyri-sabitlik, narazılıq və geriləmə var.

Prezident İlham Əliyev mediaya yanaşmasında ümummilli liderin siyasətini həssaslıqla davam etdirir, ona yeni rəng, çalarlar qatmaqla inkişaf etdirir. 2003-cü ildən etibarən, Azərbaycanda müstəqil, demokratik yönlü media quruculuğunu sürətləndirmək, KİV-in inkişafını müasir dünyanın yeni çağırışlarına uyğunlaşdırmaq üçün çoxsaylı fərman və sərəcamlar verilib. 2003-cü ildə medianın özünütənzimləmə mexanizmləri qurulub – elektron medianın fəaliyyətini tənzimləmək üçün Milli Televiziya və Radio Şurası, çap və onlayn medianın fəaliyyətini tənzimləmək üçün Azərbaycan Mətbuat Şurası yaradılıb.

Medianın özünütənzimləmə mexanizmlərinin nümunəsi dünyanın inkişaf etmiş, demokratik ölkələrində də mövcuddur. Postsovet məkanında isə özünütənzimləmənin ənənəsi olmamışdı. Ümummilli

lider Heydər Əliyev və Prezident İlham Əliyev postsovet məkanında medianın özünütənzimləmə mexanizmini tətbiq etdirən azsaylı dövlət başçılarındandır. Postsovet ölkələrinin əksəriyyətində, Rusiya Federasiyası başda olmaqla, bu gün də media üzərində dövlət tənzimləyici qurumları, nazirliklər qorunub saxlanılır.

Prezident İlham Əliyev ulu öndərin yaratdığı əsaslar üzərində KİV sferasında özünütənzimləmə mexanizmlərini tətbiq etməklə yanaşı, medianın iqtisadi müstəqiliyinin formalaşdırlması üçün də çoxsaylı sərəncamlar imzalayıb. Bu baxımdan 2008-ci ildə qəbul edilmiş "KİV-in inkişafına dövlət dəstəyi Konsepsiyasını" misal göstərmək olar. Azərbaycan KİV-in inkişafına yardım üçün ixtisaslaşmış donor institutu yaratmış ilk postsovet ölkəsidir. Bu ilin əvvəllərində isə KİV-ə dövlət dəstəyi konsepsiyasının yeni mərhələdə davamı üçün KİVDF-nin bazasında Azərbaycan Medianın İnkişafı Agentliyi təsis edildi. Bu qurumun fəaliyyəti yeni şəraitdə ölkə mediasının müasir çağırışlara cavab verməklə ahəngdar inkişafını təmin etməyə yönləndirilib. Bütün bu tədbirlər Azərbaycan mediasını postsovet məkanında demokratik inkişafın ön sırasına çıxarıb.

# Media sahəsində islahatlar Azərbaycan jurnalistikasını çağdaş inkişaf yoluna çıxarır

***Azərbaycanda 2018-ci ilin aprelindən–Prezident İlham Əliyevin növbəti dəfə dövlət başçısı seçilməsindən sonra başlanmış islahatlar ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatın bütün sahələrində uğurla davam etməkdədir. Son iki il ərzində həyata keçirilmiş sosial islahat paketləri artıq öz bəhrələrini verməkdə, yüz minlərlə insanımızın yaşayışına birbaşa müsbət təsir göstərməkdədir.***

Fərəhlə qeyd etməliyik ki, hazırda davam etməkdə olan islahatlar kursu artıq ölkəmizin mediasına da gəlib çatmışdır. Bu günlərdə Prezident İlham Əliyev "Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında" Fərman imzalamışdır. Hesab edirik ki, bu, çox vaxtında verilmiş qərardır və sənəd mətbuat sahəsində illərdən bəri həllini gözləyən problemlərin nizamlanmasına yaxından kömək edəcək.

Əlbəttə, Azərbaycan mətbuatı Həsən bəy Zərdabidən bəri bu günümüzə qədər çox şərəfli bir yol keçmişdir. XIX əsrin sonu-XX əsrin

əvvəllərində milli mediamız böyük mütəfəkkirlər yetişdirmiş, "Molla Nəsrəddin" kimi mühüm bir məktəb yaranmışdır. Bütün sovet dövrü ərzində də Azərbaycan mətbuatı inkişafdan qalmamış, sovet xalqları ailəsində layiqli yerini tutmağı bacarmışdır.

Elə respublikamızın müstəqillik qazandığı ilk illərdə də mətbuatımız ölkəmizin azadlığı, ərazi bütövlüyü və suverenliyi yolunda qətiyyətlə mübarizə aparmışdır. Bu illərdə həyata keçirilmiş köklü islahatlar nəticəsində ölkədə senzura, söz və məlumat azadlığını məhdudlaşdıran digər süni maneələr aradan qaldırılmış, medianın fəaliyyətini tənzimləyən mütərəqqi qanunvericilik bazası formalaşdırılmış, redaksiyaların davamlı inkişafı, onların iqtisadi müstəqilliyinin gücləndirilməsi, jurnalistlərin sərbəst fəaliyyətinin təmin edilməsi məqsədilə ardıcıl tədbirlər görülmüşdür. Təbii ki, bu istiqamətdə ölkəmizin o zamankı rəhbəri, ümummilli lider Heydər Əliyevin xüsusi xidmətlərini unutmaq olmaz. Məhz ulu öndərin, sonrakı illərdə isə Prezident İlham Əliyevin diqqəti nəticəsində mətbuatımız kifayət qədər inkişaf etmiş, bu istiqamətdə lazımi dövlət qayğısı ilə əhatə olunmuşdur.

Fərmanda qeyd edilir: "Ötən dövr ərzində Azərbaycan mediası özünəməxsus inkişaf yolu keçmiş, ölkəmizdə və dünyada baş verən hadisələrlə bağlı cəmiyyətin məlumatlandırılması, xalqımızın haqq səsinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində məqsədyönlü fəaliyyət göstərmişdir. Bununla yanaşı, Azərbaycanda cəmiyyət həyatının hər sahəsini əhatə edən köklü islahatların həyata keçirildiyi, habelə bütün dünyanı əhatə edən vahid informasiya məkanında yeniliklərin intensiv xarakter aldığı, kommunikasiya vasitələrinin sürətlə inkişaf etdiyi, mütərəqqi texnologiyaların, iş metodlarının tətbiq olunduğu müasir dövrdə media sahəsində keyfiyyət dəyişikliklərinə ehtiyac vardır. Qlobal informasiya mühitinin müəyyənləşdirdiyi fəaliyyət prinsiplərinə uyğun olaraq modernləşmə, rasionallıq, qabaqcıl texnologiyaların geniş tətbiqi, aparıcı trendlərin izlənməsi və digər mühüm şərtləri özündə birləşdirən innovativ təkamülün yaratdığı imkanlardan Azərbaycan mediasının daha çox bəhrələnməsi,

onun şəffaflıq və vətəndaşlıq prinsiplərinə əsaslanan, cəmiyyətin obyektiv və peşəkar şəkildə məlumatlandırılmasına xidmət edən fəaliyyətinin stimullaşdırılması üçün bu sahədə əsaslı islahatlar aparılmasına zərurət yaranmışdır".

Bütün bunları nəzərə alaraq, Prezident İlham Əliyev Azərbaycan Respublikasında medianın inkişafının dəstəklənməsi, bu sahədə institusional quruculuq işlərinin davam etdirilməsi, yeni informasiya-kommunikasiya texnologiyalarının və innovasiyaların tətbiqinin stimullaşdırılması məqsədilə Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun əsasında "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi" publik hüquqi şəxsinin yaradılmasını qərara almış, eyni zamanda, icraçı direktorunu təyin etmişdir.

Fərmanla müəyyən edilir ki, agentliyin fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti Azərbaycan Respublikası Prezidentinin vəzifəyə təyin və vəzifədən azad etdiyi sədr və 6 (altı) üzvdən ibarət Müşahidə Şurası həyata keçirəcək. Təşkilatın fəaliyyətinə cari rəhbərliyi isə Azərbaycan Respublikası Prezidentinin vəzifəyə təyin və vəzifədən azad etdiyi icraçı direktor həyata keçirəcək. Agentliyin saxlanma xərcləri və fəaliyyəti dövlət büdcəsi və qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdiriləcək.

Bütövlükdə, Prezidentin bununla bağlı fərmanını uğurlu addım kimi qiymətləndiririk. İnanırıq ki, digər sahələrdə olduğu kimi media sahəsindəki islahatlar da özünün müsbət nəticələrini göstərəcək, mətbuatımızın qarşısında duran problemlərin həllinə kömək edəcək, jurnalistikamızın daha səmərəli işləməsinə şərait yaradacaq.

# Azərbaycan mediasının islahatların gerçəkləşməsinə informasiya dəstəyi

***Dövrünün görkəmli ziyalısı olmuş Həsən bəy Zərdabinin 22 iyul 1875-ci ildə nəşr etdirdiyi "Əkinçi" qəzeti ilə əsası qoyulmuş Azərbaycan milli mətbuatı bütün dövrlərdə həqiqət carçısı olmuş, cəmiyyəti düşündürən problemləri, mütərəqqi ideyaları əks etdirmiş, xalqımızın maariflənməsində, milli və bəşəri dəyərlərin təbliğində mühüm rol oynamışdır.***

Xalqımızı milli istiqlala yaxınlaşdırmış XX əsrin əvvəllərində isə artıb çoxalmış mətbu nəşrlər milli oyanış, özünüdərk proseslərinin əsas daşıyıcısı olmuşdur. Milli məfkurə düşüncəsini formalaşdıran anadilli mətbuatımız 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə bərpa olunmuş dövlətçiliyimizə də ləyaqətlə xidmət göstərmişdir. Sovet hakimiyyəti dövründə kommunist ideologiyasının güclü təsiri altında fəaliyyət göstərsə də, Azərbaycan mətbuatı milli varlığını qoruyub saxlaya bilmiş, respublikanın ictimai-siyasi həyatında fəal rol oynamışdır. O dövrdə qəzet və jurnalların şəbəkəsi genişlənmiş, jurnalistikanın çeşidli növləri meydana çıxmışdır.

Azərbaycan mətbuatının 145 illiyi barədə Prezident İlham Əliyevin bu günlərdə imzaladığı sərəncamda professional jurnalistikamızın yaranması və inkişafı tarixinə yüksək qiymət növbəti dəfə öz əksini tapmışdır: "145 il əvvəl – 1875-ci il iyulun 22-də görkəmli ziyalı və maarifçi-publisist Həsən bəy Zərdabi tərəfindən Azərbaycan dilində nəşr olunmağa başlamış "Əkinçi" qəzeti milli mətbuatımızın ilk nümunəsi və həmin dövr Azərbaycanın ictimai-siyasi həyatının mühüm hadisəsi kimi tarixə düşmüşdür. Sonrakı illərdə çoxsaylı nəşrlərlə zənginləşən milli mətbuatımız Azərbaycan ədəbi dilinin və maarifçilik hərəkatının inkişafına əhəmiyyətli töhfələr vermiş, milli özünüdərk və istiqlal məfkurəsinin formalaşmasında, qabaqcıl ideyaların təbliğində böyük xidmətlər göstərmişdir".

Ötən əsrin sonlarında dövlət müstəqilliyinin bərpasından sonra həyatın bir çox sahələrində, eləcə də mətbuatın inkişafında dönüş yarandı. Ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı ilə respublikada plüralizm və söz azadlığını təmin etmək üçün mühüm təd- birlər həyata keçirildi. Azərbaycan mətbuatının sürətli tərəqqisi ölkəmizdə dünya standartlarına cavab verən müstəqil kütləvi informasiya vasitələrinin yaranmasını şərtləndirdi. Hüquqi, demokratik dövlət və vətəndaş cəmiyyəti qurmaq istiqamətində irəliləyən respublikamızda 4,5 minə yaxın qəzet, jurnal, informasiya agentliyi və teleradio şirkətləri qeydiyyata alındı. Bununla bərabər, söz və mətbuat azadlığının qanunvericilik bazası möhkəmləndirildi, bu sahədə demokratikləşdirmə diqqət mərkəzində saxlanıldı, mətbuat üzərindən dövlət nəzarəti rəsmi şəkildə aradan qaldırıldı.

Yeri gəlmişkən, burada bir mühüm məqamı da xatırlatmaq istərdim. Bu dövrdə Azərbaycanda söz, fikir və mətbuat azadlığının bərqərar olunması üçün idarəçilik sisteminin təkmilləşdirilməsi önə çəkildi. Mətbuat və İnformasiya Nazirliyi ləğv edildi, kütləvi informasiya vasitələrinin yaranması və fəaliyyətinin hüquqi əsaslarının möhkəmləndirilməsi məqsədilə yeni tipli mediaya nəzarət qurumları olan Mətbuat və Teleradio şuraları yaradıldı. Bir sıra qəzetlərin "Azərbaycan" nəşriyyatına olan borcları donduruldu, sonradan isə ləğv edildi.

Onu da deyim ki, dahi öndərin mətbuata yüksək diqqət və qayğısı jurnalistlər tərəfindən də yüksək dəyərləndirildi. Ümummilli lider 2002-ci il martın 22-də "RUH" Azərbaycan Jurnalistləri Müdafiə Komitəsi tərəfindən "Jurnalistlərin dostu" mükafatına layiq görüldü. Prezident İlham Əliyev respublikaya rəhbərlik etdiyi son 17 il ərzində isə ölkəmizdə KİV-in sərbəst fəaliyyətinə, jurnalistlərin öz iradələrini azad şəkildə ifadə etmələrinə xüsusi diqqət yetirib.

Möhtərəm dövlət başçımız milli mətbuatın qabaqcıl dövlətlərin mütərəqqi ənənələrinə əsaslanılmaqla, xalqın tarixi-milli xüsusiyyətlərini qorumaqla inkişaf etməsinə həssaslıqla yanaşıb, eyni zamanda, jurnalistlər üçün lazımi sosial şəraitin yaradılması, mətbuatın maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədilə mühüm addımlar atıb. Müxtəlif vaxtlarda mətbuat işçilərinə fəxri adların verilməsi, peşəkar mətbuat işçilərinin Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görülməsi, KİV-ə maliyyə yardımı göstərilməsi ilə bağlı müvafiq sərəncamlar imzalayıb.

Dövlət başçısının hərtərəfli qayğısı nəticəsində Azərbaycanda kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi konsepsiyası əsasında mühüm layihələr gerçəkləşdirilir. Bu gün Azərbaycanda bütün azadlıqlar, o cümlədən, mətbuat, söz və fikir azadlıqları tam təmin edilir. Respublikada genişzolaqlı internet sərbəst şəkildə fəaliyyət göstərir. Ölkəmizdə KİV nümayəndələrinin rahat və təhlükəsiz fəaliyyət göstərmələri üçün bütün şərait var. Son illərdə isə jurnalistlərin sosial məsələlərinin həlli istiqamətində mühüm layihələr uğurla reallaşdırılır, dövlət tərəfindən yaşayış binaları inşa olunur və onlara pulsuz olaraq verilir. Bu isə bir daha göstərir ki, ölkəmizdə KİV nümayəndələrinin yüksək səviyyədə fəaliyyət göstərmələri, azad mətbuatın təmin edilməsi ilə yanaşı, dövlətimiz jurnalistlərin mənzil-məişət məsələlərinin həlli, onların yaşayış şəraitinin yaxşılaşdırılmasına da xüsusi diqqətlə yanaşır. Ən əsası isə odur ki, bu tədbirlər ardıcıl xarakter daşıyır.

Mən uzun illərdir ki, mətbuat sahəsində fəaliyyət göstərirəm. Medianın tənəzzülə uğradığı, böhranla üzləşdiyi dövrü də yaxşı xatırla-

yıram. Ulu öndər Heydər Əliyevin kütləvi informasiya vasitələrinə necə böyük qayğı, həssas münasibət göstərməsini unutmaq mümkün deyil. Cənab İlham Əliyev də prezidentlik fəaliyyətinin bütün mərhələlərində mətbuatın inkişafını daim diqqətdə saxlayıb, azad sözün hamisi olub. Mətbu orqanların maddi-texniki bazasının gücləndirilməsi, jurnalist əməyinin qiymətləndirilməsi, onlara mənzillər hədiyyə edilməsi istiqamətində ciddi addımlar atıb.

Azərbaycanda mediaya belə yüksək qayğı təsadüfi deyil. Çünki KİV ölkəmizdə cəmiyyətin müxtəlif sahələrdə zəngin irsinin qorunmasına xidmət edir, islahatların reallaşmasında fəallıq göstərir. Belə olan təqdirdə bəzi qüvvələrin mətbuatdan öz məqsədləri naminə "qara piar" kampaniyalarının aparılması üçün istifadə etmələri böyük təəssüf doğurur. Şübhəsiz ki, hər hansı bir media orqanı bu cür yolla inkişaf edə, uğur qazana bilməz. Belələri gec-tez cəmiyyətdə qınaq obyektinə, tənqid hədəfinə çevrilirlər.

Burada bir məqama da toxunmaq istərdim. "Qara piar" kimi istifadə olunan üzdəniraq, təxribatçı yayım vasitələrinin arxasında əsasən Azərbaycanın strateji maraqlarına qarşı gizli çıxış edən qüvvələr dayanır. Onlar bir çox hallarda öz çirkin niyyətlərini belə gizlətmir, ölkəmizdə medianın inkişafına göstərilən yüksək diqqət və qayğıya, mətbuatın sərbəst fəaliyyətinin təmin olunması istiqamətində görülən işlərə qısqanclıqla yanaşır, Azərbaycanda gerçəkləşdirilən media siyasətini də gözdən salmağa çalışırlar. Bütün bunlara Azərbaycanın çağdaş demokratik mediası həqiqətə sadiqlik, xalq və dövlət maraqlarının uca tutulması məramı ilə cavab verir.

Prezident İlham Əliyevin yubiley sərəncamında mediamızın qarşısında duran növbəti vəzifələr də aydın və konkret əksini tapıb:" Ölkəmizdə müstəqil, güclü, fəaliyyətini günümüzün tələbləri səviyyəsində qurmağı bacaran, habelə dövlətçilik ənənələrinə bağlı və xalqımızın milli maraqlarını rəhbər tutan medianın inkişafı prioritet vəzifələrdən biri kimi daim diqqət mərkəzində saxlanılır. Bununla belə, kütləvi informasiya vasitələri də ölkəmizdə həyata keçirilən

köklü islahatlardan kənarda qalmamalı, kommunikasiya texnologiyalarının sürətlə inkişaf etdiyi hazırkı dövrdə qlobal informasiya mühitinin müəyyənləşdirdiyi fəaliyyət prinsiplərinə uyğunlaşmalı, cəmiyyətimizin obyektiv və peşəkar şəkildə məlumatlandırılması sahəsində öz səylərini daha da gücləndirməlidir".

Sərəncamda göstərildiyi kimi, ölkəmizdə hazırda həyata keçirilən sistemli islahatlar, şəffaflıq və vətəndaş məmnunluğu prinsiplərinə əsaslanan sosial innovasiyaların tətbiqi, idarəetmə sahəsində baş verən keyfiyyət dəyişiklikləri, ictimai nəzarət və siyasi dialoq mühitinin genişləndirilməsi dinamik inkişaf edən Azərbaycanda dövlət quruculuğunun başlıca istiqamətlərini təşkil edir. Dövlət başçısının haqlı olaraq qeyd etdiyi kimi, media sahəsində modernləşmə, rasionallıq, obyektivlik, kreativlik, qabaqcıl texnologiyaların geniş tətbiqi, aparıcı trendlərin mənimsənilməsi və gerçəkləşdirilməsi kimi peşəkarlıq amilləri jurnalistlərin bu proseslərə yüksək səviyyədə dəstəyini təmin edəcək.

# Prezident İlham Əliyevin Vətən müharibəsi dövründə informasiya siyasəti

***Son onilliklərdə Azərbaycana qarşı aparılan işğalçı müharibədə təkcə təcavüzkar Ermənistan Respublikası deyil, "beynəlxalq erməni şəbəkəsi" də aktiv şəkildə iştirak etmişdir. Ermənistanın beynəlxalq havadarlarının fəaliyyət istiqamətlərindən biri də Azərbaycana qarşı aparılan işğalçı müharibəyə ideoloji don geyindirməkdən, informasiya manipulyasiyaları vasitəsilə dünya ictimai rəyini çaşdırmqdan ibarət olmuşdur.***

Təəssüf ki, bəzi transmilli KİV-lər və insan hüquq-müdafiə təşkilatları da erməni havadarlarının bu oyunlarına alət olaraq, Azərbaycan barədə həqiqətə uyğun olmayan informasiyalar yaymış, ölkəmizin haqq işinə kölgə salmış, Qarabağ bölgəsinin işğal faktını Ermənistanın qondarma tezisləri kontekstində işıqlandırmışdılar. 2020-ci il sentyabr ayının sonlarından başlanan II Qarabağ müharibəsi işğal altında olan torpaqların xilas edilməsi əməliyyatı olmaqla yanaşı, həm də "beynəlxalq erməni şəbəkəsinin" uzun illər ərzində qurduğu yalançı təbliğatın dağıdılması baxımından əlamətdar hadisədir. Ali Baş

Komandan İlham Əliyev Qarabağ bölgəsində aparılan azadlıq müharibəsinə, döyüşlərə rəhbərlik etdiyi kimi, informasiya savaşında da ön cərgədə oldu, bu taleyüklü prosesə rəhbərliyi həyata keçirdi.

44 gün müddətində Prezident İlham Əliyev dünyanın məşhur 26 KİV qurumuna masahibələr verdi. “Rossiya-1” TV, “Əl-Cəzirə” TV, “Əl-Ərəbiyyə” TV, TRT “Haber”, “Pervıy Kanal”, CNN-Türk, “Euronews” TV, CNN “International”, “Sky News” TV, “France 24” TV, TASS İnformasiya Agentliyi, “Nikkei” qəzeti, “Figaro” qəzeti, RAİ-1 TV, ARD TV, “BBC News” kimi dünyaca məşhur KİV-lərdə yer tutan müsahibələrdə həm 44 günlük müharibənin mahiyyətinə aydınlıq gətirildi həm Qarabağ münaqişəsinin kökləri barədə ətraflı təsəvvür yaradıldı, həm də, ümumilikdə Azərbaycanın strateji hədəfləri barədə mesajlar çatdırıldı. Fransanın “Figaro” qəzetinə verilən müsahibə bu baxımdan əlamətdardır. Prezident bu müsahibəsində Azərbaycanın enerji, nəqliyyat, internet kommunikasiya layihələri barədə detallı bilgilər verdi. Digər müsahibələrinin hər birində Azərbaycanın dünyadakı yeri barədə sistemli, dolğun bilgilər aprıcı yer tutdu.

Əlamətdar hadisə odur ki, Prezident İlham Əliyev bu dövrdə təkcə transmilli KİV-lərin üzərində fokuslaşıb qalmadı, milli media resursları ilə də səmərəli iş qurdu. Hər bir ölkənin milli KİV-ləri o ölkənin etibarlı informasiya qaynağıdırlar. Prezident İlham Əliyev bu məqamı dəyərləndirərək, 44 günlük müharibə dövründə milli KİV-lərin operativ, fasiləsiz fəaliyyətini də təmin etdi. Dövlət başçısı milli televiziyalara canlı müsahibələr verdi, xalqa lazım olan informasiyaları milli KİV-lər vasitəsilə çatdırdı. Bu baxımdan Azərbaycanın milli KİV-ləri erməni şəbəkəsinin informasiya manipulyasiyalarının qarşısının alınmasında, ölkədə ictimai rəyin sabit tutulmasında mühüm rol oynadılar.

Müharibə dövründə Azərbaycan Prezidentinin tapşırığı ilə qurulan və fəaliyyət göstərən “Hərbi informasiya mərkəzi” isə modern mexanizm idi. Burada hərbi qurumlarla media təmsilçilərinin canlı təmaslarının yaradılması, gündəlik brifinqlərin keçirilməsi informasiya savaşında qalib gəlməyimiz üçün mühüm stimul oldu. Məxsusi

olaraq, Prezident Administrasiyası, Nazirlər Kabineti, Müdafiə Nazirliyi, Xarici İşlər Nazirliyi təmsilçilərinin bu brifinqlərdə iştirakları mühüm əhəmiyyət daşıdı. Jurnalistlər lazım olan informasiyaları bu mərkəz vasitəsilə operativ şəkildə alıb cəmiyyətə çatdırdılar, düşmənin informasiya təxribatlarının qarşısını ala bildilər.

Ölkə rəhbəri İlham Əliyev bu dövrdə modern texnologiyalara üstünlük verməklə, Azərbaycanda kommunikasiya sahəsində yeni ənənələr yarada bildi. Bu baxımdan sosial şəbəkələr üzərindən informasiya təminatı işi xüsusilə diqqətçəkən oldu. Prezident sosial şəbəkə istifadəçisi olan vətəndaşları da diqqətdə saxlaya bildi, onlarla interaktiv münasibətlər qurdu.

Nəticə budur ki, Azərbaycan II Qarabağ savaşında hərbi əməliyyatlar bölgəsində olduğu kimi, informasiya savaşı müstəvisində də qalib ölkə kimi tanındı.

# Ali Baş Komandan İlham Əliyevin Qarabağ müharibəsinin informasiya cəbhəsində zəfər savaşı

***Prezident, Ali Baş Komandan İlham Əliyev Vətən müharibəsi ərəfəsində və Qarabağın 30 illik işğaldan azad edilməsi uğrunda 44 günlük savaş günlərində xalqa müraciətlərində, xarici mediaya verdiyi müsahibələrində diplomatik və hərbi qələbənin informasiya təminatının dünya miqyasında yenilik kimi qəbul edilən mükəmməl örnəyini formalaşdırdı.***

Strateji hədəfi düşmən tərəfin on illərdən bəri yalan, böhtan, milli nifrət və saxtakarlıq üzərində qurulmuş informasiya cəhhəsini yarmaq və darmadağın etməkdən ibarət olan bu virtual məkan savaşının uğur mexanizmi Azərbaycan Prezidentinin özünün dediyi kimi, "nəyi, nə vaxt və necə etmək" hərbi-siyasi taktikası üzərində qurulmuşdu.

İşğalçı Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasətinin davam etdiyi 30 ildən artıq müddətdə respublikamızın beynəlxalq səviyyədə tanınan ərazilərinin 20 faizi işğal olunmuşdu. Nəticədə, 1 milyona yaxın soydaşımız doğma yurdundan didərgin salınmış, işğal altındakı ərazilərimiz düşmən tərəfindən talan edilmiş, qeyri-qanuni məskunlaşdırılma aparılmış, tarixi və mədəni irsimiz dağıdılmışdır.

Düşmən beynəlxalq hüquqla ziddiyyət təşkil edən təcavüzkarlıq siyasətini və işğalçılıq əməllərini dünya miqyasında apardığı genişmiqyaslı təbliğatla ört-basdır etməyə çalışmışdır. Təəssüf ki, Qarabağ münaqişəsinin ilk illərindən başlayaraq Ermənistan bir sıra hallarda xaricdəki erməni lobbilərinin fəal iştirakı və dünyaya yayılmış erməni diasporunun inadlı səyləri ilə yalanı həqiqət kimi təqdim etməyə nail ola bilmişdir.

Ümummilli lider Heydər Əliyev hələ keçmiş SSRİ rəhbərliyindən istefaya gedib Mosvada siyasi təcrid şəraitində yaşadığı dönəmdə və siyasi fəaliyyətinin Naxçıvan dövründə Qarbağ həqiqətlərinin dünyaya çatdırılması uğrunda mübarizəyə başlamış, Azərbaycan həqiqətlərinin beynəlxalq aləmə çatdırılmasına öz mötəbər sözü ilə önəmli töhfə vermişdir. Ulu öndər 1993-cü ildə xalqın tələbi ilə ölkədə hakimiyyətə gələndən sonra isə Azərbaycanın ən ağrılı problemi olan Qarabağ münaqişəsinin ədalətli həlli uğrunda siyasi-diplomatik mübarizəsinin davamlı informasiya təminatını da yaratmışdır.

Xilaskar lider Heydər Əliyevin ideya və əməllərinin ən layiqli davamçısı, yarımçıq qalmış arzularının və vəsiyyətlərinin təminatçısı Prezident İlham Əliyev də hələ Dövlət Neft Şirkətində çalışdığı və Avropa Şurası Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinə rəhbərlik etdiyi illərdə Qarabağ həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında ulu öndərin ən yaxın köməkçisi olmuşdur. Azərbaycan prezidenti kimi ölkəyə rəhbərliyi dövründə isə İlham Əliyevin xarici siyasətinin ön cəbhəsi Qarabağ münaqişəsinin xalqımızın qələbəsi ilə başa çatması üçün aparılan qətiyyətli diplomatik mübarizənin informasiya mexanizminin yenidən qurulması, təkmilləşdirilməsi və səmərəli üsullarla gerçəkləşdirilməsi olmuşdur.

Bu mexanizmin hədəfini düşmən yalanlarının axıradək ifşa edilməsi, xalqımızın haqlı olduğunu sübut etmək təşkil etmişdir. Çeviklik, əhatəlilik, ardıcıllıq, zaman və məkan amillərinin maksimum nəzərə alınması, inandırma üsullarının təsirliliyi Qarabağ və bütövlükdə Azərbaycan həqiqətləri ilə bağlı dünya miqyaslı informasiya savaşının peşəkarlığını və uğurunu təmin edən amillər olmuşdur.

Azərbaycan ötən dövrdə daim münaqişənin dinc yolla həllinə çalışıb. Ermənistan isə ərazilərimizin ilhaq edilməsi məqsədilə işğalın nəticələrini möhkəmləndirmək istiqamətində ardıcıl məkrli addımlar atıb. Düşmən dövlət qəsbkar münaqişənin siyasi həlli əleyhinə yönələn təxribat xarakterli bəyanat və hərəkətlərə üstünlük verib, Azərbaycanın bütün cəbhə boyu əhalinin sıx məskunlaşdığı yaşayış məntəqələri və hərbi mövqelərini atəşə tutub.

Nəhatət, işğalçının 2020-ci il sentyabrın 27-də Azərbaycana qarşı genişmiqyaslı təcavüzündən sonra silahlı qüvvələrimiz əks-hücum əməliyyatı keçirməyə məcbur oldu. Döyüşlərin davamı Azərbaycan Silahlı Qüvvələrinin Ermənistan rəhbərliyini ərazilərimizi işğaldan azad etməyə məcburetmə savaşına, ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsi uğrunda Vətən müharibəsinə çevrildi.

Azərbaycan Ordusu ölkəmizin suverenliyini və ərazi bütövlüyünü qorumaq, habelə vətəndaşlarımızın mühafizəsini və təhlükəsizliyini təmin etmək məqsədilə döyüşləri beynəlxalq humanitar hüquq çərçivəsində işğal altındakı torpaqlarımızda apardı. Eyni zamanda, Silahlı Qüvvələrimiz erməni əsilli Azərbaycan vətəndaşlarını və mülki infrastrukturu hədəfə almırdı. Ordumuz qadağan edilən heç bir silah və sursata malik olmadığı üçün, təbii ki, ondan istifadə də etmirdi.

Azərbaycan ərazilərini işğal etmiş Ermənistan beynəlxalq ictimaiyyətin tələblərini, ilk növbədə, BMT Təhlükəsizlik Şurasının 1993-cü il tarixli dörd qətnaməsini (822, 853, 874 və 884) pozaraq, ərazilərimizdən çıxmaqdan imtina edirdi. Döyüş meydanında Azərbaycan Silahlı Qüvvələri tərəfindən aldığı ağır məğlubiyyətlərin əvəzini çıxmaq məqsədilə Ermənistan rəhbərliyi ölkəmizin cəbhəyanı yaşayış məntəqələrini, eləcə də cəbhə xəttindən uzaqda yerləşən Gəncə, Mingəçevir, Bərdə kimi böyük şəhərlərini ballistik, habelə kasetli silahlar da daxil olmaqla, ağır artilleriya və raketlərlə qəsdən hədəfə aldı, amansız terrorlar törətdi.

İşğalçının belə hərbi cinayətləri nəticəsində uşaqlar, qadınlar və qocalar da daxil olmaqla 100-dək mülki şəxs həlak oldu, 400-dən çox mülki şəxs ağır yaralandı. Tibbi və təhsil müəssisələri də daxil ol-

maqla, mülki infrastruktura, həmçinin vacib dövlət infrastrukturuna və xüsusi mülkiyyətə çox böyük həcmdə ziyan vuruldu. Üç dəfə humanitar atəşkəsin elan edilməsi belə Ermənistanın mülki şəxslərə qarşı terror hücumlarını dayandırmadı.

Bütün bunlar Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə aparılan uğurlu əks-hücum kampaniyasının çevik, operativ və obyektiv və genişmiqyaslı informasiya savaşı ilə müşayiət edilməsini zəruriləşdirdi. Bu savaşın ön cəbhəsini və baş xəttini dövlət başçısının xalqa müraciətlərində və dünyanın aparıcı media qurumlarına verilən müsahibələrin hücum və əks-hücum mahiyyəti təşkil edirdi.

Azərbaycan həqiqətlərinin sentyabrın 27-dən – ordumuzun əks-hücum əməliyyatına başlamasından ötən 44 gün müddətində dünyaya çatdırılması ilə bağlı Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin informasiya cəbhəsində misli görünməmiş fəaliyyəti onun digər sahələrdəki xidmətləri kimi tarixi rəşadət nümunəsidir. Ümumiyyətlə, Azərbaycan Prezidentinin son 2–3 ildəki diplomatik uğurları ordumuzun da yaxın gələcəkdə Qrabağda xilas savaşına atılacağına inam yaradırdı. Elə bir beynəlxalq və ya yerli tribuna olmurdu ki, Prezident İlham Əliyev Ermənistanın dövlət siyasətini konkret faktlarla ifşa etməsin. Ən maraqlı faktlardan biri isə odur ki, dövlət başçımız ordumuzun torpaqlarımızı işğaldan azad etməkdə olduğu ilk günlərdən mükəmməl diplomatiyası və informasiya cəbhəsindəki savaşı ilə dünyanın gözü qabağında Ermənistanı və düşmən ölkənin baş nazirini sözün həqiqi mənasında “mat” vəziyyətinə saldı.

Yenicə başa çatmış Vətən müharibəsinin 44 günlük döyüş əməliyyatları dövründə Prezident İlham Əliyevin dünyanın aparıcı kütləvi informasiya vasitələrinə verdiyi və nadir bir silsilə təşkil edən müsahibələrdə 33 ildən bəri davam edən Qarabağ münaqişəsi və onun ikinci qaynar mərhələsi ətrafında beynəlxalq aləmi düşündürən, narahat edən zəruri və obyektiv, bəzən də qərəzli və bədxah suallara Azərbaycan dövlətinin adından verilən – münaqişənin mahiyyətini açıb göstərən, bu vaxtadək erməni yalan və böhtanları ilə pərdələnmiş həqiqətlərə işıq

salan mötəbər, əhatəli və tarixi önəm daşıyan cavablar əksini tapmışdır.

Azərbaycan Prezidentinin son iki-üç ildəki diplomatik uğurlarının miqyasından xəbəri olan istənilən şəxs ordumuzun ifrat dərəcədə uzanaraq, nəhayət, düyünə düşmüş Qarabağ münaqişəsini yaxın gələcəkdə hərbi yolla həll etməli olacağını təxmin edə bilərdi. Elə bir beynəlxalq və ya yerli tribuna yox idi ki, Prezident İlham Əliyev orada Ermənistanın işğalçılıq siyasətindən əl çəkmək fikrində olmadığını konkret faktlarla sübut etməsin.

Bu ardıcıl, qətiyyətli diplomatik və informasiya savaşının davamı olaraq dövlət başçımız ordumuzun torpaqlarımızı işğaldan azad etməkdə olduğu günlərdə də mükəmməl gedişləri, məntiqli mühakimələri, sərrast həmlələri ilə dünyanın gözü qabağında təcavüzkar Ermənistanı və düşmən ölkənin sərsəm baş nazirini, sözün həqiqi mənasında, “mat” vəziyyətində qoyur, siyasi nokauta salırdı. Azərbaycan rəhbəri münaqişənin tarixi və mahiyyəti, döyüş əməliyyatlarının xarakteri və gedişi, Ermənistanla gələcək münasibət və Qarabağın erməni icmasının taleyi ilə bağlı gündəmdə olan ən ciddi, obyektiv suallarla yanaşı, qərəzli və konyuktur atmacaların da cavabında Qarabağın min illər boyu Azərbaycan torpağı olduğunu, Ermənistanın separatçılıq və işğalçılıq yolu ilə bu qədim vilayətimizdə ikinci erməni dövləti yaratmaq avantürasını tarixi fakt və siyasi arqumentlərlə sübut edirdi.

Bundan əlavə, Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı xarici jurnalistlərin suallarına cavablarında apardığımız savaşın BMT-nin Ermənistanın işğal aktlarını təsdiqləyən, zorla tutulmuş əraziləri dərhal və qeyd-şərtsiz tərk etməsini bəyan edən qətnamələrinin tələblərini təcavüzkar dövlətə qəbul etdirmək məcburiyyətindən irəli gəldiyini əsaslandırır, ordumuzun qarşı tərəfdən fərqli olaraq, müharibə qaydalarına tam əməl etdiyini, xarici muzdlulardan, kənar hərbi qüvvələrdən istifadə etmədiyini inandırıcı şəkildə sübuta yetirirdi.

Bu açıqlamaların önəmli bir cəhəti isə Ermənistanın bütün sivil normaları pozaraq işğalçılıq siyasətini hədsiz vəhşiliklər və müharibə cinayətləri törətməklə hələ də davam etdirməsinin bəşəriyyətə qarşı

yolverilməz təhdidlər olduğunu açıb göstərməkdən ibarət idi. Azərbaycan Prezidenti İlham Əliyev bütün müsahibələrində yekun olaraq bildirirdi ki, işğalçı dövlət döyüş meydanında aşkar məğlubiyyətini etiraf edərək, öz quldur birləşmələrini tutduğu ərazilərdən çıxarmağa razılaşdığı anda müharibə dayandırılacaq.

Dövlətimizin başçısı həmin günlərdə dünyanın türk, rus, ingilis, fransız, ispan, alman, yapon, italyan kimi geniş əhatə dairəsi olan dillərində yayılan 26 aparıcı telekanal, qəzet və informasiya agentliklərinə türk, rus, ingilis dillərində ardıcıl müsahibələr verdi. Müharibənin gedişində – işğalçının xarici imperialist dairələrdə müdafiə edildiyi, Azərbaycana qarşı düşmənçilik siyasətinin körükləndiyi bir şəraitdə bu müsahibələrin təşkili və yayılması beynəlxalq ictimaiyyətə Qarabağla bağlı əsl həqiqətləri çatdırmaq, bütün siyasi, diplomatik istiqamətlərdəki uğurları möhkəmləndirmək, haqq işimizə informasiya dəstəyi qazandırmaq məqsədi daşıyırdı.

Yayımlandığı günlərdən tarixi dəyər daşıyan bu müsahibələr Qarabağ münaqişəsi və müharibəsi barədə 44 günlük döyüş əməliyyatları dövründə beynəlxalq aləmi düşündürən, narahat edən ən önəmli suallara Azərbaycan dövləti adından onun Prezidentinin və Silahlı Qüvvələrinin Ali Baş Komandanının verdiyi cavablardır. Bu cavablarda isə illərdən bəri saxtalaşdırılmış, üstünə yalan pərdəsi çəkilmiş həqiqətlərə mötəbər, əhatəli şəkildə işıq salan, dünyaya Qarabağ gerçəklərini aydın şəkildə çatdıran tarixi həqiqətlər əksini tapıb.

Həmin müsahibələrin əksəriyyəti üçün ortaq bir cəhət onlarda münaqişənin tarixi köklərinin, onun bir qərinəlik dövrdəki gedişinin, eləcə də II Qarabağ savaşının xronikal şərhinin, müharibənin hansı sonluqla başa çatacağı barədə mülahizələrin aparıcı yer tutmasıdır. Müsahibələrdə verilən suallar, qaldırılan məsələlər müxbirin təmsil etdiyi ölkənin və dairənin Qarabağ münaqişəsinin həllinə fərqli münasibətini ifadə etsə də, verilən cavablar Azərbaycan dövlətinin haqlı və dəyişməz mövqeyini, onun liderinin dərin zəkasını və qətiyyətini, müdrikliyini və humanizmini bütün dünyaya göstərdi.

Bu müsahibələrin ərsəyə gəlməsi Azərbaycanın haqlı mövqeyinin açılıb inandırıcılıqla beynəlxalq aləmə göstərilməsi, dünya ictimai rəyində haqq işimizə geniş dəstək qazandırılması baxımından əsl informasiya savaşı idi. Hərb müharibəsində “artilleriya hazırlığı” və “uzaqvuran atəş” hansı anlam daşıyırsa, çağdaş silahlı savaşlarla bağlı “informasiya” müharibəsində də “məlumat hazırlığı” və “uzaqvuran söz” eyni önəmdə rol oynayır. Bu baxımdan döyüş meydanında ordumuzun sərrast artilleriya və hava atəşləri düşmənin illərdən bəri möhkəmləndiyi mövqelərə necə sarsıdıcı zərbələr vurub onu sürətlə geri oturdurdusa, Azərbaycan rəhbərinin bu müsahibələrdə endirdiyi “həqiqət zərbələri” də işğalçı dövlətin beynəlxalq ictimai rəydə illərdən bəri quraşdırdığı “yalan, böhtan istehkamları”nı eyni qətiyyət və ardıcıllıqla məğlub edirdi.

Bəlkə də, tarixin heç bir dövründə dünyanın heç bir dövlət başçısı müharibə və hərbi-siyasi böhranlar dövründə dünya auditoriyası qarşısında nəinki bu həcmə, heç onun az bir qismi qədər də açıqlamalar verməyib. Azərbaycan rəhbərinin bu müsahibələri, eləcə də vaxtaşırı xalqa müraciətləri dövlət başçısı səviyyəsində eyni mövzu və hadisə ilə bağlı öz ölkəsi və dünya ilə dialoq baxımından tarixi nadirlik və fenomenallıq təşkil edir. Həmin müsahibə və müraciətlərdəki açıqlamalar 44 gündə ölkəmizin apardığı qalibiyyətli savaşın ən əhatəli xronikasını yaratmaqla, Vətən müharibəsinin ən mötəbər tarixi qaynağına və mükəmməl salnaməsinə çevrildi.

Qarabağ savaşının üçüncü günündən başlayaraq onun sonunadək dünyanın ən nüfuzlu telekanallarına, qəzetlərinə və informasiya agentliklərinə verilən bu müsahibələr əhatə dairəsinə görə bütövlükdə beynəlxalq auditoriyaya yayımlanırdı. Qarabağ müharibəsinə münasibətini birbaşa Azərbaycan Prezidenti ilə dialoq şəklində ifadə edən xarici KİV-lərin 19-nun telekanal olması çağdaş media sistemində canlı yayımın necə böyük önəm daşıdığını göstərir. Yerdə qalan xarici kütləvi yayım vasitəsinin 5-i informasiya agentliyi, 2-si isə qəzetdir. Hazırda informasiya agentliklərinin və qəzetlərin belə aktual müsahibələrin video versiyalarını da yayması Prezident İlham Əliyevlə

müsahibələrin hamısının video formatında yaımlanmasını söyləməyə əsas verir.

Bu 26 beynəlxalq media qurumunun 6-sı qardaş Türkiyəni (TRT-Haber, CNN-Türk, Haber Global TV, Haber Türk TV, NTV, A Haber TV), bu qədəri də qonşu Rusiyanı ("Rossiya-1" TV, "Pervıy kanal", RBK TV, RİA Novosti, TASS İnformasiya Agentliyi, "İnterfaks") təmsil edib. Bu da səbəbsiz deyildi.

Dost və qardaş Türkiyə münaqişənin əvvəlindən bəri olduğu kimi, lakin indi daha artıq dərəcədə Qarabağ torpaqlarının azad edilməsi ilə ədalətin öz yerini tutmasında Azərbaycanın ən mötəbər, qətiyyətli arxa-dayağı oldu. Türkiyə mediası Vətən savaşımıza verilən media dəstəyinin önündə getməklə qanlı mübarizə günlərində haqq səsimizin bu ölkədə olduğu kimi, bütün dünyada da eşidilməsinə ən faəl yardımçı oldu.

Rusiyanın 6 böyük media qurumunun Azərbaycan rəhbərinə geniş söz meydanı açması isə bu ölkənin Qarabağ münaqişəsinin, nəhayət, həll edilməsində qərarlı olmasının, işğal altında olan ərazilərin hərbi yolla azad edilməsinə göstərdiyi xoş məramın göstəricisi sayıla bilər. Ümumiyyətlə, Rusiyanın ermənipərəst KİV-lərinin həmin günlərdə Azərbaycana qarşı qərəzli münasibəti müqabilində 6 nüfuzlu informasiya qurumunun Azərbaycan Prezidenti İlham Əliyevə antiazərbaycan əhval-ruhiyyəni dağıtmaq üçün geniş tribuna verməsi qədərincə dəyərləndirilməlidir.

Qardaş Türkiyə ilə müqayisədə dindaşlarımızı əhatə edən İslam dünyasının cəmi 2 telekanalının Azərbaycan Prezidentinə mikrofon açması, həm də lazımi dəstəkdən uzaq mövqe sərgiləməsi təəssüflə yanaşı, haqlı inciklik də yaradır. Söhbət "Əl-Cəzirə" TV və "Əl-Ərəbiyyə" TV-lərin islamofobiya dairələrini məmnun edən, ən yaxşı halda dəstəkdən məhrum mövqelərindən gedir.

Qarabağ münaqişəsinin həlli üzrə ATƏT-in BMT mandatlı Minsk qrupunun Rusiyadan savayı, digər iki həmsədri olan ABŞ-ın 2 ("CNN İnternational", "Fox News" TV) və Fransanın 2 ("France 24" TV, "Figaro" qəzeti) media qurumunun Azərbaycan Prezidenti ilə müsahibə marafonuna qoşulması bu ölkələrin münaqişənin həllinə ermənipərəst

münasibətin göstəricisi oldu. Azərbaycanın haqlı mövqeyini müdafiə etməkdən uzaq olan hər iki dövlətin mediası ölkəmizin apardığı haqq savaşına da öz maraqları baxımından yanaşdı. Qarabağ münaqişəsinin hərbi yolla həllinə Fransadan fərqli olaraq, nisbətən təmkin və anlayışla yanaşan Böyük Britaniyanın da 2 KİV-i ("BBC News", "Sky News" TV) öz ölkəsindəki ermənipərəst dairələrin maraqları baxımından verdiyi qərəzli suallara Azərbaycan rəhbərindən aydın, dolğun, obyektiv və qınayıcı cavablar aldı.

Yerdə qalan müsahibələrin 2-si ölkəmizlə dostluq, əməkdaşlıq xəttinə sadiq qalan İtaliyanın ( RAİ-1 TV, "La Repubblica" qəzeti) payına düşür. Ümumavropa TV-si "Euronews" isə 1 dəfə Prezident İlham Əliyevlə müsahib oldu. Bu müsahibələr serialında Almaniya mediasının 1 teleyayımı (ARD TV) ifrat qərəzkarlıqla, İspaniyanın 1 informasiya agentliyi (EFE) isə nisbi neytrallığı ilə seçildi. Yaponiyanın da 1 nəşri ("Nikkei" qəzeti) Qarabağ müharibəsi mövzusunda öz ölkəsi ilə Azərbaycan arasında informasiya körpüsü saldı. Ötəri dəyərlənmədən də göründüyü kimi, bu 26 müsahibə Qarabağ münaqişəsi mövzusuna maraq göstərən ölkələr arasında dostlarımızın və düşmənlərimizin kimliyini, onların Azərbaycanla bağlı hansı istəkdə olduqlarını da aydın şəkildə ortaya qoydu.

Doğrudan da, xalqımızın Vətən müharibəsi xarakteri daşıyan Qarabağ savaşı Azərbaycan liderinin xarici KİV-ə müsahibələrində ardıcıl olaraq vurğulandığı kimi, ölkəmizin sülhsevər və humanist mövqeyinə, Prezident İlham Əliyevin qətiyyət və xoş məramına uyğun olaraq, 7 işğal olunmuş rayonumuzdan 4-ü hərbi yolla azad ediləndən sonra düşmənin təslim olması və digər 3 rayonumuzun bir güllə atılmadan siyasi yolla geri qaytarılması ilə başa çatdı. Bu zəfər sonluğu Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyevin nəzərdən keçirilən müsahibələrində bəyan etdiyi "Qarabağ münaqişəsinin sülh yolu ilə – siyasi yolla həlli mümkün olmadı, biz onun müharibə yolu ilə – hərbi-siyasi yolla həllinin mümkün olduğunu sübut edirik" hökmünün tamamilə həqiqət olduğunu bütün dünyaya nümayiş etdirdi.

***Qarabağ savaşı günlərində Aazərbaycan Prezidenti İlham Əliyevin xarici mediaya verdiyi müsahibələrdə toxunulmuş əsas məsələləri, siyasi analitiklərin rəyini nəzərə almaqla, aşağıdakı kimi qruplaşdırmaq olar:***

– ötən illərin müzakirələrində Azərbaycanın əsas məqsədi Ermənistan rəhbərliyinin ərazilərin boşaldılmasına hazır olub-olmamasını və hazır olduğu təqdirdə bunun nə vaxt baş verəcəyini müəyyən etmək idi;

– Ermənistanın bu hökuməti ilə münaqişənin sülh yolu üzrə nizamlanması perspektivləri tapılmadı. Çünki Ermənistan rəhbərliyi tərəfindən verilmiş çox səmərəsiz və təhrikedici bəyanatlar, edilmiş hərəkətlər danışıqları mənasız edib;

– Ermənistanın baş nazirinin "Qarabağ Ermənistandır", Azərbaycanın qondarma "Dağlıq Qarabağ hökuməti" ilə danışıqlar aparmalı olduğunu deməsi, dinc Gəncə şəhərinə ballistik raket zərbəsi vurmaq əmri verməsi, Azərbaycana hücumlar bundan sonra da danışıqların aparılmasını mənasız edir;

– Azərbaycan Ermənistan hökumətinə sübut etdi ki, artıq onlar təcavüzkar addımlar ata bilməzlər;

– Ermənistanın baş naziri N.Paşinyan zorakılığa və dinc əhaliyə qarşı hərbi cinayətlərin törədilməsinə görə şəxsən məsuliyyət daşıyır;

– Ermənistan hökuməti öz davranışı haqqında ciddi düşünməlidir və əgər atəşkəsin səmərəli olmasını istəyirsə, atəşkəsi pozmamalı, artıq işğaldan azad edilmiş əraziləri geri götürməyə cəhd göstərməməli, işğal olunmuş bütün Azərbaycan ərazilərinin boşaldılması üçün üzərinə ciddi öhdəlik götürməlidir;

– öncəki satus-kvo artıq mövcud deyil, təmas xətti yoxdur. İndi Ermənistan rəhbərliyi daha məntiqli davranmalıdır və işğal edilmiş ərazilərin boşaldılmasına sadiq olmalıdır;

– bu gün Azərbaycanda minlərlə erməni əsilli insan yaşayır, Dağlıq Qarabağda yaşayan ermənilər Azərbaycan vətəndaşlarıdır. Onların təhlükəsizliyi, hüquqları Azərbaycanın digər insanlarının hüquqları kimi tam təmin olunacaq;

– Ermənistan əhalisinin isə 99 faizi etnik ermənilərdir. Orada heç bir milli azlıq yaşaya bilməz. Onlar bugünkü Ermənistan Respublikasının ərazisində bir zamanlar yaşayan bütün millətləri qovublar. Ermənistanda ən böyük icma olan azərbaycanlılar da həmin ərazidən qovulub, azərbaycanlıların bütün tarixi, dini abidələri dağıdılıb, Azərbaycan mədəniyyətinin izləri silinib. Ermənilər azərbaycanlılara qarşı etnik təmizləmə həyata keçirib;

– Dağlıq Qarabağdakı ermənilər tam əmin ola bilərlər ki, Azərbaycan vətəndaşları olaraq onların təhlükəsizliyi təmin ediləcək. Cinayətkar xunta kənarlaşdırılandan sonra ermənilər daha yaxşı yaşayacaqlar, digər vətəndaşlar kimi, onlara da bütün sosial və iqtisadi imtiyazlar şamil ediləcək;

– Azərbaycan dövləti həmişə humanizm prinsiplərinə sadiq olub və hazırda gedən hərbi əməliyyatlarda da bu, aydın görünür;

– Azərbaycan Ermənistan kimi dinc əhaliyə qarşı müharibə aparmır, yalnız hərbi hədəfləri vurur;

– Ermənistanın Yaxın Şərqdən muzdluları və döyüşçüləri cəlb etməsi faktlarla sübut olunub.

***Söylənən mülahizələrin təsdiqi olaraq, 44 günlük savaş günlərində Prezident İlham Əliyevin müsahibələrində təqdim olunmuş Azərbaycan həqiqətlərinin dünyanın informasiya ekranında necə əksini tapdığına şahidlik edən nümunələrə nəzər salaq.***

***29 sentyabr, "Rossiya-1" TV-yə müsahibədən***

"Rossiya-1" telekanalında yayımlanan "60 dəqiqə" proqramında Azərbaycan–Ermənistan təmas xəttində baş verən son hadisələrə həsr olunmuş verilişdə Ermənistan rəhbərinin səsləndirilən eyni suallara yalan, böhtan və saxtakarlıq üzərində qurulmuş, siyasi konstruktivlikdən uzaq cavablarını Azərbaycan Prezidenti İlham Əliyev alt-üst etdi və onu biabırçı vəziyyətə saldı, əslində, açıq şəkildə ifşa etdi. Nikol Paşinyanın həmin televiziya verilişindəki uğursuzluğu ölkəsinin cəbhədəki məğlubiyyətini tamamlayırdı.

Azərbaycan Prezidenti İlham Əliyevin cavablarını eşidən auditoriya ondan sonrakı natiqin – Paşinyanın heç erməni tamaşaçılarının da başa düşə bilməyəcəyi tərzdə danışdıqlarını ironiya ilə qarşılayırdı. Dövlətimizin başçısı rusdilli böyük teleməkanın efir imkanlarından istifadə edərək dünya ictimaiyyətinə növbəti dəfə xatırlatdı ki, Ermənistanın 27 sentyabr tarixli təxribatı yeni ərazilər işğal etmək üçün düşünülmüş xain planın tərkib hissəsi idi.

Prezident İlham Əliyev qətiyyətlə söylədi ki, biz bu təxribatın qarşısını alarkən təcavüzkara adekvat cavab verməyə və beləliklə, öz xalqımızı, öz adamlarımızı və torpağımızı müdafiə etməyə məcbur idik: "Beləliklə, artıq üçüncü sutkadır ki, şiddətli döyüşlər gedir, bu döyüşlər nəticəsində Azərbaycan Ordusu bir sıra yaşayış məntəqələrini işğaldan azad edib, həmçinin müxtəlif istiqamətlərdə strateji yüksəklikləri tutub". Azərbaycan rəhbəri əlavə etdi ki, silahlı qüvvələrimiz bu uğurlu əməliyyatlarla BMT Təhlükəsizlik Şurasının 27 ildən bəri kağız üzərində qalmış 4 qətnaməsini icra edir.

Həmin televiziya verilişində sualları cavablandıran iki şəxsin – Qafqazın iki dövlət başçısının səsləndirdiyi fakt, arqument, fikir və mülahizələrə münasibət bildirən "Natsionalnaya oborona" jurnalının baş redaktoru İqor Korotçenkonun dedikləri də diqqətçəkəndir: "Mən Azərbaycan və Ermənistan liderlərinin çıxışlarını diqqətlə dinlədim. İlham Əliyev qeyd-şərtsiz olaraq dəqiq, tamamilə məntiqli, düzgün, ardıcıl çıxış etdi. Bu, Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu məktəbidir. MDBMİ, doğrudan da, böyük kadrlar yetişdirir. Prezident Əliyev haqlıdır... Biz hamımız beynəlxalq hüququn tərəfdarıyıq. Beynəlxalq hüquq nöqteyi-nəzərindən, döyüş əməliyyatları Azərbaycanın ərazisində, Azərbaycan hərbi qüvvələri və erməni hərbi birləşmələri arasında aparılır".

***4 oktyabr, "Əl-Ərəbiyyə" TV-yə müsahibədən***

"Biz özümüzü müdafiə etməli idik. Biz məhz bunu etdik və ərazi bütövlüyümüz bərpa olunanadək bunu edəcəyik. Danışıqların formatı

Azərbaycan və Ermənistandır, bu, iki ölkə arasında münaqişədir. Ermənistanın baş naziri bu formatın qəbuledilməz olduğunu və Azərbaycanın Ermənistanın özü də daxil olmaqla heç bir dünya ölkəsinin tanımadığı qondarma Dağlıq Qarabağ Respublikası ilə danışıqlar aparmalıdır dedi. Bu, danışıqları pozmaq üçün qəsdən edilmiş bir hərəkət idi, çünki o, bilirdi ki, nə biz, nə də vasitəçilər bunu qəbul etməyəcək". Bunları Azərbaycan Prezidenti İlham Əliyev "Əl-Ərəbiyə" telekanalına müsahibəsində bildirib.

Dövlətimizin başçısı daha sonra deyib: "Paşinyan dedi ki, "Qarabağ Ermənistandır". Bunu onun sələflərindən heç biri deməmişdi. Bu, danışıqların sonu deməkdir. Çünki danışıqların mahiyyəti ərazini sülh yolu ilə, danışıqlar vasitəsilə Azərbaycana qaytarmaq və sonra Dağlıq Qarabağda azərbaycanlı və erməni icması arasında normal birgəyaşayışı təmin etməkdir. Çünki müharibədən əvvəl, Ermənistan bizim ərazilərimizi işğal etməzdən əvvəl, Dağlıq Qarabağ əhalisinin 25 faizi azərbaycanlılar idi.

Lakin bu gün Dağlıq Qarabağla yanaşı, erməni əhalinin mövcud olmadığı, 700 mindən çox azərbaycanlının yaşadığı Dağlıq Qarabağ ətrafındakı yeddi rayon işğal altındadır. Onların hamısı didərgin düşüb, evlərinin hamısı dağıdılıb. Bütün tarixi abidələrimiz, o cümlədən məscidlərimiz erməni barbarları tərəfindən dağıdılıb və indi biz irəliləyişə yaxınlaşdığımız bir vaxtda, Ermənistan hökumətində dəyişiklik olur, siyasətlə heç bir əlaqəsi olmayan yeni insanlar, yeni komanda hakimiyyətə gəlir, bu destruktiv bəyanatları verir və addımları atır, bizə qarşı hərbi təcavüzə başlayır. Biz nə etməli idik? Biz özümüzü müdafiə etməli idik. Biz məhz bunu etdik və ərazi bütövlüyümüz bərpa olunanadək biz bunu edəcəyik".

***7 oktyabr, "Euronews" TV-yə müsahibədən***

Prezident İlham Əliyev "Euronews" televiziyasına verdiyi müsahibəsində bildirib ki, bu ilin iyulunda Tovuz bölgəsində Ordumuz yeni ərazilər işğal etmək istəyən erməniləri məğlub etdi: "Sonra avqustun 23-də onlar bizim mülki şəxslərimiz və hərbçilərimizə qarşı terror aktları

törətmək üçün diversiya qrupu göndərdilər. Bu da onlar üçün uğursuz oldu. Çünki diversiya qrupunun başçısı saxlanıldı və o, eynilə mənim indi dediklərimə dair ifadələr verir. Sentyabrın sonunda onlar bizim kəndlərimizə və şəhərlərimizə qarşı genişmiqyaslı hücuma keçdilər".

Dövlətimizin başçısı müsahibəsində fikrini davam etdirərək bildirib ki, çox acı məğlubiyyətlə üzləşəndə onlar atəşkəs üçün yalvarırlar: "Atəşkəsi onlar özləri pozdular, Ermənistan qoşunlarının tam, dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının qətnamələrinə məhəl qoymurlar. Onlar status-kvonu dəyişməz olaraq saxlamaq istəyirlər. Minsk qrupunun həmsədrləri - ABŞ, Rusiya və Fransa, onların prezidentləri dəfələrlə bəyanatlar veriblər ki, status-kvo qəbuledilməzdir. Ermənistan buna məhəl qoymadı, indi isə Azərbaycan özü status-kvonu dəyişir və düşünürəm ki, bu, münaqişənin ən tez zamanda həlli istiqamətində mühüm addım olacaq".

Prezident İlham Əliyev müsahibəsində bəyan edib ki, Azərbaycan indiyədək heç bir təxribata əl atmayıb. Bu, hazırda da belədir. Sadəcə olaraq, dövlətimiz öz maraqlarını müdafiə edir, mövqeyini dəstəkləyir. Ölkəmizin rəhbəri bu dəfə də bildirib ki, "Dağlıq Qarabağ tarixi Azərbaycan torpağıdır və bu, həqiqətdir. Ermənistanın baş naziri deyəndə "Qarabağ Ermənistandır", bu, yalandır. Mən deyəndə ki, "Qarabağ Azərbaycandır", bu, həqiqətdir. Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Tarixi ədalət bizim tərəfimizdədir. Çünki bu, bizim doğma, dədə-baba torpağımızdır… Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!".

***7 oktyabr, CNN-Türk TV-yə müsahibədən***

Azərbaycan Prezidenti İlham Əliyev jurnalistin döyüş əməliyyatlarında son vəziyyət barədə sualına cavabında hazırda ordumuzun Azərbaycanın öz ərazi bütövlüyünün bərpası istiqamətində əks-həmlələri nəzərdə tutulan plan əsasında apardığını, artıq bir sıra ərazilərimizin işğaldan azad edildiyini vurğulayıb. Bildirib ki, bu, bir daha onu

göstərir ki, xalqımız işğalla heç vaxt barışmayacaq: “Biz bunu dəfələrlə demişik: Qarabağ bizim tarixi, əzəli torpağımızdır! Təəssüf ki, uzun müddət ərzində aparılan müzakirələr bir nəticəyə gətirib çıxarmadı. Belə olan halda, əlbəttə ki, Azərbaycan təkbaşına öz ərazi bütövlüyünü bərpa etməli idi və bunu edir”.

Dövlətimizin başçısı indiki müharibənin təsadüfi baş vermədiyi haqqında ətraflı danışıb, bunun məsuliyyətinin Ermənistanın üzərinə düşdüyünü bildirib. O qeyd edib ki, işğalçı ölkənin baş naziri Nikol Paşinyan mənfur əməlləri ilə dəfələrlə sülh danışıqlarını pozub. Dağlıq Qarabağda “düşmənin qarşısının alınması” mexanizminin təkmilləşdirilməsi məsələsinin müzakirəsini aparıb, ayrı-ayrı vaxtlarda “Artsax Ermənistandır, nöqtə” kimi təcavüz xarakterli şüarlar səsləndirib. Eyni zamanda, Livandan olan erməni ailələrinin Şuşa şəhəri daxil olmaqla işğal olunan ərazilərdə məskunlaşmasına şərait yaratmaqla qanunsuz məskunlaşma siyasətini reallaşdırıb. Bütün bunlarla bərabər, Azərbaycanın yeni ərazilərini işğal etməyə hazırlaşıb.

Azərbaycan Prezidenti Ermənistan tərəfindən əvvəllər də əliyalın dinc əhaliyə qarşı belə vəhşiliklər törədildiyini vurğulayaraq, əsas hədəfin bizim yaşayış məntəqələrimiz olduğunu bildirib. Eyni zamanda, erməni işğalçılarının atəş açmaqla Azərbaycan ictimaiyyəti, Azərbaycan vətəndaşları, eləcə də cəbhəboyu yerləşən kəndlərdə, şəhərlərdə yaşayan insanlar arasında təşviş yaratmaq məqsədi güddüklərini açıqlayıb: “Amma tam qətiyyətlə deyə bilərəm ki, – bu gün səhər mən bütün bölgələrdən, cəbhəyanı bölgələrdən məlumat almışam, – Azərbaycan vətəndaşları cəsarət göstərirlər, hər kəs öz yerindədir, ordumuza, dövlətimizə hər an dəstək verməyə hazırdırlar və bunu edirlər. Məncə, bu, Ermənistan ordusunun acizliyi və Ermənistanın hərbi-siyasi rəhbərlərinin cinayətinin göstəricisidir”.

***9 oktyabr, “Sky News” TV-yə (Böyük Britaniya) müsahibədən***

Prezident İlham Əliyev Azərbaycanın Qarabağ problemi ilə bağlı prinsipial mövqeyini Böyük Britaniyanın məşhur “Sky News” televiziya kanalına müsahibəsində də bir daha səsləndirib, münaqişənin ədalətlə

həll olunmasının vacibliyini vurğulayıb, ən əsası, Qərb tamaşaçısını maraqlandıran bir sıra suallara aydınlıq gətirib. Ölkə başçısı mümkün danışıqların şərtlərini açıqlayıb: "Ermənistanın dəstəkləməkdən imtina etdiyi əsas prinsiplərdə torpaqların açıq-aydın necə geri qaytarılacağı göstərilir. Birinci mərhələdə Dağlıq Qarabağın cənub-şərq tərəfində yerləşən beş Azərbaycan rayonu, sonra Dağlıq Qarabağ və Ermənistan arasında yerləşən iki Azərbaycan rayonu qaytarılmalıdır. Sonra azərbaycanlılar Dağlıq Qarabağa qayıdırlar. Dağlıq Qarabağda 25 faiz azərbaycanlı əhali olub, onların da hüquqları təmin edilməlidir. Onlar yaşadıqları yerə – qədim Şuşa şəhərinə və digər yerlərə qayıdırlar və biz normal kommunikasiyaları bərpa edirik. Biz xalqlar arasında təmasları bərpa edirik. Bu, vasitəçilərin planıdır və biz bunu dəstəkləyirik".

Prezident İlham Əliyev münaqişə ilə bağlı danışıqların real nəticə ilə yekunlaşmasının vacib olduğunu bir daha vurğulayıb. Dövlət başçısının sözlərinə görə, Azərbaycan problemin danışıqlar vasitəsilə həllinin həmişə tərəfdarı olub, ancaq Ermənistan belə konstruktiv mövqe sərgiləməyib. Azərbaycan həmişə sülh yolu ilə həll istəyib:

"Biz həll istəyirik, imitasiya yox, daha 30 il ərzində boş sözləri yox, praktiki addımları, vaxt cədvəlini, insanlarımızın evlərinə nə vaxt qayıdacağını, onlar üçün təhlükəsizlik zəmanətinin nədən ibarət olacağını və bizim necə barışacağımızı bilmək istəyirik".

Dövlət başçımız xarici auditoriyaya çox mühüm mesaj da ünvanlayıb: "Biz qonşuyuq. Biz əbədi olaraq düşmənçilik şəraitində yaşaya bilmərik. Bu, dayandırılmalıdır. Lakin tarixi həqiqət və beynəlxalq hüquq əsasında dayandırılmalıdır". Bu fikri vurğulamaqla Prezident İlham Əliyev ermənilərin uzun illərdir xarici audidoriyaya sırımağa çalışdıqları "Azərbaycanda ermənifobiya var" hay-küylü ittihamlarının üstündən qara xətt çəkmiş oldu.

***9 oktyabr, "CNN International" TV-yə müsahibədən***

Prezident İlham Əliyev müsahibəsində jurnalistin "Hazırda sizin yürütdüyünüz kampaniyanın məqsədlərini açıq şəkildə bildirə bilər-

sinizmi?"– sualına cavabında Azərbaycanın məqsədinin xalqımızı torpağında yaşamaq hüququnu müdafiə etməkdən ibarət olduğunu xatırladıb. Eyni zamanda, əlavə edib ki, sentyabrın 27-də Azərbaycanın hərbi mövqelərinə, şəhər və kəndlərimizə artilleriya atəşini Ermənistan açıb: "Biz cavab verməli idik, özümüzü müdafiə etməli idik. Bizim cavabımız Ermənistan üçün çox həssas və ağrılı oldu. Onlar çox ciddi məğlubiyyət acısını yaşadılar, onlar bizdən qaçdılar, biz ərazimizin bir hissəsini azad etdik, biz işğaldan azad olunmuş ərazilərə milli bayrağımızı sancdıq. Biz ərazi bütövlüyümüzü bərpa edirik və biz haqlıyıq. Biz öz torpağımızda savaşırıq, Ermənistan digər ölkənin torpağında vuruşur".

Azərbaycan Prezidenti jurnalistin "Siz bütün Dağlıq Qarabağı, mübahisə predmeti olan bütün torpaqları geri götürmək niyyətindəsiniz?– sualına cavabında isə bildirib ki, burada söhbət Dağlıq Qarabağ və keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətini əhatə edən yeddi rayondan gedir. Çünki Ermənistan Dağlıq Qarabağı işğal etməklə bərabər, həm də muxtar vilayətin əhalisinin 25 faizini təşkil edən bütün azərbaycanlıları oradan qovub, eyni zamanda, əhalisinin sayı 700 min olan Azərbaycanın yeddi rayonunu işğal edib. Beləliklə, Azərbaycanın əsas məqsədi həmin ərazilərin işğalına son qoymaq və azərbaycanlı məcburi köçkünlərin öz əzəli yurdlarına qayıtmasına imkan yaratmaqdır. Dağlıq Qarabağa isə dəfələrlə rəsmi şəkildə bəyan edildiyi kimi, müharibə bitəndən, işğalçı qüvvələr çıxarıldıqdan sonra multietnik əhalisi olan istənilən digər ölkədə olduğu kimi, Dağlıq Qarabağdakı ermənilər və azərbaycanlılar bir-birinə yaxşı qonşu olaraq yanaşı yaşayacaqlar.

Dövlətimizin başçısı bildirib ki, hazırda Azərbaycanda əmin-amanlıq şəraitində yaşayan minlərlə erməni var. Lakin bütün azərbaycanlılar Ermənistandan qovulublar. Ermənistan əhalisi 99 faiz ermənilərdən ibarətdir. Onlar bizə qarşı etnik təmizləmə törədiblər. Erməni prezidenti yenə də yalan deyir. Çünki hazırda Dağlıq Qarabağda əhalinin 95 faizi ermənilər deyil, əhalinin 100 faizi ermənilərdir. Orada yaşayan 25 faiz azərbaycanlı əhali Ermənistan rejimi tərəfindən etnik təmizlənməyə məruz qalıb.

Dövlətimizin başçısı daha sonra beynəlxalq vasitəçilik haqqında fikirlərini də diqqətə çatırıb. Bildirib ki, beynəlxalq vasitəçilik 28 ildir ki, mövcuddur. Belə ki, ATƏT-in Minsk qrupu 1992-ci ildən bu yana faktiki olaraq passiv formada "fəaliyyət" göstərir. Bu vasitəçilik bu gün baş verənlərə gətirib çıxardı. Ermənistanı onlara məxsus olmayan əraziləri tərk etməyə məcbur etmək üçün yetərli iş görülmədi.

Müsahibədə Azərbaycanın sülh danışıqlarının tərəfdarı olması, danışıqlar masasında konstruktivlik nümayiş etdirməsi, ABŞ, Rusiya və Fransa tərəfindən işlənib hazırlanan prinsipləri əsas kimi dəyərləndirməsi, lakin Ermənistanın baş nazirinin bütün bunları rədd etməsi, "Qarabağ Ermənistandır" deyərək, formatın dəyişməsinə cəhd göstərməsi barədə də ətraflı danışılıb.

***12 oktyabr, "Haber Global" TV-yə müsahibədən***

Prezident İlham Əliyev Türkiyənin "Haber Global" televiziya kanalına müsahibəsində mövcud vəziyyətlə bağlı həqiqətlərdən ətraflı danışıb. Dövlətimizin başçısı əvvəlcə uzun illər ərzində Azərbaycana qarşı qara təbliğatın aparılmasından, bunun səbəblərindən biri kimi bəzi ölkələrdə erməni diaspor təşkilatlarının geniş fəaliyyət göstərmələrindən, hədəflərində isə respublikamızın dayanmasından bəhs edib. Onların bu çirkin niyyətlərində məqsədin isə Azərbaycanı ləkələmək, Azərbaycan haqqında yalanlar yaymaq və beləliklə, ölkəmizin imicinə zərbə vurmaq olduğunu vurğulayıb.

Ölkəmizin başçısı bildirib ki, Azərbaycan öz torpağının işğalçıdan geri alınması üçün vuruşur, mübarizə aparır. Əlbəttə, bu savaşın sona çatmasının bir yolu var: Erməni əsgəri Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxmalıdır. Yalnız bundan sonra bu münaqişəyə son qoyula bilər. Prezident İlham Əliyev müsahibəsində əminliklə bildirib ki, əzəli torpaqlarımız işğaldan azad ediləndən sonra o yerlərdə sürətli bərpa, abadlıq-quruculuq işləri aparılacaq, şəhərlər salınacaq. Bütün ərazilərimiz cənnətə çeviriləcək, həmin yerlərə həyat qayıdacaq, uşaqların gülüşü eşidiləcək, üzlərə təbəssüm gələcək.

***14 oktyabr, "France 24" TV-yə müsahibədən***

Prezident İlham Əliyev bu müsahibəsində Ermənistanın yeni hökumətinin hakimiyyətə gələndən sonra son iki il ərzində qondarma "Dağlıq Qarabağ respublikasının hökumətini" danışıqlar masasına cəlb etməyə cəhd göstərdiyini diqqətə çatdırıb. Bundan məqsəd isə danışıqların formatını dəyişmək olub. Halbuki 20 ildən artıqdır ki, Minsk qrupu prosesi çərçivəsində aparılan danışıqlar Ermənistan və Azərbaycan arasında reallaşıb. Beləliklə, hər iki tərəfin humanitar atəşkəs razılaşmasında formatın dəyişməzliyinə sadiqliyi ifadə etməsi də məsələnin əvvəlki mövcud çərçivədə həllinə yönəlib. Lakin indiki hərbi əməliyyatların gedişində Ermənistan tərəfindən bu razılaşma qəsdən pozulub. Azərbaycan isə atəşkəs rejiminə sadiqlik nümayiş etdirib.

Dövlətimizin başçısı müsahibəsində Azərbaycanın işğal olunan ərazilərdəki yaşayış sahələrində qəsdən mülki şəxslərin heç vaxt atəşə tutulmadığını, hədəflərin yalnız hərbi qurğular olduğunu, ümumiyyətlə, ordumuz tərəfindən hərbi hədəflərin çox diqqətlə müəyyənləşdirildiyini diqqətə çatdırıb: "Biz yalnız insanlarımızın və əsgərlərimizin həyatına təhlükə olan hədəfləri vururuq. Lakin əfsuslar olsun ki, ermənilər insanların yaşadığı şəhər yerlərində hərbi qurğuları yerləşdirmək taktikasından istifadə edirlər, biz də özümüzü müdafiə etməli idik. Lakin atəşkəs müəyyən olunandan bəri biz ona sadiq idik, ancaq Ermənistan atəşkəsi pozdu, odur ki, biz cavab verməli idik".

Azərbaycan Prezidenti müsahibəsində jurnalistin toxunduğu bir məqama da münasibət bildirib: "Bizdə muzdlular yoxdur. Bu, bizim rəsmi bəyanatımızdır. Toqquşmalar başlayandan artıq 2 həftədən çox vaxt keçib və heç bir ölkə bizə buna dair bir dəlil belə təqdim etməyib. Bundan əlavə, bizim buna ehtiyacımız yoxdur. Bizim 100 mindən çox döyüşçüdən ibarət ordumuz var. Bizim hazırda döyüş meydanında etdiklərimiz ordumuzun öz torpaqlarını özünün azad etməyə qadir olduğunu göstərir".

***15 oktyabr, NTV-yə (Türkiyə) müsahibədən***

Azərbaycan Prezidenti İlham Əliyev Türkiyənin NTV televiziyasına müsahibəsində Azərbaycan Ordusunun, demək olar ki, hər gün uğur-

lu əməliyyatlar keçirdiyini, əsas məqsədin– ərazi bütövlüyümüzün bərpası istiqamətində ordumuzun yeni-yeni uğurlar əldə etdiyini vurğulayıb: "Bizim uğurlu əməliyyatımız davam edir. Bu günə qədər, - əlbəttə ki, hər gün bu rəqəmlər dəyişir, - təqribən 40-a yaxın, ya da ki, 40-dan çox yaşayış məntəqəsi, - şəhərlər və kəndlər işğalçılardan azad edilmişdir. Yaxın vaxtlarda növbəti sevincli xəbərlər, xoş xəbərlər gələcəkdir".

Dövlətimizin başçısı müsahibəsində ordumuzun hazırda əsas əməliyyatları şimal, cənub istiqamətlərində apardığını, uğurlu əməliyyatlar nəticəsində strateji əhəmiyyətə malik yüksəkliklərə nəzarət etdiyini, Ermənistanın Azərbaycana qarşı terror həyata keçirdiyini, Gəncə ilə yanaşı, digər şəhər və kəndlərimizi bombaladığını, atəşkəsi bilərəkdən pozduğunu və bununla bizə yeni hücumlar təşkil etdiyini, habelə bölgədə hər hansı bir məsələnin həllində Türkiyənin iştirakının zəruriliyini də xüsusi vurğulayıb.

***19 oktyabr, TASS informasiya agentliyinə müsahibədən***

Prezident İlham Əliyev Rusiyanın TASS informasiya agentliyinə videomüsahibəsində jurnalistin "Siz necə hesab edirsiniz, əldə olunmuş atəşkəsin tamamilə yerinə yetirilməsinə qayıtmaq mümkündür, yoxsa həmin atəşkəs tamamilə pozulub?"– sualına cavabında Azərbaycanın öz tərəfdaşları ilə əlaqələr çərçivəsində üzərinə götürdüyü öhdəliklərə sadiq qaldığını bildirib. Lakin bütün bunlara baxmayaraq, təəssüf ki, Ermənistan atəşkəs rejimini kobud şəkildə pozub.

Danışıqlardan heç 24 saat keçməmiş Gəncə şəhərinə hücum edib: "Gecə vaxtı – yatmış Gəncə şəhərinin yaşayış məhəllələrinə məqsədyönlü şəkildə zərbə endirildi. Birinci hücumdan sonra, – iki hücum olub, – həlak olanlar və yaralananlar hədsiz çox idi. Yəni, Ermənistan atəşkəsi nümayişkaranə şəkildə pozdu. Bu, çox alçaq cinayətdir. Bu, beynəlxalq terrorizmdir. Dünya birliyinin bu qanlı cinayəti bir səslə pisləməsi o deməkdir ki, bu, ermənilərə baha başa gələcək. BMT-nin Baş katibi də, Avropa İttifaqı da, bir çox ölkələr də bu beynəlxalq terrorizm aktını milli səviyyədə pisləyiblər".

Videomüsahibədə Ermənistan – Azərbaycan arasında vəziyyətin hələ də qaynar fazada olmasının ölkəmizin təqsiri üzündən baş verməediyi vurğulanıb. Eyni zamanda, Azərbaycanın nizamlama prinsiplərinə sadiqliyinin dəfələrlə xatırladıldığı da qeyd edilib. Həm də bu prinsiplər çoxillik danışıqlar prosesində işlənərək, hazırlanıb. Dövlətimizin başçısı əvvəlki açıq çıxışlarında, habelə bu günlərdə mətbuat nümayəndələri ilə müsahibələrində Ermənistanın danışıqlar məcrasında özünü konstruktiv apardığı halda, Azərbaycanın dərhal hərbi əməliyyatları dayandırmağa hazır olduğunu diqqətə çatdırıb.

***21 oktyabr, Yaponiyanın "Nikkei" qəzetinə müsahibədən***

Prezident İlham Əliyevin Yaponiyanın "Nikkei" qəzetinə verdiyi müsahibədə jurnalistin "Siz Vaşinqtonda keçiriləcək üçtərəfli formatda bəzi şərtlərlə danışıqlara hazırsınızmı?"– sualına cavabında bildirib ki, Amerika Birləşmiş Ştatları, Rusiya və Fransa Ermənistan – Azərbaycan arasında mövcud münaqişənin həll yolunu tapmaq üçün mandatı olan Minsk qrupunun üç həmsədr ölkələridir. Adları çəkilən ölkələrin nazirlərinin Vaşinqtonda görüşmələri də təbiidir. Çünki belə görüşlər indiyədək dəfələrlə olmuşdur.

Azərbaycan rəhbəri bildirib ki, Ermənistanın baş naziri "Qarabağ Ermənistandır" bəyan edəndə, Azərbaycanın qondarma "Dağlıq Qarabağ hökuməti" ilə danışıqlar aparmalı olduğunu deyəndə, dinc Gəncə şəhərinə ballistik raket zərbəsi vurmaq əmri verəndə və respublikamızın digər yaşayış məntəqələrini gündəlik atəş altında saxlayanda danışıqları aparmaq üçün o qədər də imkan qalmır: "Buna görə də biz Ermənistan hökumətinə sübut etməli idik ki, artıq onlar bu cəzasız təcavüzkar addımları ata bilməzlər. Biz onların cəzasını yerində veririk, biz ərazilərimizi azad edirik, demək olar ki, hər gün mən Ermənistanın işğalından azad olunmuş yeni şəhər və kəndləri elan edirəm. Ermənistan döyüş meydanında çox acı məğlubiyyətlə üzləşir".

Müsahibədə Minsk qrupu tərəfindən ötən 30 il ərzində heç bir nəticə əldə edilməməsi, eyni zamanda, Minsk qrupunun həmsədrlərinin

də daimi üzvü olduğu BMT Təhlükəsizlik Şurasının Ermənistan qoşunlarının Azərbaycan torpaqlarından tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnaməsinin icrasına laqeyd münasibət bəslənilməsi də təəssüflə vurğulanıb.

Prezident İlham Əliyev müsahibəsində jurnalistin "Siz Türkiyənin Qafqazdakı məsələlərlə bağlı daha çox söz sahibi və bu danışıqlar prosesində daha fəal olmağını istəyirsinizmi?", – sualına cavabında isə bunun qardaş ölkənin siyasi gündəliyindən asılı olduğunu bildirib. Eyni zamanda, deyib: "Türkiyə bizim üçün qardaş ölkədir, ən yaxın müttəfiqimiz və dostumuzdur. Əlbəttə ki, Türkiyə de-fakto, həm də Minsk qrupunun üzvü olaraq hüquqi baxımdan artıq cəlb olunub".

***28 oktyabr, "İnterfaks" agentliyinə müsahibədən***

Prezident İlham Əliyev Rusiyanın "İnterfaks" agentliyinə müsahibəsində bildirib ki, Küveytin beynəlxalq aləmdə tanınmış ərazisi İraq tərəfindən işğal ediləndə, hərbi cinayətlər törədiləndə, etnik təmizləmə aparılanda qəsbkara qaşı sanksiyalar tətbiq edildi: "Ermənistana münasibətdə də bu cür sanksiyalar tətbiq edilməli idi. Mən əminəm ki, hətta bu sanksiyalardan biri tətbiq olunsa idi, münaqişə çoxdan həll edilərdi. Sadəcə, bu sanksiyaları tətbiq etmək üçün siyasi iradə və istək yox idi. Çox ehtimal ki, belə bir mövqeyə üstünlük verilirdi - təki vəziyyət daha da kəskinləşməsin, gəlin hər şeyi olduğu kimi saxlayaq".

Jurnalistin "Erməni tərəfi tez-tez Azərbaycanın müxtəlif enerji infrastrukturunu – Mingəçeviri, qaz kəmərlərini, neft kəmərlərini atəşə tuturdu. Ümumiyyətlə, Siz necə hesab edirsiniz, bu, Azərbaycan neftinin və qazının dünya bazarına çatdırılması üçün müəyyən risklər yarada bilərmi?" – sualına cavabında isə Azərbaycan rəhbəri bu gün Azərbaycanın neft-qaz, eləcə də digər infrastrukturunun etibarlı şəkildə qorunduğunu, indiyədək bu obyektlərə yönləndirilən raketlərin çoxunun elə havada məhv edildiyini diqqətə çatdırıb.

Prezident İlham Əliyev indiki müharibəni hərbi-siyasi nizamlanma baxımından dəyərləndirərkən bildirib ki, işğal edilən əraziləri-

mizin xeyli hissəsi ötən bir ay ərzində azad olunub. Silahlı qüvvələrimiz erməni tərəfinin təqribən 30 il ərzində işğal olunan torpaqlarda yaratdığı bir neçə müdafiə xəttini, mühəndis qurğularını şücaətlə dağıdıb, ərazilərimizin xeyli hissəsini yağı tapdağından xilas edib. Bu isə Azərbaycan Ordusunun dünyada ən yaxşı döyüş qabiliyyətinə malik ordulardan biri hesab edilməsinin əbəs deyilmədiyini təsdiqləyib.

***31 oktyabr, ARD TV-yə (Almaniya) müsahibədən***

Prezident İlham Əliyevin Almaniyanın ARD televiziya kanalına müsahibəsi zamanı xarici jurnalist birtərəfli və qərəzli mövqeyi ilə azad media prinsiplərini kobud surətdə pozdu. Məsələn, müxbirin -"iddia edirlər ki, Azərbaycan Ordusu tərəfindən döyüşlərdə kasetli raketlərdən istifadə olunur. Hətta bu barədə "Amnesty International" və "Human Rights Watch" təşkilatlarından bəzi dəlillər var. Nəyə görə Siz bu növ silahlardan istifadə edirsiniz?" – sualına cavabında dövlətimizin başçısı deyib: "Biz onlardan istifadə etmirik. Biz özümüzü müdafiə edirik. Biz "Amnesty International" və "Human Rights Watch" təşkilatlarını Azərbaycana dəvət etmişik. Əfsuslar olsun ki, onlar hadisələri yalnız Ermənistan tərəfindən işıqlandırırlar. Onlar bura gəlmək üçün bizə müraciət etməyiblər. Ona görə bizdə onların qərəzliliyi ilə bağlı böyük şübhələr var".

Həmin müsahibədə jurnalistin qərəzini ifadə edən sualına və ona Azərbaycan Prezidentinin daha bir tutarlı cavabına nümunə:

– Biz orada, bu ərazidə olduqda bizdə bir sual ortaya çıxdı. Nəyə görə Qarabağ Azərbaycan üçün belə önəmlidir? Orada resurslar var, yoxsa bu, bir rəmzi məna daşıyır?

– Elzas və Lataringe sizin üçün önəmlidir? Bavariya sizin üçün önəmlidir? Yaxud Reyn-Vestfaliya? Bu, bizim torpaqdır, beynəlxalq səviyyədə tanınan bizim ərazimizdir. Bu, resurslar məsələsi deyil. Əsas resurslar burada, Bakıdadır. Bu, ədalət məsələsidir, bu, milli qürur məsələsidir və bu, beynəlxalq hüquq məsələsidir. Beynəlxalq hüquq və bütün beynəlxalq ictimaiyyət Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Biz ədaləti bərpa edirik və biz BMT Təhlükəsizlik Şurasının 27 il ərzində kağız üzərində qalan qətnamələrini icra edirik.

Müsahibədə verilən digər sualların, demək olar ki, hamısı işğalçının müdafiəsi yönündə idi. Lakin yuxarıda vurğuladığımız kimi, bütün bu ədalətsiz, haqsız yanaşmaları dövlətimizin başçısı təmkinlə, fakt və dəlillərlə ifşa etdi.

***4 noyabr, "La Repubblica" qəzetinə (İtaliya) müsahibədən***

Prezident İlham Əliyevin İtaliyanın "La Repubblica" qəzetinə verdiyi müsahibədə də açıq şəkildə söylədi ki, bizim öz ərazi bütövlüyümüzü bərpa etməkdən başqa heç bir fikrimiz, məqsədimiz olmayıb və yoxdur. Bir daha vurğuladı ki, bizim vəzifəmiz Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək idi və biz bu vəzifəyə yaxınlaşırıq: "Biz ərazi bütövlüyünün bərpasını, demək olar ki, 30 il idi gözləyirdik. Bildiyiniz kimi, bütün bu müddət ərzində Azərbaycan danışıqlar prosesinə ciddi şəkildə sadiq olub. Lakin əfsuslar olsun ki, bu, hər hansı əhəmiyyətli nəticə vermədi. Bundan əlavə, son bir neçə ildə Ermənistan rəhbərliyi öz bəyanatları və əməlləri, o cümlədən, hərbi təxribatları ilə bizi hər zaman təhrik edirdi".

Dövlət başçımız Avropanın ən mötəbər mətbuat vasitələrindən biri olan "La Repubblica" qəzeti vasitəsi ilə bir daha dünya ictimaiyyətinə çatdırdı ki, 200 il əvvəl Dağlıq Qarabağda nəinki hansısa erməni yaşayış məntəqəsi, hətta heç ermənilərin özləri də yox idi. Prezident xatırlatdı ki, həmin ərazidə bəlkə də indi daha çox erməni məskunlaşıb. Çünki bütün azərbaycanlılar didərgin salınıblar. Onlar azərbaycanlılara qarşı etnik təmizləmə həyata keçirdilər: "Bu, statistikadır, bizim deyil, sovet döv-rünün statistikasıdır. 1970-ci illərin sonunda Dağlıq Qarabağ Muxtar Vilayətində müxtəlif millətlərdən olan neçə nəfər yaşayırdı? Əhalinin demək olar ki, 25 faizi azərbaycanlılar idi, 40 min nəfər. Şuşada 98 faiz azərbaycanlılar məskunlaşmışdılar. Bu gün orada bir nəfər azərbaycanlı belə yoxdur. Xankəndidə çox sayda azərbaycanlı var idi. Hadrut rayonunda, digər rayonlarda, soyqırımı törətdikləri Xocalıda 100 faiz azərbaycanlılar idi. Beləliklə, onların hamısı etnik təmizləməyə məruz qalıb, qətlə yetirilib, işgəncəyə məruz qalıb və didərgin salınıblar".

***5 noyabr, İspaniyanın EFE informasiya agentliyinə müsahibədən***

Prezident İlham Əliyev İspaniyanın "EFE" informasiya agentliyinə müsahibəsində Ermənistan – Azərbaycan münaqişəsi ilə bağlı vəziyyəti çox aydın şəkildə və ciddi faktlara əsaslanaraq dünya ictimaiyyətinin diqqətinə çatdırıb. Müxbirin Ermənistanın Dağlıq Qarabağın müstəqilliyini tanıyacağı təqdirdə Azərbaycanın reaksiyasının necə olacağı barədə sualına dövlətimizin başçısı belə cavab verib: "Ermənistan Dağlıq Qarabağın müstəqilliyini tanımaq istəsəydi, bundan çox öncə tanıyardı. Nəyə görə əvvəl tanımadılar? Çünki onlar aydın başa düşürdülər ki, bu, çox məntiqsiz addım nəticəsində danışıqlar tamamilə dayanacaq, danışılası bir şey qalmayacaq. Sonra nə sülh təşəbbüsü, nə əsas prinsiplər, nə də gələcək tənzimləmə – heç nə masa üzərində olmayacaq. Hesab edirəm ki, onlar bunu başa düşürlər".

Prezident İlham Əliyev müsahibəsində, həmçinin Ermənistanın müharibənin əvvəldən münaqişəni beynəlmiləlləşdirmək istəyindən, Azərbaycanın isə buna qarşı olduğundan da bəhs edib: "Mən dəfələrlə bütün ölkələrə demişəm, bu münaqişədən uzaq durun. Bu, bizim məsələmizdir, bu, ərazi bütövlüyü uğrunda bizim döyüşümüzdür. Münaqişəni beynəlmiləlləşdirmək üçün heç bir cəhd olmamalıdır. Lakin Rusiya, Türkiyə, Gürcüstan və İranın məsələ ilə bağlı mövqeyi göstərir ki, işğalçılıq siyasətinin davam etdirilməsi Ermənistan üçün tam iflas və təcridlə nəticələnib. Heç bir ölkə Ermənistanın mövqeyinə dəstək vermir və bu ölkənin qoşunlarını işğal etdiyi torpaqlardan çıxarmasını birmənalı zərurət kimi görür. Ermənistanı dəstəkləyənlər yalnız terror təşkilatları və Avropada fəaliyyət göstərən radikal mövqeli birliklərdir".

***9 noyabr, "BBC News"a müsahibədən***

"BBC News"un müxbiri ilə müsahibəsində dövlətimizin başçısının "Bu qırx gün ərzində mənim, bəlkə də, otuz müsahibəm olub. Onların hamısı çox aqressiv idi, sanki bu, müsahibə deyildi, sanki bir ittiham idi" deməsi "BBC News"un əməkdaşına bir mesaj idi. Çünki avropalı jurnalistin ilk sualından onun məqsədi aydın olmuşdu. O da

dövlət başçımızın dediyi kimi, sanki, Ermənistan tərəfində heç nə baş vermədiyini düşünür, Paşinyanın nəyə görə Gəncəyə ballistik raketlərlə zərbə endirdiyi və 92 nəfər mülki şəxsin qətlə yetirilməsi ilə maraqlanmırdı. Azərbaycan rəhbərinin "Heç kim ondan soruşmur. Heç kim ondan silahları haradan əldə etdiyini soruşmur? Yalnız bizə hücum edirlər. Beynəlxalq media yalnız Azərbaycanı ləkələyir. Buna görə sizin BBC, sizin həmkarlarınız o hadisələrin orada "şahidi" olub" – deməsi jurnalisti fakt qarşısında qoydu.

"BBC News"un müxbirinin suallarının əksəriyyəti Azərbaycanı ləkələmək, işğalçı Ermənistana haqq qazandırmaq, şər- böhtan üzərində qurulduğundan avropalı jurnalist daha çox ittihamçını xatırladırdı. Sanki, Dağlıq Qarabağın və Azərbaycanın işğal altında olan daha 7 rayonunun da Ermənistana məxsus olduğunu iddia edirdi. Guya, Azərbaycanda yaşayan ermənilərin çoxunun qorxu içərisində olduğunu deyən jurnalist onların tanınmamalarına görə soyadlarını dəyişdirdiklərini deməsinə və Dağlıq Qarabağdakı ermənilərin təhlükəsizliyinə necə əmin olacaqlarına dövlətimizin başçısının verdiyi cavab jurnalisti mat vəziyyətinə saldı: "Ola bilsin ki, kimsə evlənib soyadını dəyişib. Bu, burada adət olunan təcrübədir. Amma xeyr. Burada yaşayan çoxlu erməni var və biz onların erməni olduqlarını bilirik. Yeri gəlmişkən, mən sizə deyə bilərəm və bir çox insanlar bu barədə bilmirlər. Ermənistanın sabiq müdafiə naziri Arutunyanın bacısı Azərbaycanda yaşayır. İstəsəniz onunla görüş təşkil edə bilərik. Bu, əslində, qorxu deyil, bu, erməni təbliğatıdır".

"BBC News"un müxbiri "zavallı erməni"lərin qayğısına qaldığını da büruzə verdi və təlaş içərisində bunun, guya, erməni vətəndaşlarına bir mesaj olduğunu dedi. Dövlətimizin başçısının isə cavabı bu dəfə də sərrast oldu: "Bizim onlarla təmaslarda heç bir yanlışlığımız yoxdur. Mən dəfələrlə demişəm və dediklərimin üstündə dururam. Biz ərazilərimizi işğal etmiş bu cinayətkar dəstələrdən torpaqları azad etdikdən sonra Dağlıq Qarabağdakı ermənilər qat-qat yaxşı yaşayacaqlar. Onların daha çox məvacibləri olacaq, çünki Azərbaycandakı

məvaciblər daha yüksəkdir. Onların daha yüksək təqaüdləri olacaq, çünki Azərbaycanda təqaüdün məbləği Ermənistandan üç dəfə çoxdur. Onlar sosial müdafiə ilə təmin olunacaqlar. Biz bu ərazilərə böyük sərmayələr yatıracağıq, onlar yoxsulluqdan xilas olacaqlar...”

Müsahibədə diqqətçəkən məqamlardan biri də Prezident İlham Əliyevin “BBC News”un müxbirinə ölkədə kütləvi lnformasiya vasitələrinin vəziyəti ilə bağlı suallarına cavabı oldu. Müxbir öz vəzifəsini unudaraq ittihama əl atır, dövlət başçısının dediyi kimi, bəzən prokuror kimi çıxış edirdi. Lakin cavabını yerindəcə alırdı. Avropalı müxbirin sadaladığı “faktların” feyk –xəbər olduğunu onun diqqətinə çatdıran ölkə başçısı bizim azad mediamızın, azad internetimizin olduğunu bildirdi.

Müsahibə boyu müxbirin qərəzli suallarını böyük səbir, təmkin və faktlarla cavablandıran dövlətimizin başçısı daha bir qərəzli jurnalistə “master- klass” keçdi. Almaniyanın ARD, Amerikanın “Fox News” tele-viziya kanallarının əməkdaşları kimi, “BBC News”un müxbiri də vətəninə “əlləri ətəyindən uzun” qayıtdı.














YK-03



# Azərbaycan rəhbərinin dünyaya örnək xalq sevgisi

***Ötən ilin ilk aylarından bütün dünyada insanları gərginlik içində saxlayan koronavirus pandemiyası xalqımızı da həyəcanlandırıb. Bu gözəgörünməz düşmənə qarşı möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə aparılan ümumdövlət miqyaslı mübarizə xalqımızda hər şeyin xoşluqla bitəcəyinə əminlik və sabaha daha güclü inam yaradıb.***

Dünyanı sürətlə bürüyən bu bəla ölkəmizin sərhədlərinə yaxınlaşmazdan əvvəl xalqımızın ölümsaçan təhlükədən qorunması son iki ayda dövlət başçısının gündəlik fəaliyyətinin ən üstün yönünə və sahəsinə çevrilib. Koronavirusun yaratdığı irimiqyaslı böhranın başlanğıcından Azərbaycanda həm əhalinin təhlükəsizliyinin təmin olunması, həm də iqtisadiyyatın çökməsinin qarşısının alınması ilə bağlı Prezident İlham Əliyevin gerçəkləşdirdiyi zəruri, təxirəsalınmaz və kompleks tədbirlər, haqlı olaraq, xalqımızda dərin razılıq və minnətdarlıqla qarşılanıb.

Həqiqət budur ki, bir sıra qabaqcıl ölkələr belə koronavirusla mübarizədə çətinlik çəkir. Lakin Azərbaycan rəhbərinin bu təhlükənin sovuşdu-rulması ilə bağlı çevik reaksiyası, məqsədyönlü addımları, zamanında verdiyi qərarlar sayəsində ölkəmiz pandemiyadan ən az zərər çəkən ölkələrin sırasındadır. İndi dünyada elə dairələr var ki,

onlar xalqımızın bu pandemiyadan böyük itkilər verməsini sevinclə qarşılayarlar. Belə bir şəraitdə Prezident İlham Əliyev əfsanəvi qəhrəmanlar kimi gecəli-gündüzlü öz xalqının nicatı uğrunda mübarizənin önündədir.

Azərbaycan Prezidentinin 19 mart 2020-ci il tarixli “Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında” imzladığı operativ sərəncamın icrası ilə əlaqədar Nazirlər Kabinetinin təsdiqlədiyi Tədbirlər Planı ölkə başçısının gündəlik nəzarəti altında uğurla həyata keçirilir. Bu cari proqram xarakterli sənəddə sosial müdafiə tədbirlərinin gücləndirilməsinə və əhalinin sağlamlığının qorunmasına daha da geniş yer ayrılması hamımızda xüsusi razılıq doğurub.

Dövlət başçısının bu misilsiz mübarizədə zəhmət çəkən, hamımızın sağlamlığını qoruyan tibbi heyətin, karantin rejiminin keşiyində dayanan polis əməkdaşlarının, hərbçilərin, iş başında olan dövlət qurumları işçilərinin əməyini yüksək dəyərləndirməsi öz səmərəsini verməklə yanaşı, xalqımızın böyük məmnunluğuna da səbəb olub.

Ümummilli lider Heydər Əliyevin formalaşdırdığı tarixi əsaslar üzərində Prezident İlham Əliyevin 17 ildən bəri böyük bir uzaqgörənliklə yaratdığı möhkəm iqtisadi baza və zəruri ehtiyatlar bu ağır günlərdə ölkəmizin lazımi tədbirləri gen-bol həyata keçirməsinə imkan verir. Azərbaycanın dayanıqlı inkişaf yolunda olması gözlənilən itkiləri minimuma endirir. Xalq əmindir ki, ölkə rəhbərinin apardığı uğurlu sosial-iqtisadi siyasət dövlətimizi ağır vəziyyətə düşməkdən qoruyacaq, iqtisadiyyatımız yüksəlişini davam etdirəcək.

Ölkə başçısı sahibkarlığın inkişafını, iş adamlarına dövlət dəstəyini həmişə prioritetlərdən hesab etdiyi kimi, bu gün də onlara arxa-dayaqdır. Belə bir gərgin şəraitdə Prezidentin sahibkarlığa dövlət qayğısının artırılması üçün atdığı növbəti addım bunu bir daha sübut

etdi. Azərbaycanın tətbiq etdiyi qabaqlayıcı tədbirlərin dünyanın əksər ölkələrində də təqdir olunması və bizim təcrübəmizdən istifadə edilməsi müstəqil dövlətimizin düşünülmüş və gələcəyə hesablanmış siyasətinin uğurlarının daha bir göstəricisidir. Dövlət və qeyri-dövlət sektoru üzrə iş yerlərinin və işçilərin əməkhaqqı gəlirlərinin qorunması üçün məqsədyönlü tədbirlər həyata keçirilir. Karantin pejimi dövründə məşğulluq orqanlarının fəaliyyətinin gücləndirilməsi məsələsi də ciddi nəzarətdə saxlanılır.

Bütün bunlara görə biz ziyalılar, qələm sahibləri də dərin minnətdarlıqla deyirik: – Cənab Prezident, Siz qarşıya çıxan hər bir ekstremal vəziyyətlərdə daim xalqın yanında olmuş, vətəndaşların hər bir probleminə son dərəcə böyük həssaslıqla yanaşmısınız. Azərbaycan xalqına, bu gün xüsusi qayğıya ehtiyacı olan ahıllara və aztəminatlı ailələrə öz əziziniz kimi qayğı göstərməklə xalqın hər bir nümayəndəsinin Prezidenti olduğunuzu yenidən ən yüksək səviyyədə sübut etdiniz.

Əziz Prezidentimiz, Siz həmişə olduğu kimi bu dəfə də xalqımızı inandır-dınız ki, biz, həqiqətən, birlikdə güclüyük. Sizin həyata keçirdiyiniz tədbirlər planı hər bir Azərbaycan vətəndaşının təhlükəsizliyini təmin etmək məqsədi daşıyır və dövlət qayğısı ilə əhatə olunan xalqımız bu gün ozünü həmişəkindən daha güvənli hiss edir. Sizə inanırıq və siyasətinizi daim dəstəkləyirik. Bütün mübarizələrin önündə gedən jurnalistlər ordusu həmişə sizinlədir.

# Azərbaycan qlobal səviyyədə pandemiya ilə mübarizədə öz səyini əsirgəməyib

***Prezident İlham Əliyev Müstəqil Dövlətlər Birliyinin Dövlət Başçıları Şurasının videokonfrans formatında keçirilən iclasındakı çıxışında bildirib ki, Azərbaycan ötən müddətdə həm ölkə daxilində, həm də beynəlxalq arenada COVID–19 pandemiyasının qarşısının alınması ilə bağlı operativ tədbirlər reallaşdırıb. Belə ki, laboratoriyaların sayı 8 dəfə artırılıb, 10-dan artıq yeni müasir xəstəxana yaradılıb. Bununla bərabər, həkim qıtlığı ilə bağlı məsələ həll edilib, 5 ölkədən həkim qrupları dəvət olunub.***

Pandemiya ilə mübarizə və bu xəstəlik nəticəsində zərərçəkmiş vətəndaşlara dövlət dəstəyi göstərilməsi üçün dövlət büdcəsindən 2, 5 milyarda manat ayrılıb. Bu yardımla 5 milyondan artıq vətəndaş əhatə olunub. Hazırda isə ölkəmiz dünyada başlanan vaksinasiya prosesinə qoşulub, respublikamızda çox platformalılığı nəzərdə tutan vaksinasiya strategiyası hazırlanıb.

Prezident İlham Əliyev çıxışında Azərbaycanın qlobal səviyyədə pandemiya ilə mübarizəyə əhəmiyyətli töhfə verməsi barədə də da-

nışıb. Dövlətimizin başçısı respublikamızın pandemiya ilə mübarizədə geniş beynəlxalq əməkdaşlığın tərəfdarı kimi çıxış etdiyini, Azərbaycanın təşəbbüsü ilə bu istiqamətdə bir neçə beynəlxalq tədbirin, məsələn, bu ilin aprelində Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının, mayda isə Qoşulmama Hərəkatının sammitlərinin həyata keçirildiyini xatırladıb.

Azərbaycan Prezidentinin nitqində pandemiya ilə mübarizə çərçivəsində vurğulanan digər məqamları isə aşağıdakı kimi qeyd etmək olar:

– Azərbaycanın COVID–19-la mübarizə məqsədilə BMT Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsi ilə bağlı təşəbbüsü 150 dövlət tərəfindən dəstəklənib və dekabrın 3-4-də 70-dən artıq dövlət və hökumat başçısının iştirakı reallaşıb;

– Azərbaycan pandemiya ilə mübarizə sahəsində maliyyə və humanitar dəstək göstərilməsi proqramında da fəal iştirak edib. Respublikamız bu məqsədlə Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon manat ayırıb, 34 ölkəyə müvafiq yardım göstərib.

Dövlətimizin başçısı çıxışında Vətən müharibəsi ilə bağlı bir sıra mühüm məqamlara da toxunub. Bildirib ki, Ermənistan 1990-cı illərin əvvəllərində Azərbaycanda xaos və hakimiyyətsizlikdən sui-istifadə edərək, aqressiya aktı törədib və nəticədə Azərbaycanın Dağlıq Qarabağ da daxil olmaqla beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizini işğal edib. Düşmən işğal etdiyi ərazilərdə, həmçinin Ermənistanda azərbaycanlı əhaliyə qarşı etnik təmizləmə siyasəti həyata keçirib. İşğal edilmiş ərazilər tam dağıdılıb, müharibədən sonra həmin yaşayış məntəqələrinə səfər edən xarici diplomatlar vandalizmi, Azərbaycan xalqının tarixi, mədəni, dini abidələrinin yerlə yeksan edildiyini öz gözləri ilə görüblər.

Bütün bunlar xalqımızın, necə deyərlər, səbr kasasını daşdırdı və sentyabrın 27-də ordumuzun əks-həmlə əməliyyatları ilə işğala son qoyuldu. Bununla da 27 il əvvəl qəbul edilmiş BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri həyata keçirildi.

Prezident İlham Əliyev nitqində, həmçinin Azərbaycanın, əslində, Sarkisyan və Koçaryan rejiminin yaratdığı ordunu məhv etdiyini,

hazırda Ermənistanda çox gərgin vəziyyət hökm sürdüyünü, işğalçı dövlətin ordusunun Paşinyanın deyil, Koçaryan və Sarkisyan tərəfindən yarsadıldığını, eyni zamanda, Azərbaycanın şəhər və kəndlərinin Paşinyan deyil, Koçaryan və Sarkisyan rejimi tərəfindən dağıdıldığını, bu şəxslərin əllərinin xalqımızın qanına batdığını bildirib.

Beləliklə, Şuşanın azad olunması düşmənin kapitulyasiya etməsi, noyabrın 9-da isə Rusiyanın fəal iştirakı ilə birgə bəyanatın mətninin hazırlanması və daha sonra imzalanması ilə nəticələndi.

Hazırda işğaldan azad edilən ərazilərdə Rusiya sülhməramlıları Azərbaycanın müvafiq strukturları ilə birgə qarşıya qoyulan missiyanı uğurla həyata keçirir. Eyni zamanda, bu gün Ağdam rayonunda Rusiya-Türkiyə Monitorinq Mərkəzinin yaradılması istiqamətində də səmərəli iş aparılır.

# II. MEDİA AZADLIĞI VƏ SOSİAL MƏSULİYYƏT

## (Müsahibə və açıqlamalar)

Azərbaycanda aparılan siyasi islahatların əsas mənası, məqsədi ondan ibarətdir ki, ölkəmiz hərtərəfli inkişaf etsin, ölkədə yaşayan hər bir vətəndaş bütün azadlıqlardan istifadə etsin. Azərbaycanda, o cümlədən mətbuat azadlığı da mövcuddur. Biz bu məsələdə çox ciddi addımlar atırıq. Söz azadlığının, mətbuat azadlığının təmin olunması bizim prioritet məsələmizdir və deyə bilərəm ki, Azərbaycan bu sahədə böyük uğurlara nail olmuşdur.

**Azərbaycan Respublikasının Prezidenti**
**İlham ƏLİYEV**

# Mətbuat üzərindən nəzarətin götürülməsi demokratiyanın ən bariz göstəricisidir

***–Mədət müəllim, bilavasitə kütləvi informasiya vasitələrinin fəaliyyəti ilə məşğul olan idarənin rəisi kimi 125 yaşlı Azərbaycan mətbuatının mövcud mənzərəsini necə təsvir edirsiniz?***

– Bilirsiniz ki, milli mətbuatımızın əsası böyük Həsən bəy Zərdabi tərəfindən 1875-ci ildə "Əkinçi" qəzeti ilə qoyulmuşdur. Bu münasibətlə möhtərəm Prezidentimiz Heydər Əliyev 27 mart 2000-ci ildə milli mətbuatımızın 125 illiyinin təntənəli sürətdə qeyd olunması barədə tarixi bir sərəncam vermişdir. 125 illik bir yol keçmiş bir mətbuat bugün öz sözünü cəmiyyətdə deməyi bacarır. Çox çətin və əzablı yollar keçib bizim mətbuatımız.

Bilirsiniz ki, ötən əsrin əvvəllərində nə qədər yeni mətbuat orqanları yarandı. Bundan sonra isə 70 illik sovet ideologiyasının hakim olduğu totalitar rejim milli demokratik mətbuatımızı susdurub. Yalnız kommunist ideologiyasına, totalitar rejimə xidmət edən mətbuat yaradılıb. Bu mətbuatdan milli maraqlar üçün ummaq olmazdı.

70 illik fasilədən sonra, nəhayət, öz müstəqilliyini yenidən elan edən Azərbaycan Respublikası bütün sahələrdə olduğu kimi, mətbuatı, da milli maraqlar çevrəsinə qaytardı. Milli jurnalistikamız öz taleyini yaşamağa başladı. 1990-cı ildən bəri kütləvi informasiyaların sayı çox surətlə artmağa başladı. Bu da təbii proses idi. Azad mətbuatın ilk ruşeymləri, ilk qaranquşları yaranırdı. Çünki azad mətbuatı olmadan cəmiyyətin azadlığından söhbət belə gedə bilməz. Ona görə də demokratik yola qədəm qoyan mətbuatımızın, eyni zamanda, çətinlikləri də oldu. Ancaq 1992-ci ilin iyulunda mətbuat haqqında qanun qəbul olundu. Əlbəttə, bu ilk qanun idi. Ona görə də həmin qanunda dövr

və cəmiyyətlə bağlı müəyyən boşluqlar var idi ki, bu səbəbdən də 2000-ci ildə eyni qanunun qəbuluna bir zərurət yarandı.

Ən vacib məsələlərdən biri odur ki, 1998-ci ilin 6 avqustunda möhtərəm Prezidentimiz Heydər Əliyev tarixi bir fərman verdi. Mətbuat üzərindən senzura götürüldü. Mətbuat üzərindən senzuranın götürülməsi ölüm hökmünə bərabər bir fərmandır,– mən belə qiymətləndirirəm. Çünki söz azadlığına yol açıldı, ürəyində sözü qalan olmadı. Bəli, o zaman mətbuat azadlığını, demokratiyanı xaosla qarışdıran çox dırnaqarası jurnalistlər də meydana gəldi. Jurnalistikanın gücü faktdır. Fakta söykənməyən jurnalistika jurnalistika deyil.

Həmin vaxt fakta söykənməyən jurnalistika daha çox artmağa başladı. Və bu da məhkəmə seriyaları ilə nəticələndi. Neçə-neçə kütləvi informasiya vasitəsi məhkəmələrdə cavab verməli oldu. Senzurasızlıqdan, nəzarətsizlikdən demokratiya kimi yox, bir xaos kimi “ustalıqla” sui-istifadə edənlər tapıldı. Lakin, eyni zamanda, mətbuat azadlığından, sərbəstlikdən daha peşakarlıqla istifadə edib Həsən bəy Zərdabi ənənələrini yaşadan sərbəst mətbuat, həm də bazar iqtisadiyyatı prinsiplərindən bəhrələnərək bazara girməyə çalışanlarda çox oldu.

Məlumdur ki, biz bazar iqtisadiyyatı şəraitində yaşayırıq və qəzet biznesi yaşayırıq və qəzet biznesi də iqtisadiyyatın bir sahəsidir. Ona görə də KİV-də bazarda böyük bir rəqabətlə qarşılaşdılar. Və bu rəqabətlə qarşılaşma mətbuatımıza yeni bir rəng gətirdi. “Sarı” mətbuat meydana çıxmağa başladı. Guya ki, gəlir götürmək, guya qəzetlərinin dövriliyini təmin etmək məqsədilə əlavələr buraxan azad mətbuatın təmsilçiləri olan bir çox qəzetlər, təəssüf ki, öz ciddi qəzet adlarını, imiclərini o sıradan sildilər.

İndi mən bir çox qəzetlərin adlarını çəkə bilərəm. “525-ci qəzet”, “Təzadlar”, “Şərq” qəzeti kimi informasiya vasitələri sərbəst, ciddi mətbuat kimi bazarda öz imiclərini qoruyub saxlayırlar. Bu qəzetlər əlavələrə ehtiyac duymadılar. Həmin o “sarı” mətbuata üz tutmadılar. Məncə bu “sarı”mətbuat da Azərbaycanda bir keçid mərhələsinin məhsulu kimi xarakterizə olunur. Onlar bazarda artıq alıcı maraqlarını

itiriblər. Başqa sözlə, “sarı”mətbuat ilk vaxtlar oxucu kütləsinin az qisminin marağına səbəb olsa da, bir azdan sonra hər şey adiləşdi, “sarı”ların hay-küyünə son qoyuldu.

Bunun bir səbəbi də onların icazəsiz, qeyri-qanuni çap olunması idi. Və burada da mətbuat haqqında yeni qanunun 28-ci maddəsinin 9-cu bəndində yazılan “İstinad məlumatları göstərilməyən kütləvi informasiya vasitələrinin çapı və yayımı qadağandır” tələbi pozulurdu. Mətbuat və İnformasiya Nazirliyi də bu sahədə təmizləmə aparmaq, qayda-qanun yaratmaq məqsədilə hüquq-mühafizə və digər lazımi orqanlara məlumat verdi. Məlumdur ki, biz hüquq-mühafizə orqanı deyilik. Biz yalnız mətbuatın inkişafına kömək edirik.

Çox təəssüf ki, müraciətlərimizin heç bir nəticəsi yoxdur. Hazırda respubllikamızda təxminən 50-dən çox icazəsiz qəzet nəşr olunur. Bu da cəmiyyətin bugünkü ruhuna uyğun deyil. Nəyə görə? Əlbəttə, biz indi Avropa evinə daxil olmuşuq. Gələcəkdə bəlkə də belə şeylər qəbul olunacaq. Və eyni zamanda mən bugün fəxr edirəm ki, Azərbaycanın Avropa Şurasına üzvülüyə qəbulunda yeganə sahə idi ki, mətbuatımız həmin mərhələni müzakirəsiz keçdi. Bu, bizim ən böyük qələbəmiz idi.

Biz həmişə deyirik ki, bir vaxtlar Mətbuat və İnformasiya Nazirliyi ictimai-siyasi qurumların, ictimai təşkilatların arxasınca sürünsə də, bugün nazirlik yeganə dövlət strukturu olaraq ictimai təşkilatları, birlikləri, jurnalist təşkilatlarını öz arxasınca aparan bir lokomotivə çevrilib. Və bugün də faktır ki, artıq təxminən 900-ə qədər qeydiyyatdan keçmiş KİV-dən 497-si fəaliyyət göstərir ki, bunlardan da təxminən 30-40-ı rayon qəzetidir. Bunları da çıxanda görürsən ki, mətbuat artıq tam şəkildə durulur.

Bu nəyin nəticəsidir? KİV orqanlarının sayının 900-ə yaxınlaşmasının səbəbi nə idi? Bizim hamımız üçün önəmlidir ki, mətbuatımızın hazırki vəziyyətindən xəbər tutaq. Köhnə qanunun 2-ci maddəsində belə bir fikir var idi ki, 18 yaşına çatmış, ancaq ruhi xəstə olmayan hər bir adam KİV təsis edə bilər. Bu da gətirib həmin nəticəyə çıxarmışdı, qəzetlərin sayı həddindən çox artmışdı. Rəngsazlar, orta təhsili belə ol-

mayanlar doluşmuşdular. Artıq bugün onalara meydan yoxdur. Bugünün tələbinə görə, redaktorların ali təhsili, bu sahədə müəyyən təcrübəsi, bir neçə il staji olmalıdır. Bu, qanunda təsbit olunub.

Bir təklifimiz də var idi ki, vəsiqələrə redaksiyanın möhürü ilə yanaşı, bizim nazirliyin də möhürünün vurulması nəzərdə tutulsun. Təəssüf ki, bu təklifi bir neçə qəzet qəbul etdi. Başqaları dedilər ki, guya demokratiya pozulur. Əksinə bu vacib idi. Əlbəttə, yavaş-yavaş bunları da həyata keçirəcəyik.

“Sarı”mətbuat barədə bir şeyi də qeyd etmək istərdim. Çox hay-küy qaldırdılar, elan elədilər ki, ay belə satılır, elə satılır. 10 min, daha çox tirajla nəşr olunur. Sonra məlum oldu ki, bunlar cəmi 100 tirajla çıxır, lakin istinad materialında məsuliyyətsizcəsinə rəqəmləri şişirdərək 10 min, 20 min kimi göstərirlər. Bəli, lazımı orqanlar tərəfindən yoxlanılarkən bu da üzə çıxdı. Ümumiyyətlə, onların Azərbaycan mühitində heç vaxt imicləri olmayıb. Eyni zamanda, həmin “sarı” mətbuat Rusiyanın və başqa ölkələrin xarici ölkələrin eyni tipli mətbuatından fərqli olaraq çox səviyyəsiz çıxırlar. Cəmiyyətdən onların tezliklə təcrid olunmasının bir səbəbi də bu oldu.

Hər şeyin mahiyyəti, yazılmaq təhəri olmalıdır. Həmin mətbuatın Azərbaycan cəmiyyətinə vurduğu çox ağır zərbələrdən biri də onun yayılması ilə bağlıdır. Almaniya kimi sivil, demokratik bir ölkədə belə mətbuatın ayrıca satılma yerləri var. O yerlərdən kənarda satılırsa, həmin adamlar cinayət məsuliyyətinə cəlb olunur. Bizdə isə onları seçib məktəblərin, universitetlərin, uşaq və gənclərin, yeniyetmələrin daha sıx toplaşdığı yerdə satırlar. Bununlada mənəviyyata, əxlaqa nə qədər zərbə vururlar,–məncə izaha ehtiyac qalmır.

Təəssüf ki, bəzən söhbətlərimizdə dərc etdikləri yazılara irad tutanda belə cavablar eşidirik: “Buna tələbat var, ona görə veririk”. Xeyr, heç bir tələbat yoxdur. Televiziya verilişlərindən birində mənim həmkarlarım – “Azadlıq” qəzetinin nümayəndəsi dedi ki, “onda narkotikaya da böyük tələbat var”. Bəs nəyə görə biz onun qarşısını çox kəskin şəkildə almağa çalışırıq?” Əlbəttə bu suala cavab verməkdə aciz qaldılar.

Daha bir məsələ. Narkotikadan cox ziyan vuran bir şey də var ki, o da bir sıra qəzetlərin ağa qara, qaraya ağ demək tendensiyasıdır, yalançı qəhrəmanlar yaratmasıdır. Bəzən Azərbaycanı idarə etməyə layiq olan adamları, Azərbaycanın görkəmli oğullarını siyasi səhnədən çıxarmaq naminə sifarişlə, muzdla yazılar yazır və cəmiyyətə lazım olmayan adamları, yalançı qəhrəmanları şişirdib qaldırırlar. Bu gün biz seçim qarşısındayıq. Yaxşı ilə pisi seçmək üçün mətbuat böyük rol oynayır.

Mətbuat spesifik sahədir. Mətbuat cəmiyyətdə, ictimaiyyətdə bir rəy yaradır, imic formalaşdırır. Sifarişlə işləyən mətbuat, mən çox cəsarətlə deyərdim ki, daha alçaq mətbuatdır, nəinki “sarı”mətbuat. Bunları müqayisə etdikdə sifarişli mətbuat daha dəhşətlidir. Qəzet fakta söykənməlidir. Çox təəssüf ki, bugün bizim qəzetlər faktlarla “deyirlər” arasında qalıb. Fakt qalır bir yanda “deyirlər”ə inanırlar . “Deyirlər”lə də, təbiidir ki, heç nəyi sübut edə bilmir, nəticədə gücsüz və heydən düşmüş kimi görünürlər.

Əlbəttə, biz keçid mərhələsində yaşayırıq və jurnalistika bütün bunları keçəcək. Mən qətiyyətlə deyirəm, bugün jurnalistika yeganə sahədir ki, cəmiyyəti bütövlükdə 10–20 il qabaqlayıb.

Bu fikrimi bu günlərdə “ABA” kanalı ilə görüşümüz zamanı bütün həmkarlarım təsdiqlədi. Mətbuatımız böyük inkişaf yolu keçir. Burada Mətbuat və İnformasiya Nazirliyinin rolunu heç kim danmır. Bu qurum mətbuatın inkişafı üçün əlindən gələni edir. Bi sahədə dövlət siyasətini çox böyük məharətlə, qabiliyyətlə həyata keçirir. Bugün Həsən bəy Zərdabi ənənələri yaşayır. Hardasa, 20, 30 “sarı”mətbuat, bəzi divar qəzetləri çıxırsa, bu o demək deyil ki, Həsən bəyin ruhu yaşamır. Bizim bugün ciddi mətbuatımız var, onun səsi-sorağı uzaqlardan gəlir. Junalistikada artıq təmizlənmə gedir. Junalistikaya soxulmuş təsadüfi adamlar da dərk edirlər ki, artıq burada onların meydanı yoxdur və bu , çox ciddi sahədir.

Mən həmişə hamının diqqətinə çatdırmaq istəyirəm ki, dövlətim də, mətbuata qarşı hər vaxt diqqətli olsunlar. Bir məsələni isə xüsusilə qeyd etmək istərdim. Mən istərdim ki, məmurlarımız möhtərəm Prezidenti-

mizin jurnalistikaya qarşı göstərdiyi qayğısından, dözümlülüyündən nümunə götürsünlər. Heç bir məmur şəxsi mənafeyinə görə jurnalistə hücum eləməməlidir. Jurnalistə qarşı hər bir hücuma möhtərərm Prezidentimiz dərhal reaksiya verir, səbrlə, təmkinlə məsələləri yoluna qoyur, və nəticə etibarilə həmişə jurnalistin tərəfində olur.

Amma çox təəssüf edirəm ki, bugün bütövlükdə jurnalistikamızı hörmətdən salan "reket" jurnalistlər də mövcuddur. Onlar jurnalist adıyla rayonlara gedir, onu-bunu şantaj edirlər. Belələrindən dəfələrlə nazirliyə şikayətlər daxil olub. Xüsusilə də "İdeal" qəzetindən. Belə bir qəzet var. Onun işçiləri şantaj yolunu seçiblər. Əlbəttə təbii ki, bu yol uzun davam edə bilməz.

***–Məlumdur ki, bu yaxınlarda respublikamız Avropa Şurasına daxil olmağın sevincini yaşadı. Hər kəs bilir ki, ölkəmizin Avropa Şurasına çətin yolu məhz demokratik mətbuatdan keçib. Bu, ilk növbədə, mətbuatımızın qələbəsidir. Mətbuat bir çox başqa sahələrdə olduğu kimi, bu istiqamətdə də, ümumiyyətlə, cəmiyyəti illərlə qabaqlayır. Necə bilirsiniz, Avropa Şurasına daxil olmağımız ayrılıqda mətbuatın özünə nə verəcək?***

–Mən fəxr edirəm ki, bizim mətbuat bu sahədə böyük rol oynayır. Bir nümunə gətirmək istəyirəm ki, əsgəri xidmətdə olarkən bir söhbət zamanı nə qədər Azərbaycanın adını çəkdimsə tanıyan olmadı, axırda Müslüm Maqamayevin adını çəkəndən sonra tanıdılar ki, belə bir yer var. Anca biz bugün Avropa evinə daxil olmuşuq. Avropa Şurasına üzv olmuşuq. Yəni, SSRİ məkanında heç bizi yaxşı tanımırdılar, o da qala, Avropada, dünyada.

Mən inanıram ki, Avropa Şurasına daxil olmağımız mətbuata çox böyük qələbələr gətirəcək, mətbuatımız daha sərbəst olacaq. Yəni mətbuat müraciət etməyə bir ünvan, bir arxa-dayaq nöqtəsi kimi baxacaq Avropa Şurasına. Və eyni zamanda, AŞ-na daxil olmağımız bugünkü siyasətimizin qələbəsidir. Ölkəmizdə bütün sahələrdə olduğu kimi, mətbuatda da aparılan bir mənalı siyasətin nəticəsidir. Bugün siz rahatsınız, çünki mətbuata təziqlər olanda birinci bizim nazirliyə müraciət edirsiniz.

Avropa Şurasına Azərbaycanın qəbul olunması – Azərbaycanın dünyada tanınması deməkdir. Azərbaycanın dünya siyasətinə inteqrasiyasıdır. Və eyni zamanda, ağrılı yerimiz olan Qarabağın xilası naminə atılan addımdır. Biz Qarabağsız yaşaya bilmərik. Qarabağ bizim döyünən ürəyimizdir və biz gələcəkdə addım-addım, səbrlə, təmkinlə bu məsələni həll edəcəyik.

Artıq Azərbaycan informasiya blokadasını yarıb keçib. 8-10 il əvvəl Azərbaycanın səsi heç hara çatmırdı. Rus tankları gəlib Azərbaycanın şəhərini, kəndlərini viran edib, oğullarını, qızlarını tankların tırtılları altında qoyanda, bizim səsimiz, necə deyərlər, Biləcəridən o tərəfə çatmırdı. İndi səsimizi dünya eşidir. Artıq bugün burada fəaliyyət göstərən "Saman yolu" televiziyasının verilişləri 96 ölkəyə yayımlanır. Aparılan indiki siyasəti gələcək nəsillər də hiss edəcək ki, bugün hansı siyasət aparılırmış.

Dünənimizə baxırıq, uzaq tarix deyil o. Biz son 10 illikdə neçə yüzillik tarix yaşadıq. 7 – 8 il əvvəl Azərbaycanın dağılmaması haqqında fikirləşirdik. Ancaq bugün Azərbaycan dağılmaqdan xilas olmuş, hətta AŞ üzvüdür. Bugün Azərbaycanın hər hansı qələbəsi bizim övladlarımızın gələcəyinə xidmətdir. Azad mətbuatımızın gətirdiyi və gətirəcəyi qələbəni artıq biz bugün hiss edirik, görürük. Mətbuatımızın, əlbəttə nöqsanları da var. İş olan yerdə çatışmazlıq da, söz-söhbətdə təbiidir. Əslində bunsuz heç inkişaf da yoxdur.

***–Mədət müəllim, "Əkinçi" başlayan yol bügünkü mətbuatımızadək davam edib. Ötən 125 ilə də müasir mediamıza görə fəxr edə bilərik. Bu, doğurdan da böyük bir bayramdır. Mətbuat bayramı necə keçiriləcək? Tədbirlər planına nələr daxil edilib?***

– Mətbuat və İnformasiya Nazirliyi bir aydan çox müddət ərzində respublikamızın bütün bölgələrində elmi-praktik konfranslar keçirib. Bütün bölgələrdə Həsən bəy Zərdabinin ictimai fəaliyyəti barədə görüşlər keçirmişik. İlin əvvəlindən başlayaraq nazirliyimiz çox böyük tədbirlər həyata keçirib. Yeri gəlmişkən, mən minnətdaram ki, Azərbaycan televiziyası da tədbirləri vaxtı-vaxtında və çox yüksək səviyyədə işıqlandırdı, əhaliyə çatdırdı.

Biz bütün bölgələrdə həm də H. Zərdabinin bir millət fədaisi, milli mətbuatımızın banisi, eləcə də müsəlman şərqində xeyriyyəçilik hərəkatının və milli teatrın ilk yaradıcısı, ilk seleksiyaçı təbiətşünas alimi oduğunu xatırlatdı. Bugün, bəli, mətbuatdan narazı olanlar da var. Lakin biz onlara çatdırdıq ki, mətbuatın indiki sərbəstliyi bizi hansı yola aparır. Nəzərdə tutmuşuq ki, nazirliyin tanınmış jurnalistlərə fəxri fərmanı verilsin. Nazirliyin özündə görüşlər, tədbirlər keçirilsin.

***–Mətbuat dövrün və çəmiyyətin aynasıdır. Azərbaycan ərazilərinin bir hissəsi işğal altındadır. Əhalimiz kimi bir çox qəzetlərimiz də didərgin düşüb. Məlumdur ki, müharibədən əvvəl keçmiş DQMV- də erməni və rus dillərində "Sovetskiy Qarabax" vilayət qəzetləri və DQMV-yə daxil olan Şuşa, Əsgəran, Ağdərə, Hadrut, Xocavənd rayon qəzetləri çıxırdı ki, bunlardan da yalnız "Şuşa" qəzeti Azərbaycan dilində idi. Eləcə də bugün işğal altında olan Laçın, Kəlbəcər, Füzuli, Ağdam, Cəbrayıl, Qubadlı və Zəngilanın qəzetləri var. Sonralar bu sıraya 1990-cı ildən fəaliyyətə başlamış "Qarabağ" və "Xocalının səsi" qəzetləri də qoşuldu. İndi "Şuşa", "Xocalının səsi", "Ağdam", "Xudafərin", "Zəngilan", "Qayıdış" kimi qəzetlər də doğma yurdlarından ayrı salınıblar. Bax, bütün bu qəzetlər və didərgin jurnalistlərlə necə işləyirsiniz?***

– Mətbuat və İnformasiya Nazirliyi məcburui köçkünlük taleyi yaşayan qəzetlərə həmişə qayğı göstərib. Bugün isə onlarla daha incəliklə, daha qayğıkeşlə işləyirik. Çünki o didərgin taleyini yaşayan qəzetlərə bugün qayğı daha çox vacibdir. Onlar bugün o torpağın yanğısını, o torpağın itkisini daha çox duyur, daha çox öz səhifələrində verir və bizi daha çox o torpağa bağlayır. Siz çox gözəl məsələyə toxundunuz. Mən təəssüf edirəm ki, bir çox qəzetlərimiz siyasətə qurşanıb.

Bəzən də ağına-bozuna baxmadan, fikirləşmədən səviyyəsiz yazırlar. Ancaq didərgin qəzetlər bizə yurd həsrətini yaşadır, yurd yanğısını yaşadır. İçimizdə mübarizliyi sönməyə qoymur. Əgər bu mübarizəni heç vaxt sönməyə qoymurlarsa, biz də onlara hər zaman minnətdarıq, minnətdar olmalıyıq və onlara qayğı göstərməliyik. Biz onlara ona görə

minnətdarıq ki, bizi həmişə o ruhda yaşamağa sövq edirlər ki, "Unutma ha! Unutqanlıqdan dəhşətli şey yoxdur. Unutdunsa – unudulacaqsan!". İnsanın daxilindəki ən böyük fəlsəfə – "unutdunsa unudulacaqsan" fəlsəfəsinə görə biz məhz o qəzetlərə, orada çalışan jurnalistlərə, onların dözümünə, ləyaqətinə borcluyuq.

Sonda milli mətbuatımız 125 illik yubileyi ərəfəsində bütün Azərbaycan jurnalistlərini, kütləvi informasiya işçilərini Azərbaycan jurnalistikası ilə bu və ya digər bağlılığı olan şəxslərin hamısını bu böyük bayram münasibətilə təbrik edirəm, yeni-yeni yaradıcılıq uğurları arzulayıram.

***– Sağ olun. Biz də Sizi, nazirliyinizin bütün kollektivini Milli Mətbuat Günü münasibətilə təbrik edir, hamınıza xoş arzularımızı bildiririk.***

**Söhbəti apardı: Kərim KƏRİMLİ**

*"Respublika" qəzeti, 15 iyul 2000-ci il*

# Azərbaycanda söz azadlığı Avropa Şurasının tələblərinə tam cavab verir

***Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyi Kütləvi İnformasiya Vasitələri Baş İdarəsinin rəisi Mədət Məmmədovun Milli Mətbuatın 125 illik yubileyi münasbətilə Azərbaycan Milli Radiosuna müsahibəsi***

**Aparıcı:** *Günaydın, möhtərəm dinləyicilər. Yenə bu şənbə sabahında sizinlə üz-üzə həmsöhbət mənəm – Şəfəq Sultan Əlixanova. Ümid edirəm ki, yayın min bir qayğısı öz yerində, bu yandan da istinin, bürkünün hər kəsi bir az da təntitdiyi bir çağda hövsələ edib, bizimlə həmsöhbətliyi siz də dəyərləndirərsiniz. Yada salaq ki, milli-mədəni tariximizdə daha bir parlaq səhifə açmış anadilli mətbuatımızın yaranması məhz ilin-ayın bu gününə təsadüf edib. 125 il əvvəl bu gün – iyulun 22-də böyük maarifçi-mütəfəkkir Həsən bəy Zərdabi qarşısıalınmaz bir cəfakeşliklə ilk milli qəzetimiz "Əkinçi"nin birinci nömrəsini çap etdirməklə məfkurəvi düşüncə və anadilli yazı tariximizdə yeni bir başlanğıcı ərsəyə gətirib. Qonağımız bu öyünclü tarixi hadisənin ölkəmizdə ümummilli yubiley kimi qeyd edilməsinin əsas təşkilatçılarından biri olan Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyi Kütləvi İnformasiya Vasitələri Baş İdarəsinin rəisi Mədət Məmmədovdur. Mədət müəllim, proqramımızda xoş gördük sizi!*

**Mədət Məmmədov**: Çox sağ olun. Biz də sizi xoş gördük!

**Aparıcı**: *Ötən onilliklərdə bir qədər arxa planda qalmış 22 iyul tarixi – milli mətbuatın yaranması günü dövlət müstəqilliyi dövründə ümumxalq bayramlarından birinə çevrilərək, hər il ölkəmizdə Milli Mətbuat və Jurnalistika Günü kimi öyünc və təntənə ilə qeyd olunur.*

*Artıq 22 iyul günü Azərbaycanda bütün mətbuat aləminin, jurnalistlərimizin peşə bayramı sayılır. Belə bir gündə, heç şübhəsiz ki, bu sahənin başbiləni, milli media məkanımızın rəhbərlərindən biri kimi, sizin də mətbaut işçilərinə, həmkarlarımıza ürək sözləriniz var. Əvvəl istərdim, bu günün tarixi önəmindən başlayaq söhbətə.*

**Mədət Məmmədov:** Milli təqvimimizin xüsusi diqqətçəkən bir günündə müsahib seçdiyinizə, milli mətbuatımızın şanlı yubileyi ilə bağlı Azərbaycan Milli Radiosunun çoxmilyonlu auditoriyasında aktual söhbətə dəvət etdiyinizə görə çox sağ olun. 22 iyul milli oyanış, məfkurəvi maariflənmə yolunda, həqiqətən, ciddi bir başlanğıc yaratmış gündür. Buna görə də milli-mənəvi dəyərlərimizin böyük himayədarı olan möhtərəm Prezidentimiz Heydər Əliyev cənabları 27 mart 2000-ci ildə Azərbaycan Milli Mətbuatının yaranmasının 125 illiyi haqqında tarixi fərman imzalayıb.Bu sənədi ona görə tarixi fərman hesab edirik ki, milli mətbuatımızın yaranması tarixi barədə indiyədək dövlət səviyyəsində qəbul edilmiş belə bir mötəbər sənəd – ayrıca Prezident fərmanı olmayıb.

Bu fərmana qədər, yəni 125 illik bir tarix keçmiş mətbuatımız bu gün özünün məsul və yeni tarixi şəraitə uyğunlaşma günlərini yaşayır. Dediyiniz kimi, milli mətbuatımızın yaranışı “Əkinçi” qəzeti ilə başlayıb. Həsən bəy Zərdabi əsl millət fədaisi olub. Bu ilk qəzetimizin yaranışından sonra fasilələrlə xeyli qəzet-jurnal meydana gəlib. “Kəşkül”, “Ziya”, “Ziyayi-Q!afqaziyyə”, “Şərqi-Rus”, “Həyat”, “Molla Nəsirəddin”, “Fyuzat”, “İrşad”, “Açıq söz”, “Azərbaycan”... Bunlar hamısı az, ya çox dərəcədə “Əkinçi”nin səpdiyi toxumlardan cücərib boy atıb. Azərbaycan Xalq Cumhuriyyəti yarandıqdan sonra isə milli mətbuatımız daha da inkişaf edib.

Mətbuatımız yarandığı gündən Azərbaycanın tarixi həqiqətlərini bu günə çatdırıb. Biz milli mətbuatımızn səhifələrindən dünənimizi öyrənirik. 70 il biz totalitar rejimin dövründə yaşamışıq. Mətbuatımız isə məcburən, kommunist ideologiyasının təbliğinə yönləndirilib. İnsan azad olmadıqda, onu nəyəsə məcburən cəlb elədikdə sərbəst

yaradıcılığı, həqiqi mənəviyyatı ölüb gedir. 70 ildə bizim azad fikirlərimizi tamamilə cilovlayıblar. Mən bunu ən böyük tarixi cinayət sayıram. Nə xoşdur ki, yenidən müstəqillik qazanandan sonra mətbuatımzda böyük bir irəliləyiş əmələ gəldi. Bu gün mətbuatımızın inkişafı "Əkinçi" ənənələrinin davam etdiyi tarixi məcraya qayıdır. Müstəqillik illərində 530 KİV qeydiyyatdan keçib və fəaliyyət göstərir. Bunlardan 372-si qəzet, 116-sı jurnal, 25-i informasiya agentliyi və 8-i müstəqil teleradio kompaniyalarıdır. Eyni zamanda, xarici telekompaniyalar da Azərbaycanda fəaliyyət göstərir. Azərbaycan dövləti demokratik mətbuatın, azad sözün qarantıdır.

**Aparıcı:** *Şübhəsiz, belədir. Biz dedik ki, bu gün mətbuat işçilərinin günüdür. Daha dəqiq desək, bayramdır. Amma əslində, söz-sənət adamı üçün o zaman bayram olur ki, siz demiş, onun söz demək imkanı var. Demokratik cəmiyyətdə, müstəqil dövlətdə söz azaddır, onun yayılması maneəsizdir. Məhz bu mənada son illər Azərbaycan mətbuatı öz inkişaf dövrünü yaşamaqdadır. Amma bu prosesi hərə bir cürə yaşayır. Yəni söz azadlığını hərə istədiyi kimi başa düşür, ondan öz istədiyinə uyğun yararlanmağa çalışır. Bunu normal saymaq olarmı?*

**Mədət Məmmədov:** Bu çox yerinə düşən sualdır, Şəfəq xanım. Bu gün özünü KİV hesab edən hər bir mətbuat orqanının, jurnalistin bayramıdır. Bayram günü də olsa, gərək həqiqəti deyək. Ümumiyyətlə, insan özündən razı olanda, yalnız özünün yaxşı cəhətlərini görəndə, o ikinci addımda büdrəyir. Ona görə də deyərdim ki, indi bizdə azad sözün qədrini bilməyənlər də var. Çox təəssüf ki, bu gün "Əkinçi" ənənələri ilə yaşamayan, bizim milli mentalitetimizdən uzaq olan mətbuatımız da var. Onlar bu gün qazanc dalınca qaçıb, öz mənəviyyatlarını və nüfuzlarını itirirlər.

**Aparıcı:** *Məhz bu mənada mətbuata, haqlı olaraq, xalqın mənəviyyatının, yaşadığı həyatın güzgüsü deyirlər. Amma bizim bəzi mətbuat nümunələrini vərəqləyəndə güzgü sözünü işlətməyə ehtiyat edirsən. Düşünürmü ki, əgər bu nəşrlər güzgüdürsə, bəs biz bu bulaşıq aynada necə görünürük? Müxtəlif maraqlar xatirinə yazı yazanlar*

*o aynada xalqın bu gününün eybəcər görünəcəyindən, ehtiyat etmirlərmi, görəsən? Doğurdan da, zaman ötür, hər bir nəşr öz dövrü barədə aydın təsəvvür yaratmalıdır.*

**Mədət Məmmədov:** Bu gün siz dediyiniz məsələlərə ehtiyatla yanaşmaq lazımdır. Mən həmişə fikirləşirəm ki, jurnalistika spesifik sahədir. Jurnalistikaya hər adamı buraxmaq olmaz. Jurnalistika cəmiyyətdə aydın imic yaradır, ictimai rəy formalaşdırır. Biz tarixi günlər yaşadıq. Biz ağa qara, qaraya ağ deyə-deyə yalançı qəhrəmanlar yaradıb, bir zaman ayıldıq ki, seçimimizin özündə nə qədər səhvə yol vermişik. Bu yanaşma ona gətirdi ki, biz 1993-cü ildə Azərbaycanın müstəqilliyinin itirilməsi təhlükəsi qarşısında qaldıq. Ulu öndər Heydər Əliyevin hakimiyyətə ikinci qayıdışından sonra söz azadlığından normal istifadə tələbi gerçəkləşdi. Artıq bu gün biz normal mətbuat azadlığı meyarları ilə Avropa Şurasının qapısını döyürük. Biz Avropa Şurasının üzvüyük. Bu tarixi nailiyyət barədə fikirləşəndə qürur hissi keçirdirəm.

1998-ci ilin 6 avqustunda mətbuat üzərindən senzuranın götürülməsini gerçəkləşdirən prezident fərmanını cəsarətlə ölüm hökmünün ləğvinə bərabər rəsmi sənəd hesab edirəm. Biz bu fərmanın işığında milli mətbuatın 125 illik yubileyini qeyd edirik. Bu fərmanın işığında Avropa Şurasına qədər yol gedib çıxmışıq. Bu fərmanın sayəsində mətbuatımız yeganə sahə oldu ki, Avropa Şurasına qəbul zamanı ayrıca müzakirə aparılmadı. Mən həmin günü evdə nə həyəcan keçirirdim bir Allah bilir. Çünki ölkəmizin Avropa Şurasına qəbulu zamanı nazirliyimizi Kütləvi İnformasiya Vasitələri İdarəsinin rəisi kimi mən təmsil edirdim. Biz mətbuat sahəsində azadlığımızı Avropa Şurasında müzakirəsiz təsdiq etməyə nail olduq.

Ürəyindəki sözü çoxluğa çatdıra bilirsənsə, sən azadsan, xoşbəxtsən. Söz ürəyində qalırsa, sən gerçəyi deyə bilmirsənsə, tez qocalırsan, vaxtsız sıradan çıxırsan. Ona görə də, söz demək azadlığından böyük səadət yoxdur. Azadlığın yolu çətindir. Bu xoşbəxtliyi yaşamaq üçün gərək söz azadlığının qədrini biləsən. Bu gün möhtərəm prezidentimiz Heydər Əliyev cənablarının söz azadlığının təmin edilməsi

ilə bağlı atdığı addımları dərk etməyənlər az deyil. Prezident Heydər Əliyevin nüfuzu və həyata keçirdiyi tarixi tədbirlər Azərbaycanı dünyaya layiqincə tanıdır. Bu gün dünya Azərbaycanı azad sözün qərarlaşdığı ölkə olaraq tanıyır. Şəfəq xanım, mənim yadımdadır ki, əsgəri xidmətdə idim, nə qədər deyirdimsə haralıyam, Azərbaycanı tanımırdılar. Müslüm Maqamayevin adını çəkəndən sonra bildilər ki, mən hansı xalqın oğluyam. Bu gün Avropa Şurasına üzv olmaq azad, müstəqil bir ölkə kimi qəbul edilməyin təsdiqidir. Bu gerçəyi anlamamaq, onun üstündən xətt çəkmək Azərbaycan həqiqətinə xəyanət deməkdir.

**Aparıcı:** *Bilirsiniz, bir həqiqət var. İllərlə həbsxanada yatan, azadlıqdan məhrum olan insan onun üzünə qapılar taybatay açılınca ilkin olaraq çaşır. Bilmir ki, ilk addımı necə atsın. Birdən-birə o qaranlıqdan işığa çıxan insanın gözləri necə qamaşırsa, mətbuat azadlığı ilə üzləşən insan da bilmir ki, ondan necə faydalansın. Mən çox inanıram ki, bizim mətbuatda bəzən bu gün rastlaşdığımız çaşqınlıqlar ötüb keçəcək, söz azadlığından necə bəhrələnmək yolları getdikcə aydınlaşacaq. İnşallah, proses ələnəcək, durulacaq. Bu prosesin suları gərəksiz nə varsa götürüb aparacaq. Ardınca duru sular axacaq.*

**Mədət Məmmədov:** Sizin dediklərinizdə böyük bir həqiqət var. Yadımdadır ki, 1998-ci ildə senzuranın ləğvindən sonra bizim mətbuatın məhkəmələr dövrü başladı. Eyni zamanda, bu gün bir şeydən narahatam. Bu sahəyə az-çox bələd olan adam kimi deyim ki, bizim mətbuatımız bu gün faktla deyilənlər arasında qalıb. Bu gün bizim mətbautımız diktafon mətbuatına çevrilir. Biz bunlardan xilas olmalıyıq. Mətbuatımızda iz qoyan jurnalistlər azalır. Bu gün bir-iki sual verib, kiminsə bir səhifəlik fikirlərini çap elətdirmək normal jurnalistika deyil. Jurnaslitika o vaxt güclü olur ki, o fakta söykənir.

**Aparıcı**: *Dünyanın sivil, inkişaf etmiş ölkələrində, sözün həqiqi mənasında, söz azadlığından bəhrələnən ölkələrində – Böyük Britaniyada, Yaponiyada, Amerikada və s. jurnalist əgər faktı, dəqiq bir mənbəyə arxalanmadan nəsə yazırsa, o, buna görə məsuliyyət daşıyır. Yəni azad söz fakta, gerçəyə söykənməlidir.*

**Mədət Məmmədov:** Mən bizim mətbuatda bu məqamlarla tez-tez rastlaşıram. Xaricdə, sivil ölkələrdə belə bir şey yoxdur. Öz yazısında fakta məhəl qoymamaq bizim mətbuatın keçid mərhələsi yaşamağının bəlalarıdır. Bu anormallıq keçib gedəcək. Əgər jurnalist bilsə ki, təhrif olunmuş fakt üçün cavab verməli olacaq, buna görə hər şeyi itirə bilər, onda o, heç vaxt yalan yazmaz. İndi fakta məhəl qoymayan yazar bilir ki, buna görə cəzasını almayacaq. Demokratiya o deyil ki, xaos yaransın. Demokratiya qanunların hakimiyyətidir. Almaniyadan gəlmiş bir insanla əsəbi danışanda o cavab vermir. Sadəcə, deyir: "Siz mənimlə niyə əsəbi danışırsınız?". Maraqlanıb soruşmuşam ki, o, niyə belə deyir, cavab verir ki, sizin əsəbi olmağınızın səbəbi qanunların işləməməsidir. Doğrudan da, hər şeyi qanunlar idarə edəndə əsəbiləşməyə ehtiyac qalmır.

Bu gün yaralı yerlərimizdən biri olan milli mentalitetimizə zidd olan hallarla mətbuatda tez-tez rastlaşsaq da, buna görə kiminsə cəza almasını görmürük. Biz milli mentalitetə zidd yazılarla təkcə söz azadlığına zərbə vurmuruq, həm də sabahımızı itiririk. Biz sabahkı mənəviyyatımızın qarşısında cavab verməli oluruq. Bununla biz mənəvi cinayət törətmiş oluruq. Ona görə də, mən həmişə deyirəm ki, bizim mətbuatımız problemləri yazan mətbuat olmalıdır– deyilənlərlə faktlar arasında qalmamalıdır. Bizim bir milyon qaçqın-köçkünümüz var, 20 faiz torpaqlarımız zəbt olunub. Bunu hər addımda möhtərəm Prezidentimiz Heydər Əliyev diqqətə çatdırır. Jurnalist bu gerçəyi analiz etməlidir, bu həqiqəti xalqın yaddaşından silinməyə qoymamalıdır.

Gündəlik sensasiya xatirinə artıq biz nəyisə unuduruq. Unutsaq – unudulacağıq. Məgər Azərbaycanda gerçək bəlamızı yalnız bir nəfər – Prezident hamıya xatırlatmalıdır? Yalnız Prezidentmi xəritə götürüb gedib bunları xaricdə izah etməlidir? Hər kəs, xüsusilə də jurnalistlər öz üzərlərinə düşən məsuliyyəti başqasına saxlamamalıdır. Jurnalistika həmişə cəmiyyətin önündə getməlidir. Xalqına jurnalistdən çox xidmət etməli olan peşə sahibi yoxdur.

**Aparıcı:** *Təşəkkür edirəm. Dinləyicilər bizi qınaya bilərlər ki, bayram günündə giley-güzar edirlər. Bu, şübhəsiz ki, günün narahat-*

*lığından doğur. Haqlı olaraq dediniz ki, jurnalist xalqın önündə gedən bir qüvvə və qələm sahibidir. Siz demiş, bir-iki sual verib sonra həmsöhbətinin sözlərini diktafona köçürüb, qəzet səhifələrinə dolduranlara jurnalist deməyə çətinlik çəkirsən. Amma əsl söz adamını xalq milyonların içindən seçir. Söz adamı dediyi, yazdığı sözün məsuliyyətini yaşamalıdır. Arzu edərdim ki, söz adamlarımız əlahəzrət sözü qorusunlar. O ucalığı, o müqəddəsliyi hər zaman duysunlar. Yəni sözü söz xatirinə yazmasınlar. Mən sizin nazirliyi ölkənin mətbuat azadlığını tənzimləyən qərargaha bənzədirəm. Siz ölkənin mətbuat məkanını daim izləyirsiniz ki, burada heç bir qəza hadisəsi baş verməsin. Nə piyadalar, nə də sürücülər bundan əziyyət çəkməsin. Sizə bu fəaliyyətinizdə uğurlar arzulayıram.*

**Mədət Məmmədov:** Qanun və əxlaq ucalığında dayanmaq çox çətin məsələdir. Bu ucalığa qalxa bilməyənlərə gərək kömək edəsən. Yəni qanun və əxlaq ucalığında dayanmaq üçün gərək səhv yolda olanları inandıra biləsən. Onları inandırmalısan ki, doğru yol yeganə uğur yoludur. Filosoflardan biri gözəl deyib ki, insanı yalnız məhəbbətlə tərbiyə etmək olar. Bu, təkcə insana məhəbbət deyil, torpağa da, Vətənə də məhəbbətdir. Hər bir qəzet mənə bir övlad kimi doğmadır, yaxındır. Onlar büdrəyəndə mənim də ürəyim ağrıyır, uğurlarına isə sevinirəm. Bu günlər mətbuatın durulmasına, ona verilən azadlıqdan qədərincə bəhrələnməsinə ciddi ehtiyac duyulur.

Bu gün bayram münasibətilə mən bütün həmkarlarımı təbrik edirəm. Yaxşısını da, ortababını da . Arzu edirəm ki, hamısı yaxşı olsun. Mən hamını Həsən bəy zərdabinin 125 il əvvəl əsasını qoyduğu doğru yola dəvət edirəm. O böyük insan deyirdi: "Hər bir vilayətin qəzeti gərək o yerin aynası olsun. Heç olmaz ki, doğru söz yerdə qalsın". Azərbaycan mətbuatı yaranışının 125 ilik zirvəsində elə bir səviyyəyə çatıb ki, hər kəsin və hamının kütləvi yayım vasitələrində söz demək imkanı təmin olunub. Bu, demokratik cəmiyyətdə söz azadlığının gerçəyə çevrilməsi göstəricisidir. İnanıram ki, Azərbaycan bu yolla gedərək tezliklə söz azadlığından maksimum faydalanan ölkələr sırasında yer tutacaq.

**Aparıcı:** *Mən də sizin arzu və inamınıza qoşulmaq istərdim. İnşallah, milli mətbuatımızın həm özü, həm də güzgü tutduğu Azərbaycan cəmiyyəti, xalqın gün-güzəranı elə gözəl olsun ki, ona tutulan ayna da həmişə bu gözəlliyi əks etdirsin. Bir daha bayramınız mübarək, əziz həmkarlarımız!*

*"Sizinlə üz-üzə" – dinlədiyiniz proqram belə adlanır. Verilişin bu sayında qonağımız Mətbuat və İnformasiya Nazirliyi Kütləvi İnformasiya Vasitələri Baş İdarəsinin rəisi Mədət Məmmədov idi.*

**Müsahibəni apardı: Şəfəq Sultan, Azərbaycan Milli Radiosu ədəbi dram verlişləri baş redaksiyasının baş redaktoru**

*Azərbaycan Milli Radiosu, 22 iyul 2000-ci il*

# Azərbaycan mətbuatı yeganə sahədir ki, Avropa Şurasından səs çoxluğu ilə müzakirəsiz keçib

***Söhbətə milli jurnalistikamızın bu tarixi uğuru ilə başlayan Mətbuat və İnformasiya Nazirliyi Kütləvi İnformasiya Vasitələri Baş İdarəsinin rəisi Mədət Məmmədov açıqlamasının davamında dedi:***

– Demokratiya bütün sahələrdə olduğu kimi, mətbuatımızın da inkişaf yolunda yaşıl işıq yandırdı. Milli müstəqilliyinə qovuşan xalqımız azad söz tribunasını da qazanıb. Budur, vəzifəsindən, peşəsindən, milli mənsubiyyətindən asılı olmayaraq, hər bir Azərbaycan vətəndaşı müstəqil fikir yürütmək, öz sözünü açıq şəkildə ifadə etmək imkanına malikdir. Ötən 125 il ərzində qazandığımız budur: milli mətbuatımızın yaranıb-formalaşması, uğur qazanıb inkişaf etməsi. Təbii ki, nöqsanlar, qüsurlar da az olmayıb. Keçid dövrünün bütün sahələrdə yaratdığı xaos mətbuatdan da yan keçmədi. Verilmiş imkanlar hamının söz deməsinə, fikir yürütməsinə şərait yaratdı. Elə bugün mətbuatımızı bürüyən, çoxluq tərəfindən qəbul edilməyən "sarı mətbuat"–bulvar mətbuatı da məhz buradan yarandı.

– ***Müstəqillik əldə edən mətbuatımıza dövlət qayğısını necə qiymətləndirdiniz?***

–Müstəqillik əldə etdikdən sonra kütləvi informasiya vasitələrinin sayı sürətlə çoxalmağa başladı. Bu imkanlardan sui-istifadə halları da az olmadı. Çox şükürlər olsun ki, 1993-cü ildə ümumilli liderimiz Heydər Əliyev ikinci dəfə hakimiyyətə qayıtdı. Bu qayıdış, hər şeydən öncə, özünü mətbuatda göstərdi. Ağa qara deyən tayfa-qrup maraqları səviy-

yəsinə enən mətbuatımızda da canlanma, durulma yarandı. İlk dəfə olaraq möhtərəm Prezidentimiz Heydər Əliyev mətbuatın üzərindəki senzuranın ləğv olunmasına, ölüm hökmünün götürülməsinə fərman verdi. Mən qətiyyətlə deyərdim ki, Yaxın Şərqdə bu, çox cəsarətli addım idi. Bundan sonra mətbuatımız 10 – 20 il zamanı qabaqlamış oldu.

Bəli, mətbuat yeganə sahədir ki, zamanı qabaqlayır. KİV-lərin məhkəmə serialları artsa da, müstəqil mətbuatımız demokratik əsaslarda formalaşmağa başladı. İctimai fikrin formalaşdırılmasında ən mühüm vasitə olan mətbuat artıq dövlət qayğısından bəhrələnməkdədir. Bu ilin mart ayının 6-da ölkə başçısı Heydər Əliyevin "2000 – 2001-ci illərdə Kütləvi İnformasiya Vasitələrinin maddi-texniki bazasının yaxşılaşdırılması haqqında" və milli mətbuatımızın 125 illiyinin qeyd olunması barədə sərəncamları, möhtərəm prezidentimizin qəzet redaktorlarını qəbul edərək mətbuatın bugünkü vəziyyətini birgə müzakirəyə çıxarması mediaya dövlət qayğısını əks etdirir.

***– Mətbuat orqanları KİV-in fəaliyyətini tənzimləyən qanunlara əməl edirmi?***

– Bu, medianın ağrılı tərəfidir. Milli mentalitetimizə yad olan mövzularla kütlənin başını qatan, bazar qanunları yolunu tutaraq sensasiya dalınca düşən "sarı mətbuat"dan hələ də yaxa qurtara bilməmişik. Bu da demokratiyanın tələblərinə əməl olunmaması ilə əlaqədardır. Artıq o cür qəzetlər böyük oxucu auditoriyasından çıxaraq, bazarını itirməyə başlayıb. İnanıram ki, vaxt keçdikcə mətbuat tamamilə müstəqilləşəcək, mediamızın milli maraqlarımıza, mentalitetimizə uyğun forma və məzmun axtarışı üstün mövqe qazanacaq.

Hələlik bizi qane etməyən məsələlərdən biri də qəzet və jurnallarda obyektiv jurnalist mövqeyinin olmamasıdır. "Diktofon jurnalistikası" analitik, təhlili yazıları mətbuatdan sıxışdırır. Jurnalist birinin fikrini olduğu kimi versə də, ona öz münasibətini də bildirməlidir. Lakin demək olmaz ki, bütün mətbuat orqanlarında belədir. Məsələn ANS teleşirkətinin, "525-ci" qəzetin əməkdaşları analitik mövzulara yetərincə yer ayırırlar. İlk milli qəzetimiz "Əkinçi"nin ənənəsini davam etdirən

"Azad Azərbaycan", "Şərq", digər müstəqil qəzetlər kimisə, nəyisə təmsilçilik mövqeyindən uzaqdır.

***– Bu bayram günlərində – 22 İyul Milli Mətbuat Günü münasibətilə artıq sayı 530-dan çox olan KİV-lərdə çalışan jurnalistlərimizə sözünüz, arzunuz?***

– "7-ci Qitə"çi olaraq sizə və bütün həmkarlarımıza kəsərli, dəyərli söz, iti qələm və millətimizin əxlaqına, mentalitetinə hörmət etməyi, çağdaş oxucuların tələbatına cavab verməyi bacaran jurnalist olmaq arzulayıram.

***– Biz də sizi və Mətbuat və İnformasiya Nazirliyinin əməkdaşlarını mətbuat bayramı münasibətilə təbrik edirik. Söhbət üçün təşəkkür edirik.***

**Müsahibəni apardı: Rübabə AQŞİNQIZI**

*"7-ci Qitə" qəzeti, 22 iyul 2000-ci il*

# Fakt jurnalistikanın vicdanıdır

***Mətbuat cəmiyyətin aynası və dövrün, zamanın aparıcı qüvvəsidir desək, Azərbaycanın çağdaş durumunu dilə gətirmiş olarıq. Daha doğrusu, cəmiyyət bugün özünü mətbuatda formalaşdırır. Bu da təsadüfü deyil. Çünki Azərbaycan mühitində media çox böyük inkişaf yolu keçib.***

Çəkinmədən iddia edə bilərik ki, bazar iqtisadiyyatının sərt imtahanları ilə qarşılaşan sənaye, kənd təsərrüfatı və digər sahələrdə nəzərə çarpan cuzi inkişafda belə mətbuatın əməyi var. Xüsusilə də son 5 ildə mətbuatın gördüyü işlər daha çox diqqət cəlb edir. Sirus Təbrizlinin mətbuat və informasiya naziri təyin edildiyi son 5 ili mətbuatın sıçrayış dövrü kimi də qələmə vermək mümkündür. Bu, nədən ibarətdir? Bu sözü deyəndə təsəvvürümüzdə, ilk olaraq, 1992-ci ildən mətbuata tətbiq olunmuş senzuranın ləğvi canlanır.

Bəli, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 1998-ci avqustunda mətbuat tarixinə qızıl hərflərlə yazılan vacib və ən önəmli sənədi–senzuranın ləğvi barədə fərmanı imzaladı. Bu, Azərbaycanda siyasi plüralizmin, demokratiyanın inkişafı, insan haqlarına və söz azadlığına verilən ən böyük qiymət, töhfə idi. Təsadüfi deyil ki, bu akt Azərbaycanın böyük beynəlxalq qurumlara, əməkdaşlıq təşkilatlarına başucalığı ilə qəbul olunmasında xüsusi rol oynayırdı. "KİV haqqında" Qanun qəbul edildi, yüzlərlə mətbu orqan və onlarca onlayn media qeydiyyatdan keçdi. Söz demək, ürəyindən keçənləri yazmaq kimi sərbəstlik əldə olundu. Bu sıçrayışdır– dünya təcrübəsində az rast gəlinən bir sıçrayışdır. Amma "hər gözəlin bir eybi olar", – deyib atalarımız. Bəs görəsən, Azərbaycan mətbuatının çatışmayan cəhətləri nədədir.

Mətbuatın inkişafı, nailiyyətləri və bir də çatışmayan cəhətlərini araşdırmaq üçün Mətbuat və İnformasiya Nazirliyi (MİN) KİV İdarəsinin rəisi Mədət Məmmədova ekspert kimi müraciət etdik.

***Söhbətinə ilk olaraq dövlət başçısının tarixi fərmanından başlayan həmsöhbətimiz bu sənədi Azərbaycan mətbuatı tarixində misli görünməmiş hadisə kimi dəyərləndirdi. Daha sonra Mədət Məmmədov mətbuat tarixində önəmli yer tutan ikinci hadisə – "KİV haqqında" Qanunun qəbul olunmasına toxundu:***

– Bilirsiniz ki, Azərbaycanın ayrı-ayrı rəsmi qurumları, təşkilatları, qanunverici orqanları Avropa Şurasının müvafiq bölmələri ilə iş birliyi yaradaraq, qəbul olunan qanunları, görülən işləri dünya standartlarına uyğunlaşdırırlar. Bunun üçün müvafiq işçi qruplar Milli Məclisin daimi komissiyalarında qanun layihələri üzərində gərgin iş aparırlar. Bunlardan biri də müzakirəyə çıxarılmış "KİV haqqında" Qanun idi. Layihə 19 variantda işləndikdən sonra Milli Məclisə müzakirə üçün təqdim edildi və qəbul olundu.

***Həmsöhbətimiz əlavə etdi ki, qanun layihəsini hazırlayan işçi qrupun tərkibinə həm müxalifət, həm də dövlət qurumlarının təmsilçiləri daxil olub. Bu fikri təsadüfi deməyən mütəxəssisin sözlərinə görə, işçi qrupun bəzi üzvləri qanunun demokratikliyinə kölgə salmaq istəyirlər:***

– Məni bir mütəxəssis kimi narahat edən bu işin içində olmayanların min bir əziyyətlə hazırlanmış qanunu heçə endirmək istəkləridir. Təccüblüdür ki, Azərbaycanın müəyyən qədər iqtisadi vəziyyətinin çətin məqamında ölkə mətbuatı bu aspektdə problemləri işıqlandırmaq əvəzinə, siyasi oyunlara qurşanır, dedi-qodular yaymaqla fikri əsas məsələlərdən yayındırılar. Sivil ölkələrdə belə şanslardan daha çox yararlanmağa çalışdıqları halda, bizdə buna fərqli yanaşılır. Daha doğrusu, Azərbaycan jurnalistikasının bu şanslardan inkişaf üçün istifadə edə bilmədiyi fikri yaranır. Junalistikanın gücü onun fakta söykənməsidir, yəni sözə və fikrə qarşı məsuliyyət həmişə olmalıdır.

Təssüflər olsun ki, son dövrlərdə fakta söykənməyən, qərəzli, diqtə ilə yazılan materiallar mətbuata ayaq açdı. Təbii ki, belə yazılar adı hallananlar tərəfindən sakit qarşılana bilməzdi və bu da mətbuat – məhkəmə çəkişmələrinin ortaya çıxmasına şərait yaratdı. Məhkəmələrdə isə islahatlar yeni-yeni aparılır və bu sistem hələ formalaşmaqdadır.

***Bu və digər amilləri nəzərə alsaq, bir çox mətbu orqanların məhkəmələrdə uduzduğunu təbii qarşılayırıq. Bəs belə yazıların ortaya çıxmasına səbəb nədir? Həmsöhbətimiz bu məsələyə belə aydınlıq gətirdi:***

– Əvvəlki qanunda jurnalistikaya ləkə gətirə biləcək boşluqlar çox idi. Bu da jurnalistikanın gözdən salınmasında xüsusi rol oynayırdı. Həmin qanunun 2-ci maddəsinə görə, 18 yaşına çatmış, əqli cəhətdən normal hesab olunan, məhkum olmayan hər bir vətəndaş KİV təsis edə bilərdi. Elə bu səbəbdən də orta məktəb partası arxasından təzəcə duran, yaxud hansısa peşəyönlü texnikumu bitirən adamlar qəzet təsis edib, redaktor oldular. Əlinə qələm götürüb "mən jurnalistəm" deyənlər ağlına gələn cızmaqaranı yazıb tökürdü kağızın üzərinə.

Məbuatımız belələrinin rəhbərlik etdiyi əldədüzəltmə qəzetlərlə dolu idi. Bu qəzetlər isə müxtəlif adamlara xidmət edirdi. Başqalarını ləkələmək, şər atmaq, şantaj etmək və s. hərəkətlər qeyd etdiyimiz qarşıdurmaların yaranmasına səbəb olurdu.

***Mədət Məmmədov bütün bunlara baxmayaraq, mətbuatın indiki durumunu "durulma dövrü" adlandırdı. Yəni təsadüfi, savadsız, şəxsi maraq güdən adamların təsis etdiyi, redaktor olduğu – dövlətçiliyimiz, mentalitetimiz, əxlaqımız əleyhinə iş aparan qəzetlərin mətbuatdan qanun səviyyəsində sıxışdırılıb çıxarılması prosesi, dövrü yaşanılır. Mütəxəssis bununla bağlı öz fikirlərini belə izah etdi:***

– Biz mətbuata qarşı səlib yürüşü etməmişik, sadəcə, onun inkişafına kömək etmişik. Biz mətbuatı "terrorçu" qəzetlərdən təmizləmişik. Sirus Təbrizlinin cəsarətli addımı mətbuatımızı 257 belə divar qəzetindən azad etdi. Sonra biz bu təmizləmə əməliyyatını mərhələ-mərhələ həyata keçirməyə başladıq. Əvvəlcə 12 ay ərzində bir dəfə olsun belə nəşr olunmayan, sonra yeni qanuna əsaslanaraq redaktorunun ali təhsili olmayan və ya 3 il bu sahədə fəaliyyət göstərməyən qəzetləri araşdırdıq. Belə qəzetlərin sayının 200-dən çox olduğunu müəyyən etdik və onların ləğvinə nail olduq.

***Söhbətimizin bu yerində həmsöhbətimiz mətbuatın ağrılı yerinə toxundu:***

– Bugün jurnalistikaya pul yığmaq məqsədi ilə gələnlər var. Vəsiqə ilə dilənçi kimi qapılara düşmək, pul qopartmaq mümkün olmadıqda isə şantaj etmək, mənəviyyatı alçaltmağa çalışmaq, insanlar haqqında qeyri-obyektiv yazılarla onları qorxutmaq belə "jurnalistin" peşəsinə çevrilib. Araşdırdıq ki, 30 faizə qədər KİV vasitəsi bu yolu tutub. Qəzetlər var ki, ancaq vəsiqə paylamaqla məşğuldular. Onlar təşkilatları, qurumları işləməyə qoymurlar. Təşkilatlardan saysız-hesabsız şikayətlət daxil olur. Əgər əvvəllər jurnalistləri təzyiqdən qoruyurduqsa, indi məcbur oluruq ki, cəmiyyəti jurnalistikanın həqarətindən qoruyaq.

***Müsahibimiz daha sonra belə çatışmazlıqları aradan qaldırmaq yolunda atılan addımlardan söz açdı:***

– 3 il öncə nazirlik "Kataloq" deyilən varianta əl atıb. Həmin kataloqda respublikada fəaliyyət göstərən KİV vasitələri haqda ətraflı məlumat öz əksini tapmalı imiş. Daha sonra nazirlik "vəsiqəyə nəzarət" məsələsini ortaya qoyub. Qəribədir ki, jurnalistikanı belə "qəzetçilərdən" təmizləmək yönündə atılan istənilən addım "həmkarlarımız" tərəfindən kəskin etirazla qarşılanıb. Fikrimizcə, məqsəq aydındır.

***Mədət Məmmədovun toxunduğu ikinci məsələ də mətbuatın ağrılı yeridir:***

– Təbii ki, söhbət milli mentalitetimizə, əxlaqımıza zidd olan "sarı mətbuatın" meydan sulamasından gedir. Maraqlıdır ki, bir ara ictimaiyyətdə sarı mətbuatın yaranmasında Mətbuat və İnformasiya Nazirliyini günahlandıran fikirlər formalaşırdı. Halbuki MİN dəyərli mətbuat vasitələrinin aktiv köməkliyi ilə cəmiyyətə açıq-saçıq mətbuatın əleyhinə olduğunu sübut etməyə çalışırdı. "Sarı mətbuat"ın nümayəndələri elə bilirdilər ki, tez bir zamanda bazarı ələ alacaqlar. Sevindirici hal odur ki, onlar 4 – 5 aydan sonra yanıldıqlarını anladılar. Biz açıq-aşkar bəyan edirik ki, sarı mətbuatın əksəriyyəti qeyri-qanuni fəaliyyət göstərir.

***Mədət Məmmədov bu məsələdə ziyalıları passiv mövqe tutmamağa çağırdı. Bildirdi ki, ziyalılar bu məslədə aktiv olmalıdırlar. Söz qanunsuz nəşrlərdən düşmüşkən, idarə rəisi ilə bu barədə söhbət***

***edərkən o, maraqlı faktları ortaya qoydu. Həmsöhbətimiz bildirdi ki, hal-hazırda 530 qeydiyyatdan keçmiş KİV vasitəsi fəliyyət göstərir:***

– Mətbuatı təsadüfi olaraq dördüncü hakimiyyət adlandırmırlar. Müstəqilliyə, dövlətçiliyə birinci zərbəni buradan vurmaq olar. Bu sahə dövlət əhəmiyyətli və strateji sahədir. Mətbuatın köməyi ilə cəmiyyətə lazım olmayan insanlar, siyasi meyitlər bir neçə günün içərisində liderə çevrilirlər. Qəzetlər lazımsız adamları liderə çevirərək, hakimiyyətə gətirməkdə ziyanlı rol oynayırlar. Bu hadisə ilə biz 1992-ci ildə rastlaşmışıq. Bununla cəmiyyət 100 il geri düşür.

***KİV idarəsinin rəisi belə qəzetlərə qarşı mübarizəni müvafiq orqanlarla birgə aparmağı vacib sayır:***

– Junalistin hüququ informasiya almaq və onu işıqlandırmaqdır. Təbii ki, burada fakta üstünlük verilməlidir, şaiyəyə yox. Jurnalistə isə “gəl faktı götür” demirlər. Jurnalist öz hüququnu tələb edib informasiya almalı və onu doğru-düzgün oxucuya çatdırmalıdır. Əgər jurnalist öz hüququnu tələb edə bilmirsə, onda başqalarının hüquqlarını qorumaq haqqında danıçmağa belə dəyməz”.

***Həmsöhbətimizin özü isə sonda bizə belə bir sualla müraciət etdi:***

– Hansı həqiqəti yazan qəzeti məhkəməyə veriblər, onu susdurublar? – Həqiqəti yazmaq lazımdır. “Dedilər”, “aldığımız məlumata görə”, “etibarlı mənbə kimi” sözlər jurnalistikanı gözdən salır.

***Söhbətimiz uzun çəkdi. İndiyə qədər əldə olunan nailiyyətlərdən, qazanılan uğurlardan danışdıq. Söhbətin sonunda Mədət müəllimin bir fikri diqqətimi xüsusi cəlb etdi:***

– Jurnalist, eyni zamanda, ictimai-siyasi xadimdir. O, dövlətin siyasətinin hər sahəsində öz nüfuzunu sübut edə bilər. Jurnalistika ilə çox şeyə nail olmaq mümkündür. Sabitliyə qələbəyə, dövlət quruculuğuna. Təki deyilənlər fakt, həqiqət olsun. Çünki fakt jurnalistikanın vicdanıdır.

***Bu sözlərə nəsə əlavə etməyə ehtiyac görmədik.***

**Sənan NƏCƏFBƏYLİ**

*“Paritet” qəzeti, 30 dekabr 2000-ci il*

# Demokratik medianın təməl şərti: azad söz vicdan senzurasından keçməlidir

***Kütləvi informasiya vasitələrinin mövcud səviyyəsi ölkəmizdə demokratik-hüquqi dövlət quruculuğunun ən mühüm göstəricilərdən biridir. Demokratik, hüquqi dövlətin qurulduğu məmləkətimizdə mübarizə dolu günlər hələ də qarşımızdadır. Bütün sivil ölkələrdə mətbuat ictimai-siyasi həyatda həmişə mühüm rol oynayıb. Bizim ölkəmizdə də belədir.***

Azərbaycan mediası ölkəmizdə cərəyan edən ictimai-siyasi proseslərin önündə gedir. Bu da KİV-in ictimai rəy formalaşdırmaq gücündən irəli gəlir. Mövcud Azərbaycan mediası sivil ölkələr istiqamətində inkişaf edir. Respublikamızda mətbuat yeganə sahədir ki, 20 – 30 illik yolu cəmi 2 – 3 ilə keçib. Cəmiyyətdə olan eybəcərlikləri, çatışmazlıqları, məmur özbaşınalıqlarını ictimaiyyətə çatdıran əsas mənbə mətbuatdır. Ona görə də bu gün xalq mətbuatda gedən yazılara çox diqqətlə yanaşır. Yəni bu gün xalq mətbuatda gedən doğru məlumatlara ciddi ehtiyac duyur.

Müsahibimiz "Azərbaycan Junalistlərinin Həmrəyliyi Komitəsi" İctimai Birliyinin sədri Mədət Məmmədovla söhbətimizdə bu aktual məsələlərə aydınlıq gətirməyə çalışdıq.

Xatırladaq ki, Mədət Əyyub oğlu Məmmədov 1986-cı ildə ADU-nun (indiki BDU) jurnalistika fakultəsini bitirmişdir. Mediada korrektorluqdan Mətbuat və İnformasiya Nazirliyi KİV baş idarəsinin rəisi vəzifəsinə kimi yüksəlmişdir. 4 kitab müəllifidir. Zəngin ədəbi-publisistik yaradıcılığına, mətbuatdakı ardıcıl, səmərəli çıxışlarına və müasir həyatın bir sıra sahələrində əldə etdiyi nailiyyətlərə görə "Qızıl qələm" və "Həsən bəy Zərdabi" mükafatları ilə təltif olunmuşdur.

*– Mədət müəllim, siz uzun müddətdir ki, jurnalistika sahəsində müxtəlif vəzifələrdə çalışmısınız. Təkcə onu demək kifayətdir ki, 7 il Mətbuat və İnformasiya Nazirliyi Kütləvi İnformasiya Vasitələri Baş İdarəsinin rəisi, yəni "dördüncü hakimiyyət"in rəhbəri olmusunuz. Sizi jurnalistika aləmində səmimi insan, peşəkar qələm sahibi və idarəçilik mərhələlərini keçmiş, professional jurnalistika sahəsində qəbul olunmuş yetkin kadr kimi tanıyırlar. Sizin yüksək vəzifədə işlədiyiniz dövr jurnalistikanın inkişafında yaddaqalan ən mühüm hadisələrə təsadüf edir: senzuranın ləğvi, kütləvi informasiya vasitələri haqqında qanunun Milli Məclis tərəfindən qəbul edilməsi və s. Siz yeni qanun layihəsini hazırlayan komissiyanın işçi qrupunun üzvü olmusunuz.*

*İndi isə ətrafında təmiz, ləyaqətli, özünə və sənətinə hörmət qoyan jurnalistləri birləşdirən Junalistlərin Həmrəyliyi Komitəsini yaratmısınız. Bu qurumun ciddi hədəflərini biz jurnalistikada çalışan qələm sahibləri sizin şəxsiyyətinizə, sözünüzün bütövlüyünə, qətiyyətinizə, səmimiyyətinizə yaxşı bələd olduğunuzdan indidən görüb dəyərləndiririk. Siz hər bir vəzifəni, vətənə, xalqa xidmət etmək üçün özünüzə tribuna bilmisiniz. Sizin əqidəniz Vətənə xidmətlə yoğrulub və buna görə də yaradılan yeni qurumun uğurlarına inanmaya bilmərik.*

*Nəhayət, icazə verin, sizə bu gün jurnalistikanı problemlər qarşısında qoyan, narahat edən və onun gələcək perspektivlərini müəyyən edən məsələlər barədə suallarla müraciət edək. Mədət müəllim, biz bilirik ki, jurnalistika bugünkü ictimai-siyasi proseslərin önündə gedir. Belə bir məsuliyyətli sahədə sizi nələr narahat edir və onların həllini necə görmək istəyirsiniz?*

– Mən junalistikada 25 ilə yaxındır ki, fəaliyyət göstərirəm. Jurnalistikanın bütün sahələrində işləmişəm. Korrektorluqdan müvafiq nazirliyin baş idarə rəisliyinə qədər yol keçmişəm. Bu gün məni narahat edən məsələlərdən biri budur ki, belə bir mühüm sahəyə təsadüfi adamlar çox soxulmuşlar. Az qalıb ki, jurnalistikada layiqli yeri olan adamlar unudulub kənarda qalsın. Heç vaxt unutmaq olmaz ki,

jurnalistika spesifik sahədir. Bu sahəyə təsadüfi adamları qətiyyən buraxmaq olmaz.

Demokratik mətbuat, azad söz arxasında şəxsi mənafelərini, intriqalarını həyata keçirmək üçün mətbuatdan tribuna kimi istifadə etmək istəyənlər cəmiyyətdə fikir müxtəlifliyi yox, fikir ayrılığı, çaşqınlğı yaradır və ictimaiyyətin fikrini əsl mətləbdən uzaqlaşdırırlar. İctimai rəyi formalaşdıran jurnalistika aləminə professionallar gəlməlidirlər. Təəssüflər olsun ki, keçid mərhələsinin yaratdığı müxtəlif problemlərin olduğu bir vaxtda jurnalistikaya çoxlu təsadüfi adamlar soxula bilmişlər. Bunun nəticəsidir ki, "reket jurnalistika" özünə yer tutmuşdur. Ancaq bunların zərərli fəaliyyətinə heç cür imkan vermək lazım deyil. Əgər gələcəkdə bunlar inkişaf edərsə, cəmiyyət birmənalı şəkildə kriminallaşa bilər.

Bu gün jurnalistikamızın həmrəyliyi ilə fəxr etsək də, "reket jurnalistika"nın yaratdığı fəsadlara təəssüflənirik. 23 min adama jurnalist vəsiqəsi paylanmışdır. Bu rəqəmi eşidən hər bir adam jurnalistika kimi mühüm bir sənət sahəsinə qeyri-ciddi yanaşır. Çox sevindirici haldır ki, son zamanlar "reket jurnalistika"ya qarşı qətiyyətlə çıxış etməyə başlanıb. Bu fikri mən çoxdan demişdim ki, vaxt gələcək jurnalistika öz içərisində yaranmış xəstəlikləri özü müalicə edəcək, özünün təbibinə çevriləcək.

Artıq bu günləri görüb-yaşayırıq. Cəmiyyətdə gedən prosesləri jurnalistika nəinki izləməli, hətta qabaqlamalıdır. Sevindirici haldır ki, Azərbaycan jurnalistikası başqa sahələrə nisbətən, qürurla demək olar ki, dəfələrlə çox inkişaf edib. Junalistika indi cəmiyyəti ictimai nəzarətdə saxlaya, hər bir sahəyə müdaxilə edə bilir. Cəmiyyət özü də artıq mətbuatsız, informasiyasız bir gün belə yaşaya bilmir. Bax budur jurnalistikanın danılmaz faktı.

***– Mədət müəllim, yeri gəlmişkən, siz "reket jurnalistika"nın əxlaqa və qanunazidd fəaliyyət olduğunu dediniz. Jurnalistikamıza yad olan ünsürlərə qanunun demokratikliyindən faydalanaraq mətbuatı gözdən salan, reketçiliklə məşğul olan belə adamlara qarşı***

***yenicə yaradılmış "Azərbaycan Junalistlərinin Həmrəyliyi Komitəsi" İctimai Birliyi hansısa bir tədbirlər görə biləcəkmi?***

– Yaralı yerimizə toxundunuz. Bəli, bir çox mətbuat orqanları mediamıza ancaq ləkədir. Savadından, səviyyəsindən asılı olmayaraq, az qala, reket jurnalistlər ordusu yaranıb. İş o həddə çatıb ki, bəzi mətbuat orqanları küçədə göyərti satanlara da öz vəsiqəsini veriblər. Belə yaramaz işlərin qarşısını almaq üçün bütün imkanlarımızdan səmərəli istifadə edəcəyik. Belə başa bəla "jurnalistlərə" və onların təmsil olunduqları kütləvi informasiya vasitələrinə qarşı həmişə barışmaz mövqedə duracağıq. Onu da nəzərinizə çatdırım ki, illərdən bəri yüksək ixtisaslı jurnalist kadrlara laqeydlik ucbatından cəmiyyət dedi-qoduların qurbanına çevrilib. Məni bütün həmkarlarım yaxşı tanıyırlar, sözü düz deməyi bacarıram. Əks halda, heç kəsə böhtan deməırəm. Yaltaqlar, ikiüzlülər həmişə təzə gələn adamı çaşdırmağa çalışırlar. Şəxsi mənafelərini hər şeydən üstün tutan adamlar gedən lərin arxasınca danışmaqda da zirəkdilər. Eyni zamanda, demək istəyirəm ki, demokratik ölçülərə uyğun gəlməyən hərəkətlərə yol verən informasiya vasitələri öz cəzalarını alacaqlar.

***– Milli jurnalistikamızda demokratik norma və tələblərin nə dərəcədə əksini tapması barədə nə deyə bilərsiniz?***

– Əlbəttə, ötən 10 il müddətində bu istiqamətdə qazandığımız uğurlar müqayisəyə gəlməzdir. Mən hətta deyərdim ki, Azərbaycan mətbuatı qeyd olunan müddət ərzində xeyli inkişaf etmiş və inanılmaz nailiyyətlər qazanmışdır. Doğrudur, elə həqiqətlər var ki, onlar ölkəmizin müxtəlif siyasi partiyalarının ayrı-ayrı funksionerləri tərəfindən bilərəkdən inkar olunur. Onlar daha çox söz və mətbuat azadlığının reallığı ilə barışşa bilmirlər, daha doğrusu barışmaq istəmirlər.

Bəzən isə bu cür üzdəniraq partiya təmsilçiləri müxtəlif beynəlxalq təsisatlara da üz tutaraq Azərbaycanda söz və mətbuat azadlığının mövcudluğunu danırlar. Hazırda fakt faktlığında qalır. Onlar istəsələr də, istəməsələr də bu acı həqiqəti qəbul etməlidirlər. Nəhayət, qəti şəkildə deyə bilərəm ki, bu gün Azərbaycanda söz və mət-

buat azadlığı günün reallığıdır və kimsə bu faktın gerçəkliyinə şübhə etməməlidir.

***– Konkret olaraq hansı faktlara istinad edirsiniz?***

– Azərbaycan mətbuatı, əgər belə demək mümkündürsə, 20 – 30 illik yolu cəmi 2 – 3 ilə keçib. ABŞ-ın ölkəmizdəki sabiq səfiri cənab Stenli Eskudero da bu məsələyə toxunaraq qeyd edib ki, MDB məkanında ən inkişaf etmiş jurnalistika Azərbaycandadır. Azərbaycan jurnalistləri daha fəaldırlar.

Prezident Heydər Əliyevin imzaladığı 1998-ci il 6 avqust tarixli fərmanla ölkəmizdə senzuranın ləğv olunması Azərbaycan mətbuatının ən böyük qələbəsidir. Çox təəssüf ki, ölkə mətbuatı bundan peşəkarlıqla istifadə edə bilmir. Faktların yoxlanılmadan, dəqiqləşdirilmədən verilməsi son nəticədə məhkəmələr qarşısında durmağa gətirib çıxarır. Bu da təbii prosesdir və söz yox ki, müəyyən müddətdən sonra bütün bunlar öz qaydasına düşəcək. Bütün sivil ölkələrdə də belə olub.

1999-cu ildə "Kütləvi informasiya vasitələri haqqında" yeni qanunun qəbul olunması bu yöndə qəbul edilmiş nailiyyətləri bir daha təsbit etdi, junalistikamızı sivil normalara istiqamətləndirdi. Artıq informasiya blokadasından da söhbət gedə bilməz. 8-10 il əvvəl Azərbaycanın səsi heç yana çatmırdı. Sovet tankları 1990-cı ilin 20 yanvarında gəlib Azərbaycanın, oğullarını, qızlarını tırtılları altında qoyanda, Ermənistan Qarabağı işğal edəndə, bizim səsimiz, necə deyərlər, Biləcəridən o yana çatmırdı. İndi səsimizi dünya eşidir.

***– Mədət müəllim, KİV haqqında qanunda deyilir ki, jurnalist azaddır, istədiyi yerdən informasiya almaqda sərbəstdir. İndi gəlin görək bu qanuna yerlərdə riayət olunurmu?***

– Çox düzgün fikirdir. Konkret olaraq KİV haqqında qanunun 59-cu maddəsində kütləvi İnformasiya azadlığının və jurnalist hüquqlarının pozulmasına görə məsuliyyət təsbit olunub. Burada göstərilir ki, vəzifəli şəxslər tərəfindən medianın fəaliyyətinə müdaxilə oluna bilməz. Müxbir istədiyi vaxt, istədiyi yerdən informasiya almaq hüququna malikdir. Əgər bu hüquqlar pozulursa, qanunla hərəkət etmək

lazımdır. Artıq əlimizdə qanun var. Qanun şahdır – şah qanun deyil. Komitəmiz vətəndaş cəmiyyəti qurumu olaraq jurnalistlərə bu istiqamətdə hər cür kömək göstərəcək. Junalistlər də yazılarında qərəzə yol verməməlidirlər. Hər şeydən əvvəl, əqidə sahibi olmalıdırlar.

Vətənə xidmət etməkdən böyük səadət yoxdur. Ona görə də jurnalist gərək müstəqil ola, yazdığını Vətənin inkişafına həsr edə. Belə olmasa, demokratik mətbuatdan danışmağa dəyməz. Çoxları demokratiyanı anarxiya, xaos hesab edirlər. Lakin yanılırlar. Azərbaycanın milli tələbatına uyğun, peşəkar nəşrlərdən heç kim narazı qalmaz. Beləliklə, demək istəyirəm ki, KİV haqqında qanuna istinad edərək bundan sonra da mətbuatımızı yad ünsürlərdən qorumalıyıq. Mən jurnalistlərimizə çeviklik, peşəkarlıq, bir də obyektivlik arzulayıram.

***– Ağdamda dünyaya gəlmisiniz. Bu torpaq nəğmə, musiqi beşiyidir. Musiqi ilə aranız necədir?***

– Musiqini çox sevirəm. İtirilmiş poeziyanı sevməyim də, yəqin, bundan irəli gəlib. Bu gün hamımızın Qarabağ-İtirilmiş Vətən dərdi var. Biz hamımız bir Vətənin övladıyıq. Bu Vətəndə hərənin bir torpaq qisməti var. İnsan bu dünyaya çığıra-çığıra gəlir, sakit köçür. Ondan bu dünyada iki şey qalır – yaxşılıq, ya da pislik. Ona görə də həmişə yaxşılıq elə.

Az olmayıb ki, ətrafımı pislik bürüyüb. Bu dünya yaxşıların çiynində bərqərar tapır. Mən insanla söhbət edəndə o hiss edir ki, insandır. Zirvələrdə gəzməyi xoşlayıram. O zirvələrdə həm hava təmizdir, həm daş-kəsək azdır.

***– Mədət müəllim, "Azərbaycan Junalistlərinin Həmrəyliyi Komitəsi" İctimai Birliyi yeni yaradılan bir qurumdur. Sədr kimi bu qurumun işinə münasibətiniz necədir?***

– Jurnalistlərin Həmrəyliyi Komitəsi elə bir ictimai orqandır ki, qarşısına kütləvi informasiya vasitələrinə yardım göstərmək, onların fəaliyyət azadlığını təmin etmək vəzifəsi qoyub. Bu gün kütləvi informasiya vasitələri və onların aparıcıları olan jurnalistlərin üzərinə böyük məsuliyyət düşür. Kütlələrə düzgün informasiya çatdırmaq,

həyati problemləri işıqlandırarkən ictimai rəyin formalaşmasında səhvə yol verməmək üçün jurnalist, hər şeydən əvvəl, sözün əsl mənasında professional olmalı, öz işinə və üzvü olduğu komitənin fəaliyyətinə ümumxalq və ümumdövlət mənafeyinə xidmət edən vətəndaşlıq mövqeyindən yanaşmalı, ümumi inkişafa mane olan hər cür təzahürə qarşı barışmaz mövqe tutmalıdır.

Hər bir jurnalist informasiyanı toplayarkən, habelə onu yayarkən mütləq demokratik prinsiplərə riayət etməlidir. Artıq həyatı, reallıqlarını düzgün qələmə alan, qətiyyətli və prinsipial jurnalistlərimizin sayı getdikcə çoxalır. Onların əksəriyyəti faktları ümumiləşdirməyi bacarır, cəmiyyəti narahat edən problemləri orijinal forma və üsulla, sənətkarlıqla qələmə alırlar. Mən deyərdim ki, düzgün, mötəbər faktların toplanması və zamanın tələbinin vaxtında ictimaiyyətə çatdırılması baxımından jurnalistlərin yaradıcılıq imkanlarının, xüsusən də mövzu dairəsinin genişləndirilməsi və azad sözün təntənəsi üçün geniş meydan yaradılmışdır.

Hamıya məlum olduğu kimi, mətbuatımız böyük inkişaf yolu keçib. Burada zamanın tələbi ilə yeni yaradılmış Junalistlərin Həmrəyli Komitəsinin çox böyük rolu olacağı danılmazdır. Bu qurum mətbuatın inkişafı üçün əlindən gələni edəcək. Mən həmişə demişəm ki, xalq da, dövlət də, hökumət də mətbuata qarşı hər vaxt diqqətli olub. Bir məsələni xüsusilə qeyd etmək istərdim ki, məmurlarımız möhtərəm Prezidentimiz Heydər Əliyevin jurnalistikaya qarşı göstərdiyi qayğısından, dözümlülüyündən nümunə götürsünlər.

***– Mədət müəllim, bu yaxınlarda kütləvi informasiya vasitələrinə kredit verilməsi ilə əlaqədar olaraq respublika Prezidenti sərəncam vermişdir. Sizcə, kredit hansı formada veriləcək?***

– Bəli, ölkə başçısı belə mühüm bir sərəncam imzalamışdır. Bu sərəncam bir daha təsdiqlədi ki, Prezident Heydər Əliyev, doğrudan da jurnalistlərin dostudur. Ancaq, bir qrup adamı şaiyələr yayırlar ki, guya, kredit müəyyən kütləvi informasiya vasitələrinə veriləcək. Bu, tamamilə yanlış fikirdir. Mənim qənaətimə görə kütləvi informasiya

vasitələri yalnız 5 – 10 qəzetdən və 2 – 3 teleşirkətdən ibarət deyil. Ona görə də qətiyyətlə deyirəm ki, kredit mətbuatın hər bir sahəsinə, müvafiq qanun çərçivəsində verilməlidir. İndi baxır, bundan kimlər necə istifadə edəcək. Biz çalışacağıq ki, kreditlər sərəncamda nəzərdə tutulduğu kimi yalnız mətbuatın problemlərinin həllinə və onun inkişaf etdirilməsinə yönəldilsin.

***– Səmimi söhbətə görə sizə və başçılıq etdiyiniz komitəyə uğurlar diləyirik.***

**Müsahibəni apardılar:**
**Vəli HƏSƏNOV, Süleyman SƏMƏDOĞLU**

*“Cəmiyyət” qəzeti, 2 – 31 may 2002- ci il*

# İlham Əliyev Heydər Əliyev siyasi məktəbinin yetirməsi, Azərbaycanın demokratik inkişafının qarantıdır

***Müstəqil respublikamızda kütləvi informasiya vasitələri hüquqi-demokratik dövlət quruculuğunun ən mühüm göstəricilərindən biri kimi formalaşmaqdadır. Bütün inkişaf etmiş, sivil ölkələrdə mətbuat ictimai-siyasi həyatda mühüm rol oynayır. Azərbaycanda da KİV dördüncü hakimiyyət mövqeyi qazanıb.***

Bu gün mətbuatımız ölkəmizdə cərəyan edən ictimai-siyasi proseslərin önündə gedir, ictimai rəyi uğurla formalaşdıra bilir. Cəmiyyətdə mövcud çatışmazlıqları, eybəcərlikləri, məmur özbaşınalıqlarını ictimaiyyətə çatdırmaqda mətbuat təsirli vasitədir. Xalq bu gün mətbuatda gedən məlumatlara artan ehtiyac duyur və ona diqqətlə yanaşır. Bu il ölkəmizdə prezident seçkiləri keçiriləcəkdir.

Mətbuat ictimai rəyi formalaşdırdığından, belə məsul bir dövrdə onun özünün problemlərindən danışmaq üçün professional jurnalistika ilə uzun müddət məşğul olmuş media mütəxəssisinin fikirləri oxucular üçün də maraqlı olardı. Beləliklə, Müsahibimiz tanınmış media təşkilatçısı, şair-jurnalist Mədət Məmmədovdur:

***–Mədət müəllim, bilirsiniz ki, payızda ölkəmizdə prezident seçkiləri keçiriləcəkdir. Bu gün müxtəlif ictimai təşkilatlar və siyasi partiyalar prezidentliyə namizədlər irəli sürürlər. Bu haqda sizin fikirləriniz oxucular üçün maraqlı olardı.***

–Bəli, 2003-cü il Azərbaycan xalqının taleyində həlledici rol oynayan bir tarix olacaq. Ona görə ki, bizi qarşıdan gələn prezident seç-

kisi gözləyir və xalq öz seçimini etməlidir. Çünki bizim bir xalq kimi formalaşmağımızı, müstəqilliyimizi, dövlətçiliyimizi, idarəçiliyimizi və gələcək nəsillərin həyatının yönümü və taleyini müəyyən etmək üçün bu ilki siyasi kampaniyanın çox vacib əhəmiyyəti var. Bunu deyəndə mən prezident seçkilərini nəzərdə tuturam. Məncə, bu günkü siyasi ab-hava, yaranmış sabitlik şəraitində möhtərəm Prezidentimiz Heydər Əliyev cənablarının apardığı daxili və xarici siyasi kursu davam etdirməklə yanaşı, həm də inkişaf etdirməliyik.

Qarşıdan gələn seçkilərlə əlaqədar müxtəlif siyasi partiyalar və seçki blokları öz namizədlərini verirlər. Prezidentliyə əsas namizəd bu gün Azərbaycan Respublikasının Prezidenti olan Heydər Əliyev cənablarıdır. Mən ona görə siyasi sabitlik məsələsini qabardıram ki, bizim üçün belə bir ab-havada indiki siyasi kursun davam etdirilməsi olduqca vacib və önəmlidir.

Bu gün müxtəlif partiyalar öz namizədlərini verməklə yanaşı, indiki iqtidarı və ölkə prezidentinin siyasətini gözdən salmaq istəyirlər. Ancaq birmənalı şəkildə bilməliyik ki, bu gün Heydər Əliyev tərəfindən aparılan siyasət nəinki respublika daxilində, eyni zamanda, dünyada qəbul olunubdur. Azərbaycan son 10 il ərzində nə qədər nailiyyətlər əldə edibdir. Həm daxildə aparılan siyasət, həm də xarici ölkələrlə qurulan əlaqələr nəticəsində qazanılan iqtisadi-sosial uğurlar, xarici investorların ölkəmizə qoyduğu sərmayələr, ən başlıcası isə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin çəkilməsinə imza atılması kimi tarixi bir hadisənin baş tutması respublikamızda yaradılmış sabitlik nəticəsində mümkün olmuşdur. Əldə edilən uğurları sadalamaq uzun olar.

Mənim fikrimcə, 2001-ci ildə keçirilən Dünya Azərbaycanlılarının I Qurultayı XX əsrin başlanğıcında Azərbaycan xalqının tarixində baş verən ən böyük hadisələrdən biri kimi tarixdə qalacaqdır. Belə məsələləri, yəni Prezident Heydər Əliyevin xalqına göstərdiyi misilsiz xidmətləri düzgün qiymətləndirmək, qədirbilənliklə dəyərləndirmək lazımdır. Bu gün biz əsas diqqəti prezident seçkilərində kimə səs verməyə yönəltməliyik. Mənim fikrimcə, Azərbaycanın bu gününü və sabahını qorumaq üçün Heydər Əliyev siyasətini, onun rəhbər kursunu

davam etdirmək lazımdır. Bu, ölkəmizin müstəqilliyini, dövlətçiliyini, bütövlüyünü qorumaq deməkdir.

– ***Mədət müəllim, məsul siyasi kampaniya qarşısında bugünkü ictimai-siyasi vəziyyət, mətbuatın indiki durumu sizi qane edirmi?***

– Bu gün Azərbaycandakı ictimai-siyasi vəziyyət fonunda, mətbuatın durumu, buradakı ab-hava çox mürəkkəbdir. Həm daxili vəziyyət belə gətirib, həm də xaricdə olan, Azərbaycanı gözü götürməyən bəzi xarici qüvvələrin ölkəmizin daxili işlərinə müdaxilə etmək cəhdi də artıb. Ancaq bu gün aparılan müstəqil siyasət onların respublikamızın daxili işlərinə qarışmasına heç bir imkan vermir. Bu da Heydər Əliyev siyasətinin düzgünlüyünün, Azərbaycan xalqının bu kursu dəstəkləməsinin, siyasi çəkisinin, dünya şöhrətli siyasətçi kimi nüfuzunun qəbul olunmasının nəticəsidir.

Mən, təxminən, 22 ilə yaxındır ki, mətbuatda çalışıram və korrektorluqdan bu sahəyə məsul nazirlikdə baş idarə rəisi vəzifəsinə qədər uzun bir yol keçmişəm. Milli Məclisdə KİV haqqında qanunu hazırlayan işçi komissiyanın üzvü olmuşam. Bu gün sevindirici haldır ki, artıq mətbuat cəmiyyətdə informasiya təminatçısı kimi aparıcı rol oynayr, zamanı qabaqlayır, ictimai rəyi formalaşdıra bilir. Vətəndaşlar məmurların özbaşınalıqlarından hüquq-mühafizə orqanlarından əvvəl mətbuata şikayət edirlər. Bu da mətbuatın nüfuzu, cəmiyyətə fəal təsiri deməkdir. Amma mətbuatımızın özüdə problemsiz deyil.

Bu gün ölkədə 23 min adam jurnalist vəsiqəsi daşıyır. Mətbuata təsadüfi soxulan adamların sayı-hesabı yoxdur. Jurnalist vəsiqəsi daşıyanların, təxmini, 3 min nəfəri real jurnalistika ilə məşğul olan və buna layiq adamlardır. Mətbuatın cəmiyyətdə oynadığı rol nə qədər yüksək olsa da, bəzən biz onun özündən qorunmağa çalışırıq. Yalanlar, iftiralar, məsul və tanınmış insanları qəsdən ləkələmək, onlara böhtan atmaq, şərəf və ləyaqəti alçaltmaq halları artıb. Lüzumsuz, məqsədli, sifarişli yazılar bu gün mətbuatda özünə meydan açıb.

Düzdür, senzura ləğv edilib və hər bir vətəndaş ayrıca KİV təsis edə, öz sözünü mətbuatda maneəsiz yaya bilər. Bunun üçün ərizə ilə

müvafiq icra hakimiyyəti orqanına müraciət etmək kifayət edir. Mətbuatın belə bolluğu bizə xeyir gətirdiyi kimi, ziyan da vurur. Təcrübəsiz, səriştəsiz adamların mətbuatda çox olması bəzən xaosa gətirib çıxarır. Belə ki, lider olmağa layiq olan bir adamı mətbuat bəzən elə qələmə verir ki, biz bununla ictimai-siyasi qüvvələri öz ardınca apara biləcək şəxsiyyəti də düzgün tanıya bilmirik.

Sifarişli yazılar yayan KİV bir siyasətçini tərifləyir, o birisini pisləyir. Bir sıra hallarda, ağ yalanlar, qara ləkələr, həddindən artıq təriflər cəmiyyətdə çaşqınlıq yaradır.

– ***Məlumdur ki, seçkilərdə namizədlər arasında siyasi rəqabətlə bərabər, informasiya mübarizəsi də gedir. Siz keçiriləcək prezident seçkilərində KİV-in rolunu necə görürsünüz?***

– Bu gün seçki ərəfəsində olduğumuz üçün KİV bu kampaniyada heç kəsin, heç bir qüvvənin rol oynamadığı qədər əhəmiyyətlidir. Bütün inkişaf etmiş ölkələrdə, cəmiyyətlərdə belədir. Ona dörə də KİV-də təbliğ olunacaq liderimiz xalqa düzgün tanıdılmalıdır. Qərəzli təqdimat cəmiyyətdə çaşqınlıq yaradır. Bu bizim gələcəyimizə, dövlətçiliyimizə, müstəqilliyimizə çox zərər vura bilər. Ona görə də hər bir mətbuat orqanı müstəqil mövqeyi ilə yanaşı, həm də obyektiv olmalıdır. Sifarişli yazılar verilməməli, düşmən dəyirmanına su tökülməməlidir. Çünki, bildiyimiz kimi, bizim 20 faizdən artıq torpaqlarımız işğal olunub, 1 milyondan artıq qaçqınımız var.

Bəzən səriştəsiz jurnalistlər özləri də bilmədən, düzgün olmayan informasiya verərək, yanlış rəy formalaşdırırlar. Ancaq mən inanıram ki, bizim KİV xalqımızın gələcəyini özünün şəxsi mənafeyindən, ambisiyasından üstün tutacaqdır. Əminəm ki, bu belə də olacaq. Hər kəsin daxilində, mənəvi aləmində Azərbaycanı müstəqil, dövlətçiliyi möhkəm olan bir dövlət kimi görmək arzusu olmalıdır. Vətənə məhəbbət hissi puldan, var-dövlətdən, hakimiyyətə hərislikdən üstün tutulmalıdır.

KİV-in rolu prezident seçkilərində çox böyük olacaqdır. Çünki bu siyasi kampaniyada ictimai rəyin formalaşmasından çox şey asılıdır. KİV şayiələrdən uzaq olmalı, fakta əsaslanmalıdır. Ona görə ki, jur-

nalistika faktın əsasında yaşayır və inkişaf edir. Jurnalistika cəmiyyəti qabaqlasa da, inkişaf və tərəqqi etsə də, onun problemləri həddindən artıqdır. Zaman keçdikcə hər şey qaydasına düşəcək, yavaş-yavaş reket jurnalistika da sıxışdırıb aradan çıxarılacaq və onlara qarşı ictimai ittiham da yaranacaqdır.

Dövlətçilik möhkəmləndikcə, qanunların aliliyi təmin olunacaq, ictimai ittiham yarananda isə insanların şərəf və ləyaqətinə toxunmaq çox çətin olacaq. Mən təəssüf edirəm ki, bu gün bir neçə redaktor həbs olunub, bəziləri məsuliyyətə cəlb olunub, digər cinayət əməlləri törədənlər də var. Bu bizim üçün sevindirici hal deyil. KİV-də işləyənlər bilməlidir ki, onlar qərəzçilikdən uzaq olmalıdırlar. Bu gün ölkəmiz böyük inam və əqidə ilə prezident seçkilərinə hazırlaşır. Bu kampaniyada fəal və obyektiv olacaq mətbuatımıza uğurlar diləyirəm.

***–Bu günlərdə Prezident Heydər Əliyevin anadan olmasının 80 illiyi qeyd olundu. Mətbuatda bu hadisəyə fərqli münasibət göstərdilər. Sizin bu barədə fikriniz necədir ?***

–İnsan həyatında əlamətdar, xüsusi qeyd olunan günlərdən biri də yubiley tədbiridir. 80 illik yubiley xüsusilə seçilməlidir. Bu vaxtadək möhtərəm Perzidentimiz Heydər Əliyev neçə-neçə sənət, əmək adamlarının, incəsənət və mədəniyyət xadimlərinin yubileyinin keçirilməsi barədə sərəncamlar imzalayıbdır. Bunların içərisində unudulmuş, yaddan çıxmış insanlar da var. Bəziləri deyirlər ki, Heydər Əliyevin yubileyi dövlət səviyyəsində keçirilməlidir. Çünki, bu dahi insan ömrünün 80 ilinin 60 ildən çoxunu öz ölkəsinin çiçəklənməsinə, inkişafına, dünyada tanınmasına, Azərbaycanın dövlətçiliyinin, müstəqilliyinin qorunmasına həsr etmişdir və biz bunu dəyərləndirməliyik. Əgər Heydər Əliyev çoxlarının yubileyinin keçirilməsində şəxsən iştirak edirsə, niyə onun özü barədə belə qısqanclıq yarandığını anlaya bilmirəm. Mən bir mətbuat adamı kimi, cəmiyyətdə öz sözü olan bir şəxs kimi birmənalı şəkildə deyirəm ki, bu yubiley dövlət səviyyəsində keçirilməlidir. Bu gün ölkə prezidentinin səhhətində problem yaranıb və düşmənlərin, bədxahların bundan sevinməməsi üçün biz bu yubileyi mütləq qeyd etməliyik.

***– Bilirsiniz ki, mətbuat orqanlarına ayrılmış güzəştli kreditləri qəzetlərin yalnız bir qismi ala bildi. Sizcə, milli mətbuatımızın inkişafı üçün ona dövlət qayğısı göstərilməlidirmi?***

– Bəli, kreditləri mətbuat orqanlanrının çoxu ala bilməyib. Bu gün mətbuat orqanlarının çoxu, əsl mənada müstəqil deyillər. Mətbuata qayğı o demək deyil ki, hansısa bir siyasi qurumun maliyyə dəstəyi ilə işıq üzü görən qəzetlər də kredit almalıdır. Prezidentin KİV– in borclarının dondurulması haqqında imzaladığı sənəd kredit qədər vacib olan tarixi bir hadisədir. Ölüm hökmünün ləğvinə bərabər olan KİV-dən senzuranın götürülməsi Heydər Əliyevin ölkəyə rəhbərliyi zamanında olub.

Bu gün ölkədə söz azadlığı təmin olunub, qəzetlər sərbəst çıxır, hamı öz sözünü müstəqil şəkildə deyə bilir. Hər bir şəxs barəsində, hətta prezident haqqında kəskin yazılar dərc edilir. Prezident buna söz, mətbuat azadlığı kimi baxdığı halda, bəzi məmurlar dözümsüzlük göstərirlər. Onlar haqqında adi bir yazı yazılan kimi, hay-haray salırlar. Əslində, onlar Heydər Əliyevdən nümunə götürsələr daha yaxşı olardı. Prezident tənqidə təmkinlə yanaşır. Bu, Heydər Əliyevin siyasi uzaqgörənliyi, dözümlülüyü, hadisələrə demokratikcəsinə yanaşma tərzidir. O, siyasi çəkisini qorumağı bacaran dünya şöhrətli siyasətçidir.

***– Bu gün mətbuatda müəyyən mənada xaos, qarışıqlıq yaranmışdır. Sizcə, bu vəziyyəti yeni yaranmış Mətbuat Şurası tənzimləyə biləcəkmi?***

– Bu təbii prosesdir. Mən bu barədə hələ bir söz deyə bilmərəm. Çünki təzə yaranmış qurumdur. Yəqin ki, yeni yaranmış Mətbuat Şurası bu xaosun öhdəsindən gələcək, böyük bir tənzimləmə aparacaqdır. Mətbuatla cəmiyyət və hakimiyyət arasında yaranmış problemləri bu qurum həll etməyə çalışır. Mən Mətbuat Şurasının üzvlərini yaxşı tanıyıram, onlar mətbuatda xüsusi yeri və öz sözləri olan insanlardır. Mən arzu edirəm ki, onların mətbuatda öz sözləri olduğu kimi işlərində də uğur qazansınlar. Yəni yaxşı jurnalist olduqları kimi, Mətbuat Şurasını da layiqincə idarə edərək, yaranmış problemləri həll edə bilsinlər.

Azərbaycanda söz, mətbuat azadlığı haqqında qanunlar qəbul olunub. KİV-ə dövlət qayğısı haqqında bir çox sərəncamlar verilib. Milli Teleradio və Mətbuat Şuralarının yaradılması mətbuatımız üçün böyük hadisədir. Bu şuralar tam fəaliyyətə başlayanda reket jurnalistikasından və digər neqativ hallardan məhkəməyə qədər şikayət edilməli orqanlar olacaqdır. Bu qurumların nüfuzu isə onun üzvlərinin fəallığından və cəmiyyətdə tutduqları mövqedən asılı olacaqdır.

***– Sizin uzun müddət mətbuat sahəsində yüksək rəhbər vəzifədə işləmiş bir peşəkar jurnalist kimi reket jurnalistikasına münasibətinizi və ondan yaxa qurtarmaq yolları barədə fikirlərinizi bilmək istərdik.***

– Bu bizim ağrılı yerimizdir. Mən məsul vəzifədə işləyərkən vəzifə borcum olaraq bu cür neqativ hallara qarşı mübarizə aparmışam, bəzən təzyiqlər, haqsızlıqlar və tənqidlərlə də üzləşmişəm. Mənim fikrimcə, reket jurnalistikasını cəmiyyət özü qəbul etməlidir. Yəni reketçiliyə qoşulanlar artıq jurnalist deyillər. Ona görə də həmişə onlara qarşı mübarizə aparmışam və bu işi davam etdirəcəyəm. Mən bu mübarizəmi sözdə yox, işdə aparmışam. Jurnalistikada olanlar bilirlər ki, KİV Baş İdarəsinin rəisi kimi məsul bir vəzifədə işləyərkən mətbuatın inkişafı üçün əlimdən gələni etmişəm. Mən çalışmışam ki, hər şey qanunla həll olunsun və ümumiyyətlə, Azərbaycanda reket jurnalistikası olmasın.

Bəzən birmənalı fikir formalaşdırırlar ki, jurnalist hamı haqqında nəsə istəsə yaza bilər, amma onun barəsində heç bir şey demək olmaz. Bu ona gətirib çıxartdı ki, artıq reket jurnalistlər həbs olunurlar. “525-ci qəzet”, “Şərq” qəzeti və başqa qəzetlərdə birmənalı şəkildə reket jurnalistikasına qarşı mübarizəyə qalxdılar, onları müdafiə edənləri tənqid etdilər. Bunların içərisində bizim də səsimiz var və bu mübarizəni sonadək davam etdirəcəyik.

***– Mədət müəllim, göründüyü kimi, jurnalist həmrəyliyi mətbuat və cəmiyyət üçün çox vacib məsələdir.***

– Mən həmişə mətbuatda münasibətlərin jurnalist həmrəyliyi səviyyəsində olmasını istəmişəm. Ona görə ki, insanlar, fikirlər həmrəy

deyilsə, o yerdə inkişaf, tərəqqi də yoxdur. Bu gün mən Heydər Əliyevin bu yöndə siyasətini qəbul edir və dəstəkləyirəm, eyni zamanda, əqidəsindən asılı olmayaraq hər kəsin yaxşı fikirləri ilə həmrəyəm. Baxışlar müxtəlif olsa da, ümumi həmrəylik olmalıdır. Biz bilməliyik ki, hara və kimin ardınca gedirik. Biz birmənalı şəkildə ideyalarımızı seçmişik və bu yolda da mübarizə aparacağıq.

***– Mətbuatı indiki nöqsanlardan qurtarmaq üçün sizin konkret təklifiniz varmı?***

– Mənim fikrimcə, konkret təkliflərin zamana ehtiyacı var. İnsanlar kiminsə yox, qanunların qarşısında cavab verməlidir. Gözəl bir söz var: şah qanun deyil, qanun şahdır. Nə vaxt insanlar qanunların tələblərini dərk edəcəklər onda məsuliyyət hissi ilə yaşayacaqlar. Onda bu problemlər də aradan çıxacaq. Sivil, demokratik bir cəmiyyətdə qanunların aliliyi təmin olunanda mətbuat özü çətin vəziyyətdən çıxacaq. Yoxsa, heç kim onu bu durumdan qurtarmaq üçün yardım etməyəcək. Qanunla tənzimləmə olduqda mətbuat özü zaman keçdikcə inkişaf və tərəqqi edəcək.

***– Mədət müəllim, yeri gəlmişkən, yeni meydana atılan siyasətçilər barədə nə deyərdiniz?***

– Həyat inkişaf edir. Demokratik cəmiyyətdə yeni gənc siyasətçilərin yetişməsi zamanın tələbidir. Bundan qaçmaq olmaz. Azərbaycanın gələcək taleyi bu vacib amillərədn çox asılıdır. Azərbaycan ictimaiyyətində yeni siyasətçilər və siyasi liderlər yetişir. Bu gənc liderlərin içərisində artıq dünya miqyasında tanınan və nüfuz sahibi olan İlham Əliyev daha çox seçilir. Fikrimcə, Heydər Əliyev kimi dünya şöhrətli siyasətçinin idarəetmə məktəbini keçmiş bu gənc siyasi lider, yəqin ki, növbəti prezident seçkilərində iştirak edəcək. Gənc lider İlham Əliyev Heydər Əliyev siyasi məktəbinin yetirməsidir. Bu gün hər bir seçici müstəqildir. Biri İlham Əliyevin, digəri bir başqasının liderliyini qəbul edir.

Demokratik bir cəmiyyətdə plüralizm, fikir ayrılığı, müxtəlif rəylər olmalıdır. Azərbaycanı gələcəkdə kimin daha çox tanıda biləcəyini, potensial imkanı yüksək olan liderin kimliyini gənc nəsillər indidən

ayırd etməlidir. Ona görə də mən sizin qəzetin vasitəsilə demokratik cəmiyyət quran Azərbaycan xalqına, xüsusən də gənc nəslə müraciət edərək bildirirəm ki, bir seçkilərdə seçimimizi düzgün etməliyik. Bu günkü Azərbaycanı sabaha düzgün yolla aparmaq üçün Heydər Əliyevin siyasi kursunu davam etdirməyi mən dövlətçiliyimizin, müstəqilliyimizin qarantı kimi qəbul edirəm. İlham Əliyev də məhz belə bir siyasi məktəbin yetirməsidir və bu kursu o, müvəffəqiyyətlə davam etdirə bilər.

***– Mədət müəllim, müsahibəyə görə dərin təşəkkürümüzü bildiririk.***

**Müsahibəni apardı: Rəhim MƏNSİMOV**

*"Xronika" qəzeti, 12 iyun 2003-cü il*

# İlham Əliyev Azərbaycan cəmiyyətində milli birliyin təminatçısıdır

***Müsahibimiz "Azərbaycan Jurnalistlərinin Həmrəyliyi Komitəsi" İctimai Birliyinin sədri, tanınmış jurnalist, "Qızıl Qələm" və "Həsən bəy Zərdabi" media mükafatlarının laureatı Mədət Məmmədovdur:***

***– Mədət müəllim, qarşıdan növbədənkənar prezident seçkiləri gəlir. Sizin fikrinizcə, namizədlərin hansı daha çox president olmağa layiqdir?***

– Mövcud tarixi-siyasi, coğrafi şəraitdən, siyasi sistemin xüsusiyyətindən asılı olaraq, liderlik fenomeni milli dövlətin formalaşmasında və inkişafında həlledici rola malikdir. Bu bir həqiqətdir ki, bu gün Azərbaycanın müstəqil dövlət kimi mövcudluğu, stabil və inamlı inkişafı liderlik amili ilə birbaşa bağlıdır. Lider öz ağlı, iradəsi, qərar qəbul etmək səriştəsi, insanlara doğru yolu göstərmək bacarığı ilə xalqı vahid amal uğrunda səfərbər edən və arxasınca aparabilən şəxsdir.

Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi 2003-cü ildən bu vaxtadək olan müddət Azərbaycan tarixinə hərtərəfli və sürətli inkişaf dövrü kimi daxil olub. Şübhəsiz, sosial-siyasi sabitliyin qorunmasının, mövcud iqtisadi inkişafın, hərtərəfli tərəqqinin təməlində ümummilli lider Heydər Əliyevin siyasi kursu, inkişaf strategiyası, onun müəyyənləşdirdiyi daxili və xarici siyasət xətti dayanır. O da həqiqətdir ki, ulu öndərin əsasını qoyduğu daxili və xarici siyasət kursunun uğurla davam etdirilməsi sayəsində Azərbaycan bugünkü yüksəlişə və inkişafa nail olub.

Gənc dövlətin əsaslarının möhkəmliyi və həyata keçirilən strategiyanın səmərəliliyi məhz Prezident İlham Əliyevin liderlik keyfiyyətləri, zəkası, siyasi iradəsi və uzaqgörənliyi, ümumilikdə, rasional davranış modeli sayəsində mümkün olub. Prezident İlham Əliyev şəxsiyyəti modern cəmiyyətdə lider obrazının ən mühüm cəhətlərini özündə birləşdirir. Bütün bunları nəzərə alaraq, mən prezidentliyə namizəd İlham Əliyevin namizədliyini dəstəkləyəcəyəm.

***– Prezidentliyə namizəd İlham Əliyevin indiyəqədərki fəaliyyətində sizi daha çox qane edən nədir?***

– Tarixin bu kəsimində daha çox səslənən prezidentimizin siyasi uğurunun bir səbəbini də, "Rəhbər – Xalq" vəhdətinin qorunub saxlanmasında görürəm. Bu həqiqətən belədir. Əhalimizin sosial vəziyyəti, onun ehtiyaclarının get-gedə daha yaxşı ödənilməsi, aztəminatlı ailələrlə bağlı qəbul edilən qərarlar, onlara edilən yardımların artırılması, qaçqın və məcburi köçkünlərlə əlaqəli görülən işlərin əksəriyyəti cənab İlham Əliyevin gündəlik fəaliyyətində diqqətdə saxladığı bir məsələdir.

Fikir verin, əhalinin idarə və təşkilatlardan sənəd, arayış almaq, gediş-gəlişlərinin sayını azaltmaq, onları izafi xərclərdən xilas etmək, bəzi süründürməçiliklərin və narazılıqların qarşısını almaq üçün ASAN xidmət mərkəzləri şəbəkəsini yaratdı, prezidentimizin bu addım əhalini illərlə narahat edən bir çox problemləri bir an içində asanlaşdırdı. Eləcə də yeni iş yerlərinin yaradılması, əhalinin nəqliyyat, təhlükəsiz ərzaq, səhiyyə, təhsil və s. sahələrdə olan problemlərinin həlli istiqamətində atılan son addımlar ölkəmizdə ictimai-siyasi və iqtisadi, sosial sahələrdə sabitliyin daha da artmasına təkan verdi.

***– Ölkəmizdə sosial-iqtisadi və siyasi islahatlara eytiyac vardır. Bu islahatları həyata keçirmək üçün daxildə daha çox hansı zümrələrdən yeni müddətə seçiləcək prezidentə dəstək olmalıdır?***

– Əsas gənclərdən, ziyalı ordusundan və sadə insanlardan. Hər bir oxumuş adam, ağı qaradan seçən şəxs zamanın bizim qarşımıza qoyduğu vəzifələrin nədən ibarət olduğunu anlamalı, Vətənimizin, döv-

lətimizin, xalqımızın əsas istək və arzularının mahiyyətini duymalıdır. Əsas da odur ki, ölkəmizdə ictimai asayiş daha möhkəm qorunsun, kriminogen durumun səviyyəsi aşağı düşsün. Azərbaycan dünyanın yaşayış üçün ən təhlükəsiz ölkələrindən biridir. Gələcək illərdə də ölkəmizin daha demokratik şəkildə inkişafı ilə bağlı yeni addımlar atılmalı, siyasi islahatlar davam etdirilməlidir.

Biz ziyalılar da çalışmalıyıq ki, Azərbaycan dünyanın demokratik baxımdan ən inkişaf etmiş ölkələrinin yolu ilə getsin. Biz çalışmalıyıq ki, ölkəmizdə bütün azadlıqlar: söz, mətbuat, sərbəst toplaşma azadlığı tam təmin edilsin. Azərbaycanda vicdan azadlığı təmin edilib. Bundan sonra da Azərbaycanın çoxkonfessiyalı, çoxmillətli ölkə kimi uğurla inkişafına böyük ümidlərimiz var. Ölkəmizdə bütün xalqların, bütün dinlərin nümayəndələrinin bir ailə kimi yaşaması xalqımızın dünya birlikləri qarşısında böyük uğurudur.

Ölkəmizin uğurlu inkişafı üçün vətəndaş həmrəyliyi, vətəndaş sülhü daim qorunub saxlanılmalı, Azərbaycanda heç vaxt milli və ya dini zəmində heç bir qarşıdurma, anlaşılmazlıq olmaması üçün xalqımız tərəfindən indiki Prezidentin yeritdiyi siyasət tam şəkildə dəstəklənməlidir. Azərbaycanda yaşayan bütün xalqların, bütün dinlərin nümayəndələri dəyərli vətəndaşlar kimi Azərbaycanda yaşamalı, öz işi, əməyi ilə ümumi inkişafımıza böyük töhfələr verməlidir.

Bizim Prezidentimiz var və o, özünü siyasi lider kimi ötən 15 ildə təsdiq edib. Biz də qəlbən, ağılla onu yenə dəstəkləməliyik. Xalqın lideri prezident İlham Əliyev isə öz fəaliyyəti ilə Heydər Əliyev ideyalarının layiqli davamçısı olduğunu göstərməklə yanaşı, innovasiyalara tez uyğunlaşmaq bacarığı, dəyişən qlobal və regional reallıqlar şəraitində ölkənin stabil milli maraqlarını qoruya bilmək qabiliyyəti ilə özünün əsl siyasi lider olduğunu isbatlayıb.

***– Prezident İlham Əliyevin yeritdiyi xarici siyasəti necə qiymətləndirirsiniz?***

– Dövlət başçısı kimi İlham Əliyevin həyata keçirdiyi xarici siyasət regionda cərəyan edən siyasi, iqtisadi proseslərin axarına həlledici təsir

göstərir. Məhz dövlət başçısının liderlik keyfiyyətləri əsasında bu gün Azərbaycan beynəlxalq aləmdə nüfuz sahibinə çevrilib. Azərbaycanın rolu artaraq təkcə regional səviyyədə deyil, regionlararası inteqrasiya proseslərində də öz sözünü deyən mühüm faktora çevrilib. Azərbaycan Avropa ilə Asiya qitələrini təkcə coğrafi baxımdan deyil, həm də siyasi, iqtisadi, mədəni nöqteyi-nəzərdən birləşdirən regional güc mərkəzidir.

Dünyanın bəzi ölkələri, o cümlədən də Avropa son vaxtlar bizə arada bir tənqidlə yanaşmağa cəhd edir. Bizim, ümumiyyətlə, dünyada tanınmağımızı, 155 ölkənin bizim namizədliyimizi BMT Təhlükəsizlik Şurasına üzv kimi dəstəkləməsini, beynəlxalq hüquqa və ədalətə əsaslanan müstəqil siyasət yürütməyimizi sevməyən dövlətlər var. Bu isə, ilk növbədə, Azərbaycanın gücünü, qüdrətini göstərir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, ölkəmiz böyük regional amilə çevrilib: "Bu gün Azərbaycan öz gücünə arxayın olan, öz gücünə arxalanan, bütün tərəfdaşlar ilə münasibətləri qarşılıqlı hörmət və ehtiram prinsipləri əsasında qurmağa çalışan, dinamik inkişaf edən gənc və eyni zamanda, təcrübəli ölkədir. Azərbaycan artıq böyük bir regional amildir. Sabitlik, təhlükəsizlik və inkişaf amilidir".

Əlbəttə ki, Azərbaycan həqiqətlərinin yayılmasında, dövlətimizin beynəlxalq imicinin artmasında ölkəmizdə keçirilən nüfuzlu beynəlxalq tədbirlərin də rolu böyükdür. Humanitar, mədəniyyət və digər sahələrdə keçirilən tədbirlər, ənənə halını alan Qəbələ Musiqi Festivalı, Beynəlxalq Muğam müsabiqəsi böyük maraqla qarşılanır. 2011-ci ildə isə "Avroviziya" mahnı müsabiqəsindəki qələbəsi ilə dünyanın diqqətini özünə yönəldən Azərbaycan milli mədəniyyətini daha geniş səviyyədə təbliğ edə bildi. Bakıda keçirilən " Avroviziya-2012" müsabiqəsi özünün möhtəşəmliyi ilə müsabiqənin tarixinə daxil olub. Müsabiqənin ən yüksək səviyyədə təşkili dünyaya göstərdi ki, Azərbaycan öz milli ənənələrinə, mədəniyyətinə sahib çıxmaqla bərabər, Qərb mədəniyyətinə də sürətlə inteqrasiya edir.

***– Bizim bugün ən böyük problemimiz Qarabağın işğalıdır. Sizcə, yeni seçiləcək prezident bu sahədə hansı addımları atmalıdır?***

– Beynəlxalq təşkilatlar çərçivəsində Prezidentimizin siyasəti istiqamətində fəaliyyəti uğurla davam etdirilməli, daha çox etibarlı dostlar qazanılmalıdır. Bütün mötəbər beynəlxalq təşkilatlar Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bizim mövqeyimizi dəstəkləyir. BMT, ATƏT, Avropa Şurası, Avropa Parlamenti, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı – bütün bu aparıcı təşkilatlar münaqişə ilə bağlı bizim mövqeyimizi dəstəkləyən qətnamələr, qərarlar qəbul etmişlər.

Prezident İlham Əliyevin dediyi kimi: "Beləliklə, münaqişənin həlli üçün siyasi əsaslar da qoyulub. Hüquqi əsaslar onsuz da var. Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Heç bir ölkə bu qondarma qurumu tanımayıb və əminəm ki, heç vaxt da tanımayacaq. Tarixi əsaslar da bizim mövqeyimizi gücləndirir. Çünki Dağlıq Qarabağ bizim əzəli, tarixi torpağımızdır". Azərbaycan hücum diplomatiyasını bundan sonra daha da gücləndirməli, bütün istiqamətlər üzrə Ermənistanı küncə sıxışdırmalı və təcrid siyasətini davam etdirməlidir.

Yenidən prezidentliyə namizədliyini vermiş İlham Heydər oğlu Əliyevin son müraciəti yeni ümidlərimizə səbəb oldu ki, biz Ermənistan adlı dövlətdən tarixi İrəvan mahalını da tələb edəcəyik. Bizim buna tam haqqımız var. Deməli dövlətimizin başçısı yeni siyasi rəhbərlik dönəminə güclü xalq, güclü siyasət və Güclü Böyük Azərbaycanla gəlir. Biz bu niyyətə tam inanırıq və Prezident İlham Əliyevin yeni prezidentlik məqamında yeni-yeni tarixi Qələbələrinə hazırıq!

***– Maraqlı fikirlərinizə görə təşəkkür edirəm.***

**Müsahibəni apardı: Bilman ALLAHVERDİYEV**

*"Azad Azərbaycan" qəzeti, 30 mart 2018-ci il*

# Jurnalist Vətənini, vətəndaşını gözdən salacaq işlər görməməlidir

## Mətbuat ölkənin milli ideologiyasını hərəkətə gətirən onurğa sütunudur

*“Olaylar” qəzeti tanınmış jurnalist, “Azərbaycan Jurnalistlərinin Həmrəyliyi” İctimai Birliyinin sədri, şair-publisist Mədət Məmmədovla müsahibəni təqdim edir.*

***– Mədət müəllim, bu yaxınlarda 60 illik yubileyinizi qeyd etdiniz. Ötən illər ərzindəki jurnalistika fəaliyyətinizi necə dəyərləndirirsiz?***

– Mənim üçün jurnalistika hava və su kimidir. Çünki ömrümün 40 ilindən çoxunu bu sənətə sərf etmişəm. Müstəqil mətbuat yaranında 10 il Mətbuat və İnformasiya Nazirliyi kütləvi iformasiya vasitələri baş idarəsinin rəhbəri olmuşam. Bütün çətinliklərə rəğmən, çağdaş müstəqil mətbuatımızı yaratmağı bacarmışıq. Fəxr edirəm ki, media qurumu rəhbəri olduğum illər müstəqil Azərbaycanın banisi Heydər Əliyevin hakimiyyəti dövrünə təsadüf edir. Həmin illərdə dövlətimizin müstəqilliyini qəbul etmək istəməyən qüvvələr var idi. O zaman mən ümummilli liderin sadiq bir əsgəri kimi müstəqil mətbuatın yaradılmasında müstəsna rol oynadım.

60 illik yubileyimlə bağlı keçirilən toplantıda da dostlarım bu nüansları qeyd etdilər. Həmkarlarımın dediyi kimi, mən o illərdə öz müstəqilliyimiz uğrunda necə mübarizə aparmışdımsa, bu gün də həmin əzmlə mübarizəmi davam etdirirəm. Mənim üçün jurnalistika elə bir sahədir ki, orada yalnız dürüst, qərəzsiz, vicdanlı və vətənpərvər insanlar yer almalıdır. Mətbuat ölkənin milli ideologiyasının toplandığı onurğa sütunudur. Və həmin dövrdə bu onurğa sütununun qorunması bizə-MİN KİV idarəsinə əmanət etmişdilər. Fəxr edirəm ki, o

zaman qərəzli və düşmən ünsürlər məni milli ideologiyamızdan, öz əqidəmdən döndərə bilməyib.

Zaman gəldi, uzun müddət keçdikdən sonra dostlarım, bütün jurnalistika aləmi mənə layiq olduğum dəyəri verdilər. İnsan özünə qarşı layiqli dəyəri hiss etdikcə, məsuliyyəti daha da artır. 60 yaşı tamamlayandan sonra isə özümə qarşı tələblərimi daha da artırdım.

Mətbuat Şurasının sədri Əflatun Amaşov anadan olmağımın 60 illiyi münasibətilə mərasimdə qeyd etdi: "Mədət müəllim mətbu sözün ictimai mahiyyətinə daim sadiq qalıb, müstəqilliyin ilk illərində azad media quruculuğunda fəal iştirak edib".

Milli jurnalistikamızın çətin vaxtlarında ən böyük qələbəmiz 1998-ci ilin 6 avqustunda oldu. Prezident Heydər Əliyev "Azərbaycan Respublikasında söz, fikir və mətbuat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" fərman imzaladı. Azərbaycan mətbuatı üzərindən senzuranın götürülməsi bir inqilab idi. Ondan sonra mətbuatımız daha sürətli və səmərəli inkişaf etməyə başladı. İnkişafın bu günündə Azərbaycan jurnalistikası qlobal məsələlərə münasibət bildirən ən fəal vasitəyə çevirilib. Ancaq dövrdən asılı olmayaraq jurnalist, yaxud hansısa bir peşənin sahibi olmaq, hər şeydən əvvəl vətənpərvər olmaq deməkdir. Öz vətənpərvərliyimlə qürur duyuram. Çünki məhz bu səbəbdən heç kim məni əqidəmdən döndərə bilməyib.

Bu gün əsası ümummilli lider tərəfindən qoyulan və Prezident İlham Əliyev tərəfindən davam etdirilən məqsədyönlü dövlət media siyasəti mətbuatımızı da inkişaf etdirir. Cənab Prezidentin mətbuatı "4-cü hakimiyyət" deyil, "2-ci hakimiyyət" adlandırması, həqiqətən də, jurnalistlərin üzərinə çox böyük məsuliyyət qoyur. Bu gün düşmənlərimizə qarşı informasiya mübarizəsində jurnalistlərin üzərinə böyük iş düşür. Jurnalistika çox strateji bir sahədir. "Sapı özümüzdən olan baltalar"a qarşı bu strateji sahənin önəmi böyükdür.

Ölkədə xaos yaratmaq istəyən daxili və xarici qüvvələrə qarşı dövlətçilik mövqeyində ardıcıl, kəskin mübarizə aparmaq lazımdır. Hansısa yaramaz, şərəfsiz məmura görə Vətən sevgisindən dönmək

olmaz. Bu günkü jurnalistika ilə fəxr edirəm. Reket jurnalistikaya qarşı isə hər zaman ön cəbhədə dayanmışam. Bu cür yağmaçı, araqarışdıran jurnalistlərdən müstəqil mətbuatımızı qorumaq bizim üçün prioritet məsələdir. Çünki onlar bizim vətəndaşımızı gözdən salmaq, düşmən dəyirmanına su tökməklə məşğuldurlar. Biz belə insanların mediamızda at oynatmasına bundan sonra da imkan verməyəcəyik.

60 yaşın tamamında keçirdiyim duyğu-düşüncələrə aşağıdakı misralar poetik güzgü tutur:

*Tanrıya duam var, millətim üçün,*
*Allaha əmanət, Allahdan Kərim.*
*Vətəni, torpağı, Azərbaycanı*
*Məndən çox sevənlər, mənim and yerim.*

Həqiqətən də, Azərbaycanı məndən çox sevənlər mənim məslək andı yerimdir.

***– Müstəqil mətbuat yarandığı ilk vaxtlarda hansı çətinliklərlə üzləşirdiniz?***

– Müstəqil mətbuat yarananda çətinliklər çox idi. Biz hər hansı mətbu orqan yaranmamışdan qabaq onu yoxlayırdıq ki, dövlətə və dövlətçiliyə zərər vurmasın. Çünki ötən dövrdə də təsir altına düşən jurnalistlər mövcud idi. Ölkəmizi məhv etmək, təsiri altına salmaq istəyən daxili və xarici qüvvələr var gücü ilə çalışırdı. Lakin Prezident Heydər Əliyevin mükəmməl dövlətçilik siyasəti sayəsində bu mübarizədən üzü ağ çıxdıq. Ümummili lider mətbuata böyük önəm verirdi. O, mətbuata söykənən və özü də mediaya arxa olan bir rəhbər idi.

Təsadüfü deyil ki, dövlət başçısı Heydər Əliyev “Jurnalistlərin dostu” mükafatını almışdı. Bu gün də onun ideyaları davam edir. Amma ötən dövr jurnalistikası ilə bugünkü medianı müqayisə etmək mümkün deyil. Biz azad, demokratik mətbuatı yeni-yeni yaradan fədailər idik. Bu gün isə jurnalistika daha da inkişaf edib. İlk olaraq, onu deyə bilərik ki, şərti olaraq “sosial media” adlandırılan kütləvi ünsiyyət vasitəsi öz inkişafının zirvəsinə çatıb.

Lakin bugünki jurnalistikada mütaliə azlığını hiss edirik. Arzu edərdik ki, jurnalistlər daha çox oxuyub-öyrənsinlər. Məşğul olduqları, üz tutduqları sahəni düzgün mənimsəsinlər ki, bugün biz informasiya mübarizəsində uduzmayaq. Çünki düşmən ünsürlərin milli mediadan bizə qarşı istifadə etməsinə imkan verməməliyik. Qara yaxmalar ötən dövr mətbuatında da mövcud idi, bu gün də var. Bunlara qarşı mübarizə aparmaq üçün ölkə Prezidenti İlham Əliyevin apardığı müstəqil dövlətçilik siyasəti ətrafında sıx birləşməliyik.

***–Mədət müəllim, xatırladığınız dövrlə mətbuatla bağlı hansı hadisə hələ də yaddaşınızda qalıb?***

– Ötən dövr mətbuatında bizə ən böyük zərbə vura biləcək vasitələr yeni yaradılan televiziya şirkətləri idi. Biz bilmirdik ki, bu televiziya kanalları kimə və necə xidmət edir. Onu qeyd edim ki, həyatımda ən çətin məqamlardan biri "Sara" televiziyasının bağlanması idi. Biz bütün faktları araşdırdıq və əmin olduq ki, bu televiziya dövlət müstəqilliyimiz üçün təhlükə mənbəyidir. Və onun fəaliyyətinə qanuni vasitələrlə son qoydurduq.

***– Qeyd etdiniz ki, "sosial media" öz inkişaf zirvəsinə çatıb. Sizcə, bu fərdi ünsiyyət vasitəsilə ötürülən informasiyalar nə dərəcədə etibarlı və gərəklidir?***

–"Sosial media"da məlumat yayanların "senzura"sı onların öz vicdanı olmalıdır. Düşünürəm ki, bu məkanda dezinformasiya yayanlara qarşı qanunlar sərtləşdirilməli, onların yanlış əməllərinə heç bir güzəşt olunmamalıdır.

***–Dövr keçdikcə insanların mediadan istəkləri, ondan tələbləri də dəyişir. Ötən dövr oxucuları ilə bugünki oxucuları necə xarakterizə edərdiniz?***

–Ötən dövrdə insanlar mediaya daha çox güvənirdilər. Yazılanlara, araşdırmalara qeydsiz-şərtsiz inanırdılar. Bu gün isə dezinformasiya, yalan, qərəz yayanlar heç də az deyil. Lakin jurnalist bilməlidir ki, onun ən böyük sensurazı öz vicdanıdır. Nəinki jurnalist, hər bir sahənin əməkdaşı Vətənini, vətəndaşını gözdən salacaq işlər görməməlidir.

***–Mədət müəllim, sizin fəaliyyətinizin böyük bir qismi çap mediası dövrünə düşür. Bu gün isə çap mediasının taleyi təhlükə altındadır. Sizcə, medianın bu sahəsini necə xilas edə bilərik?***

– 40 illik jurnalist təcrübəmə dayanaraq deyirəm ki, çap mediasına üstünlük verirəm. Çap mediasının xilası, ilk növbədə, oradakı kollektivdən asılıdır. Oxucuda marağı məhz peşəkar heyət yaratmalıdır. Bilirsiniz, insanların çap mediasına marağının azalmasının bir səbəbi də vaxt azlığıdır. Zaman sürətlə keçir və oxucu vaxt itirmədən informasiyanı da tez əldə etmək istəyir. Amma bu o demək deyil ki, biz çap mediasından imtina etməli və informasiyanı yalnız online medianın ixtiyarına verməliyik. Xeyr, arzu edirəm ki, çap mediası və online media paralel olaraq inkişaf etsin.

***–Mətbuatımızda hansı mövzulara daha çox yer ayrılmasına ehtiyac duyursunuz?***

–Bugünki mətbuatda tarixi və vətənpərvərlik mövzularının əksikliyini hiss edirəm. Bundan əlavə, əhalinin sosial problemlərinin həll olunması istiqamətində analitik yazıların çox olmasının tərəfdarıyam. İnsanlar sosial mövzulara meyl edirlər, çünki problemlərinin həlli yolunu axtarırlar. Yüngül mövzulara toxunmaqla çap mediasını ayaqüstə saxlamaq mümkün olmayacaq. Ən böyük təmənnam odur ki, istənilən media informasiya yayarkən yalnız faktlara söykənsin. Necə deyərlər "papağımı cənab faktın qarşısında çıxarıram".

***–Siz medianın 40 il əvvəlini də görmüsüz, bu gününü də. Bəs 10 il sonra Azərbaycan mediasını necə təsəvvür edirsiniz?***

–Zaman keçdikcə medianın daha çox inkişaf edəcəyini gözləyirəm. Əminəm ki, bizim sivil, gənc jurnalistika ordumuz ötən dövr mətbuatı fədailərinin yolunu davam etdirəcək. Azərbaycan jurnalistikasının gələcəyini daha müasir, daha parlaq düşünürəm. Lakin nə qədər illər keçməsindən asılı olmayaraq vətənpərvərlik mövzuları hər zaman gündəmdə saxlanılmalıdır. Çünki vətənpərvərlik ideyaları bizim öncəliyimizdir:

*Əsrlərin arxasından*
*Dalğalanır bayrağım.*
*O mənim öyrəndiyim*
*Mübarizlik dərsidir.*
*Tutalğacı -*
*Babəkimin kəsilən qolları,*
*Parçası da*
*Nəsiminin soyulan dərisidir.*

**Müsahibəni apardı: Nigar ORUCOVA**

*"Olaylar" qəzeti, 5 mart 2019-cu il*

# Böyük siyasətin 50 ilinin mətbuata düşən işığı

## Ulu öndər Heydər Əliyev milli mediamızı demokratiya yoluna çıxaran liderdir

***Müsahibimiz "Azərbaycan Jurnalistlərinin Həmrəyliyi Komitəsi" İctimai Birliyinin sədri, uzun illər mətbuat sahəsində məsul vəzifələrdə çalışmış şair-publisist, "Qızıl qələm", "Həsən bəy Zərdabi" media mükafatları laureatı Mədət Məmmədovdur.***

***– Mədət müəllim, uzun illər mətbuat sahəsində məsul vəzifələrdə çalışmış bir jurnalist kimi siz ümummilli lider Heydər Əliyevin digər fəaliyyət sahələrində olduğu kimi, Azərbaycan mətbuatının inkişafı ilə bağlı göstərdiyi əvəzedilməz xidmətlər barədə nə deyə bilərsiniz?***

– Bir cümlə ilə ifadə etmək lazım gəlsə, deyərdim ki, ümummilli liderin hakimiyyəti dövründə Azərbaycanda senzura ləğv edildi, azad mətbuatın inkişafı təmin olundu, xaricdə diaspor təşkilatları yaradıldı, informasiya blokadası yarıldı və Azərbaycanın haqq səsinin dünyaya çatdırılması prosesi başlandı. Böyük siyasət və görkəmli dövlət xadimi Heydər Əliyevin müasiri olduğuma görə mən bir vətəndaş kimi özümü çox xoşbəxt hesab edirəm. O, mənim idealımdır. Ulu öndər Heydər Əliyev xalqını, Vətənini sevənlərin əbədi lideridir.

Əslində, müasir Azərbaycanın taleyində tarixi dönüş mərhələsi ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Müstəqil Azərbaycanı qurub bizlərə ərməğan edən ulu öndərin hakimiyyəti dovründə mətbuat sahəsində məsul vəzifədə çalışmış bir şəxs kimi həmişə onun ən sadiq əsgərlərindən biri olmuşam. Əlli ildir ki, Azərbaycan dünya miqyasında ulu öndər Heydər Əliyev kimi nəhəng şəxsiyyətin qəlbi-

nin işığında, iradəsinin möhkəmliyində, Vətən sevgisində qəbul edilir və örnək bir məmləkətə çevrilir. O, xalqını qorumaq üçün Tanrının göndərdiyi bir elçi idi.

***– Ulu öndər hələ Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsinə rəhbərlik etdiyi dövrdə elm və mədəniyyət xadimlərinə xüsusi qayğı ilə yanaşmış, onların bir çoxunu sovet repressiyasının caynağından xilas etmişdi. Bu haqda son illər çox yazılıb, çox deyilib.***

– Bəli, doğrudur. Ulu öndərin fəaliyyətinin əhəmiyyətli bir hissəsi Dövlət Təhlükəsizlik Komitəsi ilə bağlıdır. Bu illərdə o, şərəfli xidmət yolu keçərək DTK sədri vəzifəsinə, general-mayor rütbəsinə qədər yüksəlmişdi. DTK-da çalışdığı dövrdə o, bu sistemdə milli kadrların sayının artmasına köməklik göstərmiş, həmçinin, Azərbaycanın bir çox elm və mədəniyyət xadimlərini – Bəxtiyar Vahabzadəni, Ziya Bünyadovu, İsa Hüseynovu, Mayestro Niyazini və başqa görkəmli şəxsiyyətləri sovet təhlükəsizlik sisteminin cəzasından xilas etmişdi.

Sonrakı mərhələdə –1969-cu il iyul ayının 14-də respublikanın rəhbərliyinə gələn Heydər Əliyev Azərbaycanın Sovetlər İttifaqı kimi nəhəng bir imperiyanın tərkibində olmasına baxmayaraq, böyük uzaqgörənliklə gələcəyə hesablanmış bir sıra mühüm və zəruri addımlar atmağa nail ola bildi. O, Azərbaycanın tərəqqisi və inkişafı baxımından müstəsna xidmətlər göstədi. Hər şeydən əvvəl, kadrların düzgün seçilib yerləşdirilməsinə, onlara qarşı tələbkarlığın artırılmasına, dövlət və əmək intizamının möhkəmləndirilməsinə, idarəçilik sisteminin təkmilləşdirilməsinə diqqət göstərdi. Təsəvvür edin, Sovetlər İttifaqında korrupsiya və rüşvətxorluğa qarşı mübarizə ilk dəfə olaraq Azərbaycanda, məhz Heydər Əliyevin rəhbərliyi ilə başlandı.

Paralel olaraq, iqtisadi sahədə çox mühüm uğurlara imza atıldı, böyük nailiyyətlər əldə edildi. Statistikaya ötəri nəzər salaq: Ulu öndərin respublika rəhbərliyinə gəlməsi ilə Azərbaycan qısa zaman kəsiyində iqtisadi baxımdan özünü təmin etməyə başladı, ölkədə adambaşına düşən ümumdaxili məhsul istehsalında 2,5 sənaye istehsalında 3, kənd təsərrüfatı məhsullarında isə 2 dəfə artım əldə olundu. Onun rəhbərlik

etdiyi 1969-cu ildən 1982-ci ilə qədərki dövrdə respublikada 250 zavod, fabrik və sex tikildi. Azərbaycan həmin illərdə iqtisadi sahədə əldə etdiyi bu uğurlara görə 12 dəfə ümumittifaq yarışının qalibi oldu, Lenin ordeni ilə təltif edildi.

***– Bütün bunlarla yanaşı, sosial sahədə də böyük uğurlara imza atıldı.***

– Bəli, elədir. Ümummilli liderin Azərbaycana rəhbərlik etdiyi birinci dövrü sosial həyat sahəsində böyük nailliyyətlərlə əlamətdar oldu. Belə ki, 630 min iş yeri açıldı, 20 min kvadrat kilometr ərazidə Əhmədli, Yeni Əhmədli, Günəşli, Batamdar, Hövsan kimi yaşayış massivləri salındı, 2 milyondan artıq vətəndaşın mənzil problemi öz həllini tapdı. 101 min məktəbəqədər, 1058 ümumtəhsil müəssisəsi tikilib istifadəyə verildi. Heydər Əliyev Sovet Azərbaycanına rəhbərliyi dövründə 15 mindən artıq azərbaycanlı gəncin keçmiş SSRİ-nin müxtəlif şəhərlərində yerləşən 170-dən çox ali məktəbdə təhsil almasına, respublikamızın xalq təsərrüfatı, elm, təhsil və mədəniyyətinin 80-dən artıq sahəsini əhatə edən 250-dən çox ixtisas üzrə yüksək ixtisaslı mütəxəssislər kimi hazırlanmasına nail oldu.

Ümummilli lider respublika rəhbərliyinə gələndən bir neçə il sonra o vaxt Sovetlər İttifaqı üçün gözlənilməz olan daha bir təşəbbüsə imza atdı. Heydər Əliyev böyük əzmkarlıqla 1972-ci ildə Bakıda Cəmşid Naxçıvanski adına Hərbi Liseyin əsasının qoyulmasına və azərbaycanlı gənclərin həm bu məktəbdə, həm də SSRİ-nin digər hərbi təhsil müəssisələrində oxumalarına nail oldu və böyük bir yolun başlanğıcını qoydu. Bu illər ərzində yetişən azərbaycanlı hərbi kadrlar 1988-ci ildə Ermənistanın Azərbaycana qarşı ərazi iddialarının yenidən baş qaldırdığı bir vaxtda silaha sarılaraq Vətənin müdafiəsinə qalxdılar. Onlar müstəqil Azərbaycanın Silahlı Qüvvələrinin formalaşmasında və torpaqlarımızın müdafiəsində müstəsna rol oynadılar.

***– 1993-cü ildə ulu öndərin ikinci dəfə Azərbaycan rəhbərliyinə gəlişi ilə milli dövlətçiliyimiz təhlükədən xilas oldu.***

– Yəqin, yadınızda olar, 1993-cü ilin iyununda Azərbaycan hakimiy-

yət böhranı ilə üz-üzə qalmışdı. Azərbaycanın müstəqilliyini istəməyən xarici güclərin dəstək verdiyi silahlı birləşmələr və onların müdafiəsinə qalxan bəzi siyasi qurumlar hakimiyyətin zəifliyindən istifadə edib ölkəni xaosa sürükləyirdilər. Belə bir çətin şəraitdə xalqın təkidi ilə yenidən hakimiyyətə qayıdan Heydər Əliyev antiazərbaycan qüvvələrin planlarını alt-üst edərək ölkəni böyük bir uçurumdan qorudu.

Ulu öndər müstəqil Azərbaycanın idarəçilik sükanı arxasına keçərək sabitliyin, sosial-iqtisadi inkişafın və tərəqqinin qarantına çevrildi. 1994-cü ilin oktyabr, 1995-ci ilin mart aylarında dövlət çevrilişinin qarşısı alındı, dövlətçiliyimiz təhlükədən xilas edildi.

***– Ümummilli liderin həyata keçirdiyi neft strategiyası bugünkü inkişafımız üçün başlıca stimul oldu.***

– Azərbaycanın ağır günlər yaşadığı bir vaxtda yenidən hakimiyyətə gələn və dövlət müstəqilliyimizin dayanıqlılığına nail olmaq üçün səylərini ilk növbədə ölkə daxilində siyasi sabitliyin bərqərar olmasına yönəldən ulu öndər, paralel olaraq, strateji əhəmiyyət daşıyan bir sıra iqtisadi layihələrin gerçəkləşməsinə də öz töhfəsini verdi. Bu layihələrdən ən mötəbəri isə 1994-cü il sentyabrın 20-də Bakıda imzalanan "Əsrin müqaviləsi" oldu. Ulu öndərin dəmir iradəsi, siyasi nüfuzu sayəsində nəhayət, 20-ci əsrin ən böyük neft müqaviləsi imzalandı və Azərbaycanın müstəqilliyinin qarantına çevrilən bir layihə gerçəkləşdi.

Azərbaycanın qarşısında uzun və maneəsiz inkişaf yolu açıldı. Bu inkişaf qısa zaman kəsiyində bütün istiqamətlərdə özünü göstərdi. Azərbaycanın dünya iqtisadi sisteminə inteqrasiyasının və ölkənin enerji təhlükəsizliyinin möhkəm təməli qoyuldu. Azərbaycan MDB məkanında Qərbin iri neft şirkətləri ilə böyük miqyasda saziş imzalayan ilk dövlət olmaqla, Xəzər dənizində beynəlxalq əməkdaşlığın əsasını da yaratdı.

Bundan əlavə, Azərbaycan qazının Qərb bazarına ixracının təmin olunması baxımından ulu öndərin şəxsi təşəbbüsü ilə Bakı–Tbilisi–Ərzurum qaz kəməri istismara verildi. Beləliklə, Azərbaycan həm neft, həm də təbii qaz satışı bazarında özünə xüsusi yer tutdu. Zaman

keçdikcə dövlətimiz Avropanın enerji təhlükəsizliyində əsas rol oynamağa başladı. Bu isə Azərbaycanın söz sahibi olan bir dövlət kimi böyük nüfuz qazanması deməkdir. Beynəlxalq imicə, yüksək nüfuza malik dövlətimiz bu gün dünyanın aparıcı dövlətlərindən biri, regionun söz sahibi olan ölkələrindəndir.

Ümumiyyətlə, Azərbaycanın inkişaf tarixinin son 50 ilinə nəzər salsaq, gələcəyə istiqamətlənmiş, dayanıqlı inkişafı təmin edən və cəmiyyətin hər bir üzvünün rifahına xidmət göstərən müdrik və uzaqgörən siyasətin nəticələrini görərik. Bütün bunlar ulu öndər Heydər Əliyevin Vətən üçün sonsuz xidmətləri hesabına başa gəlib. O, öncə vətənpərvər, ölkəsini sevən bir insan, sonra isə böyük dövlət xadimi idi. Təsadüfi deyil ki, 2001-ci il Dünya Azərbaycanlılarının Birinci Qurultayında Heydər Əliyevin söylədiyi tarixi ifadə kiçikdən-böyüyə qədər hər bir azərbaycanlının dilində əzbərə çevrilib: "Mən həmişə fəxr etmişəm və indi də fəxr edirəm ki, mən azərbaycanlıyam".

İstər Vətəndə, istərsə də qürbətdə yaşayan bütün dünya azərbaycanlıları da qürur duyurlar, fəxr edirlər ki, onların Azərbaycan kimi Vətəni, Heydər Əliyev kimi soydaşı, ümummilli lideri var. Biz hər birimiz onun əmanəti olan müstəqil, güclü, qüdrətli Azərbaycanın övladlarıyıq. Azərbaycanın təməli dahi şəxsiyyət tərəfindən qoyulan iqtisadi, siyasi, sosial və mədəni inkişaf xəttini bu gün Prezident İlham Əliyev uğurla davam etdirir. Uğurlu inkişaf modelinə uyğun olaraq, Azərbaycanın dünyanın qabaqcıl, aparıcı dövlətləri sırasında tutduğu mövqe hər il daha da möhkəmlənir.

**Müsahibəni apardı: Hakim İSAQOV**

*"525-ci qəzət", 12 iyul 2019-cu il*

# Sirrimizi düşmənə verməyək...

***Tarixən, düşmən öz rəqibinə daha asan qalib gəlmək üçün onun zəif yerlərini öyrənməkdən və yalan informasiya ilə çaşdırmaqdan məharətlə istifadə edib. Zaman keçdikcə yay-oxa, top-tüfəngə bərabər tutulan kəşfiyyat məlumatı və azdırıcı xəbərlər internet əsrində aviasiya-raket zərbələri gücündədir. Odur ki, ekstremal şəraitlərdə cəmiyyətin doğru-düzgün, ölçülüb-biçilmiş informasiyaya tələbatının ödənilməsi xeyli aktuallaşmış və bununla yanaşı, mürəkkəbləşmişdir.***

***"Azərbaycan Jurnalistlərinin Həmrəyliyi Komitəsi" İctimai Birliyinin sədri Mədət Məmmədov da informasiya müharibəsində naşılıq və zəiflik göstərilməsinin yolverilməzliyini vurğuladı:***

– Ötən illərdə Azərbaycan–Ermənistan sərhədləri və Dağlıq Qarabağdakı cəbhə xətti boyunca düşmən dövlətin törətdiyi təxribatçı hərbi əməliyyatları Azərbaycan Ordusu cavablandırmağa məcbur olduğu zaman ölkəmizin informasiya təhlükəsizliyi dəfələrlə həddən artıq həssaslaşmış, informasiya məkanında ekstremal şəraitlərdə məlumat yayımı və xəbərləşmənin tələblərinə əməl olunması ilə yanaşı, bir sıra arzuolunmaz hallarla da rastlaşmışıq. Araşdırma və ümumiləşdirmə göstərmişdir ki, informasiya təhlükəsizliyinin tələblərinin pozulması, əvvəla, bu norma və qadağalardan kifayət qədər xəbərdar olmamaqdan, ikincisi, xəyanətə bərabər tutulan ehtiyatsızlıqdan, nəhayət, siyasi məsuliyyətsizlikdən, hakimiyyətə qarşı düşmən münasibətdən qaynaqlanmışdır.

O zaman sosial şəbəkə istifadəçisi olan cəmiyyətin geniş dairələrində və peşəkar media qurumlarında ekstremal şəraitdə informasiya təhlükəsizliyi tələblərinə əməl olunmasının zəruriliyi geniş müzakirə olunmuş, müvafiq izahat işləri aparılmış, bu mövzuda jurnalistlərə təlimlər keçilmişdi. Bütün bunlar ölkəmizdə söz azadlığı və informasiya təhlükəsizliyi tandeminin tarazlığı üçün gərəkli olmuş, sosial

şəbəkələrə və peşəkar media məkanına məlumat mənbələrinin mötəbərliyi məsələsini cəmiyyətə qədərincə anlatmışdı.

Bu günlərdə işğalçı Ermənistanın Azərbaycanla dövlət sərhədinin Tovuz rayonu istiqamətində irimiqyaslı hərbi təxribat törətməsi, ordumuzun mövqelərinə iri silahlarla hücum etməsi, yaşayış məntəqələrini artilleriya atəşinə tutması, döyüş əməliyyatları zamanı əsgər və zabitlərimizin şəhid olması, dinc sakinlərin yaralanması və həlak olması ilə bağlı yayılan müxtəlif səpkili xəbərlər xalqımızı dərindən həyəcanlandırmış, informasiya məkanında yenidən ekstremal durum tələblərini gündəmə gətirmişdir. Hadisələrə öz çevik imkanları ilə elektron media və sosial şəbəkə daha tez və daha geniş reaksiya vermişdir. Rəsmi informasiya KİV-də yayılana qədər gerçək vəziyyəti düzgün əks etdirməyən məlumat və bir sıra ehtiyatsız xəbərləşmələr, az da olsa, çaşqınlığa və gərəksiz narahatlığa səbəb olmuşdur. Yəqin ki, belə bir hal düşmən üçün göydəndüşmə olmuşdur.

Sosial şəbəkələrdə, guya, Ermənistan silahlı qüvvələrinin sərhədboyu ərazilərimizi işğal etməsi, əhalinin öz evlərini kütləvi tərk etməsi, canlı itkinin çox olması barədə paylaşmalar həmin anlarda ordu bölmələrimizin düşmənə ağır zərbələr vuraraq onu geri oturtması gerçəyini müəyyən qədər kölgədə qoymuş, xalqın bu hünərdən doğan öyüncünü aşağılamağa xidmət etmişdir. Siyasi mövqeyi ilə düşmən dəyirmanına su axıdan "beşinci kalon"un və xaricdəki muzdlu siyasi təxribatçıların yayım və paylaşmaları isə məğlubiyyət, guya, düşmənin növbəti zəfər çalması notları üstündə köklənmişdir. Sosial şəbəkədə və elektron mediada hətta pozucu hərəkətlərə çağırışlar da səslənmişdir.

Şəhidlərimizin dəfn mərasimi və orduya dəstək aksiyalarının bəzi hallarda əndazəni aşması, bəzi media vasitələrinin bu məsələdə emosiyaları coşdurmaq cəhdi də düşmən niyyətlərinin gerçəkləşməsinə xidmət edir. Orduya dəstək aksiyası niyə parlamentə hücum ilə tamamlanmalıdır? Jurnalistlər, sosial şəbəkə istifadəçiləri belə məsələlərdə ilk baxışda cazibəli görünən mənzərənin arxasındakı gerçək təhlükəni görməyi bacarmalıdırlar.

***Bütün bunların ölkənin informasiya təhlükəsizliyinin əsas yükünü çəkən KİV qurumlarında, peşəkar jurnalistlərdə, media mütəxəssislərində haqlı narazılıq və ciddi etiraz doğurduğunu, məsuliyyətsiz şəxslərin və pozucu dairələrin zərərsizləşdirilməsinin zəruriliyininin yenidən gündəmə gəldiyini vurğulayan Mədət Məmmədov bildirdi:***

– Cəmiyyətin informasiyaya olan tələbatının vaxtında ödənilməsinin önəmini anlamaq üçün Amerika konstitusiyasının yaradıcılarından biri olan Ceym Medismonun məşhur bir kəlamını yada salmaq yerinə düşər: məlumatdan məhrum olan xalq məzhəkə və faciə doğuran hakimiyyətin astanasındadır. Əhaliyə doğru-düzgün və vaxtında informasiya verilməsi tarixin heç bir vaxtında indiki qədər aktual olmayıb. Biz elə bir dövrdə yaşayırıq ki, informasiya siyasəti hər bir dövləti qayğılandıran ciddi problemə çevrilib.

İnformasiyalar çoxaldıqca narahatlıqlar da artır. Cəmiyyətə hansı informasiyanı vermək məsələsi gündəmə gəlir. İnsanlar hər şeylə maraqlanırlar. Bu marağı cavablandırmaq üçün media qurumlarının fərqli informasiya siyasəti formalaşır. Lakin bu kodekslər dövlətin informasiya siyasətinə, konkret olaraq, informasiya təhlükəsizliyi konsepsiyasına tam uyğun olmalıdır. Ekstremal şəraitlərdə isə üstünlük dövlət və milli maraqların qorunmasını təmin edən yayım meyarlarına verilməlidir. Tutaq ki, cəbhədə hansısa uğursuzluq olub. Bu məlumatı əldə edən, yayan və satan media qurumu bazar şəraitində qazanar, lakin həmin məlumat düşməndə ruh yüksəkliyi, bizdə isə təşviş, həyəcan və ümidsizliyə xidmət edər. Belə halda 5–10 jurnalistin qazancı üstün tutulmalıdır, yoxsa ümummilli maraqlar?

İnformasiya-kommunikasiya texnologiyalarının geniş yayılması, hər bir adamın bu imkanlardan istifadə edib xəbər yayan və qəbul edən mənbəyə çevrilməsi çağdaş dünyada dövlətlərin, media qurumlarının və sosial şəbəkələrin informasiya siyasətinə yenidən baxmağı tələb edir. İngilis tədqiqatçısı Entoni Smitin belə bir fikrini yada salmaq yerinə düşər: "İnformasiya əsri bərqərar olduqca dövlət sərhəd-

lərinin silinmə prosesi başlanacaq. Bir vaxtlar mətbuat ölkə hüdudlarında və hökumətlərin icazə verdiyi çərçivədə fəaliyyət göstərirdi. Bu gün isə belə demək olar: insan məkanı fəth edib, bütün dünya sanki onun ovcundadır".

Bu gerçəyi nəzərə alsaq, indiki şəraitdə Azərbaycanın sərhədlərinin təhlükəsizliyi əsas götürülməlidir, yoxsa, informasiyanın sərhədsizləşməsi? Şübhəsiz, düşmənin hər vasitə ilə sərhədlərimizi aşıb irəliləmək cəhdi, mövcud hərbi durum ilə bağlı milli marağımız döyüş əməliyyatları barədə yayılan ən kiçik informasiyanın da kəskin surətdə sərhədlənməsini tələb edir. Razılaşaq ki, elektron medianın ictimai rəyə təsiri indiki dövrdə çap mediasından daha böyükdür. Lakin sosial şəbəkə və onlayn yayımların informasiya siyasəti milli maraqlardan daha çox, lokal dividend, şəxsi maraq və iradi davranışlar üzərində qurulub.

On illərdən bəri qəsbkar Ermənistanın xalqımızın qəsdinə durduğu, vaxtaşırı hərbi-siyasi təxribatlar törətdiyi bir şəraitdə hər bir vətəndaş ağzından çıxan, ən kiçik bir dairə üçün belə yayılan xəbərin, hər şeydən əvvəl, düşmən üçün nə dərəcədə maraqlı, faydalı ola biləcəyini düşünməli, əks hərəkətə yol verməməlidir. Hər bir jurnalistin vətəndaşlıq mövqeyi isə onun fəaliyyətinin baş norması olmalıdır. Təkcə xəbəri verməklə iş bitmir, yaşadığı ölkənin mənafeyini qorumaq, onun informasiya siyasətini müdafiə etmək lazımdır.

Sərhədləri aşan informasiyalara diqqət yetirmək çox vacibdir. Elə informasiyalar var ki, cəmiyyətdə xoşagəlməz fəsadlar törədə bilər. Alman filosofu Fridrix Nitsşenin dediyi kimi, "Bəzən bir söz də fırtına qopara bilər". Hərbi-siyasi ekspansiyaların mənəvi-psixoloji hazırlığı sayılan informasiya müharibəsində hər bir soydaşımız özünü ayıq-sayıq əsgər saymalıdır. Bu müharibədə biganəliyi, məsuliyyətsizliyi, fərariliyi və satqınlığı xalqımız kəskin pisləyir, qanunlarımız amansız ittiham edir.

***"Azərbaycan Jurnalistlərinin Həmrəyliyi Komitəsi" İctimai Birliyinin sədri informasiya müharibəsində naşılıq və zəiflik göstərilməsinin yolverilməzliyinin günün zəruri tələbi olduğunu söylədi:***

– Tarixi düşmənimiz olan ermənilər bugünlərdə yenə dünyanı yalan və təxribatla çaşdırıb itirdiyi beynəlxalq rəyi geri qaytarmaq istədi. Lakin Azərbaycan rəhbərliyi və qüdrətli ordumuz bu fitnəkarlığın qarşısını qətiyyətlə aldılar. Düşmənə sarsıdıcı zərbə vuruldu, onun çirkin niyyəti ifşa edildi. Bu uğurlu nəticənin alınmasında informasiya müharibəsində əldə etdiyimiz üstünlüyün də rolu danılmazdır. Etiraf etməliyik ki, biz informasiya müharibəsində daha böyük üstünlük qazana bilərdik. Dönüklər və məsuliyyətsiz siyasətçilər, naşı xəbər yayıcıları bu işdə əvvəllər olduğu kimi, yenə ziyanlı fəaliyyətləri ilə ortaya atıldılar. Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi siyasətinin mahiyyət və hədəflərini belələrinə bir daha xatırlatmaq lüzumu yaranır.

Dövlətimizin informasiya təhlükəsizliyi siyasəti Milli Təhlükəsizlik Konsepsiyasında və “Milli Təhlükəsizlik haqqında” Qanunda öz əksini tapıb. Qanunda informasiya sahəsində milli təhlükəsizliyin təmin olunması aşağıdakı tələblərlə müəyyən olunur:

– informasiyanın, həmçinin dövlət informasiya ehtiyatlarının müdafiəsi sahəsində milli sistemin yaradılması və möhkəmləndirilməsi;

– dövlət orqanları və vəzifəli şəxslər tərəfindən qərarların qəbul edilməsinin informasiya təminatının həyata keçirilməsi məqsədilə obyektiv və qabaqlayıcı məlumatların toplanması;

– informasiya infrastrukturunun inkişaf etdirilməsi;

– dövlət sirlərinin qorunmasının hüquqi mexanizminin təkmilləşdirilməsi;

– kibercinayətlərə qarşı mübarizə;

– informasiya təhlükəsizliyinin və azadlığının təmin olunması.

Azərbaycanın informasiya təhlükəsizliyinə ciddi əməl olunmasının zəruriliyini dönə-dönə gündəmə gətirən Prezident İlham Əliyev bildirir ki, bizə qarşı informasiya müharibəsi aparan qüvvələrin böhran xarakterli yazıları, əsasən, erməni lobbisinin təsiri altında hazırlanır. Psixoloji müharibənin tərkib hissəsi olan informasiya müharibəsi yalan, böhtan vasitəsilə həyata keçirilir. Yalan, hədələmə, ideoloji təxribat kimi texnologiyaların köməyi ilə bir ölkə digər dövlətin apar-

dığı siyasəti gözdən salmağa, xalqla ordu arasında nifaqa çalışır, bir sözlə, insanlar arasında dövlətə inamsızlıq yaratmaq üçün dəridən-qabıqdan çıxır.

Erməni qəzetlərinin və saytlarının Azərbaycanla bağlı yaydıqları yalan informasiyaların ölkəmizin informasiya məkanına yol tapmasına nə ad verək olar? Bugünlərdə Azərbaycanın dövlət başçısı Ermənistanı fəlakətə sürükləyən əvvəlki rəhbərliyin yaratdığı hərbi xunta və indiki naşı, avantürist baş nazir Nikol Paşinyanın qurduğu diktatura rejimini kəskin tənqid etmişdi. Ölkəmizdəki siyasi narazılar və xəyanətkar siyasətçilər heç bir əsas olmadan həmin durumun Azərbaycana da xas olmasını söyləməklə kimə və nəyə xidmət etdiklərinin fərqində olmadılar.

Yada salaq ki, biz əvvəllər informasiya müharibəsində ermənilərə uduzurduq. Bütün dünya erməniləri bu işi mütəşəkkil qurumların fəallığı və dövlət səviyyəsində aparırlar. Artıq biz bu məsələdə onları qabaqlaya bilmişik. Bu uğur Azərbaycan dövlətinin və Heydər Əliyev Fondunun təşəbbüsü ilə Azərbaycanda və yaxın-uzaq xarici ölkələrdə keçirilən tədbirlərin nəticəsidir. İndi dünya birliyi Azərbaycanı daha yaxından və daha yaxşı tanıyır. Bütün bunların nəticəsidir ki, Ermənistanın budəfəki təxribatçı hücumu düşmənə heç bir uğur gətirmədi, əksinə, dünya birliyi onu qonşu dövlətin sərhədini pozmaq cəhdinə görə kəskin qınadı.

Bir məsələni də deyim ki, düşmənin sərhədlərimizə hücum çəkdiyi bir vaxtda yüksək səlahiyyətli vəzifə sahibi olan xarici işlər nazirinin rahatlığını pozmaması, dünyanı dərhal bu təxribatdan xəbərdar etməməsi də informasiya təhlükəsizliyinə ciddi xələl gətirir.

Prezident İlham Əliyevin bugünlərdə hökumət üzvləri ilə keçirdiyi müşavirədə nazir Elmar Məmmədyarovu haqlı və kəskin tənqid etməsi məhz ölkəmizin informasiya təhlükəsizliyinin diplomatik baxımdan etibarlı qorunması zərurətini cəmiyyətə bir daha anlatdı. Ölkəmiz üçün təhlükəli və həssas məqamlarda belə biganəlik və məsuliyyətsizlik göstərən məmurlar bizə nə dərəcədə lazımdır?

***Müsahibimiz Mədət Məmmədov tamamilə haqlıdır:***

– Hərbi təcavüzkarı yerində oturtmaq üçün əvvəlcə onu informasiya cəbhəsində tərksilah etmək tələb olunur. Bu vəzifəni yerinə yetirmək üçün ölkəmizin informasiya məkanı da öz sərhədlərini möhkəm qorumalı, düşmənə qarşı hücum mövqeyini daim möhkəmləndirməlidir.

Prezident İlham Əliyevin bu münasibətlə söylədiyi və jurnalistlər üçün "yol xəritəsinə" çevrilmiş tövsiyəsində deyilir: "Jurnalistlərin vətənpərvərliyi çox böyük əhəmiyyətə malik olan bir məsələdir.

Dövlətçilik prinsipləri üstünlük təşkil etməlidir. İlk növbədə, dövlət maraqları müdafiə edilməlidir. Dövlətə zərər vura biləcək hər hansı bir addıma yol verilməməlidir. Eyni zamanda, cəmiyyətdə mövcud olan problemlər ölkə daxilində həllini tapmalıdır. Azərbaycanın reallıqları dünya birliyinin diqqətinə çatdırılmalıdır, istər ictimai sahədə, milli, dini dözümlülük sahəsində, istərsə də iqtisadi və xarici siyasət sahəsində".

Bu tövsiyəyə tam əməl etmək üçün heç bir sirrimizi düşmənə verməməli, hərbi durumla bağlı yalnız rəsmi, mötəbər mənbələrin məlumatına istinad etməliyik.

**Hazırladı: Tahir AYDINOĞLU**

*"Xalq qəzeti", 17 iyul 2020-ci il*

# Senzurasız epoxaya keçid azad sözün tarixi nailiyyətidir

***Söz azadlığı çağdaş insan haqları sistemində zəruri yerini nəinki qoruyub saxlayır, həm də getdikcə önəmini artırır. Bir çox cəmiyyətlərdə insan azadlığının səviyyəsi həm də söz azadlığının hüdudları ilə ölçülür. Bu baxımdan 22 il əvvəl avqustun 6-da Azərbaycanda söz azadlığının senzuranın ləğvi ilə mütləqləşdirilməsi milli tariximizə demokratik inkişafın gerçək göstəricisi, gələcək uğurun daha bir təminatı kimi daxil oldu.***

Tarixdən isə bəllidir ki, söz azadlığı kimi zəruri insani tələbat öz haqlarına sahib çıxmış xalqların uzun sürən, inadlı mübarizəsi ilə gerçəkləşdirilmişdir. Jurnalistika nəzəriyyəçiləri isə göstərirlər ki, sivil cəmiyyətlərdə demokratiyanın əsas göstəricilərindən sayılan söz və məlumat azadlığı prinsipi dövlətlərin, xalqların hərtərəfli inkişafında, siyasi mədəniyyətin formalaşmasında və ümumi tərəqqinin təmin edilməsində önəmli rol oynayır.

Tarixi fərmanın qəbul edildiyi zaman Mətbuat və İnformasiya Nazirliyi Kütləvi İnformasiya Vasitələri Baş İdarəsinin rəisi işləmiş, tanınmış jurnalist və media təşkilatçısı, hazırda "Azərbaycan Jurnalistlərinin Həmrəyliyi Komitəsi" İctimai Birliyinin sədri Mədət Məmmədov milli jurnalistikamızın öz mövcudluğunun 124-cü ilinə daxil olduğu günlərdə senzurasız fəaliyyət epoxasına qədəm qoymasını xalqımızın demokratik mətbuat və söz azadlığı yolunda mübarizəsində inqilabi hadisə kimi vurğuladı:

– Çağdaş dünyada azad medianın, insan hüquq və azadlıqlarının təmin edilməsi cəmiyyətdə demokratik mexanizmlərin mövcudluğunun

əsas şərtlərindən biri kimi qəbul edilir. Kütləvi informasiya vasitələri – qəzetlər, jurnallar, teleradio yayımları, informasiya agentlikləri və ictimai rəy formalaşdıran məlumatı müntəzəm formada yayan digər media vasitələri cəmiyyətin inkişafına ciddi təsir göstərən, onun vəziyyətini və mahiyyətini müəyyənləşdirən siyasi sistemin tərkib hissəsidir.

Kütləvi informasiya vasitələri cəmiyyətdə ictimai fikri, dövlətə inamı və sosial fəallığı formalaşdırmaqla yanaşı, həm də onları istiqamətləndirir. Bu mənada, haqlı olaraq, "dördüncü hakimiyyət" kimi dəyərləndirilən kütləvi informasiya vasitələri dünyada demokratiya və informasiya azadlığının mühüm ruporu rolunu oynayır.

Azərbaycan ikinci dəfə müstəqillik qazandıqdan sonra senzura ləğv edilmiş, azad söz, müstəqil fikir bərqərar olmuşdur. Azərbaycan Respublikası Konstitusiyasının 50-ci maddəsində "Məlumat azadlığı" bölümündə göstərilir ki, hər kəsin istədiyi məlumatı qanuni yolla əldə etmək, ötürmək, yaymaq azadlığı vardır. Kütləvi informasiya vasitələrinin azadlığına təminat verilir, kütləvi informasiya vasitələrində, o cümlədən, mətbuatda dövlət senzurası qadağandır.

Azərbaycan mətbuatının yenidən bərpa edilmiş suverenlik şəraitində müstəqilliyini əldə etməsi, ölkəmizdə söz və mətbuat azadlığının həqiqi mənada təmin olunması isə ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı mətbuatımızın inkişaf tarixində də yeni bir mərhələnin əsasını qoymuşdur. Müstəqil dövlətin ali rəhbəri kimi Heydər Əliyev Azərbaycandakı tarixi şəraiti və gələcək perspektivləri nəzərə alaraq, medianın yeni dövrdə rolunu və vəzifələrini doğru-düzgün qiymətləndirmiş, onun inkişaf meyllərini dövlət himayəsi ilə əhatə etmişdir.

Prezident Heydər Əliyevin "Ölkədə söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" 1998-ci il 6 avqust tarixli fərmanı ilə mətbuatda senzuranın ləğvindən və "Kütləvi informasiya vasitələri haqqında" Qanunun qəbulundan sonra ölkə mətbuatının inkişafında yeni dövr başlanmışdır. Azad mətbuatın inkişafına əngəl yaradan senzuranın aradan qaldırılması, KİV sahəsində qanunve-

riciliyin təkmilləşdirilməsi və müasir dünya standartlarına uyğunlaşdırılması, media vasitələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi üçün çoxsaylı yardım və güzəştlərin müəyyənləşdirilməsi ümummilli lider Heydər Əliyevin azad sözə və onun daşıyıcılarına tarixi xidmət lərinin ən yığcam ifadə olunmuş çevrəsini əks etdirir. Təkcə onu demək kifayətdir ki, Azərbaycan qanunvericiliyində söz və mətbuat azadlığı elə mükəmməl əksini tapıb ki, KİV haqqında qanun nəinki MDB məkanında, hətta Avropada ən yaxşı qanunlardan biri sayılır.

***Mədət Məmmədov ümummilli lider Heydər Əliyevin bu fərmanı imzalanmasını müstəqil dövlət quruculuğunun informasiya cəbhəsində zəruri və önəmli dönüşün başlanğıcı kimi dəyərləndirdi:***

– Azərbaycanın müstəqilliyinin ilk illərində bütün sahələrdə olduğu kimi, müstəqil medianın inkişafında da hədsiz çətinliklər mövcud idi. Sovet jurnalistikasının təsirindən çıxa bilməyən kütləvi informasiya vasitələri nümayəndələrinin əksəriyyəti çaşqınlıq içərisində qalmışdı. Yeni şəraitdə sərbəst fəaliyyət qazanmış müstəqil jurnalistlərlə aşkarlıq mühitinə çıxmağa cəsarət etməyən məmurlar arasında qarşıdurma nizamlanmadığından qısa müddətdə yüksək həddə çatmışdı. Necə deyərlər, qələm sahibləri sərbəstliyin hüdudlarını qoruya bilmir, məmurlar isə müstəqil jurnalistikanı həzm edə bilmirdilər.

Sürətlə artıb-çoxalmış dövri nəşrlərə və efir yayımı vasitələrinə hər kəsin və hamının azad söz demək hüququndan faydalanmağa can atan xeyli təsadufi, jurnalistikaya dəxli olmayan yazar soxulmağa başlamışdı. Bu gedişat çox təhlükəli tendensiyaya çevrilirdi. Jurnalistikada milli mənafeyə məsuliyyətsiz yanaşma halları artır, kütləvi yayım vasitələri qrup maraqlarının və şəxsi istəklərin ifadəçisinə çevrilirdi. KİV-də yalançı qəhrəmanlar yaradılaraq hələ kövrək addımlarını atan müstəqil cəmiyyətimizə sırınır, çox vaxt ağı qaradan seçmək olmurdu.

Müstəqil nəşrə başlamış media qurumları çox keçmədən maliyyə və texniki çətinliklərlə üzləşib antimilli qüvvələrin asılılığına düşür, söz azadlığının misilsiz imkanlarından yad-yabançı ünsürləri faydalandırırdı.

Azərbaycanın yenicə dövlət suverenliyi qazandığı, jurnalistikanın inzibati və ideoloji buxovlardan xilas olub azad fəaliyyət yoluna qədəm qoyduğu taleyüklü günlərdə və aylarda yaranmış belə böhranlı vəziyyətdə ümummilli lider Heydər Əliyevin xalqın tələbi ilə yenidən hakimiyyətə qayıdışı ölkənin müstəqilliyi ilə yanaşı, jurnalistikamızın da əldə etdiyi azadlığı xilas etdi. Nəzərə alsaq ki, dövlətə qarşı təxribatların bir çoxu o zaman kütləvi yayım vasitələri ilə gerçəkləşdirilirdi, belə halda söz azadlığı sahəsində zəruri tədbirlərin gerçəkləşdirilməsinin zəruriliyi bir o qədər aydın başa düşülər.

Məsələ burasında idi ki, köhnə qaydalara qayıtmadan elə tədbirlər həyata keçirilməli idi ki, söz azadlığı mənəvi anarxiyaya aparmasın, medianın sosial məsuliyyəti və demokratik normalara uyğunlaşması dövlət senzurasını əvəz etmiş olsun. Həyatda nümunəsi olmayan bu yola keçidin təmin olunması məhz dünya miqyaslı siyasətçi və dövlət xadimi Heydər Əliyevin tarixi xilaskarlıq missiyasını misilsiz bir dahiyanəliklə yerinə yetirməsi ilə mümkün oldu.

Ulu öndər azad sözü cəmiyyətdə aşkarlığın başlıca vasitəsi, milli və demokratik dövlət quruculuğunun mənəvi, ideya-siyasi təkanvericisi kimi dəyərləndirirdi. O, eyni zamanda, belə hesab edirdi ki, cəmiyyətin sosial-iqtisadi yüksəlişi demokratik mətbuatın ahəngdar inkişafı üçün yeni stimullar yaradır. Böyük rəhbər dövlət müstəqilliyinin möhkəmləndirilməsinin, yeni demokratik cəmiyyət yaradılmasının zəruri amilləri sırasında söz azadlığının əsaslarının yaradılması, müstəqil mətbuatın hərtərəfli inkişafı üçün ardıcıl, kompleks tədbirlər gerçəkləşdirmişdir.

Mən həmin çətin vaxtlarda Mətbuat və İnformasiya Nazirliyinin KİV Baş İdarəsinin rəisi kimi mövcud və yeni təsis olunan KİV-lərin dövlət qeydiyyatına alınması və onların fəaliyyətinə nəzarətin həyata keçirilməsinə məsul idim. Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin müdrik və çevik idarəçilik məharəti o zaman həm xarici, həm də daxili düşmənlərlə mübarizədə, necə deyərlər, strateji üstünlükləri ələ keçirməkdə media cəbhəsinə döyüş

xəritəsi verdi. Ulu öndərin rəhbərliyi altında, gündəlik göstəriş və tövsiyyələri ilə öz milli dövlətinə deyil, hakimiyyət düşkünlərinə, milli satqınlara və ölkəni öz təsirinə almağa çalışan xarici dairələrə xidmət edənlərə qarşı qəti, barışmaz mübarizə aparılırdı.

Xarici vətəndaşların o zaman təsis etdikləri telekanallar icazə verilən proqramlardan kənarlaşaraq siyasi müstəviyə keçməyə tez-tez can atsalar da, onların qarşısı qətiyyətlə alınırdı. Demokratiya pərdəsi altında düşmən dəyirmanına su tökən mətbu orqanların media hüququ normalarını pozmasının qarşısı dərhal alınır, onların ideoloji təxribatları ifşa edilirdi.

Dünyaya inteqrasiyanın vacibliyini uzaqgörənliklə hiss edən Prezident Heydər Əliyev bir sıra hazırlıq tədbirlərindən, KİV sahəsində zəruri qanunvericilik bazasını formalaşdırandan sonra 1998-ci ilin 6 avqustunda mətbuatın üzərindən senzuranın götürülməsi barədə tarixi fərmanı imzaladı. Bu müstəqil mətbuatın inkişafına meydan verən inqilabi fərman idi. Ardınca 1999-cu ildə KİV haqqında Qanuna dəyişiklik edildi. Zamanı qabaqlayan bu addımlar tezliklə ulu öndərin tarixi uzaqgörənliyini bir daha təsdiq etdi.

Avropa Şurasına qəbul olunmaq üçün KİV sahəsində bütün maneələr ardıcıl, milli maraqların qorunması ilə aradan götürüldü, demokratik təsisatlar pillə-pillə işə salındı. Ulu öndərin atdığı qətiyyətli, düşünülmüş taktiki gedişlər zamanında öz bəhrəsini verdi, həm də gələcək üçün mötəbər əsaslara çevrildi. 2001-ci ildə Avropa Şurasına dövlətimizin qəbulu zamanı aparılan müzkirələrdə yaddaşlara əbədi həkk olunan bir hadisə baş verdi. Başqa ölkələrdən fərqli olaraq Azərbaycan mətbuatının demokratiya şəraitində fəaliyyəti ilə bağlı göstəricilər müzakirəsiz qəbul edildi. Bu, böyük rəhbərin qurduğu, memarı olduğu, müstəqilliyini canından əziz tutduğu Azərbaycana bəxş etdiyi ən böyük töhfələrdən biri – söz azadlığına verilən dövlət təminatının beynəlxalq aləmdə təqdir olunması idi.

Ulu öndərin söz azadlığının təmin edilməsinə münasibəti demokratik inkişafın zəruri tələblərinin cavablandırılması ilə şərtlənmişdir.

Müstəqil dövlətimizin qurucusu azad medianın inkişafını demokratiyanın tələbi kimi dəyərləndirərək, bu sahədə problemlərin aradan qaldırılması üçün ehtiyac duyulan bütün tədbirləri ən yüksək səviyyədə həyata keçirmişdir. Bütün bunları qədirbilənliklə qiymətləndirən media ictimaiyyəti 2002-ci ildə ulu öndər Heydər Əliyevi Azərbaycanda milli mətbuatın daha da inkişaf etdirilməsi sahəsindəki xidmətlərinə görə "Jurnalistlərin dostu" adına layiq görmüşdür. Möhtərəm Prezidentimiz İlham Əliyev isə bu adı dalbadal 3 dəfə qazanmışdır.

***Müsahibim daha sonra ötən dövrdə mətbuatın özünütənzimləmə, dövlət orqanları və ictimaiyyətlə əlaqə saxlamaq qurumu kimi Azərbaycan Mətbuat Şurasının formalaşdırılmasının, ölkə başçısının fərmanı ilə Azərbaycan Respublikası Prezidentinin yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılmasının, ayrı-ayrı sərəncamlarla jurnalistlərin sosial müdafiəsinin gücləndirilməsi kimi davamlı tədbirlərin medianın fəaliyyətinin günün tələblərinə cavab verməsində önəmli rol oynadığını qeyd edərək bildirdi:***

– Prezident İlham Əliyevin sərəncamı ilə "Əməkdar jurnalist" fəxri adının bərpa edilməsi və ölkə mətbuatının, teleradiosunun inkişafında seçilən xidmətləri olan jurnalistlərin bu ada, digər dövlət təltiflərinə layiq görülmələri, son illərdə 400-dən çox jurnalist ailəsinə yeni mənzillərin verilməsi də media sahəsində stimulları gücləndirmiş, jurnalist peşəsinin nüfuzunu yüksəltmiş, bu adı daşıyanların söz azadlığının təmin edilməsi ilə bağlı ölkə və xalq qarşısında məsuliyyətini yüksəltmişdir.

Dəfələrlə yüksək səviyyədə bəyan edildiyi kimi, ölkəmizin sürətlə inkişaf etdiyi, demokratikləşmə prosesinin dərinləşdiyi, cəmiyyət həyatının bütün sahələrinin yeniləşdiyi müasir dövrdə kütləvi informasiya vasitələrinin, o cümlədən milli mətbuatımızın qarşısında yeni vəzifələr durur. Bu gün Azərbaycan jurnalistikası informasiya cəmiyyəti quruculuğunda, sosial ədalət və şəffaflığın təmin edilməsində, milli həmrəyliyin və tolerantlığın möhkəmləndirilməsində, demokratik

özünüdərkin, siyasi mədəniyyətin inkişafında, milli-mənəvi və ümumbəşəri dəyərlərin qorunub saxlanılması və təbliğində mühüm rol oynamalı, tədris və maarifləndirmə sahəsində fəaliyyətini gücləndirməlidir.

***Mədət Məmmədov sonda dedi:***

– Medianın yaradıcılıq prosesinə heç bir dövlət nəzarətinin–senzuranın olmadığı şəraitdə cəmiyyətin aynası, azad sözün yayıcısı, milli maraqların müdafiəçisi olmaq Azərbaycan jurnalistikasının tarixi nailiyyətidir. Bu tarixə 1998-ci ildə ölkəmizdə senzuranın ləğv edilməsi qızıl hərflərlə yazılmış, yeni bir başlanğıc olmuşdur. Əziz həmkarlarım, gəlin unutmayaq ki, artıq 22 ildir ölkəmizdə kütləvi auditoriyaya deyilən söz heç bir senzuraya məruz qalmır. Belə bir senzor bizim vicdanımızdır. Gəlin vicdanımıza xəyanət etməyək!

Prezident İlham Əliyevin bu münasibətlə söylədiyi və jurnalistlər üçün xüsusi "yol xəritəsinə çevrilmiş" sözləri bir daha xatırlayaq: "Jurnalistlərin vətənpərvərliyi çox böyük əhəmiyyətə malik olan bir məsələdir. Dövlətçilik prinsipləri üstünlük təşkil etməlidir. İlk növbədə, dövlət maraqları müdafiə edilməlidir. Dövlətə zərər vura biləcək hər hansı bir addıma yol verilməməlidir. Eyni zamanda, cəmiyyətdə mövcud olan problemlər ölkə daxilində həllini tapmalıdır. Azərbaycanın reallıqları dünya birliyinin diqqətinə çatdırılmalıdır, istər ictimai sahədə, milli, dini dözümlülük sahəsində, istərsə də iqtisadi və xarici siyasət sahəsində".

Doğrudan da, söz və mətbuat azadlığı cəmiyyətdə demokratiyanın meyarı və ölçüsü rolunu oynayır. Müstəqil Azərbaycan dövləti ölkədə insan hüquqlarının müdafiəsi, söz və mətbuat azadlığı kimi məsələlərə xüsusi önəm verir. Demokratik vətəndaş cəmiyyəti quruculuğu prosesində kütləvi informasiya vasitələrinin xüsusi yeri və rolu var. Prezident İlham Əliyev bununla bağlı demişdir: "Söz və informasiya azadlığı, demokratiyanın inkişafı, hüquqi dövlətin qurulması Azərbaycanda çox vacib olan məsələlərdir. Mən hesab edirəm ki, bu sahədə ölkəmiz çox böyük və uğurlu yol keçmişdir... Biz siyasi islahatları dərinləşdirərək bütün azadlıqları – söz azadlığını, mətbuat

azadlığını, sərbəst toplaşma azadlığını, siyasi fəaliyyət azadlığını təmin etmişik".

Nəhayət, qeyd edək ki, senzurasız epoxaya keçid milli azad sözün tarixi nailiyyətidir. Dövlət nəzarətinin dövlət himayəsi və sosial məsuliyyətlə əvəz olunması isə çağdaş jurnalistikamızın uğurlarının təminatıdır.

**Hazırladı: Tahir AYDINOĞLU**

*"Xalq qəzeti", 6 avqust 2020-ci il*

# Ruhunuz şad olsun, ulu öndər

## Suqovuşan Sizin Azərbaycan Prezidenti seçildiyiniz gün azad olundu!

***"Azərbaycan Jurnalistlərinin Həmrəyliyi Komitəsi" İctimai Birliyinin sədri Mədət Məmmədov Azərbycan Ordusunun Qarabağda zəfər yürüşündən doğan ziyalı yazar sevincini mediaya açıqlamasında belə ifadə etdi:***

– Ümummilli lider Heydər Əliyevin 1993-cü il 3 oktyabrda ikinci dəfə hakimiyyətə qayıtdığı gün Aqzərbaycan Ordusunun bölmələri Suqovuşanı işğaldan azad etdi. Bu xəbəri eşidən anlarda "Ruhun şad olsun, Ulu öndər" dedim. Böyük xilaskarımız Heydər Əliyev o zaman xalqın tələbi ilə hakimiyyətə qayıtmasaydı, həmin gün xalqın əksəriyyətinin səsi ilə prezident seçilməsə idi bu ölkənin aqibəti çox fəlakətli olacaqdı. Madagizin fəth edilib Suqovuşana çevrilməsi ulu öndərin Qarabağ sarıdan narahat ruhuna böyük dinclik bəxş etdi.

33 ildən bəri davam edib bir neçə dəfə qanlı savaşa çevrilən Qarabağ münaqişəsi, bugünlərdə Prezident İlham Əliyevin bütün dünyaya bəyan etdiyi kimi, dünyanı təsirində saxlamağa çalışan böyük güclərin öz maraqlarını önə çəkməsi nəticəsində həll edilməmiş qaldı. İllər boyu uzanan ağır, əzablı, sonu görünməyən proseslər xalqımıza fiziki və mənəvi sarsıntılar yaşatdı.

O vaxtlar səsimizi eşidən ölkələr çox az idi. Prezident Heydər Əliyev Qarabağ həqiqətini, tarixi Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğal edildiyini bütün dünyaya anlatdı, ərazi bütövlüyümüzü bərpa etmək üçün siyasi-diplomatik iqtisadi-hərbi təminatlar formalaşdırdı. Ulu öndərin başa çatdıra bilmədiyi arzu-əməllərin davam etdirilməsini ən layiqli varis kimi etibar etdiyi Prezident İlham Əliyev ötən 17 ildə Qarabağın xilas edilməsi üçün bütün zəruri təd-

birləri ən yüksək səviyyədə gerçəkləşdirdi. Doğrudan da, ölməz rəhbərin müstəsna uzaqgörənliklərindən biri Azərbaycan xalqına İlham Əliyev kimi bütün dünyada nüfuz sahibi olan yeni tipli bir lider yetişdirməsi olmuşdur.

Bununda nəticəsi göz qabağındadır. Cənab Prezidentin iradəsi, səbri, cəsarəti, heyrətamiz intellekti, idarəçilik məharəti olmasaydı mənfur niyyətləri ilə insanlığı bəşəriyyətin gözündən salmağa çalışan çirkin xislətli qonşularımızın öhdəsindən gəlmək çətin olardı. İndi beynəlxalq aləm ölkəmizi tanıyır və bizimlə hesablaşmaq məcburiyyətində qalıb. İlham Əliyev indi şanlı ordumuzun qanlı döyüşlərdə qazandığı qələbələri düşmən üzərində iqtisadi mübarizədə çoxdan qazanmışdı. Ermənistan dövləti bu siyasətin qarşısında neçə illər öncə məğlub olmuşdur. İndi dünyanın supergücləri Azərbaycanın iradəsi ilə hesablaşmalı olur.

Artıq Ermənistanın baş naziri Paşinyanı nəinki öz ölkəsində, eləcə də dünyada siyasətə qoşulmuş oyuncaq hesab edirlər. Onun artıq heç bir yolu qalmayıb. Sülhə razı olub-olmayacağından asılı olmayaraq o, özünü və ölkəsini məhvə məhkum edib. Bu naşı və avantürist siyasətbazın verdiyi sərsəm bəyanatlar düşmən ölkəni məhvə sürükləyərək bizim tam qələbəmizi təmin edəcək və haqq işimizi dünya ictimaiyyətinə çatdıracaqdır.

Dağlıq Qarabağın tezliklə işğaldan tam azad edilməsi nəinki Qafqazda, eləcə də dünyada bu gün böyük nüfuza malik olan Azərbaycanın mövqelərini dəfələrlə möhkəmləndirəcək, Qafqazın geosiyasi vəziyyətini kökündən dəyişəcək, ölkəmizi dünyəvi dövlətlərdən birinə çevirəcək.

***Tanınmış media təşkilatçısı və publisist Mədət Məmmədov açıqlamasının sonunda bildirdi:***

– Son günlərin hadisələri göstərdi ki, Azərbaycan hərb meydanında olduğu kimi, informasiya cəbhəsində də sərrast və mükəmməl döyüşür. Söz, qələm sonadək süngü və mərmilərə arxa-dayaq olmalı, onun yeni uğurlarına meydan açmalıdır. Bu savaş dövlətimizin, millətimizin tale yüklü məsələsidir. Ona görə də media təmsilçilərimiz

çox diqqətli olmalıdır. Adi bir məsuliyyətsizlik düşmən dəyirmanına su tökə bilər. Eyni zamanda indi dünyada informasiya müharibəsi gedir. Bu müharibədə uduzmaq hər şeyi itirmək deməkdir. Fakta əsaslanmayan heç bir xəbərə inanmaq olmaz.

Mediamız bu döyüşdə əsgərlərimizlə birlikdə ön cəbhədədir. Müharibədə qalib gəlməyimiz üçün əvəzsiz töhfələrini verirlər. Xarici mətbuatda da tutarlı faktlarla çıxış edirlər.

Sonda qürurla deyirəm: Möhtərəm Prezident, cənab Ali Baş Komandan, cəmiyyətdə bütün döyüşlərin önündə gedən jurnalistlər ordusu sizinlədir!

**Hazırladı: Tahir AYDINOĞLU**

*"Xalq qəzeti", 6 oktyabr 2020-ci il*

# III. DÖVLƏT MEDİA SİYASƏTİ

## (Sənədlər, tarixi hadisələr)

Ötən əsrin 90-cı illərində dövlət müstəqilliyi əldə edildikdən sonra ölkəmizdə azad, demokratik mətbuatın təşəkkülü üçün geniş imkanlar açılıb. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin səyləri nəticəsində söz və mətbuat azadlığını məhdudlaşdıran süni maneələr aradan qaldırılıb, kütləvi informasiya vasitələrinin fəaliyyətini nizamlayan mükəmməl qanunvericilik bazası formalaşdırılıb, redaksiyaların maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilib, mətbuat – hakimiyyət münasibətlərində mütərəqqi ənənələrin əsası qoyulub.

**Azərbaycan Respublikasının Prezidenti**
**İlham ƏLİYEV**

# KİV kollektivlərinə təbriklər

*AZƏRTAC – 75*

## Azərbaycan Teleqraf Agentliyinin – AZƏRTAC-ın kollektivinə

Müstəqil Azərbaycan Respublikasının milli informasiya mərkəzinin – AZƏTAC-ın kollektivini agentliyin yaradılmasının 75 illiyi münasibətilə səmimi qəlbdən təbrik edirəm.

AZƏTAC suveren Azərbaycanın daxili və xarici siyasətinin həm ölkəmizdə, həm də dünya miqyasında təbliğində, Ermənistanın torpaqlarımıza təcavüzünün və xalqımıza qarşı törətdiyi vəhşiliklərin ifşasında, məruz qaldığımız informasiya blokadasının yarılmasında, Azərbaycan həqiqətlərinin geniş yayılmasında müəyyən rol oynayır. Respublikamızda demokratik hüquqi dövlət quruculuğu barədə beynəlxalq miqyasda doğru-düzgün təsəvvür yaratmaq, xalqımıza qarşı aparılan düşmənçilik təbliğatını dəf etmək işində də kollektivinizin xidmətləri qeyd olunmalıdır.

Azərbaycan Teleqraf Agentliyinin 75 illiyi mətbuatımız üçün əlamətdar hadisədir. Kollektivinizə, bütün Azərbaycan jurnalistlərinə xalqımızın və dövlətimizin mənafeyini daha əzmlə qorumaqda, haqq işimizi əsl vətəndaş qeyrəti ilə müdafiə etməkdə, həyatımızın reallıqlarını obyektiv və operativliklə işıqlandırmaqda nailiyyətlər arzulayıram. Hamınıza yeni yaradıcılıq uğurları, xoşbəxtlik, cansağlığı diləyirəm.

**Heydər ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*3 mart 1994-cü il*

*“Xalq qəzeti” – 75*

## “Xalq qəzeti” redaksiyasının kollektivinə

“Xalq qəzeti” mənalı yaradıcılıq yolu keçmiş, özünəməxsus uslub və sənətkarlıq xüsusiyyətləri olan nəşrlərimizdəndir. Üzün müddət “Kommunist” adı ilə nəşr edilən bu qəzet bütün sovet dövrü ərzində Azərbaycanın ictimai, iqtisadi və mədəni həyatının güzgüsü olmuşdur.

Respublikada qəzetcilik ənənlərinin formalaşmasında, jurnalistikamızın inkişafında “Xalq qəzeti”nin xidmətləri xususi qeyd olunmalıdır. Bugünkü çoxsəsli, rəngarəng Azərbaycan mətbuatının bir çox görkəmli nümayəndələri bu qəzetin yaradıcılıq məktəbini keçmişlər. Müstəqilliyimizin qazanılmasından sonra da “Xalq qəzeti” respublikanın ictimai həyatında baş verən hadisələrə cəsarətlə mudaxilə etmiş, bir çox problemlərin aşkarlanmasında mühüm rol oynamışdır. Amansız təcavüzkara qarşı apardığımız ədadətli müharibə qəzetin daimi mövzusuna çevrilmişdir.

Bu gün qəzet müstəqil Azərbaycanda hüquqi və demokratik dövlət quruculuğu işində güclü səfərbəredici rol oynayır.

İlk nömrəsinin çapdan çıxmasının 75 illiyi munasibətilə “Xalq qəzeti”nin yaradıcı heyətini, bütün redaksiya kollektivini ürəkdən təbrik edir, onlara cansağlığı və işlərində yeni-yeni nailiyyətlər arzulayıram.

**Heydər ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*25 avqust 1994-cü il*

*"Azərbaycan gəncləri" – 75*

## "Azərbaycan gəncləri" qəzetinin kollektivinə

"Azərbaycan gəncləri" respublikamızın mətbuat aləmində şərəfli yaradıcılıq yolu keçmiş, qəzetçilik ənənələrimizin inkişafında silinməz izlər buraxmış özünəməxsus sənətkarlıq xüsusiyyətləri ilə seçilən nəşrlərdəndir. Bu qəzet qəhrəman Azərbaycan gəncliyinin onlarla nəslinin ayrılmaz yol yoldaşı olmuş, bu nəsillərin rəşadətli həyatının mətbuat salnaməsinə çevrilmişdir.

Respublikamızda jurnalistika sənətinin inkişafında da "Azərbaycan gəncləri" qəzeti mühüm rol oynamışdır. Sonradan ölkə mətbuatının tanınmış nümayəndələrinə çevrilmiş bir çox gənc, ədəbi-publisistik qüvvələr ilk sənət addımlarını "Azərbaycan gəncləri"qəzetində atmışlar. Qəzet bu gün də öz ənənələrinə sadiq qalaraq, gənc nəslin tərbiyəsi işində fəaliyyətini davam etdirir. Müstəqil Azərbaycanın ictimai-siyasi həyatının bir çox sahələri qəzetin səhifələrində öz əksini tapır. Amansız təcavüzkara qarşı apardığımız ölüm-dirim müharibəsində Azərbaycan gənclərinin göstərdikləri mərdlik və qəhrəmanlıq, Vətənə alovlu məhəbbət və təmənnasız xidmət hissinin aşılanması qəzetin başlıca mövzularındandır.

İlk nömrəsinin çapdan çıxmasının 75 illiyi münasibətilə "Azərbaycan gəncləri" qəzetinin bütün əməkdaşlarını ürəkdən təbrik edir, sizə cansağlığı, müstəqil Azərbaycanın daha xoş gələcəyi naminə fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

**Heydər ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*27 oktyabr 1994-cü il*

*"Azərbaycan müəllimi" – 60*

## "Azərbaycan müəllimi" qəzetinin kollektivinə

"Azərbaycan müəllimi" qəzeti respublikamızın mətbuat tarixinə şərəfli yaradıcılıq yolu keçmiş, pedaqoji ənənələrin inkişafında silinməz izlər buraxmış, özünəməxsus dəst-xətti ilə seçilən nəşrlərdən biri kimi daxil olmuşdur. Azərbaycanda pedaqoji mühitin formalaşmasında, müəllim kadrların elmi-metodiki səviyyəsinin yüksəldilməsində bu qəzetin mühüm xidmətləri vardır.

"Azərbaycan müəllimi" yalnız sahə qəzeti olmaqla kifayətlənməmiş, respublika həyatında baş verən ictimai-siyasi hadisələrə də nüfuz etmişdir. Qəzet respublikamızda jurnalistika sənətinin inkişafi işində əhəmiyyətli rol oynamışdır.

"Azərbaycan müəllimi" qəzeti bu gün də öz ənənələrinə sadiq qalaraq pedaqoji maarif istiqamətində fəaliyyətini davam etdirir. Müstəqilliyinə qovuşmuş respublikamızın elm və təhsil sisteminin yeni əsaslar üzərində qurulduğu bir dövrdə, xalq maarifinin qarşısında duran başlıca vəzifələr qəzetin səhifələrində öz əksini tapir. Pedaqoji aləmdə qazanılmış qabaqcıl təcrübələr, görkəmli maarif və elm xadimlərinin həyatı qəzetdə mütəmadi işıqlandırılan məsələlərdəndir.

İlk nömrəsinin çapdan çıxmasının 60 illiyi münasibətilə "Azərbaycan müəllimi" qəzetinin bütün əməkdaşlarını ürəkdən təbrik edir, sizə cansağlığı, dəyərli fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

**Heydər ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*18 noyabr 1994-cü il*

*Azərbaycan Milli Mətbuatı – 120*

## Jurnalistlərə, nəşriyyat-poliqrafiya işçilərinə

Əsası 120 il bundan öncə böyük alim, pedaqoq, jurnalist, ictimai xadim Həsən bəy Zərdabinin "Əkinçi" qəzeti ilə qoyulmuş milli mətbuatımız Azərbaycan xalqının mənəvi mədəniyyəti tarixinə şərəfli səhifələr yazmış, milli mənliyimizin formalaşmasında, mənəvi dəyərlərin qorunub saxlanmasında misilsiz rol oynamışdır.

Milli mətbuatımızın inkişaf mərhələləri Azərbaycan xalqının azadlıq, müstəqillik uğrunda mübarizə tarixinin tərkib hissəsidir. "Əkinçi"dən üzü bəri azadlıq, demokratiya, müstəqillik uğrunda mücadilə dərslərini biz milli mətbuatımızın səhifələrindən öyrənmişik.

Özünün azad, müstəqil, demokratik dövlətini qurmuş Azərbaycan xalqı bu yolda olmazın məşəqqətlərlə üzləşmiş və üzləşməkdədir. Daxili və xarici düşmənlərin hördüyü hiylə torları, hətta dövlət çevrilişləri həddinə gəlib çıxmış məkrli niyyətlər xalqımızın və dövlətimizin iradəsini dönə-dönə sınağa çəkmişdir. Bu problemlərin həll edilməsində, baş verən hadisələrə obyektiv qiymət verilməsində mətbuat və söz azadlığı şəraitində fəaliyyət göstərən, demokratik dəyərlərlə bəhrələnən Azərbaycan jurnalistlərinin böyük xidməti vardır.

Jurnalistləri, nəşriyyat-poliqrafiya işçilərini, ümumiyyətlə, bu sahədə çalışanların hamısını Milli Mətbuat Günü münasibətilə təbrik edir, Vətənimizin daha işıqlı gələcəyi, sülh, azadlıq ideallarının, demokratik prinsiplərin bərqərar edilməsi naminə uğurlar arzulayıram.

**Heydər ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*22 iyul 1995-ci il*

*"Gürcüstan" qəzeti – 75*

## "Gürcüstan" qəzetinin kollektivinə

Hörmətli soydaşlar! "Gürcüstan" qəzetinin çapdan çıxmasının 75 illiyi münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Ötən illər ərzində qəzetiniz qonşu Gürcüstanın, o cümlədən orada yaşayan azərbaycanlıların həyatında baş verən hadisələrin işıqlandırılmasında, Gürcüstan və Azərbaycan xalqları arasında tarixən mövcud olan mehriban qonşuluq və qardaşlıq münasibətlərinin möhkəmləndirilməsində əməli xidmətlər göstərmişdir. Mən qəzetin yaradıcı kollektivinin əməyini yüksək qiymətləndirirəm.

Ümidvaram ki, redaksiyanın əməkdaşları dövlətlərimizin ənənəvi dostluq və qardaşlıq münasibətlərinin daha da inkişaf etməsi, ölkələrimizdə dövlət quruculuğu sahəsində gedən proseslərin obyektiv işıqlandırılması üçün bundan sonra da əzmlə çalışacaqlar.

Sizə cansağlığı və səadət, yaradıcılıq fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

**Heydər ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*22 oktyabr 1997-ci il*

*“Azərbaycan” qəzeti – 80*

## “Azərbaycan” qəzetinin kollektivinə

Azərbaycanın dövlət müstəqilliyi tarixində xüsusi rol oynamış “Azərbaycan” qəzetinin 80 illiyi tamam olur. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi orqanı kimi fəaliyyətə başlamış “Azərbaycan” qəzeti yarandığı gündən milli azadlıq mübarizəsinin ön sırasında addımlamış, xalqımızın çoxillik arzu və istəklərinin ifadəçisinə çevrilmiş, onun mənəvi dəyərlərinin, ictimaisiyasi ideallarının formalaşması işinə önəmli töhfə vermişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra fəaliyyətini dayandıran “Azərbaycan” qəzeti xalqımızın 199-ci ildə yenidən müstəqillik qazanması ilə öz fəaliyyətini bərpa etmiş, azadlıq və suverenlik ideyalarının həyata keçirilməsində fəal surətdə iştirak etmişdir.

Ölkəmizin mütərəqqi mətbuat ənənələrini ləyaqətlə davam etdirən “Azərbaycan” qəzeti bu gün demokratiyanın, siyasi plüralizmin, aşkarlığın təmin edilməsində müstəsna rol oynayır. Onun səhifələrində Azərbaycan həqiqətləri, ölkəmizdə hüquqi dövlət və vətəndaş cəmiyyətinin qurulması, iqtisadi islahatların həyata keçirilməsi, sağlam mənəvi-psixoloji mühitin, vətəndaş həmrəyliyi və milli birliyin yaradılması sahəsində aparılan məqsədyönlü işlər və ictimai-siyasi proseslər qərəzsiz işıqlandırılır.

Dövlət müstəqilliyimizin möhkəmləndirilməsi və azad, demokratik cəmiyyət qurulması işində ölkəmizin digər mətbuat orqanları kimi, “Azərbaycan” qəzetinin də üzərinə böyük vəzifələr düşür. İnanıram ki, fəaliyyət göstərdiyi bütün dövrlərdə öz yüksək amallarına dönməz sədaqət göstərmiş “Azərbaycan” qəzetinin kollektivi bundan sonra da respublikamızda baş verən həqiqətlərin geniş ictimaiyyətə çatdırılmasında, dünyaya yayılmasında yüksək professionallıq, ob-

yektivlik, prinsipiallıq, əsl dövlətçilik və vətəndaşlıq mövqeyi nümayiş etdirərək, xalqımızın mütərəqqi mətbuat ənənələrini layiqincə davam etdirə biləcəkdir.

Ölkəmizin adını daşıyan və demokratik, milli dövlətçiliyimizin yaşıdı olan "Azərbaycan" qəzetinin 80 illiyi münasibətilə sizi ürəkdən təbrik edir, kollektivinizə daha böyük yaradıcılıq uğurları arzulayıram

**Heydər ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*14 sentyabr 1998-ci il*

## Azərbaycan Jurnalistlərinin I Qurultayının iştirakçılarına

Hörmətli mətbuat işçiləri və jurnalist ictimaiyyəti nümayəndələri! Sizi – ümumrespublika forumuna toplaşmış Azərbaycan jurnalistlərini səmimiyyətlə salamlayır və qurultayın işinə uğurlar arzulayıram.

Yaşadığımız qloballaşma və informasiya əsrində azad söz və mətbuatın əhəmiyyəti getdikcə artmaqdadır. Mütərəqqi ənənələrə, milli və ümumbəşəri dəyərlərə malik Azərbaycan mətbuatı demokratiya və aşkarlığın mühüm vasitəsi kimi bugünkü müstəqil dövlət və azad vətəndaş cəmiyyəti quruculuğunda müstəsna rol oynayır. Xalqımızın azadlıq arzularının, müstəqillik ideallarının əks etdirilməsində, milli-mənəvi dəyərlərin qorunmasında, aktual problemlərin ictimai müzakirəyə çıxarılmasında Azərbaycan mətbuatının xidmətləri xüsusi qeyd olunmalıdır.

Azərbaycan dövləti söz və fikir azadlığının təmin edilməsi, kütləvi informasiya vasitələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, mətbuat işçilərinin fəaliyyəti üçün hərtərəfli şərait yaradılması istiqamətində ardıcıl tədbirlər görür. Son illərdə kütləvi informasiya vasitələrinə dövlət qayğısının artınlmasına, mətbuata maliyyə-vergi güzəştlərinin verilməsinə, jurnalistlərin informasiya almaq azadlığının təmin edilməsinə yönəlmiş bir neçə fərman və sərəncam verilmişdir. Qəzetlərin dövlət nəşriyyatına olan borcları 2005-ci ilə qədər təxirə salınmış, onlara güzəştli şərtlərlə kredit verilməyə başlanmışdır. Mətbuat sahəsində demokratik, liberal qanunvericilik bazası yaradılmışdır. Azərbaycanda çoxşaxəli mətbuat və informasiya sistemi formalaşmışdır. Ölkədə yüzlərlə kütləvi informasiya vasitəsi, teleradio şirkətləri, informasiya agentlikləri, qəzet və jurnallar azad surətdə fəaliyyət göstərir.

Bu gün Azərbaycanda mətbuatın dövlət tənzimlənməsindən imtina edilib. Lakin həyat göstərir ki, mətbuatın ictimai tənzimlənməsinə və özünütənzimləməyə, mətbuat-dövlət, mətbuat-vətəndaş, mətbuat-mətbuat münasibətlərinin sivil, demokratik yolla tənzimlənməsinə ehtiyac vardır. Eyni zamanda, müasir beynəlxalq standartlara cavab verən, peşəkar, qərəzsiz, obyektiv mətbuatın formalaşması və güclənməsi istiqamətində hələ bundan sonra da xeyli işlər görülməlidir.

İnanıram ki, Azərbaycan jurnalistlərinin birinci qurultayı, burada qəbul edilən qərarlar bütövlükdə cəmiyyət və jurnalistika qarşısında dayanan mühüm vəzifələrin həlli yolunda vacib addım olacaq. Obyektivliyi və vətənpərvərliyi ilə seçilən mətbuat və ictimaiyyət nümayəndələrinin təmsil olunacağı Mətbuat Şurası demokratiyaya və söz azadlığına xidmət edən nüfuzlu quruma çevriləcəkdir.

Bir daha qurultayın işinə uğurlar diləyir, Azərbaycan jurnalistlərinə və mətbuat ictimaiyyətinə ən xoş arzularımı yetirirəm.

**Heydər ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*15 mart 2003-cü il*

## Azərbaycan jurnalistlərinin VII qurultayının iştirakçılarına

Ötən əsrin 90-cı illərində dövlət müstəqilliyi əldə edildikdən sonra ölkəmizdə azad, demokratik mətbuatın təşəkkülü üçün geniş imkanlar açılıb. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin səyləri nəticəsində söz və mətbuat azadlığını məhdudlaşdıran süni maneələr aradan qaldırılıb, kütləvi informasiya vasitələrinin fəaliyyətini nizamlayan mükəmməl qanunvericilik bazası formalaşdırılıb, redaksiyaların maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilib, mətbuat - hakimiyyət münasibətlərində mütərəqqi ənənələrin əsası qoyulub.

Azərbaycanda demokratikləşmə prosesinin təzahürü olaraq 2003-cü ildə jurnalistlərin I qurultayında mətbuatın özünü tənzimlənmə funksiyasını yerinə yetirən Mətbuat Şurasının yaradılması media ilə dövlət və cəmiyyət arasında münasibətlərdə keçid dövrünün başa çatması və yeni keyfiyyət mərhələsinin başlanması kimi qiymətləndirilə bilər. Ötən 15 ildə Mətbuat Şurası ölkədə söz və məlumat azadlığının inkişafı, kütləvi informasiya vasitələrinin fəaliyyətinin təkmilləşdirilməsi və müstəqilliyinin gücləndirilməsi ilə bağlı səmərəli təklifləri ilə çıxış edib. Mətbuat Şurası dövlət orqanları və vətəndaşlarla mətbuat arasında münasibətlərin tənzimlənməsi, jurnalistlərin hüquqlarının müdafiəsi, peşəkarlığının artırılması, mediada neqativ halların aradan qaldırılması sahəsində ciddi səylər göstərib. Bu gün ardıcıl və məqsədyönlü fəaliyyəti ilə seçilən Mətbuat Şurası Azərbaycanın aparıcı ictimai təşkilatları sırasında özünə layiqli yer tutub və cəmiyyətdə böyük nüfuz qazanıb. Jurnalistlərin mütləq əksəriyyətinin Mətbuat Şurasının fəaliyyətini yüksək qiymətləndirilməsi bunun əyani sübutudur.

Hazırda güclü iqtisadi və maliyyə potensialına malik Azərbaycanda hər bir sahənin, o cümlədən də kütləvi informasiya vasitələrinin inkişa-

fına hərtərəfli dövlət dəstəyi həyata keçirilir. Təsadüfi deyil ki, dünya miqyasında milli informasiya resurslarımızın çəkisi getdikcə artır, rəqabət qabiliyyəti yüksəlir. Düşünürəm qlobal şəbəkənin genişləndiyi və transmilli medianın ayrı-ayrı ölkələrin daxili həyatına, beynəlxalq nüfuzuna ciddi təsir göstərdiyi müasir dövrdə Azərbaycan kütləvi informasiya vasitələri daha fəal və prinsipial olmalı, yüksək peşəkarlıq nümayiş etdirərək milli maraqlarımızı hər şeydən uca tutmalı, cəmiyyətimizin tərəqqisi naminə öz qüvvə və bacarıqlarını əsirgəməməlidir.

İnanıram ki, VII qurultay Azərbaycan mətbuatının hazırkı vəziyyəti və perspektivi ilə bağlı səmərəli müzakirələrin keçirildiyi mühüm platformaya çevriləcək və milli jurnalistikamızın gələcək inkişafına dair əhəmiyyətli qərarlar qəbul edəcək. Bu yolda hər birinizə, bütün Azərbaycan jurnalistlərinə möhkəm can sağlığı və qurultayın işinə uğurlar arzulayıram.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*10 mart 2018-ci il*

# Azərbaycan Konstitusiyası, KİV haqqında qanun, fərman və sərəncamlar

## AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYASI

*Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin sədrliyi ilə Azərbaycan Respublikasının yeni Konstitusiya layihəsini hazırlayan komissiya tərəfindən hazırlanmış, 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsində (referendumda) qəbul edilmişdir.*

*1995-ci il noyabrın 27-dən qüvvəyə minmişdir.*

M a d d ə 2 4 . **İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının əsas prinsipi**

*I. İnsan ləyaqəti qorunur və ona hörmət edilir.*

II. Hər kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları və azadlıqları vardır.

III. Hüquqlar və azadlıqlar hər kəsin cəmiyyət və başqa şəxslər qarşısında məsuliyyətini və vəzifələrini də əhatə edir. *Hüquqlardan sui-istifadəyə yol verilmir.*

M a d d ə 5 0 . **Məlumat azadlığı**

I. Hər kəsin istədiyi məlumatı qanuni yolla axtarmaq, əldə etmək, ötürmək, hazırlamaq və yaymaq azadlığı vardır.

II. Kütləvi informasiyanın azadlığına təminat verilir. Kütləvi informasiya vasitələrində, o cümlədən mətbuatda dövlət senzurası qadağandır.

III. Hər kəsin kütləvi informasiya vasitələrində dərc edilən və onun hüquqlarını pozan və ya mənafelərinə xələl gətirən məlumatı təkzib etmək və ya ona cavab vermək hüququna təminat verilir.

## Azərbaycan Respublikasınında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikasının Konstitusiyasında insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi dövlətimizin ali məqsədi kimi təsbit edilmişdir. Bu məqsədə nail olmaq və müvafiq hüquqi mexanizmlər yaratmaq üçün dövlətin siyasi-hüquqi və iqtisadi potensialından tam istifadə edilməsi sahəsində ciddi tədbirlər görülür.

Ölkəmizdə demokratik cəmiyyətlərə xas olan institutların formalaşdırılması və azad siyasi fəaliyyət üçün hər cür şərait yaradılmışdır. İlk dəfə çoxpartiyalılıq əsasında, demokratik parlament seçkiləri keçirilmiş, ümumxalq səsverməsi ilə siyasi plüralizm, söz, mətbuat, vicdan azadlıqları, insan hüquqlarının müdafiəsi və qanunun aliliyi prinsiplərini təsbit edən konstitusiya qəbul edilmişdir.

Ümumbəşəri dəyərlərin üstünlüyünü, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunu özünün inkişaf modeli kimi qəbul edən Azərbaycan Respublikası insan hüquqları, söz və mətbuat azadlığının təmin edilməsi ilə bağlı mövcud olan əksər beynəlxalq konvensiya və sazişlərə qoşulmuşdur.

Kütləvi informasiya vasitələri demokratiya və aşkarlığın mühüm vasitəsi hesab olunur. Azərbaycan dövləti onların müstəqil qurulması, azad fəaliyyəti və inkişafı üçün zəruri tədbirlər görür. Bu gün Azərbaycan Respublikasında yüzlərlə qazet və jurnal, onlarla radio və televiziya şirkəti, çoxsaylı informasiya agentlikləri fəaliyyət göstərir. Onların böyük əksəriyyəti özəl qurumlara, ayrı-ayrı şəxslərə və müxtəlif mövqedə duran siyasi və ictimai təşkilatlara məxsusdur. Kütləvi informasiya vasitələrində istənilən fikri demək, dövlət sirri təşkil etməyən istənilən faktı açıqlamaq üçün qeyri-məhdud imkanlar vardır.

Azərbaycanda söz, mətbuat azadlığının təmin edilməsi, bu hüquqdan vətəndaşların və dövlətin mənafeyi naminə düzgün, səmərəli istifadə edilməsi sahəsində müəyyən problemlər də mövcuddur ki, onların həlli istiqamətində ardıcıl tədbirlər tələb olunur. Problemlərdən bir Nazirlər Kabineti yanında mətbuatda və digər kütləvi informasiya vasitələrində dövlət sirlərini mühafizə edən baş idarənin fəaliyyəti ilə bağlıdır. Bu idarə sovet hökuməti vaxtında – 27 oktyabr 1966-cı ildə yaranmış və Azərbaycanın bütün informasiya vasitələri üzərində senzura fəaliyyəti həyata keçirmişdir. 1990-cı ilə dekabr ayının 5-də Azərbaycan SSR Nazirlər Sovetinin qərarı ilə onun yeni əsasnaməsi təsdiq edilsə də, əslində bu idarənin fəaliyyətində heç bir ciddi dəyişiklik baş verməmişdir.

Azərbaycan müstəqillik əldə etdikdən sonra 1992-ci il aprel ayının 12-də prezident səlahiyyətlərini icra edən Y.Məmmədovun fərmanı ilə hərbi senzura tətbiq etmək adı altında bu idarənin mətbuat üzərində nəzarəti daha da gücləndirilmişdir. Bundan sonra 15 aprel 1993-cü ildə Azərbaycan Respublikası prezidenti Ə. Elçibəyin sərəncamı ilə hərbi vəziyyətlə bağlı senzura təkcə hərbi sirlərə deyil, bütün məlumatlara aid edilərək, jurnalistlərin sərbəst informasiya fəaliyyəti tam məhdudlaşdırılmış və idarənin fəaliyyəti daha da sərtləşdirilmişdir.

Sonrakı illərdə “Dövlət sirri haqqında” Azərbaycan Respublikası qanunu qəbul edilmədiyindən bu idarənin fəaliyyətində əsaslı dəyişiklik baş verməmişdir. 15 noyabr 1996-cı ildə “Dövlət sirri haqqında” Azərbaycan Respublikasının qanunu qəbul edildikdən sonra idarənin iş metodlarında ciddi dəyişikliklər aparılmışdır. Buna baxmayaraq bu idarə öz fəaliyyətini yeni şəraitə uyğun qura bilməmişdir.

Lakin Azərbaycanda mətbuatın problemi təkcə bu deyil. Bizim dövlət siyasətimizin əsas məqsədlərindən biri Azərbaycanın mütərəqqi mətbuat ənənələrinin davam etdirilməsi və müasir beynalxalq təcrübə ilə zənginləşdirilməsi, kütləvi informasiya vasitələrinin maddi-texniki vəziyyətinin yaxşılaşdırılması, onların imkanlarından respublikada hüquqi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin formalaşdırılması və inkişafı, demokratik islahatların həyata keçirilməsində səmərəli istifadə edilməsindən ibarətdir.

Mətbuat və televiziya xalqımızın milli-mənəvi dəyərlərinin qorunması, inkişafı və geniş ictimaiyyət arasında yayılmasının qayğısına qalmalıdır. Jurnalistlərin peşəkar səviyyəsini artırmaq, vətəndaşlarda kütləvi informasiya vasitələrinə obyektiv münasibət aşılamaq, mətbuatın imkanlarından bacarıq və məsuliyyətlə istifadə etmək istiqamətində həm dövlət, həm də mətbuat orqanlarının özləri çox işlər görməlidirlər. Bununla bağlı kütləvi informasiya vasitələrində çalışan jurnalistlərin və digər əməkdaşları vətənpərvərliyi yüksək vətəndaşlıq məsuliyyəti, peşə hazırlığı, təhsili, təmiz mənəvi siması xüsusi əhəmiyyət kəsb edir. Kütləvi informasiya vasitələrində Azərbaycan qanunvericiliyinin tələblərinə, milli mənəviyyatımıza uyğun hüquqi və etik normaların gözlənməsi hər bir jurnalist üçün ən vacib vəzifə olmalıdır.

Azərbaycan Respublikasında mətbuata dövlət qayğısını, müstəqil kütləvi informasiya vasitələrinin inkişafını, vətəndaşların fikir, söz və məlumat azadlığın təmin edilməsini ümumdövlət vəzifəsi hesab edərək, BMT-nin insan hüquqlarına dair 1948-ci il 10 dekabr tarixli ümumi bəyannaməsində, mülki və siyasi hüquqlar haqqında 1966-cı il 16 dekabr paktında, insan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında 1950-ci il 4 noyabr tarixli Avropa konvensiyasında və Azərbaycan Respublikası Konstitusiyasının 47-ci, 50-ci və 71-ci maddələrində elan edilmiş prinsiplərin inkişaf etdirilməsi, kütləvi informasiya vasitələrinin maddi-texniki vəziyyətinin yaxşılaşdırılması sahəsində görülən tədbirlərin səmərəliliyini artırmaq məqsədi ili qarara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, kütləvi informasiya vasitələrinin maddi-texniki vəziyyətinin yaxşılaşdırılmasını, onlara dövlət qayğısının artırılmasını nəzərdə tutan, söz, fikir və məlumat azadlığının qorunmasını, siyasi plüralizm prinsiplərinin dönmədən həyata keçirilməsini təmin edən tədbirlər proqramının layihəsini hazırlayıb bir ay müddətində Azərbaycan Respublikasının prezidentinə təqdim etsin.

2. Azərbaycan Respublikasının Milli Məclisinə təklif edilsin:

Müvafiq qanun layihələrinin hazırlanması və qanunların qəbul edilməsi zamanı, Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq

konvensiya və sazişlərdə və Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edilmiş insan və vətəndaşların fikir, söz və məlumat azadlığı müddəaları əsas prinsiplər kimi rəhbər tutulsun.

3. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə və Azərbaycan Respublikası Prezidentinin İcra Aparatına tapşırılsın ki, əlaqədar dövlət orqanları ilə birlikdə:

Bir ay müddətində söz, fikir və məlumat azadlığının qorunması, kütləvi informasiya vasitələrində dövlət sirlərinin mühafizəsi, hüquqi və etik normaların gözlənməsi ilə bağlı beynəlxalq standartlara və Azərbaycan Respublikası qanunlarına uyğun mexanizmin yaradılması haqqında Azərbaycan Respublikası prezidentinə müvafiq təkliflər təqdim etsinlər;

Bir ay müddətində kütləvi informasiya vasitələrinin əlavə dəyər vergisindən azad edilməsi ili bağlı Azərbaycan Respublikasının prezidentinə müvafiq təkliflər təqdim etsinlər;

Söz, fikir və məlumat azadlığının təmin edilməsini tənzimləyən;

Normativ hüquqi aktların müvafiq beynəlxalq standartlara tam uyğunluğunun təmin edilməsini;

Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq sazişlərin tam və səmərəli həyata keçirilməsini;

Bu sahədə fəaliyyət göstərən müvafiq beynəlxalq qurumlarla və qeyri-hökumət ictimai təşkilatlarla qarşılıqlı əlaqələrin və əməkdaşlığın daha da inkişaf etdirilməsini;

Beynəlxalq mərkəzlərdə müvafiq tədqiqat və təhsil proqramları ilə tanışlıq üçün mütəxəssislərin iştirakının təmin edilməsini;

Beynəlxalq konfrans, seminar, simpozium və digər tədbirlərdə müvafiq dövlət orqanlarının və qeyri-hökumət ictimai təşkilatların, kütləvi informasiya vasitələri nümayəndələrinin iştirakına şərait yaradılmasını təmin edən müvafiq tədbirlər haqqında təkliflərini iki ay müddətində Azərbaycan Respublikasının prezidentinə təqdim etsinlər.

4. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinə tapşırılsın ki, əlaqədar dövlət orqanları ilə birlikdə:

Azərbaycan Respublikasının söz, fikir və məlumat azadlığının qorunması sahəsində müvafiq beynəlxalq sazişlərə qoşulmasının mümkünlüyü məsələsini öyrənsin və iki ay müddətində Azərbaycan Respublikasının prezidentinə təkliflər versin;

Respublikanın mərkəzi kitabxanalarını söz, fikir, məlumat azadlığının qorunması ilə bağlı beynəlxalq təşkilatlar tərəfindən qəbul edilən sənədlərlə və bu sahədə mövcud olan nəşrlərlə təmin etsin.

5. Azərbaycan Respublikasının Mətbuat və İnformasiya Nazirliyinə tapşırılsın ki, Təhsil Nazirliyi ilə birlikdə müvafiq qeyri-hökumət ictimai təşkilatların imkanlarından istifadə etməklə:

Jurnalist kadrların peşə hazırlığının və təhsilinin səviyyəsini qaldırmaq, onlarda yüksək vətəndaşlıq məsuliyyəti və mənəvi dəyərlər aşılamaq üçün əməli tədbirlər həyata keçirsin;

Söz, fikir və məlumat azadlıqlarının qorunması sahəsində ölkəmizdə həyata keçirilən tədbirlərin informasiya şəbəkələri və agentliklər vasitəsilə izahını və yayılmasını təmin etsin.

6. Dövlət Televiziya və Radio Verilişləri Şirkətinə tapşırılsın ki, söz, fikir və məlumat azadlığının qorunması məsələlərinə həsr olunmuş verilişlər təşkil etsin.

7. Nazirlər Kabineti yanında mətbuatda və digər kütləvi informasiya vasitələrində dövlət sirlərini mühafizə edən baş idarə ləğv edilsin.

8. Azərbaycan Respublikası prezidentinin hərbi senzura yaradılması haqqında 16 aprel 1992-ci il tarixli 685 saylı fərmanı və bütün informasiya yayımı üzərində nəzarət tətbiq edilməsi ilə bağlı 15 aprel 1993-cü il tarixli 372 saylı sərəncamı qüvvədən düşmüş hesab edilsin.

9. İzah edilsin ki, mətbuatda və digər kütləvi informasiya vasitələrində dövlət sirlərinin mühafizəsi "Dövlət sirri haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq surətdə həyata keçirilir.

10. Bu fərman imzalandığı gündən qüvvəyə minir.

**Heydər ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*6 avqust 1998-ci il*

# Kütləvi informasiya vasitələri haqqında

## Azərbaycan Respublikasının Qanunu

(İxtisarla)

Bu Qanun Azərbaycan Respublikasında kütləvi informasiyanın axtarılması, əldə edilməsi, hazırlanması, ötürülməsi, istehsalı və yayımının ümumi qaydalarını, habelə mətbuatın, informasiya agentliklərinin, televiziya və radio təşkilatlarının vətəndaşların tam, doğru-dürüst və operativ informasiya almaq hüququnun həyata keçirilməsinə yönəldilmiş fəaliyyətinin təşkilati, hüquqi və iqtisadi əsaslarını müəyyən edir.

**Maddə 1.** Kütləvi informasiya azadlığı

Azərbaycan Respublikasında kütləvi informasiya azaddır.

Kütləvi informasiya azadlığı vətəndaşların qanuni yolla informasiya axtarmaq, əldə etmək, hazırlamaq, ötürmək, istehsal etmək və yaymaq hüququna dövlət tərəfindən təminat verilməsinə əsaslanır.

Kütləvi informasiya vasitələrinin təsis olunması, onlara sahiblik, onlardan istifadə, onların idarə olunması, kütləvi informasiyanın axtarılması, əldə edilməsi, hazırlanması, ötürülməsi, istehsalı və yayımı Azərbaycan Respublikasının kütləvi informasiya vasitələri haqqında qanunvericiliyində nəzərdə tutulan hallardan başqa, məhdudlaşdırıla bilməz.

**Maddə 2.** Bu Qanunun tətbiq sahəsi

Bu Qanun Azərbaycan Respublikasının ərazisində təsis olunmuş bütün kütləvi informasiya vasitələrinə həmçinin onun hüdudlarından kənarda yaradılan kütləvi informasiya vasitələri məhsullarının yalnız Azərbaycan Respublikasının ərazisində yayılan hissəsinə şamil edilir.

**Maddə 5.** Kütləvi informasiya vasitələri haqqında Azərbaycan Respublikasının qanunvericiliyi

Kütləvi informasiya vasitələri haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, bu Qanundan, “Televiziya və radio yayımı haqqında”, “Məlumat

azadlığı haqqında", "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında", "Vətəndaşların "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikası qanunlarından, habelə digər müvafiq qanunvericilik aktlarından ibarətdir.

Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələrlə bu Qanun arasında ziddiyyət yaranarsa, həmin beynəlxalq müqavilələr tətbiq edilir.

**Maddə 7.** Senzuranın yolverilməzliyi

Kütləvi informasiya vasitələri üzərində dövlət senzurasına, habelə bu məqsədlə xüsusi dövlət orqanlarının və ya vəzifələrin yaradılmasına və maliyyələşdirilməsinə yol verilmir. Məlumatın və ya müsahibənin müəllifi olduqları hallardan başqa, dövlət orqanlarının, bələdiyyələrin, idarə, müəssisə və təşkilatların, ictimai birliklərin, vəzifəli şəxslərin, habelə siyasi partiyaların kütləvi informasiya vasitələrində yayılan məlumat və materialların qabaqcadan onlarla razılaşdırılmasını tələb etmək və ya yayılmasını qadağan etmək hüququ yoxdur.

Hərbi vəziyyət dövründə "Hərbi vəziyyət haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq kütləvi informasiya vasitələrinin məlumat və materialları hərbi senzuradan keçirilə, habelə hərbi vəziyyət tətbiq edilən ərazidə (ərazilərdə) kütləvi informasiya vasitələrinin xüsusi fəaliyyət rejimi tətbiq edilə bilər.

Fövqəladə və hərbi vəziyyətin qüvvədə olduğu müddət ərzində şərtləri və bu şərtlərin həyata keçirilməsi qaydası göstərilməklə kütləvi informasiya vasitələrinin azadlığı müvəqqəti məhdudlaşdırıla bilər.

Dini ekstremizm əleyhinə xüsusi əməliyyatın aparılması zonasında kütləvi informasiya vasitələri işçilərinin fəaliyyəti əməliyyat aparan orqan tərəfindən müəyyən edilir.

Dini ekstremizm əleyhinə aparılan xüsusi əməliyyat barədə ictimaiyyətə məlumatlar əməliyyat aparan orqanın müəyyən etdiyi formada və həcmdə verilir.

**Maddə 8.** Kütləvi informasiya vasitələrinin məlumat almaq hüququ

Kütləvi informasiya vasitələri cəmiyyətdəki iqtisadi, siyasi, ictimai və sosial durum haqqında, dövlət orqanlarının, bələdiyyələrin, idarə, müəssisə və təşkilatların, ictimai birliklərin, siyasi partiyaların, vəzifəli şəxslərin fəaliyyəti barədə operativ və doğru-dürüst məlumatlar almaq hüququna malikdirlər. Bu hüquq Azərbaycan Respublikasının qanunvericiliyində göstərilən hallardan başqa, məhdudlaşdırıla bilməz.

Dövlət orqanları, bələdiyyələr, idarə, müəssisə və təşkilatlar, ictimai birliklər, siyasi partiyalar, vəzifəli şəxslər öz fəaliyyətləri haqqında məlumatı kütləvi informasiya vasitəsinin sorğusu əsasında, habelə mətbuat konfransları keçirmək yolu ilə, yaxud başqa formalarda verirlər.

İnformasiya almaq üçün sorğu yazılı və şifahi ola bilər. Tələb olunan informasiyanı adları çəkilən orqan, təşkilat və ictimai birliklərin rəhbərləri, onların müavinləri, mətbuat xidmətinin işçiləri, yaxud digər səlahiyyətli şəxslər verə bilərlər.

Məlumatın əldə edilməsi barədə yazılı sorğuya Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada və müddətdə baxılır. Qanunda göstərilən müddətdə həmin məlumat öz operativliyini itirərsə, sorğuya dərhal, bu mümkün olmadıqda isə 24 saatdan gec olmayaraq cavab verilməlidir.

Kütləvi informasiya vasitəsinin nümayəndəsi məlumatı verməkdən imtina edən dövlət orqanlarından, bələdiyyələrdən, idarə, müəssisə və təşkilatlardan, ictimai birliklərdən, siyasi partiyalardan və ya vəzifəli şəxslərdən Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun şəkildə şikayət etmək hüququna malikdir.

**Maddə 9.** Antiinhisar tədbirlər

Dövlət kütləvi informasiya vasitələrinin iqtisadi müstəqilliyinə təminat verir, kütləvi informasiya vasitələri məhsullarının istehsalı və yayımı sahəsində inhisarçılıq fəaliyyətinin və haqsız rəqabətin qarşısını almaq üçün Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun tədbirlər görür.

**Maddə 10.** Kütləvi informasiya azadlığından sui-istifadənin yolverilməzliyi

Azərbaycan Respublikasının qanunvericiliyi ilə qorunan sirləri, habelə yayılması qadağan edilən digər informasiyanı yaymaq, mövcud konstitusiyalı dövlət quruluşunu zorakılıqla çevirmək, dövlətin bütövlüyünə qəsd etmək, müharibəni, zorakılığı və qəddarlığı, milli, irqi, sosial ədaləti, yaxud dözülməzliyi təbliğ etmək, mötəbər mənbə adı altında vətəndaşların şərəf və ləyaqətini alçaldan şayiələr, yalan və qərəzli yazılar, pornoqrafik materiallar çap etdirmək, böhtan atmaq, yaxud digər qanunazidd əməllər törətmək məqsədi ilə kütləvi informasiya vasitələrindən istifadə olunmasına yol verilmir.

Uşaqlar arasında dövriyyəsi qadağan edilən və ya məhdudlaşdırılan informasiyanın istehsalçısı və yayıcısı "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə riayət etməyə borcludur.

**Maddə 14.** Kütləvi informasiya vasitəsinin təsis edilməsi

Mətbu nəşrlərin təsis edilməsi üçün dövlət orqanlarından icazə tələb olunmur.

Mətbu nəşr təsis etmək istəyən hüquqi və ya fiziki şəxs nəşrin çapından 7 gün əvvəl müvafiq icra hakimiyyəti orqanına rəsmi müraciət etməyə borcludur. Müraciətdə aşağıdakılar göstərilməlidir:

mətbu nəşrin adı, məqsədi, dövriliyi, hüquqi ünvanı;

mətbu nəşrin təsisçisinin, varsa redaktorunun (baş redaktorunun) adı, soyadı;

mətbu nəşrin təsisçisi yaxud redaksiyası hüquqi şəxsdirsə, qeydiyyatdan keçirilmiş nizamnaməsi.

Dini mətbu nəşrlərin təsis edilməsi ilə bağlı müvafiq icra hakimiyyəti orqanının rəyi sənədlərə əlavə olunur.

Mətbu nəşrin təsisçisi müvafiq icra hakimiyyəti orqanına rəsmi müraciət etmədən yayıldıqda yaxud müraciətdə göstərilən məlumatların doğru olmadığı aşkarlandıqda müvafiq icra hakimiyyəti orqanı həmin nəşrin fəaliyyətinə xitam verilməsi barədə müvafiq məhkəmə qarşısında məsələ qaldırır.

Kütləvi informasiya vasitələrini dövlət orqanları, bələdiyyələr, siyasi partiyalar (yalnız mətbu nəşrlər üçün), ictimai birliklər, idarə,

müəssisə və təşkilatlar, Azərbaycan Respublikası ərazisində daimi yaşayan vətəndaşlar təklikdə və ya başqaları ilə birlikdə təsis etmək hüququna malikdirlər.

Kütləvi informasiya vasitəsinin adında dövlət təşkilatlarının, beynəlxalq qurumların, idarə və müəssisələrin, yerli özünüidarəetmə orqanlarının adından istifadə olunmasına həmin qurumların razılığı ilə yol verilir. Azərbaycanın görkəmli şəxsiyyətlərinin adlarını özündə əks etdirən (yaxın qohumlarının və ya vərəsələrinin icazəsi olmadan) və ya əvvəl təsis edilmiş digər mətbu nəşrlə eyni və ya oxşar ada malik olan mətbu nəşrlərin təsis edilməsinə yol verilmir.

Xarici dövlətlərin hüquqi və fiziki şəxslərinin Azərbaycan Respublikası ərazisində kütləvi informasiya vasitəsi təsis etməsi Azərbaycan Respublikasının bağladığı dövlətlərarası müqavilə ilə tənzimlənir (xarici dövlətin hüquqi şəxsi dedikdə, hüquqi şəxsin nizamnamə kapitalının və ya səhmlərinin 30 faizindən çoxunun xarici dövlətlərin hüquqi şəxslərinə və vətəndaşlarına məxsus olduğu və ya təsisçilərinin 1/3 hissəsindən çoxunun xarici dövlətin hüquqi şəxsi və ya vətəndaşı olan hüquqi şəxslər başa düşülür).

Bu maddənin beşinci hissəsində və bu Qanunun 21-ci maddəsində göstərilən, habelə Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulan digər hallardan başqa xarici ölkələrin dövlət orqanlarının, hüquqi və fiziki şəxslərinin kütləvi informasiya vasitələrini maliyyələşdirməsinə yol verilmir.

Həmçinin:

məhkəmənin qanuni qüvvəyə minmiş hökmü ilə azadlıqdan məhrum etmə yerlərində cəza çəkən, habelə fəaliyyət qabiliyyətsizliyi məhkəmə tərəfindən təsdiq edilən şəxslər;

dövlət qeydiyyatından keçməyən yaxud fəaliyyəti qanunla qadağan olunan ictimai birliklər və siyasi partiyalar kütləvi informasiya vasitəsi təsis edə bilməzlər.

Teleradio yayımçısının təsis edilməsi qaydaları müvafiq qanunvericiliklə müəyyən edilir.

**Maddə 49.** Jurnalist statusu

Jurnalistin bu Qanunla müəyyən edilmiş statusu aşağıdakılara şamil edilir;

1) kütləvi informasiya vasitəsinin məlumat toplamaq, hazırlamaq, redaktə və istehsal etməklə məşğul olan ştatlı müxbirlərinə;

2) kütləvi informasiya vasitəsinin məlumat toplanması, hazırlanması və redaktəsi ilə bağlı tapşırıqlarını müntəzəm yerinə yetirən ştatdankənar müxbirlərinə.

**Maddə 59.** Kütləvi informasiya azadlığının və jurnalist hüquqlarının pozulmasına görə məsuliyyət

Kütləvi informasiya vasitələrinin təsisçilərinin, naşirlərinin, redaksiyalarının (məsul redaktorlarının), yayıcılarının və jurnalistlərin qanuni fəaliyyətinə vətəndaşlar, dövlət orqanları, bələdiyyələr, idarə, müəssisə və təşkilatlar, siyasi partiyalar, habelə ictimai birliklər və ya vəzifəli şəxslər tərəfindən hər hansı müdaxilə, o cümlədən:

senzura tətbiq etmək;

peşə müstəqilliyini pozmaq;

tirajı və ya onun bir hissəsini qeyri-qanuni müsadirə etmək, yaxud məhv etmək;

jurnalisti informasiyanı yaymağa və ya informasiyanı çap etdirməkdən (efirə verməkdən) imtinaya məcbur etmək;

jurnalistə informasiya verilməsi üzərinə, qanunla qorunan məlumatlar istisna olmaqla, məhdudiyyətlər qoymaq və ya informasiya verməkdən imtina etmək;

jurnalist sorğusuna qanunla müəyyənləşdirilmiş müddətdə cavab verməmək;

habelə jurnalistin bu Qanunla müəyyənləşdirilmiş digər hüquqlarını pozmaq Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq surətdə mülki, inzibati, cinayət və digər məsuliyyətə səbəb ola bilər.

**Maddə 60.** Kütləvi informasiya azadlığından və jurnalist hüquqlarından sui-istifadəyə görə məsuliyyət

Kütləvi informasiya vasitəsinin redaksiyası (məsul redaktoru) və jurnalistlər (müəlliflər):

1) açıqlanması qanunla qadağan edilən məlumatları açıqladıqda;

2) baş redaktor (redaktor) mətbu nəşrdə çap olunan materialların bu Qanunun tələblərinə uyğun hazırlanmasına nəzarət etmədikdə;

3) bu Qanunda göstərilmiş hallardan başqa informasiyanı onun mənbəyini göstərmədən yaydıqda;

4) vətəndaşların şəxsi həyatına qəsd etdikdə;

5) pornoqrafik materialları dərc etdikdə və ya efirə verdikdə, o cümlədən "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikası Qanununun tələblərini pozduqda Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq surətdə mülki, inzibati, cinayət və digər məsuliyyət daşıyırlar.

Əməliyyat-axtarış tədbirləri keçirilən hallar istisna olmaqla, şəxsin onun xəbəri olmadan və ya etirazına baxmayaraq kütləvi informasiya vasitələrinin nümayəndələri və başqa şəxslər tərəfindən izlənilməsi, video və foto çəkilişinə, səs yazısına və digər bu cür hərəkətlərə məruz qalması qanunvericiliklə müəyyən edilmiş məsuliyyətə səbəb olur.

**Heydər ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*7 dekabr 1999-cu il*

## "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası"nın təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasının sürətli sosial-iqtisadi inkişafı, ictimai həyatın bütün sahələrinin yeniləşməsi fikir, söz və məlumat azadlığının, plüralizmin daha geniş təmin olunması üçün əlavə tədbirlər görülməsini zəruri edir. Hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunun dərinləşməsi, Azərbaycanın dünya informasiya məkanına daxil olması və informasiya cəmiyyətinə keçid şəxsiyyətin, cəmiyyətin və dövlətin informasiyaya olan tələbatının daha dolğun ödənilməsinə, kütləvi informasiya vasitələrinin fəaliyyətinin təkmilləşməsinə və müasir dövrün tələblərinə uyğunlaşmasına ehtiyac yaradır.

Dövlət orqanları ilə kütləvi informasiya vasitələri arasında səmərəli əməkdaşlıq münasibətlərinin inkişaf etdirilməsi, kütləvi informasiya vasitələrinin iqtisadi müstəqilliyinin və jurnalistlərin peşəkarlığının artırılması, vətəndaş cəmiyyəti quruculuğunda kütləvi informasiya vasitələrinin rolunun gücləndirilməsi məqsədi ilə qərara alıram:

1. "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikası Prezidentinin İcra Aparatına tapşırılsın ki:

2.1. üç ay müddətində kütləvi informasiya vasitələrinin inkişafına dəstək fondunun yaradılmasına dair təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

2.2. "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası"nın müddəalarının

yerinə yetirilməsinə nəzarəti həyata keçirsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə mütəmadi məlumat versin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

4. Bu Sərəncam dərc edildiyi gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*31 iyul 2008-ci il*

## Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Ötən əsrin 90-cı illərində Azərbaycan Respublikasında dövlət müstəqilliyi bərpa edildikdən sonra müasir medianın formalaşması və inkişafı üçün geniş imkanlar yaranmışdır. Həyata keçirilmiş köklü islahatlar nəticəsində ölkədə senzura, söz və məlumat azadlığını məhdudlaşdıran digər süni maneələr aradan qaldırılmış, medianın fəaliyyətini tənzimləyən mütərəqqi qanunvericilik bazası formalaşdırılmış, redaksiyaların davamlı inkişafı, onların iqtisadi müstəqilliyinin gücləndirilməsi, jurnalistlərin sərbəst fəaliyyətinin təmin edilməsi məqsədilə ardıcıl tədbirlər görülmüşdür.

Ötən dövr ərzində Azərbaycan mediası özünəməxsus inkişaf yolu keçmiş, ölkəmizdə və dünyada baş verən hadisələrlə bağlı cəmiyyətin məlumatlandırılması, xalqımızın haqq səsinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində məqsədyönlü fəaliyyət göstərmişdir. Bununla yanaşı, Azərbaycanda cəmiyyət həyatının hər bir sahəsini əhatə edən köklü islahatların həyata keçirildiyi, habelə bütün dünyanı əhatə edən vahid informasiya məkanında yeniliklərin intensiv xarakter aldığı, kommunikasiya vasitələrinin sürətlə inkişaf etdiyi, mütərəqqi texnologiyaların, iş metodlarının tətbiq olunduğu müasir dövrdə media sahəsində keyfiyyət dəyişikliklərinə ehtiyac vardır.

Qlobal informasiya mühitinin müəyyənləşdirdiyi fəaliyyət prinsiplərinə uyğun olaraq modernləşmə, rasionallıq, qabaqcıl texnologiyaların geniş tətbiqi, aparıcı trendlərin izlənilməsi və digər mühüm şərtləri özündə birləşdirən innovativ təkamülün yaratdığı imkanlardan Azərbaycan mediasının daha çox bəhrələnməsi, onun şəffaflıq və vətəndaş məmnunluğu prinsiplərinə əsaslanan, cəmiyyətin obyektiv və peşəkar şəkildə məlumatlandırılmasına

xidmət edən fəaliyyətinin stimullaşdırılması üçün bu sahədə əsaslı islahatlar aparılmasına zərurət yaranmışdır.

Azərbaycan Respublikasında medianın inkişafının dəstəklənməsi, bu sahədə institusional quruculuq işlərinin davam etdirilməsi, yeni informasiya-kommunikasiya texnologiyalarının və innovasiyaların tətbiqinin stimullaşdırılması məqsədilə, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun əsasında "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi" publik hüquqi şəxs yaradılsın.

2. "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin Nizamnaməsi" təsdiq edilsin (əlavə olunur).

3. Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi (bundan sonra – Agentlik) Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun hüquqi varisidir, onun hüquq və öhdəlikləri, habelə əmlakı Agentliyə keçir.

4. Agentliyin nizamnamə fondu 285 405 (iki yüz səksən beş min dörd yüz beş) manat təşkil edir və dövlət büdcəsinin vəsaiti hesabına formalaşır.

5. Müəyyən edilsin ki:

5.1. Agentliyin fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti Azərbaycan Respublikası Prezidentinin vəzifəyə təyin və vəzifədən azad etdiyi sədr və 6 (altı) üzvdən ibarət Müşahidə Şurası həyata keçirir;

5.2. Agentliyin fəaliyyətinə cari rəhbərliyi Azərbaycan Respublikası Prezidentinin vəzifəyə təyin və vəzifədən azad etdiyi İcraçı direktor həyata keçirir;

5.3. Agentliyin saxlanma xərcləri və fəaliyyəti dövlət büdcəsi və qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşir.

6. Agentliyin təsisçisinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

6.1. Azərbaycan Respublikasının Prezidentinə:

6.1.1. Agentliyin nizamnaməsinin təsdiqi və nizamnamə fondunun miqdarının müəyyən edilməsi, onların dəyişdirilməsi;

6.1.2. Agentliyin idarəetmə orqanlarının yaradılması, idarəetmə orqanlarının rəhbərlərinin (üzvlərinin) vəzifəyə təyin və vəzifədən azad edilməsi;

6.1.3. Agentliyin ləğvi və yenidən təşkili;

6.1.4. nizamnaməsində nəzərdə tutulmayan məqsədlər üçün Agentliyin mənfəətinin dövlət büdcəsinə köçürülməsi barədə qərar qəbul edilməsi;

6.1.5. Agentliyin işçilərinin say həddinin və onların əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğinin təsdiqi;

6.1.6. Agentliyin təsərrüfat cəmiyyətlərinin yaradılmasına və ya onlarda iştirak etməyə, idarə, filial və nümayəndəliklərin yaradılmasına razılıq verilməsi;

6.2. Agentliyə:

6.2.1. bu Fərmanın 6.1-ci bəndində qeyd edilənlər istisna olmaqla, “Publik hüquqi

şəxslər haqqında” Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

7. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası:

7.1. “Media haqqında” Azərbaycan Respublikası qanununun layihəsini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

7.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

8. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

8.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb

Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

8.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

8.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

8.4. dövlət qeydiyyatına alındığı gündən bir ay müddətində Agentliyin inzibati bina ilə təmin edilməsi və maddi-texniki təminatı məsələlərini həll etsin;

8.5. Agentlik "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alındığı gündən bir ay müddətində Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun balansındakı əmlakın Agentliyin balansına verilməsini təmin etsin;

8.6. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

9. Agentlik:

9.1. Agentliyin işçilərinin say həddi və onların əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləği barədə təkliflərini bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

9.2. Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun işçilərinin Agentlikdə müvafiq vəzifələrə təyin olunmaları ilə bağlı tədbirlər görsün və nəticəsi barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin;

9.3. Agentliyin dövlət qeydiyyatına alınması üçün bu Fərman qüvvəyə mindiyi tarixdən 3 (üç) gün müddətində "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respub-

likasının Qanunu ilə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə müraciət etsin;

9.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

10. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:

10.1. bu Fərmanın 4-cü hissəsində və 5.3-cü bəndində nəzərdə tutulan maliyyələşməni təmin etsin;

10.2. Agentliyin saxlanılması və fəaliyyəti üçün tələb olunan vəsaiti hər il üçün dövlət büdcəsinin layihəsində nəzərdə tutsun.

11. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*12 yanvar 2021-ci il*

# Azərbaycanda Milli Mətbuatın yaradılmasının 125 illiyi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycanın ictimai həyatının ən mühüm hadisələrindən biri olan milli mətbuatın formalaşması XIX əsrin ortalarına təsadüf edir. Azərbaycan və eləcə də bütün Şərq aləmi üçün tamamilə yeni siyasi, mədəni və elmi ünsiyyət vasitəsi olan mətbuatın yaranması əslində ölkədə gedən mühüm ictimai-siyasi, iqtisadi və mədəni proseslərlə, o cümlədən maarifçilik hərəkatının, dünyəvi teatrın və yeni tipli məktəbin təşəkkül tapması ilə sıx bağlıdır.

1832-ci ildə "Tiflis əxbarı" qəzeti və 1845-ci ildə "Zaqafqazski vestnik" qəzetinə "Qafqazın bu tərəfinin xəbəri" adlı azərbaycanca buraxılan əlavə milli mətbuatın yaradılması istiqamətində atılmış ilk addımlar olmuşdur. Rəsmi bülleten xarakteri daşıyan həmin nəşrlər sözün əsl mənasında hələ qəzet adlandırıla bilməzdi.

Milli mətbuatımızın bünövrəsi 1875-ci il iyulun 22-də "Əkinçi" qəzetinin ilk nömrəsinin nəşri ilə qoyuldu. Bütün Qafqazda böyük əks-səda doğuran bu qəzetin naşiri də, redaktoru da, korrektoru da Azərbaycan milli maarifçilik hərəkatının banilərindən biri, təbiətşünas alim Həsən bəy Zərdabi idi. Qəzetin ərsəyə gəlmisində Mirzə Fətəli Axundov, Seyid Əzim Şirvani, Nəcəf bəy Vəzirov, Əsgər ağa Gorani və başqa ziyalıların böyük xidmətləri olmuşdur. Dövrünün görkəmli maarifçiləri olan bu şəxsiyyətlər "Əkinçi" qəzeti səhifələrində öz maarifçi və demokratik ideyalarını təbliğ edərək, ictimai, siyasi və bədii fikrin inkişafına böyük təsir göstərmişlər.

Mütərəqqi ideyaların carçısı və tribunası olan "Əkinci" elm, maarif və mədəniyyətin, ədəbiyyat və incəsənətin inkişafına, yeni tipli məktəblərin yaradılmasının zəruriliyinə aid materiallar dərc edirdi. Qəzetin qazandığı ən böyük uğurlar ilk növbədə onun dilinin xalq

dilinə yaxın, sadə və səlis olması idi. Xalqın elmi və mədəni cəhətdən tərəqqi etməsi uğrunda çalışan "Əkinçi" qadın azadlığı və qadın təhsili ideyasını təbliğ edən ilk Azərbaycan qəzeti olmuşdur. O, dini mövhumata, xurafata və cəhalətə qarşı kəskin çıxışlar edirdi. Qəzetdə təbiət elmləri və kənd təsərrüfatının inkişafı ilə bağlı elmi-kütləvi məqalələr verilirdi. "Əkinçi" Azərbaycandan kənarda da – Gürcüstan, Dağıstan, Özbəkistan və başqa yerlərdə yayılırdı.

Milli demokratik mətbuatın "Əkinçi" qəzeti tərəfindən bəyan edilmiş başlıca prinsipləri – maarifləşmə, müasirləşmə, məfkurə saflığı, ümummilli məqsədlərin təbliği, bəşəri dəyərlərin milli ənənələrlə üzvi vəhdəti, ədəbi dilin danışıq dilinə yaxınlaşdırılması, hadisələrin obyektiv işıqlandırılması Azərbaycanda milli demokratik mətbuatın gələcək inkişafı üçün təməl daşları rolunu oynadı.

1877-ci ildə "Əkinçi" qəzeti bağlandıqdan sonra müxtəlif səylər göstərilməsinə baxmayaraq ölkəmizdə bir müddət azərbaycanca mətbu orqan çıxmamışdır. Ölkədə cərəyan edən ictimai proseslər və cari məsələlər bir müddət yerli rusdilli mətbuatda öz əksini tapırdı. Bakıda rus dilində çıxan ilk qəzet isə birinci nömrəsi 1871-ci ilin mart ayında işıq üzü görən "Bakinski listok" olmuşdur. 1876-cı ildə ikinci rusdilli qəzet "Bakinskiye izvestiya" nəşrə başlamışdır. Rusdilli qəzetlər içərisində daha uzunömrlü olmuş "Kaspi"nin 1897-ci ildən etibarən nşirliyini Hacı Zeynalabdin Tağıyev öz üzərinə götürmüş və təxminən, həmin dövrdən onun redaktoru Əlimərdan bəy Topçubaşov, sonralar isə Əlibəy Hüseynzadə olmuşdur. Rus dilində nəşr edilən qəzetlər Azərbaycan səhifəsi yaratmaq təşəbbüsü göstərsələr də buna nail ola bilməmişlər.

1879-cu ildə Hacı Səid Əfəndi Ünsizadə Tiflisdə "Ziyayi-Qafqaziyyə" qəzetini çıxarmağa nail olmuşdur. Qəzetin cəmi 104 nömrəsi çıxdıqdan sonra 1880-ci ildə o, çapını dayandırmışdır. 1883-1891-ci illərdə Tiflisdə "Əkinçi" üslubunu davam etdirən "Kəşkül" qəzeti və jurnalı çıxırdı.

XX əsrdə isə Azərbaycan dilində çıxan ilk qəzet Məmmədağa Şaxtaxtinskinin 1903-cü ildə Tiflisdə buraxdığı ictimai-siyasi, iqtisadi, elmi, ədəbi "Şərqi-rus" qəzeti olmuşdur. Qəzetin Azərbaycanda ictimai

fikir tarixinin inkişafında xüsusi yeri olmuşdur. Qəzetdə dünyəvi elmlər, ana dili, qadın azadlığı ilə bağlı mütərəqqi fikirlər öz əksini tapırdı. "Şərqi-rus" qəzeti Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Abbas Səhhət, Ömər Faiq Nemənzadə, Hüseyn Cavid, Məmməd Səid Ordubadi, Əliqulu Qəmküsar, Əli Nəzmi kimi böyük maarifçiləri öz ətrafında birləşdirə bilmişdi. Qəzetin ən böyük xidmətlərindən biri də Cəlil Məmmədquluzadəni bir jurnalist kimi üzə çıxarması oldu. O, mətbuatda demokratik cərəyanın bərqərar edilməsində mühüm rol oynayan peşəkar bir redaktor kimi məhz bu qəzetdə yetişmişdir.

Artıq "Şərqi-rus" qəzeti ətrafında formalaşmış yaradıcı heyət Azərbaycanda mətbuatın inkişafının yeni mərhələsinin başlanması üçün zəmin yaratdı. Cəlil Məmmədquluzadənin təşəbbüsü, redaktorluğu və naşirliyi ilə 1906-cı il aprelin 7-də Tiflisdə həftəlik illüstrasiyalı ilk Azərbaycan satirik jurnalı – "Molla Nəsrəddin" işıq üzü gördü. 1918-ci ilədək Tiflisdə nəşr olunan jurnal 1921-ci ildə Təbrizdə, 1921-1931-ci illərdə isə Bakıda çap olunmuşdur.

Mütərəqqi ideyaların carçısı olan "Molla Nəsrəddin" jurnalı müstəmləkəçilik siyasətini, geriliyi, mövhumatı amansız satira atəşinə tutur, Azərbaycan dilinin saflığı uğrunda ardıcıl mübarizə aparırdı. Kəskin və cəsarətli tənqidi çıxışlarına, acı həqiqətləri söylədiyinə görə daim hücum və təqiblərə məruz qalan jurnalın nəşri çar senzurası tərəfindən dəfələrlə dayandırılmış, bir sıra nömrələri müsadirə olunmuş, redaktoru bir neçə dəfə məhkəmə məsuliyyətinə cəlb edilmiş, cərimə edilmişdir. Lakin bütün təqib və təzyiqlərə baxmayaraq, "Molla Nəsrəddin"in haqq səsi çox keçmədən Qafqazın hüdudlarını aşıb Rusiyada, türk aləmində, bütün Yaxın və Orta Şərqdə eşidildi. Jurnalın Mərkəzi Asiyada, Krımda, İrəvan, Kazan, Ufa, Həştərxan, Orenburq, Təbriz, Tehran, Ərzurum, İstanbul, Qahirə, Bombey, Kəlküttə və sair şəhərlərdə çoxlu oxucusu var idi.

"Molla Nəsrəddin" dövrünün mühüm siyasi hadisələrinə səs verir, milli oyanış prosesinə xidmət edirdi. Jurnalın mövzu və təsir dairəsi çox geniş idi. "Molla Nəsrəddin" Azərbaycan xalqının mütərəqqi

qüvvələrini, demokratik ziyalıları öz ətrafında toplamışdı. Jurnalda Azərbaycanın görkəmli şair, yazıçı və jurnalistləri ilə yanaşı Oskar Şmerlinq, İosif Rotter, Əzim Əzimzadə kimi rəssamlar da fəaliyyət göstərərək Azərbaycanda yeni rəssamlıq məktəbinin təməlini qoydular. "Molla Nəsrəddin"in müasir ədəbiyyat, maarifləşmə, demokratikləşmə uğrunda mübarizəsi, onun güclü satirası jurnalda əməkdaşlıq edən sair və yazıçıların yaradıcılıq istiqamətini müəyyən etmiş, onların görkəmli sənətkar kimi formalaşmasında həlledici amil olmuş, beləliklə də "Mollanəsrəddinçilik" adlı böyük bir ictimai-ədəbi hərəkat yaranmışdı. Mollanəsrəddinçilər klassik Azərbaycan, Şərq, rus və dünya bədii-publisist irsinin ənənələrindən, xalq yumorundan məharətlə bəhrələnərək, milli mətbuat tarixində satirik jurnalistikanın bünövrəsini qoyulmuş, Azərbaycan publisistikasını janr və üslub rəngarəngliyi ilə zənginləşdirərək onun inkişafında misilsiz rol oynamışlar.

Bu dövr Azərbaycanda uşaq və valideynlər üçün "Dəbistan", "Rəhbər", "Məktəb" kimi jurnalların buraxılması ilə də əlamətdar idi. Azərbaycan ziyalılarının fəal iştirakı ilə nəşr olunan "Həyat", "Füyuzat", "Təzə həyat", "Şəlalə", "Açıq söz", "Dirilik" kimi qəzet və jurnalların da mətbuatımızın inkişafında böyük rolu olmuşdur.

Əsrin əvvəllərində Azərbaycanda çıxan dövri mətbuat orqanları sözsüz ki, milli oyanış, milli özünüdərk proseslərinin aparıcı vasitələrindən biri olmuşdur.

Azərbaycanın 1918-ci il mayın 28-də öz müstəqilliyini qazanmasında milli mətbuatın da mühüm rolu olmuşdur. Azərbaycan Xalq Cümhuriyyətinin bütün xadimlərinin həm bir lider kimi formalaşmasında, həm də onların siyasi fəaliyyətinin gerçəkləşdirilməsində mətbuatın misilsiz xidmətləri vardır. Azərbaycan Xalq Cümhuriyyəti dövründə ümummilli platformadan çıxış edən "Azərbaycan" qəzetinin dahi Üzeyir bəy Hacıbəyov tərəfindən nəşr edilməsi ictimai-siyasi proseslərin milli mədəniyyətin inkişafı ilə nə qədər bağlı olduğunun ən bariz nümunəsidir. Əslində Cümhuriyyət dövrü mətbuatının fəaliyyəti Həsən bəy Zərdabi ideyalarının, "Əkinçi" prinsip-

lərinin həyata keçirilməsinin yeni və çox mühüm mərhələsi idi. Təəssüf ki, bu mərhələnin ömrü az oldu.

XX əsrin 70 ildən artıq dövri sovet mətbuatının fəaliyyət göstərdiyi illərə təsadüf edir. Bu dövrün də xüsusi yeri vardır. Məhz bu illərdə qəzet və jurnalların şəbəkəsi genişlənmiş, mətbuat kütləvi informasiya vasitələrinin yeni növləri hesabına zənginləşmişdir. Jurnalistikanın çeşidki növləri meydana çıxmışdır. Mətbuat daha çox partiyalı, sinifi olsa da, vətənpərvər jurnalistlərimiz öz qələmlərini daim xalqın xidmətində işlətmiş və bu yolda bəzən təqiblərə də məruz qalmışlır.

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra mətbuatın inkişafı daha çox partiyalı mövqe ilə bağlı idi. Respublikanın "Kommunist" (ilk nömrəsi 1919-cu ildə çıxmışdır), "Bakinskiy raboçiy" (1906-ci ildən çıxır), "Vışka" (1928-ci ildən çıxır), "Azərbaycan gəncləri", "Molodyoj Azerbaydjana" (ilk nömrələri 1919-cu ildə çıxmışdır), "Bakı"–"Baku" (1958-ci ildən çıxır), "Ədəbiyyat və incəsənət" (1934-cü ildən çıxır) və sair tanınmış mətbuat orqanlarında kommunist ideologiyası ilə bağlı məsələlərlə yanaşı respublikanın iqtisadi, elmi, mədəni inkişafı ilə əlaqədar problemlər də öz əksini tapırdı.

Xalqın həyatının işıqlandırılmasında, ideoloji buxovların mövcudluğuna baxmayaraq, öz səhifələrində müxalif fikrə də yer verən, o dövr üçün doğrudan da vətənpərvər ruhlu məqalələr dərc edən mətbuat orqanlarının milli şüurun və özünüdərkin formalaşdırılmasında böyük rolu olmuşdur. Bu qəzetlərin xalqımızın dil, ədəbiyyat və mədəniyyətinə həsr etdiyi, azərbaycançılıq ideyasına xidmət edən yazıları bu gün də aktual olaraq qalır və totalitar rejim şəraitində belə Azərbaycan jurnalistikasının mövqeyini nümayiş etdirir.

Sovet hakimiyyəti illərində Azərbaycan mətbuatı kommunist ideologiyasının güclü təsiri altında fəaliyyət göstərsə də, o öz milli varlığını qoruyub saxlaya bilmiş, əldə etdiyi zəngin ənənələri davam etdirərək respublikanın ictimai-siyasi həyatında fəal rol oynamışdır. Məhz bu dövrdə publisistikanın tamamilə yeni bir növü- teleradio jurnalistikası təşəkkül tapdı. Mətbuatımızın coğrafiyası və ifadə

vasitələri genişlənərək respublikanın ictimai-siyasi həyatının demək olar ki, bütün sahələrini əhatə etmişdir.

Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra həyatın bir çox sahələrində olduğu kimi mətbuatın inkişafında da dönüş yarandı, siyasi plüralizm və söz azadlığını təmin etmək üçün mühüm işlər həyata keçirildi. Hələ Azərbaycan Xalq Cümhuriyyəti illərindən sonra rüşeym halında inkişafını dayandırmış proseslər yenidən dirçələrək demokratik mətbuatın inkişafına xidmət etdi.

Azərbaycan mətbuatının sürətli inkişafı respublikamızda dünya standartlarına cavab verən müstəqil kütləvi informasiya vasitələrinin yaranmasına gətirib çıxardı. Bu gün hüquqi, demokratik dövlət və vətəndaş cəmiyyəti qurmaq istiqamətində irəliləyən Azərbaycanda 650-dən çox müxtəlif kütləvi informasiya vasitəsi - qəzet, jurnal, informasiya agentliyi və teleradio şirkətləri fəaliyyət göstərir. Bu da ölkəmizin mətbuatının inkişaf yolunda olmasına dəlalət edir.

Milli özünüdərkin bərqərar olmasında, vətənpərvərlik hisslərinin aşılanmasında, milli və ümumbəşəri dəyərlərin təbliğində müstəsna rol oynamış Azərbaycan mətbuatı xalqımızın azadlıq və müstəqillik uğrunda mübarizəsinə öz böyük töhfəsini vermişdir.

Yarandığı 125 il ərzində Azərbaycan milli mətbuatı zəngin və mənalı bir inkişaf yolu keçmişdir. Azərbaycan xalqının qədim ədəbi və mədəni irsə malik olması, Şərq və Qərb sivilizasiyasının qovuşduğu məkanda formalaşmış mədəniyyəti demokratik milli mətbuatın gələcək inkişafı üçün möhkəm zəmin yaratmışdır.

Azərbaycan mətbuatının ictimai-siyasi və mədəni həyatımızın inkişafındakı mühüm rolunu, respublikanın həyatında böyük əhəmiyyətini nəzərə alaraq qərara alıram:

Azərbaycanda demokratik mətbuatının yaradılmasının 125 illiyi təntənəli surətdə qeyd olunsun.

**Heydər ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*27 mart 2000-ci il*

# Azərbaycan Milli Mətbuatının 130 illik yubileyinin keçirilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2005-ci ildə zəngin tarixi, mütərəqqi və şanlı ənənələri olan Azərbaycan milli mətbuatının 130 ili tamam olur. 1875-ci il iyulun 22-də "Əkinçi" qəzetinin nəşrə başlaması ilə böyük maarifçi, naşir Həsən bəy Zərdabi tərəfindən əsası qoyulmuş Azərbaycan milli mətbuatı ölkəmizdə həmişə qabaqcıl ideyaların carçısı, dövrün, ictimai-siyasi həyatın güzgüsü olmuşdur. XIX əsrin sonu – XX əsrin əvvəlində milli azadlıq ideyalarının, milli şüurun, mədəniyyətin, maarifçiliyin inkişafında Azərbaycan mətbuatının rolu danılmazdır.

İctimai fikrin digər ifadə vasitələrinin kifayət qədər inkişaf etmədiyi bir zamanda mətbuat qabaqcıl ideyaları cəsarətlə təbliğ etmiş, xalqın geniş dairələrini düşündürən, zehnini məşğul edən problemləri diqqət mərkəzinə gətirmiş, ictimaiyyətin müzakirəsinə çıxarmışdır. Xalqımızın milli-mənəvi dəyərlərinin qorunmasında və zənginləşməsində, Azərbaycan ədəbi dilinin inkişafında milli mətbuat müstəsna xidmətlər göstərmişdir.

Azərbaycan Respublikasının müstəqillik qazandığı və suveren dövlət quruculuğu prosesini yaşadığı müasir dövrdə kütləvi informasiya vasitələri, o cümlədən milli mətbuatımızın qarşısında tamamilə yeni vəzifələr durur. Bu gün mətbuat müstəqil dövlət, sivil, demokratik vətəndaş cəmiyyəti quruculuğunda, iqtisadi və sosial islahatların həyata keçirilməsində, cəmiyyətdə sosial ədalət və şəffaflığın təmin edilməsində, insan hüquqlarının müdafiəsində, həmrəylik və tolerantlıq mühitinin yaradılmasında, milli şüurun, siyasi mədəniyyətin və bütövlükdə sağlam mənəvi dəyərlərin formalaşmasında mühüm rol oynamalıdır. Hazırda ölkəmizdə həyata keçirilən bütün bu proseslərin mətbuatın, kütləvi informasiya vasitələrinin iştirakı olmadan reallaşdırılması təsəvvür edilə bilməz.

Azərbaycanda demokratik, plüralist mətbuatın formalaşmasından, onun hüquqi normativ bazasının yaradılmasından, azad sözün, fikir və məlumat azadlığının təmin edilməsindən danışarkən ümummilli liderimiz Heydər Əliyevin xidmətlərini ayrıca qeyd etmək lazımdır. Azad mətbuatın inkişafına əngəl yaradan süni məhdudiyyətlərin, o cümlədən senzuranın aradan qaldırılması, qanunvericiliyin təkmilləşdirilməsi və müasir dünya standartlarına uyğunlaşdırılması, kütləvi informasiya vasitələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi və onlar üçün çoxsaylı güzəştlərin müəyyənləşdirilməsi, bu istiqamətdə verilmiş bir sıra fərman və sərəncamlar, mətbuat işçiləri ilə mütəmadi görüşlər ənənəsinin yaradılması, KİV-lə bağlı problemlərə operativ və prinsipial müdaxilə – bütün bunlar Heydər Əliyevin azad sözə və onun daşıyıcılarına münasibətini səciyyələndirən faktlardır.

Bu gün dövlət – mətbuat münasibətlərində Heydər Əliyevin siyasətini və ənənələrini davam etdirərək, Azərbaycan dövləti mətbuatın fəaliyyətinə normal şərait yaradılması, onun cəmiyyət həyatına təsirinin, demokratikləşmə proseslərində rolunun təmin edilməsi və artırılması, vətəndaşların və jurnalistlərin informasiya almaq hüququnun tam reallaşdırılması üçün ardıcıl tədbirlər görür. Qloballaşma və informasiya əsrində bütün dövlət orqanlarının fəaliyyətində professionallıqla yanaşı, şəffaflıq prinsiplərinin də tətbiq olunmasını təmin etmək zərurəti yaranır, onların ictimaiyyətlə əlaqələrinin fəallaşdırılması üçün təsirli tədbirlər görülür. İndiki şəraitdə dövlət qurumları qarşısında KİV-lə normal, işgüzar münasibətlərin qurulması, jurnalistlərin informasiya almaq hüquqlarına hörmətlə yanaşılması, mətbuatla hərtərəfli əməkdaşlıq edilməsi vəzifəsi qoyulmuşdur. Bundan başqa, mətbuatın müstəqilliyinin, maddi bazasının, maliyyə təminatının möhkəmləndirilməsində, jurnalistlərin peşəkarlıq səviyyəsinin, jurnalist nüfuzunun yüksəldilməsində dövlətin maraqlı olduğu bəyan edilir və bunun üçün konkret tədbirlər görülür.

Mətbuat və informasiya sahəsində münasibətləri tənzimləyən dövlət qurumunun olmadığı şəraitdə ictimai özünütənzimləmə orqanı kimi Mətbuat Şurasının rolu artırılmalıdır. Mətbuat Şurası dövlət –

mətbuat, vətəndaş – mətbuat münasibətlərinin sivil yolla nizamlanmasında, jurnalist etikasına əməl olunmasında, jurnalistlərin hüquqlarının müdafiəsində, informasiya almaq imkanlarının genişləndirilməsində getdikcə daha fəal rol oynamalıdır. Mətbuatdan və bütün kütləvi informasiya vasitələrindən daha çox obyektivlik, peşəkarlıq, qərəzsizlik, yüksək milli şüur və vətənpərvərlik, aktual problemlərə diqqət yönəldilməsi gözlənilir.

Azərbaycan milli mətbuatının və bütövlükdə kütləvi informasiya vasitələrinin ölkənin ictimai-siyasi həyatında və müasir demokratik cəmiyyətdə rolunu nəzərə alaraq qərara alıram:

1. Azərbaycan milli mətbuatının 130 illik yubileyi ölkəmizdə geniş qeyd olunsun.

2. Azərbaycan Respublikası Prezidentinin İcra Aparatına tapşırılsın:

– Mətbuat Şurası ilə birlikdə Bakı şəhərində və respublikanın digər şəhər və rayonlarında yubiley tədbirlərinin keçirilməsini təmin etsin;

– bir ay müddətində Mətbuat Şurasının, jurnalist təşkilatlarının və redaksiyaların təklifləri əsasında Azərbaycan milli mətbuatının inkişafında xüsusi xidmətləri olan jurnalistlərin mükafatlandırılması haqqında təklifləri Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

3. Nazirlər Kabinetinə tapşırılsın ki, Azərbaycan Respublikası Prezidentinin İcra Aparatı ilə razılaşdırılmaqla, bir ay müddətində Mətbuat Şurasının təqdim etdiyi layihələrin qismən maliyyələşdirilməsi, maddi-texniki təchizatı, ofis, nəqliyyat və s. ilə təmin edilməsi məsələlərinə baxsın.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*20 iyun 2005-ci il*

## Azərbaycan Milli Mətbuatının 135 illik yubileyinin keçirilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2010-cu ildə zəngin tarixi ənənələrə malik Azərbaycan milli mətbuatının 135 ili tamam olur. 1875-ci il iyulun 22-də görkəmli maarifçi və publisist Həsən bəy Zərdabi tərəfindən nəşr olunmağa başlayan "Əkinçi" qəzeti ilə əsası qoyulmuş Azərbaycan milli mətbuatı bütün dövrlərdə həqiqət carçısı olmuş, cəmiyyəti düşündürən problemləri, dövrün qabaqcıl ideyalarını və mütərəqqi fikirlərini əks etdirmiş, xalqımızın maariflənməsində, milli və bəşəri dəyərlərin təbliğində mühüm rol oynamışdır.

Mürəkkəb, lakin şərəfli inkişaf yolu keçmiş milli mətbuatımız həmişə xalqımızın şanlı tarixinin güzgüsü olmuşdur. XlX əsrin ikinci yarısı – XX əsrin əvvəllərində "Əkinçi" ənənələrini davam etdirən "Ziya", "Kəşkül", "Şərqi-rus", "Həyat", "İrşad", "Molla Nəsrəddin" və digər nəşrlər insanları yüksək ideallar uğrunda mübarizəyə səsləmiş, milli oyanış və özünüdərk prosesinin aparıcı nümunələri kimi tanınaraq şöhrət qazanmışlar. Azərbaycan mətbuatı xalqımızın azadlıq arzularının gerçəkləşməsinə, mənəvi dəyərlərinin qorunmasına, mədəniyyətinin tərəqqisinə, qabaqcıl ictimai fikrin, milli şüurun formalaşmasına böyük töhfələr vermişdir.

XX əsrin sonlarında müstəqillik qazandıqdan sonra demokratik, hüquqi, dünyəvi dövlət quruculuğunu özünün inkişaf modeli kimi qəbul edən Azərbaycan Respublikasında söz və məlumat azadlığının təmin edilməsi, kütləvi informasiya vasitələrinin sərbəst fəaliyyətinə zəruri şərait yaradılması prioritet vəzifə kimi müəyyənləşdirilmişdir. Ümummilli lider Heydər Əliyevin siyasi iradəsi və böyük səyləri nəticəsində plüralizmi, söz və məlumat azadlığını məhdudlaşdıran

süni maneələr aradan qaldırılmış, kütləvi informasiya vasitələrinin fəaliyyətini tənzimləyən qanunvericilik bazası təkmilləşdirilərək beynəlxalq standartlara uyğunlaşdırılmışdır.Heydər Əliyevin fərman və sərəncamları ilə mətbuatın maddi-texniki bazasının, iqtisadi müstəqilliyinin gücləndirilməsi, jurnalistlərin azad fəaliyyəti üçün əlverişli şəraitin təmin edilməsi məqsədilə çoxsaylı tədbirlər həyata keçirilmiş, mətbuat-dövlət münasibətlərində mütərəqqi ənənələrin əsası qoyulmuşdur. Hazırda Azərbaycanda yüzlərlə mətbuat orqanı, informasiya agentliyi, teleradio şirkətləri, sürətlə inkişaf edən internet resursları vətəndaş cəmiyyəti quruculuğunun fəal iştirakçısına çevrilərək cəmiyyətimizin informasiyaya olan ehtiyacının ödənilməsində əhəmiyyətli rol oynayırlar.

Ölkəmizin sürətlə inkişaf etdiyi, demokratikləşmə prosesinin dərinləşdiyi, cəmiyyət həyatının bütün sahələrinin yeniləşdiyi müasir dövrdə kütləvi informasiya vasitələrinin, o cümlədən milli mətbuatımızın qarşısında yeni vəzifələr durur. Bu gün Azərbaycan mətbuatı müasir informasiya cəmiyyəti quruculuğunda, sosial ədalət və şəffaflığın təmin edilməsində, milli həmrəyliyin və tolerantlığın möhkəmləndirilməsində, demokratik özünüdərkin, siyasi mədəniyyətin inkişafında, milli-mənəvi və ümumbəşəri dəyərlərin qorunub saxlanması və təbliğində mühüm rol oynamalı, tədris və maarifləndirmə sahəsində fəaliyyətini gücləndirməlidir. Azərbaycan jurnalistikası peşəkarlıq, obyektivlik, qərəzsizlik, yüksək milli şüur və vətənpərvərlik prinsiplərinə dönmədən əməl etməli, söz və məlumat azadlığından sui-istifadənin qarşısı qətiyyətlə alınmalıdır.

Bütün dünyada olduğu kimi, Azərbaycanda da mətbuat qarşıda duran vəzifələri yeni informasiya resurslarının ardıcıl inkişafı ilə şərtlənən mürəkkəb rəqabət mühitində yerinə yetirir. Azərbaycan dövlətinin artan imkanları milli mətbuatımızın inkişafı yolunda çətinliklərin aradan qaldırılması, onun aktual problemlərinin həlli məqsədilə kompleks tədbirlərin həyata keçirilməsinə şərait yaratmışdır. Bu gün mətbuatın maddi-texniki bazasının möhkəmləndirilməsi,

müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin stimullaşdırılması, dövlət orqanları ilə mətbuat arasında səmərəli əməkdaşlığın inkişafı, jurnalistlərin peşəkarlığının və məsuliyyətinin artmasına daha münbit şəraitin yaradılması, onların sosial müdafiəsinin gücləndirilməsi Azərbaycan dövləti və cəmiyyətinin qarşısında duran mühüm vəzifələrdir.

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında, demokratikləşmə və müasir vətəndaş cəmiyyəti quruculuğunda milli mətbuatın rolunu nəzərə alaraq qərara alıram:

1. Azərbaycan milli mətbuatının 135 illik yubileyi ölkəmizdə geniş qeyd olunsun.

2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına tapşırılsın:

2.1. Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu və Azərbaycan Mətbuat Şurası ilə birlikdə Bakı şəhərində və respublikanın bölgələrində yubiley tədbirlərinin keçirilməsini təmin etsin;

2.2. Bir ay müddətində jurnalist təşkilatlarının və redaksiyaların təklifləri əsasında Azərbaycan milli mətbuatının inkişafında xüsusi xidmətləri olan jurnalistlərin mükafatlandırılması haqqında təklifləri Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*10 iyun 2010-cu il*

# Azərbaycan Milli Mətbuatının 140 illik yubileyinin keçirilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2015-ci ildə Azərbaycan milli mətbuatının yaranmasının 140 ili tamam olur. XIX əsrin ortalarında ölkəmizdə gedən siyasi, iqtisadi və mədəni proseslər maarifçilik hərəkatının inkişafına, ictimai fikrin yeni ifadə vasitəsi olan mətbuatın meydana gəlməsinə şərait yaratmışdır. 1875-ci il iyulun 22-də görkəmli ziyalı, publisist, təbiətşünas alim Həsən bəy Zərdabi tərəfindən Azərbaycan dilində nəşr olunmağa başlamış "Əkinçi" qəzeti milli mətbuatımızın ilk nümunəsi kimi öz adını tarixə yazmışdır. Qəzet dövrün qabaqcıl ideyalarını təbliğ etmiş, insanları dini mövhumata və cəhalətə qarşı mübarizəyə çağırmış, ictimai-siyasi və bədii düşüncənin inkişafına güclü təsir göstərmişdir. "Əkinçi"nin bəyan etdiyi prinsipləri rəhbər tutan və onun ənənələrini davam etdirən Azərbaycan mətbuatı sonrakı illərdə dövrün mütərəqqi fikirlərini əks etdirmiş, cəmiyyəti düşündürən məsələləri ictimai müzakirəyə çıxarmış, milli mənəvi dəyərlərin təbliğində, insanların maariflənməsi və milli şüurun formalaşmasında, xalqımızın müstəqillik arzularının gerçəkləşməsində mühüm rol oynamışdır.

Ötən yüzilliyin sonlarında Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra cəmiyyət həyatının bütün sahələrində olduğu kimi, milli mətbuatın inkişafında da əsaslı dönüş yaranmışdır. 1993-cü ildə yenidən hakimiyyətə qayıtmış ümummilli lider Heydər Əliyev demokratik inkişafı, vətəndaş cəmiyyəti quruculuğunu dövlət siyasətinin başlıca istiqaməti kimi müəyyən edərək, söz və məlumat azadlığını məhdudlaşdıran süni maneələri, o cümlədən senzuranı aradan qaldırmış, kütləvi informasiya vasitələrinin fəaliyyətini tənzimləyən mükəmməl qanunvericilik bazasının formalaşdırılması, redaksiyaların maddi-texniki bazasının gücləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirmiş,

mətbuatın kəmiyyət və keyfiyyət göstəricilərinin yüksəlməsinə şərait yaratmışdır. Azərbaycan milli jurnalistikası həmin dövrdən başlayaraq yeni inkişaf mərhələsinə qədəm qoymuşdur.

Hazırda Azərbaycanda 200-dən artıq qəzet, 100-ə yaxın jurnal, 50-dən çox televiziya və radio kanalı, onlarla mətbuat yayımı şirkəti və jurnalist təşkilatı fəaliyyət göstərir. İnternetin sürətli inkişafı çoxsaylı informasiya resurslarının yaranmasına səbəb olmuş, ölkə əhalisi arasında internet yayımı 75 faizə çatmış, sosial şəbəkə istifadəçilərinin sayı 2 milyona yaxınlaşmışdır. 2008-ci ildə təsdiq olunmuş "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası"na uyğun olaraq milli mətbuatın müstəqilliyinin dəstəklənməsi, redaksiyalara yardım mexanizminin təkmilləşdirilməsi, müasir texnologiyaların tətbiqi, cəmiyyət və mətbuat arasında səmərəli əməkdaşlığın gücləndirilməsi, jurnalistlərin peşəkarlığının və məsuliyyətinin artırılması, sosial təminatının yaxşılaşdırılması və əməyinin qiymətləndirilməsi istiqamətində ardıcıl tədbirlər davam etdirilir.

Bu gün müstəqillik yolu ilə inamla irəliləyən və hərtərəfli inkişaf edən Azərbaycan Respublikası regionun siyasi, iqtisadi və humanitar mərkəzi statusunu qazanaraq beynəlxalq münasibətlər sistemində öz layiqli yerini tutmuşdur. Mövcud inkişaf dinamikası Azərbaycanın milli informasiya resurslarından da yan keçməmiş, onların ümumdünya informasiya şəbəkəsindəki çəkisini artırmış, rəqabət qabiliyyətini yüksəltmişdir. Qlobal informasiya məkanının gündən-günə genişləndiyi, beynəlxalq təbliğat fəaliyyətinin ayrı-ayrı ölkələrin imicinə, daxili həyatına ciddi təsir göstərdiyi müasir dövrdə kütləvi informasiya vasitələrimiz daha peşəkar, obyektiv və prinsipial olmalı, yüksək milli şüur və vətənpərvərlik nümayiş etdirərək Azərbaycanın dövlətçilik maraqlarını hər şeydən uca tutmalıdırlar. Mətbuatımız ölkəmizdə müasir cəmiyyət quruculuğu, milli həmrəyliyin və tolerantlığın möhkəmləndirilməsi, siyasi mədəniyyətin inkişaf etdirilməsi, mənəvi-əxlaqi dəyərlərin qorunub saxlanması və təbliğində üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməlidir.

Azərbaycan milli mətbuatının ölkəmizin ictimai-siyasi və mədəni həyatındakı yerini, vətəndaş cəmiyyətinin inkişafı, milli mənəvi də-yərlərin təbliği, gənc nəslin vətənpərvərlik tərbiyəsi sahəsindəki rolunu nəzərə alaraq və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Azərbaycan milli mətbuatının 140 illik yubileyi Azərbaycan Res-publikasında geniş qeyd olunsun.

2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına tap-şırılsın ki:

2.1. Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnfor-masiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu və Azərbaycan Mətbuat Şurası ilə birlikdə Bakı şəhərində və respublikanın bölgə-lərində yubiley tədbirlərinin keçirilməsini təmin etsin;

2.2. Jurnalist təşkilatlarının və redaksiyaların təklifləri əsasında Azərbaycan milli mətbuatının inkişafında xidmətləri olan jurnalistlərin mükafatlandırılması haqqında təklifləri bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*2 iyun 2015-ci il*

## Azərbaycan Milli Mətbuatının 145 illik yubileyinin keçirilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

145 il əvvəl – 1875-ci il iyulun 22-də görkəmli ziyalı və maarifçi-publisist Həsən bəy Zərdabi tərəfindən Azərbaycan dilində nəşr olunmağa başlamış "Əkinçi" qəzeti milli mətbuatımızın ilk nümunəsi və həmin dövr Azərbaycanın ictimai-siyasi həyatının mühüm hadisəsi kimi tarixə düşmüşdür. Sonrakı illərdə çoxsaylı nəşrlərlə zənginləşən milli mətbuatımız Azərbaycan ədəbi dilinin və maarifçilik hərəkatının inkişafına əhəmiyyətli töhfələr vermiş, milli özünüdərk və istiqlal məfkurəsinin formalaşmasında, qabaqcıl ideyaların təbliğində böyük xidmətlər göstərmişdir.

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra mətbuatımız yeni inkişaf mərhələsinə qədəm qoymuş, öz fəaliyyəti ilə müstəqil dövlət quruculuğu prosesinin fəal iştirakçısına çevrilmiş, istiqlal ideyalarının yayılmasında, habelə milli-mənəvi dəyərlərin qorunub saxlanması və təbliğində mühüm rol oynamışdır.

Ötən əsrin 90-cı illərində dövlət müstəqilliyini bərpa edən Azərbaycanda müasir kütləvi informasiya vasitələrinin formalaşması və inkişafı üçün geniş imkanlar yaranmışdır. 1993-cü ildən başlayaraq ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən və cəmiyyət həyatının bütün sahələrini əhatə edən köklü islahatlar nəticəsində ölkədə senzura, söz və məlumat azadlığını məhdudlaşdıran digər süni maneələr aradan qaldırılmış, medianın fəaliyyətini tənzimləyən mütərəqqi qanunvericilik bazası yaradılmış, onun problemlərinin həlli, iqtisadi müstəqilliyinin gücləndirilməsi, vətəndaş cəmiyyəti quruculuğunda rolunun yüksəldilməsi məqsədilə ardıcıl tədbirlər görülmüşdür.

Hazırda həyata keçirilən sistemli islahatlar, şəffaflıq və vətəndaş məmnunluğu prinsiplərinə əsaslanan sosial innovasiyaların tətbiqi, idarəetmə sahəsində baş verən keyfiyyət dəyişiklikləri, ictimai nəzarət və siyasi dialoq mühitinin genişləndirilməsi dinamik inkişaf edən Azərbaycanda müasir dövlət quruculuğunun başlıca istiqamətlərini təşkil edir.

Ölkəmizdə müstəqil, güclü, fəaliyyətini günümüzün tələbləri səviyyəsində qurmağı bacaran, habelə dövlətçilik ənənələrinə bağlı və xalqımızın milli maraqlarını rəhbər tutan medianın inkişafı prioritet vəzifələrdən biri kimi daim diqqət mərkəzində saxlanılır. Bununla belə, kütləvi informasiya vasitələri də ölkəmizdə həyata keçirilən köklü islahatlardan kənarda qalmamalı, kommunikasiya texnologiyalarının sürətlə inkişaf etdiyi hazırkı dövrdə qlobal informasiya mühitinin müəyyənləşdirdiyi fəaliyyət prinsiplərinə uyğunlaşmalı, cəmiyyətimizin obyektiv və peşəkar şəkildə məlumatlandırılması sahəsində öz səylərini daha da gücləndirməlidir. Modernləşmə, rasionallıq, obyektivlik, kreativlik, qabaqcıl texnologiyaların geniş tətbiqi, aparıcı trendlərin izlənilməsi medianın inkişafını şərtləndirən başlıca amillər olmalıdır.

Azərbaycan Respublikasında milli mətbuat ənənələrinin qorunması və təbliğ edilməsi məqsədilə, kütləvi informasiya vasitələrinin ölkəmizin ictimai-siyasi həyatındakı yerini və müasir cəmiyyət quruculuğu prosesində rolunu nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Azərbaycan milli mətbuatının 145 illik yubileyi ölkəmizdə geniş qeyd olunsun.

2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına tapşırılsın:

2.1. koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar Azərbaycan Respublikasının ərazisində tətbiq edilən xüsusi karantin rejiminin tələbləri və Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Operativ Qərargahın tövsiyələri nəzərə alınmaqla yubiley tədbirlərinin keçirilməsini təmin etsin;

2.2. jurnalist təşkilatlarının və redaksiyaların təklifləri əsasında Azərbaycan milli mətbuatının inkişafında xüsusi xidmətləri olan jurnalistlərin mükafatlandırılması haqqında təklifləri bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*30 iyun 2020-ci il*

## Prezident Heydər Əliyevin "Jurnalistlərin dostu" mükafatının təqdimolunma mərasimində nitqindən

Bu mənim üçün qeyri-adi bir hadisədir. İlk dəfə olaraq, mən jurnalistlərin, nəhayət, xoşuna gəlmişəm və onlar məni mükafatlandırıblar. Mənə 2001-ci ildə Azərbaycanda "Jurnalistlərin dostu" mükafatı verdiklərinə görə "RUH" Jurnalistləri Müdafiə Komitəsinə, onun rəhbərliyinə təşəkkürümü bildirirəm. Əmin edirəm ki, mən keçmişdə olduğu kimi, bu gün də o jurnalistlərin dostuyam və həmişə jurnalistlərin dostu olacağam.

Mənə məlumat verəndə ki, jurnalistlər məni 2001-ci ildə "Jurnalistlərin dostu" kimi qiymətləndiriblər, buna inanmadım. Sonra araşdırmağa başladım ki, bu dost nə deməkdir. Dedilər ki, Siz indi dostsunuz. Dedim, Allaha şükür olsun ki, nəhayət dost olduq. Ancaq jurnalistlər də bilirlər ki, – burada artıq deyildi – , Azərbaycanda mətbuat azadlığı, mətbuat son illər nə qədər çox inkişaf edibdir.

Mən təxminən 5 – 6 il bundan əvvəlki dövrü xatırlayıram. Senzura var idi. Elə bizim dövrümüzdə. İndi mən dost olmuşam, mənim dövrümdə. Amma senzura məndən qabaq da var idi. Senzura var idi, qəzetləri yoxlayırdılar. Hansı məqalə senzorun xoşuna gəlmirdisə, onu çıxardırdı. Qəzetlər də sonra mübarizəyə başladılar, etiraz əlaməti olaraq səhifələri ağ-ağ buraxdılar. Bunlar hamısı bizim xatirimizdədir. Ancaq biz senzuranı ləğv etdik, Konstitusiya ilə təsbit olunmuş söz azadlığını, mətbuat azadlığını tamamilə təmin etdik, mətbuata geniş imkanlar yaratdıq. Mətbuat Azərbaycanda həqiqətən çox sərbəstdir, çox azaddır. Bu da o deməkdir ki, söz azaddır, fikir azaddır.

Burada qeyd olundu ki, keçən ildə bəzi qəzetlər bağlanıb, bəzi jurnalistlər təqib olunub, jurnalistlərə qarşı başqa qanunsuz hərəkətlər edilibdir. Ola bilər bu, belədir. Ancaq biz çalışırdıq bunlara son qoyaq. Ona görə də xatirinizdədir ki, mən jurnalistləri dəvət etdim, onlarlarla çox mehriban söhbət etdik. Ondan sonra da qanuna dəyişikliklər

etdik, mən fərman verdim və nə mümkündürsə etdik ki, azad mətbuat yaşaya bilsin, inkişaf edə bilsin və Azərbaycanda mətbuat həmişə azad olsun. Baxmayaraq ki, bu azad mətbuatın səhifələrində iqtidara qarşı böhtanlar da var, yalanlar da var, hətta bəzən biz təhqir halları ilə də rastlaşırıq - bunlar var.

Bizim iqtidar nümayəndələri bəzən çox narahat olurlar. Loru dildə desək, qızışırlar ki, məni ləkələdilər, şərəf və ləyaqətimi ləkələdilər və sair. Buna görə də belə insanlar bir vaxt imkanlardan istifadə edirdilər, məhkəməyə müraciət edirdilər, məhkəmələr qərar çıxarırdı. Təbii ki, qərarlar ədalətli idi. Bu da mətbuata çox zərər verirdi. Biz bunların da qarşısını aldıq. İndi görürsünüz, heç kəs mətbuatı məhkəməyə vermir.

Biz mətbuat üçün bütün yardımları etmişik və lazım olsa, bundan sonra da edəcəyik. Mən indi buraya gələndə Gündüz Tahirli bir məktub verdi ki, qəzetlərə, mətbuata kreditlər üçün kömək etmək lazımdır. Bilmirəm, indi kreditləri hər adam ala bilər. Yəqin ki, hansısa bir güzəştli kredit almaq istəyirlər, ona görə mənə müraciət edirlər. Ona da baxacağam, indi imkan dairəsində o xahişin də yerinə yetirilməsinə çalışacağam.

Bəzən jurnalist haradasa hansısa faktı eşidir, oturub yazır və bir az da ona öz fikirlərini əlavə edir. Amma bu faktı araşdıranda, müəyyən adamlarla görüşəndə aydın olur ki, məsələ belə deyil, başqa cürdür. Ona görə də mən istəyirəm ki, jurnalistlərlə bizim dostluğumuz daimi olsun. Bilin, mən jurnalistləri həmişə sevmişəm.

Jurnalistika çətin sənətdir. Bunu etiraf etmək lazımdır, asan sənət deyildir. Başqa bir yerdə, başqa bir peşə sahibi gəlib öz işində oturub işləyir, müəyyən saat qurtarandan sonra evinə gedir. Elmlə məşğul olur, ya istehsalatda işləyir, yaxud ticarətdə işləyir, yaxud da biznesdə işləyir, fərqi yoxdur. Amma jurnalistin iş yeri yoxdur.

Biz həmişə arzu edirik ki, jurnalistlər obyektiv olsunlar. Mən düşünmürəm ki, jurnalistlər qəsdən qeyri-obyektivliyə yol verirlər. Ancaq onların sənəti belədir, gərək elə bir şey yazsınlar ki, oxucular

üçün maraqlı olsun. Kəskin, sensasiyalı yazılar olmasa, oxucular üçün maraqlı olmur, qəzetlər alınmır və sairə və sairə. Siz bunları məndən yaxşı bilirsiniz. Mən bu barədə fikrimi genişləndirmək istəmirəm. Biz bunları nəzərə almalıyıq. Amma jurnalistlər də hücum obyektləri ki var, yaxud kəskin tənqid edirlər, gərək onların vəziyyətini nəzərə alsınlar. Əgər hər iki tərəf bir-birini nəzərə ala bilsə, hesab edirəm ki, bizim cəmiyyətdə jurnalistlərlə bütün insanların dostluğu təmin olunacaqdır.

Hər halda, mən sizi bir daha əmin etmək istəyirəm ki, bugünkü mükafatı yüksək qiymətləndirirəm və calışacağam ki, həmişə jurnalistlərin dostu olam. Bundan sonra da jurnalistlərə əlimdən gələn yardımı edəcəyəm. Jurnalistlərə də öz arzularımı, öz istəklərimi bildirdim. Mən bir daha sizə təşəkkür edirəm. Bütün Azərbaycan jurnalistlərinə cansağlığı, işlərində yeni-yeni uğurlar arzu edirəm. Sağ olun.

*2 mart 2002-ci il*

## Prezident İlham Əliyevin birinci dəfə “Jurnalistlərin dostu” mükafatının təqdim olunması mərasimində nitqindən

İlk öncə mən sizin hamınızı ürəkdən salamlayıram, sizə və bütün Azərbaycan xalqına qarşıdan gələn 2011-ci ildə uğurlar, xoşbəxtlik, cansağlığı arzulayıram. Bu gün mənim həyatımda çox əlamətdar bir gündür. Mən bu yüksək mükafata layiq görülmüşəm. İstəyirəm ki, bu kürsüdən bu mükafatı mənə verən, məni bu mükafata layiq görən bütün insanları salamlayım, onlara dərin minnətdarlığımı bildirim və sizi əmin edim ki, bundan sonra da mən öz fəaliyyətimdə çalışacağam ki, Azərbaycanda azad mətbuatın, müstəqil mətbuatın inkişafı üçün səylərimi davam etdirəm, Azərbaycanda bütün demokratik islahatların aparılmasında daha da fəal olam və beləliklə, biz ölkəmizin hərtərəfli inkişafını təmin edə bilək.

Azərbaycanda mətbuat azadlığı, söz azadlığı vardır. Azərbaycanda azad mətbuatın tarixi o qədər də böyük deyildir. Azərbaycanda müstəqil mətbuat Sovet İttifaqının son illərinə təsadüf edir, ilk qəzetlər, müstəqil qəzetlər o vaxt yaranmışdır. Müstəqillik əldə olunandan sonra, əlbəttə ki, azad mətbuatın formalaşması daha da sürətlə getmişdir. Ancaq mən hesab edirəm ki, – bu gün burada artıq qeyd olundu,- bu sahədə əsaslı dönüş 1998-ci ildə baş vermişdir. Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanda senzuranın ləğvi sözün əsl mənasında azad, müstəqil mətbuatın formalaşması, yaranması üçün həlledici rol oynamışdır. Bildiyiniz kimi, ondan sonrakı dövrdə – 2000-ci ildə Mətbuat və İnformasiya Nazirliyi ləğv edilmişdir, 2003-cü ildə Mətbuat Şurası yaradılmışdır. Yəni, bu proseslər onu göstərir ki, Azərbaycan dövlətinin və Azərbaycan iqtidarının niyyəti həmişə birmənalı olmuşdur.

Biz müasir, açıq, demokratik dövlət qururuq. Əlbəttə ki, belə olan halda ictimai nəzarət daha da güclü olmalıdır. İctimai nəzarət azad mətbuatsız mümkün deyildir. Bizim iqtisadi islahatlarımız siyasi islahatlarla tamamlanır. Bu istiqamətdə böyük addımlar atılır. Mən dəfələrlə bunu qeyd etmişəm, bir daha demək istəyirəm və tam əminəm

ki, demokratikləşmə prosesi getmədən, siyasi islahatlar aparılmadan biz uzunmüddətli, dayanıqlı iqtisadi inkişafa nail ola bilmərik. İqtisadiyyatımız artıq çoxşaxəli iqtisadiyyatdır, zəngin təbii resurslarımız vardır, Azərbaycan iqtisadi sahədə tam şəkildə özünü təmin edir.

Demokratiyanın inkişafı istiqamətində mətbuat azadlığının xüsusi rolu vardır. Burada əyləşənlərin əksəriyyəti jurnalistlərdir. Əminəm ki, siz bunu hamıdan yaxşı bilirsiniz. Bayaq qeyd etdiyim kimi, Azərbaycanda azad mətbuatın tarixi o qədər də böyük deyildir, hesab edirəm ki, qısa müddət ərzində – 20 il ərzində Azərbaycanda güclü, müstəqil mətbuat formalaşıbdır.

İnformasiya mübarizəsi indiki şəraitdə hesab edirəm ki, prioritet məsələlərdən biridir. Biz internet və qloballaşma dövründə yaşayırıq və bütün müasir imkanlardan maksimum dərəcədə istifadə etməliyik. Qeyd etməliyəm ki, Azərbaycana qarşı böhtan kampaniyasının da əsas səbəbi ondan ibarətdir ki, ölkəmiz müstəqil siyasət aparır, heç kimin qarşısında baş əymir, heç kimin sözü ilə oturub-durmur, Azərbaycan xalqının maraqlarını hər şeydən üstün tutur.

Mən jurnalistlərin işini yüksək qiymətləndirirəm. Bu, çox çətin işdir. Bu işdə bəzən jurnalistlər haqsızlıqlarla, təzyiqlərlə üzləşirlər. Biz bunu da bilirik. Ona görə jurnalistlərin sosial müdafiəsi, məişət problemləri həllini tapmalıdır. Bu il imzaladığım sərəncam və Prezidentin Ehtiyat Fondundan ayrılmış vəsait, sadəcə, olaraq birinci addımdır. Mən bu gün demək istəyirəm ki, bununla biz işimizi bitmiş hesab etmirik. Gələcəkdə buna bənzər addımlar atılacaq və yenə də deyirəm, tamamilə təmənnasız atılacaqdır.

Əziz dostlar, mənə verilən mükafata görə bu qərarın qəbul olunmasında iştirak etmiş bütün insanlara bir daha minnətdarlığımı bildirmək istəyirəm. Sizi əmin etmək istəyirəm ki, mən bu adı – jurnalistlərin dostu adını yüksək qiymətləndirirəm. Mən çalışacağam ki, bu ada layiq olum və bundan sonra da Azərbaycan xalqına sədaqətlə və ləyaqətlə xidmət edim.

*29 dekabr 2010-cu il*

## Prezident İlham Əliyevin ikinci dəfə “Jurnalistlərin dostu” mükafatının təqdimolunma mərasimində nitqindən

İlk növbədə yenidən məni “Jurnalistlərin dostu” mükafatına layiq gördüyünüz üçün sizə minnətdaram. Doğrudan da, mənim üçün böyük şərəfdir ki, ikinci dəfə bu ada layiq görülürəm. Çalışacağam ki, bundan sonra da “Jurnalistlərin dostu” kimi Azərbaycanda azad mətbuatın inkişafı üçün səylərimi əsirgəməyim.

Bu mükafatın verilməsi böyük məna daşıyır. Çünki ölkə Prezidentini “Jurnalistlərin dostu” adına sizin tərəfdən layiq görməyiniz, əlbəttə ki, Azərbaycanda azad mətbuatın inkişafında görülən işlərə işarə vurur. Mən bundan sonra da çalışacağam ki, Prezident kimi Azərbaycanda azad medianın inkişafı üçün dəstəyimi verim və beləliklə, ölkəmizin sürətli və uğurlu inkişafını təmin edim. Çünki müasir dünyada inkişaf etmiş ölkələrdə azad medianın səviyyəsi hər bir ölkənin səviyyəsini göstərir. Azərbaycanın qarşısında isə belə məqsəd qoyulub ki, Azərbaycan gələcəkdə inkişaf etmiş ölkələrin sırasına daxil edilsin. Belə olan halda Azərbaycanda media ilə bağlı məsələlər ən yüksək səviyyədə öz həllini tapmalıdır.

Bildiyiniz kimi, Azərbaycanda azad jurnalistikanın yaradılması prosesi 1980-ci illərin sonlarına təsadüf edir. Ondan sonra 1990-cı illərin əvvəllərində bu prosesə daha da böyük təkan verilmişdir. Ancaq sirr deyil ki, 1998-ci ilə qədər Azərbaycanda mediada olan senzura imkan vermirdi ki, mətbu orqanlar tam şəkildə azad və sərbəst fəaliyyət göstərsin.

1998-ci ildə ulu öndər Heydər Əliyevin qərarı ilə senzuranın ləğv edilməsi bu sahədə də dönüş yaratdı, bu sahədə də Azərbaycanın siyasətini əks etdirdi. Çünki 1990-cı illərin ortalarından başlayaraq Azərbaycanın inkişaf konsepsiyası icra edilir. Bu konsepsiyanın əsas istiqamətləri bu gün artıq reallıqdır.

Demokratik cəmiyyətin qurulması işində azad medianın xüsusi rolu vardır. Bu salonda əyləşən jurnalistlər, media nümayəndələri, media rəhbərləri o insanlardılar ki, Azərbaycanda azad medianın yaradılmasında xüsusi rol oynamışlar və bu gün də öz fəaliyyətlərini davam etdirirlər. Deyə bilərəm ki, bu gün bu salonda Azərbaycanda medianın inkişafı ilə bağlı istiqamətverici qurumların nümayəndələri iştirak edirlər.

Azərbaycanda söz azadlığı, mətbuat azadlığı, siyasi fəaliyyət azadlığı, sərbəst toplaşmaq azadlığı, vicdan azadlığı təmin edilib. Hesab edirəm ki, bizim gündəlik həyatımız dediklərimi təsdiq edir. Azərbaycan o ölkələrdəndir ki, azad internet mövcuddur və internet istifadəçilərinin sayı 70 faizdən çoxdur. Heç bir məhdudiyyət yoxdur. Yüzlərlə mətbuat orqanı fəaliyyət göstərir. Bir sözlə, medianın inkişafı ilə bağlı dövlət tərəfindən yalnız dəstək göstərilir. Siz də qeyd etdiyiniz kimi, bəzi məsələlərdə, xüsusilə, media nümayəndələrinin məişət problemlərinin həlli işində Azərbaycan ön yerlərdədir.

XXI əsr informasiya mübarizəsi əsridir. İnternetin mövcudluğu, əlbəttə ki, bu mübarizəni daha da kəskinləşdirir. Biz buna hazır olmalıyıq, biz öz reallıqlarımızı dünya birliyinə çatdırmalıyıq. Burada əlbəttə ki, əsas vəzifəni, ilk növbədə, dövlət öz üzərinə götürür. Ancaq media nümayəndələri də çalışmalıdırlar ki, xüsusilə Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ədalətli mövqeyimizi dünya birliyinə çatdırsınlar. Müxtəlif dillərdə internet resursları yaradılmalıdır.

Biz ahıl jurnalistlərin vəziyyəti ilə bağlı qaldırılan məsələyə də baxa, dövlət dəstəyini göstərə bilərik. Bu hansı formada ola bilər, onu siz müəyyən edin. Biz buna mütləq baxmalıyıq. Çünki Azərbaycanda, ümumiyyətlə, hər bir sahədə xidmət göstərmiş, böyük işlər görmüş veteranlara çox böyük diqqət göstərilir. Bu, belə də olmalıdır. Bu, bizim cəmiyyətimizin əsaslarını təşkil edir.

Azad internet olan halda heç bir məhdudiyyətdən söhbət gedə bilməz. Əgər kimsə qəzet satışını qadağan edirsə, yaxud da ki, məhdudiyyət qoyursa, bu, dözülməzdir. Buna yol vermək olmaz.

Media məsələlərinin, digər məsələlərin həlli ilə bağlı Azərbaycanda heç bir ayrı-seçkilik yoxdur, ola bilməz.

Gələcəkdə, əgər bundan sonra da mən mediaya dəstəyimi verəcəyəmsə və bunu artıracağamsa istisna edilmir ki, siz məni üçüncü dəfə "Jurnalistlərin dostu" seçəcəksiniz. Bir daha bu mükafata görə sizə minnətdaram.

*24 noyabr 2013-cü il*

## President İlham Əliyevin jurnalistlər üçün tikilmiş ikinci binada Milli Mətbuat Günü münasibətilə mənzillərin paylanması mərasimində nitqindən

Qarşıdan jurnalistlərin peşə bayramı gəlir. Bu münasibətlə bütün Azərbaycan jurnalistlərini ürəkdən təbrik edirəm, onlara yeni uğurlar arzulayıram. Bu gözəl peşə bayramı ərəfəsində biz jurnalistlər üçün tikilmiş yaşayış binasının açılışına toplaşmışıq. Bu, sayca ikinci binadır. Birinci binada artıq neçə ildir ki, jurnalistlər yaşayır. Biz indi də ikinci binanın açılışını qeyd edəcəyik. Birinci binada 156, ikinci binada isə 255 mənzil var və eyni zamanda, bu gün biz üçüncü binanın təməlini qoyacağıq. Üçüncü binada da 255 mənzil nəzərdə tutulur. Beləliklə, qısa müddət ərzində yüzlərlə jurnalistə dövlət tərəfindən mənzil verilir. Bu, dövlət tərəfindən Azərbaycan jurnalistikasına göstərilən növbəti diqqətin təzahürüdür.

Azərbaycan jurnalistikası inkişaf edir və cəmiyyətdə çox müsbət rol oynayır. Azərbaycanda bütün azadlıqlar təmin olunur, o cümlədən söz azadlığı və siz jurnalistlər bunu yaxşı bilirsiniz. Azərbaycanda minlərlə mətbuat orqanı var ki, qeydiyyatdan keçib sərbəst fəaliyyət göstərir. Bu gün Azərbaycan jurnalistikası cəmiyyəti narahat edən problemləri üzə çıxarır, çox dəyərli təhlillər aparır və ümumiyyətlə, ölkəmizin inkişafında çox müsbət rol oynayır.

Mən həmişə çalışmışam və çalışıram ki, jurnalistlərə öz dəstəyimi göstərim. Mənim jurnalistlərlə çoxsaylı görüşlərim, səmimi söhbətlərim bunu göstərir. Xüsusilə jurnalistlər üçün binaların tikilməsi də bu siyasətin bir təzahürüdür. Bu təşəbbüs bir neçə il bundan əvvəl irəli sürülmüşdü, jurnalistlər belə məsələ qaldırmışdılar, mən də buna müsbət reaksiya verdim və nəticə etibarilə artıq biz burada ikinci binanın açılışını qeyd edirik.

Xatırlayıram, 4 il bundan əvvəl birinci binanın açılışında mən demişdim ki, yəqin, gələcəkdə bu əraziyə "Jurnalistlər şəhərciyi" deyi-

ləcək və bu, belə də oldu. Artıq bu gözəl yer "Jurnalistlər şəhərciyi"dir, burada üçüncü bina da tikiləcək. Əlbəttə ki, biz jurnalistlərin məişət problemlərinin həlli üçün gələcəkdə əlavə tədbirlər görəcəyik. Mənə deyiblər ki, burada yeni yola ehtiyac var. Çünki indi yol bir tərəfdən çəkilibdir, ona görə müvafiq göstəriş verilibdir ki, hər iki tərəfə çıxış olsun, insanlar burada daha da rahat yaşasınlar.

Mən tam əminəm ki, hər bir ölkənin inkişafı üçün demokratiya xüsusi rol oynayır. Ölkə iqtisadi cəhətdən zəngin ola bilər, təbii resurslarla zəngin ola bilər, amma əgər cəmiyyətdə gözəl ab-hava, azadlıqlar yoxdursa, bu inkişaf yarımçıq ola bilər və ya dayanıqlı olmaya bilər. Bizim üstünlüyümüz ondan ibarətdir ki, siyasi və iqtisadi islahatları paralel şəkildə aparırıq. Bu da hesab edirəm ki, çox düzgün və düşünülmüş siyasətdir. Çünki əgər demokratiya baxımından inkişaf etmiş ölkələrə nəzər salsaq görərik ki, onların mütləq əksəriyyəti iqtisadi cəhətdən də inkişaf etmiş ölkələrdir. Yəni, maddi rifah, iqtisadi inkişaf, sosial inkişaf demokratik inkişaf üçün əsas şərtdir.

Bu gün peşə bayramı ərəfəsində jurnalistikanın inkişafı ilə bağlı bəzi fikirlərimi bildirmək istərdim. Əlbəttə, hər bir ölkədə olduğu kimi, Azərbaycanda da jurnalistika həqiqəti əks etdirməlidir. Əlbəttə ki, jurnalistika mümkün qədər obyektiv olmalıdır. Çünki tam obyektivliyə nail olmaq çətindir. Hər bir insan istər-istəməz subyektivliyə də yol verir və jurnalistlər də istisna deyil. Ancaq jurnalistlərin üzərində çox böyük məsuliyyət var. Onların sözü incidə də, problem yarada da, yaxud da ki, məsələni həll edə bilər. Ona görə xahiş edirəm ki, jurnalistikada məsuliyyət məsələlərinə daha da böyük diqqət göstərilsin.

Son illərdə mən görürəm ki, Azərbaycan jurnalistikası bu istiqamətdə daha da məsuliyyətli, daha da təmkinli olub. Artıq nadir hallarda hansısa məsuliyyətsiz məlumata, insanları alçaldan, ləyaqətini aşağılayan, təhqiredici yazılara rast gəlmək olar. Bu baxımdan bizim jurnalistlərimiz bəzi dırnaqarası siyasətçilərdən daha da öndədirlər. Hesab edirəm ki, jurnalistikamızda bu istiqamətdə müşahidə olunan islahatlar davam edəcək.

Digər məsələlərə gəldikdə, hesab edirəm ki, jurnalistikamız xarici təsirdən azad olmalıdır, xarici təsir altına düşməməlidir. Azərbaycan getdikcə daha da güclənir, Azərbaycanın rolu nəinki bölgədə, dünyada artır. Bölgədə bizim iştirakımız, razılığımız olmadan heç bir layihə, yaxud siyasi, iqtisadi və digər təşəbbüs reallaşa bilməz. Biz müstəqil siyasət aparırıq. Ona görə bizim siyasətimizə heç bir kənar qüvvə təsir edə bilməz.

Biz informasiya məkanımızı da qorumalıyıq. Bunu etmək çətindir. Çünki biz bu gün internet dövründə yaşayırıq. Hansısa hər bir yalan, böhtan, təxribat xarakterli məlumat dərhal özünə yer tapır. Ancaq milli jurnalistikamız, Azərbaycan jurnalistikası vətənpərvər olmalıdır, milli maraqlar hər şeydən üstün olmalıdır.

Bir sözlə, əziz dostlar, mən bu gün bu fürsətdən istifadə edərək, jurnalistikamızın inkişafı ilə bağlı bəzi fikirlərimi sizinlə bölüşmək istədim. Bir daha demək istəyirəm ki, Prezident kimi mən azad medianın inkişafı üçün bundan sonra da səylərimi əsirgəməyəcəyəm. Jurnalistlərin məişət problemlərinin həlli üçün də bundan sonra da biz öz addımlarımızı atacağıq. Çünki mən yaxşı başa düşürəm ki, jurnalist biznesmen, iş adamı deyil. Jurnalistika ilə məşğul olan insan üçün mənzil almaq o qədər də asan məsələ deyil və dövlət burada həmişə sizin yanınızdadır.

İkinci binanın tikintisinə dörd il vaxt gedib. Bu üçüncü binanı da biz maksimum üç ilə tikməliyik. Qaldı maliyyə vəsaitinə, burada heç bir problem olmayacaq ki, biz sizinlə tezliklə üçüncü binanın açılışında görüşək.

*20 iyul 2017-ci il*

# MÜNDƏRİCAT

**Ön söz**

Müstəqil Azərbaycan dövlətinin media quruculuğu salnaməsinin bələdçisi ..............5

**I.Demokratik cəmiyyət və söz azadlığı**..................................................11

Bir ürək yanırdı ........................................................................................13

Böyük yolun davamı...................................................................................27

Heydər Əliyev və Azərbaycanda demokratik medianın inkişafı ..........................43

Prezident İlham Əliyev və Azərbaycan dövlətinin media siyasəti.........................57

Prezident İlham Əliyev və postsovet məkanında müstəqil media quruculuğunun Azərbaycan modeli ...........................................................................................71

Media sahəsində islahatlar Azərbaycan jurnalistikasını çağdaş inkişaf yoluna çıxarır..........................................................................................75

Azərbaycan mediasının islahatların gerçəkləşməsinə informasiya dəstəyi ........78

Prezident İlham Əliyevin Vətən müharibəsi dövründə informasiya siyasəti .........83

Ali Baş Komandan İlham Əliyevin Qarabağ müharibəsinin informasiya cəbhəsində Zəfər savaşı......................................................................86

Azərbaycan rəhbərinin dünyaya örnək xalq sevgisi ......................................113

Azərbaycan qlobal səviyyədə pandemiya ilə mübarizədə öz səyini əsirgəməyib ......116

**II. Media azadlığı və sosial məsuliyyət** ........ 119

Mətbuat üzərindən nəzarətin götürülməsi demokratiyanın ən bariz göstəricisidir ..... 121

Azərbaycanda söz azadlığı Avropa Şurasının tələblərinə tam cavab verir ........ 130

Azərbaycan mətbuatı yeganə sahədir ki, Avropa Şurasından səs çoxluğu ilə müzakirəsiz keçib ........ 138

Fakt jurnalistikanın vicdanıdır ........ 141

Demokratik medianın təməl şərti: azad söz vicdan senzurasından keçməlidir ..... 146

İlham Əliyev Heydər Əliyev siyasi məktəbinin yetirməsi, Azərbaycanın demokratik inkişafının qarantıdır ........ 154

İlham Əliyev Azərbaycan cəmiyyətində milli birliyin təminatçısıdır ........ 163

Jurnalist Vətənini, vətəndaşını gözdən salacaq işlər görməməlidir ........ 168

Böyük siyasətin 50 ilinin mətbuata düşən işığı ........ 174

Sirrimizi düşmənə verməyək... ........ 179

Senzurasız epoxaya keçid azad sözün tarixi nailiyyətidir ........ 186

Ruhunuz şad olsun, ulu öndər ........ 194

**III.Dövlət media siyasəti** ........ 197

**KİV kollektivlərinə təbriklər** ........ 199

Azərbaycan Teleqraf Agentliyinin-AZƏRTAC-ın kollektivinə ........ 199

"Xalq qəzeti" redaksiyasının kollektivinə ........ 200

"Azərbaycan gəncləri" qəzetinin kollektivinə ........ 201

"Azərbaycan müəllimi" qəzetinin kollektivinə ........................................202

Jurnalistlərə, nəşriyyat-poliqrafiya işçilərinə ........................................203

"Gürcüstan" qəzetinin kollektivinə ....................................................204

"Azərbaycan" qəzetinin kollektivinə...................................................205

Azərbaycan Jurnalistlərinin I Qurultayının iştirakçılarına .........................207

Azərbaycan jurnalistlərinin VII qurultayının iştirakçılarına .......................209

**Azərbaycan Konstitusiyası, KİV haqqında qanun, fərman və sərəncamlar** ........................................211

AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYASI...........................................211

Azərbaycan Respublikasınında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında
Azərbaycan Respublikası Prezidentinin Fərmanı..................................................212

Kütləvi informasiya vasitələri haqqında
Azərbaycan Respublikasının Qanunu ..............................................................217

"Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası"nın təsdiq edilməsi haqqında
Azərbaycan Respublikası Prezidentinin Sərəncamı..............................................224

Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı .......................................226

Azərbaycanda Milli Mətbuatın yaradılmasının 125 illiyi haqqında
Azərbaycan Respublikası Prezidentinin Fərmanı..................................................231

Azərbaycan Milli Mətbuatının 130 illik yubileyinin keçirilməsi haqqında
Azərbaycan Respublikası Prezidentinin Sərəncamı..............................................237

Azərbaycan Milli Mətbuatının 135 illik yubileyinin keçirilməsi haqqında
Azərbaycan Respublikası Prezidentinin Sərəncamı..............................................240
Azərbaycan Milli Mətbuatının 140 illik yubileyinin keçirilməsi haqqında
Azərbaycan Respublikası Prezidentinin Sərəncamı..............................................243
Azərbaycan milli mətbuatının 145 illik yubileyinin keçirilməsi haqqında
Azərbaycan Respublikası Prezidentinin Sərəncamı..............................................246
Prezident Heydər Əliyevin "Jurnalistlərin dostu" mükafatının təqdimolunma mərasimində nitqindən ....................................................................248
Prezident İlham Əliyevin birinci dəfə"Jurnalistlərin dostu" mükafatının təqdim olunması mərasimində nitqindən..............................................251
Prezident İlham Əliyevin ikinci dəfə "Jurnalistlərin dostu" mükafatının təqdimolunma mərasimində nitqindən..............................................253
Prezident İlham Əliyevin jurnalistlər üçün tikilmiş ikinci binada Milli Mətbuat Günü münasibətilə mənzillərin paylanması mərasimində nitqindən ..........256

**Mədət Məmmədov**

(Məmmədov Mədət Əyyub oğlu)

# DÖVLƏT və DÖRDÜNCÜ HAKİMİYYƏT

Korrektor:
**Elçin Abbasov**

Çapa imzalanmışdır: 10.03.2021
Formatı: 60x90 1/16.
Həcmi: 16,5.
Sifariş: 58. Sayı:500

Kitab "ADİLOĞLU" nəşriyyatında
nəşrə hazırlanmış və ofset üsulu ilə çap edilmişdir.

Ünvan: Bakı şəh., Tbilisi pr.,3007-ci məhəllə, 44 C
Tel.: (050) 593 27 77, (055) 339 75 77
Web: www.adiloglu.az
E-mail: adiloglu2000@gmail.com